**TƏLƏBƏLƏR NAXÇIVAN MUXTAR RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİNDƏ TƏCRÜBƏDƏ OLUBLAR**
səhifə-4-də

**AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN AKADEMİKİ SUDEİF İMAMVERDİYEV NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ USTAD DƏRSİ KEÇİB**
səhifə-6-da

**ALMAN DİLÇİSİ VƏ AZAD BERLİN UNİVERSİTETİNİN FƏXRİ PROFESSORU EKKEHARD KÖNİGİN İŞTİRAKI İLƏ VEBİNAR KEÇİRİLİB**
səhifə-8-də

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ: YENİ İNKİŞAF MƏRHƏLƏSİ YARADICI İDEYALAR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQLAR**
səhifə-12-də

**ŞUŞADA "YETİŞƏN" XARIBÜLBÜLLƏR**
səhifə-19-da

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR

*HEYDƏR ƏLİYEV*



# YENİ FİKİR

TƏSİSÇİ: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

12 may 2022-ci il, №3 (45)

## NÜFUZLU NƏŞRLƏRDƏ MƏQALƏ SAYINA GÖRƏ FƏRQLƏNƏN UNİVERSİTET ƏMƏKDAŞLARI MÜKAFATLANDIRILIB

Naxçıvan Dövlət Universitetində 2021-ci il üzrə elmi fəaliyyətinə görə fərqlənən universitet əməkdaşlarının mükafatlandırılma mərasimi keçirilib. Tədbirdən öncə ali təhsil ocağının Beynəlxalq münasibətlər və hüquq fakültəsində professor-müəllim heyətinin elmi əsərlərinin sərgisinə baxış olub. Sərgidə beynəlxalq indeksli bazalarda və sahə indekslərində yer alan məqalələrin və nüfuzlu jurnalların üz qabığı nümayiş olunub.

Tədbirdə çıxış edən universitetin rektoru Elbrus İsayev qeyd edib ki, muxtar respublikada təhsilə xüsusi diqqət yetirilir, onun inkişafına yeni və innovativ metodlarla yanaşılır. Vurğulanıb ki, muxtar respublikada böyük potensiala malik olan təhsil mühiti yeni inkişaf mərhələsindədir. Bildirilib ki, universitetin beynəlxalq reytinq cədvəllərində öz layiqli yerini tutması üçün nüfuzlu jurnallarda, beynəlxalq elmi indeks bazalarında nəşrlərin olması ən ümdə vəzifələrimizdəndir. Elbrus İsayev beynəlxalq elm platformalarına çıxışlarla bağlı Clarivate Analytics şirkəti ilə keçirilən təlimlərin önəmini xüsusilə vurğulayıb. Nüfuzlu redaksiyalarda kitab nəşrinə nail olmaq məsələləri gələcək perspektivlər kimi önə çəkilib. Rektor universitet əməkdaşları adından təhsilə, elmi mühitə göstərilən xüsusi dövlət qayğısına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə xüsusi minnətdarlıq ifadə edib. Universitet kollektivinin bundan sonra da elmin uğurla təmsil



olunması üçün daha ciddi çalışacağına və göstərilən yüksək etimadı doğruldacağına əminlik ifadə olunub.

Universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru, dosent Seymur Talıbov universitetin günü-gündən yüksələn inkişaf dinamikasından danışaraq ali təhsil ocağının qazandığı uğurları Ali Məclis Sədrinin təhsilə, elmə göstərdiyi yüksək dövlət qayğısının xüsusi təzahürü kimi qiymətləndirib. Diqqətə çatdırılıb ki, professor-müəllim heyətinin qazandığı uğurlar onlara göstərilən yüksək etimadın bəhrəsidir. Vurğulanıb ki, universitetdə mövcud olan maddi-texniki baza, müasir tədris avadanlıqları, tədqiqatların aparılması üçün qurulan laboratoriyaların təşkili kollektivə imkan yaradır ki, onlar elmi fəaliyyətlə daha ciddi məşğul olsun və öz elmi nailiyyətləri ilə beynəlxalq elmi bazalarda tanınan, istinad olunan müəlliflərdən olsunlar. Seymur Talıbov qeyd edib ki, yaxın zamanda əməkdaşların Web of Science platformalarına daha asan çıxış etməsinə zəmin yaratmaq üçün universitetin həmin indeks bazasında qeydiyyatdan keçməsinə nail olunmaqla müəllimlərin beynəlxalq indeksli jurnallara birbaşa çıxışı təmin olunacaq. Prorektor universitet əməkdaşlarını qazandığı elmi uğurlar münasibətilə təbrik edib.

Elm və innovasiyalar bölməsinin müdiri, təhsilin idarəolunması, təftişi, planlaması və iqtisadiyyatı üzrə fəlsəfə doktoru Rza Məmmədov qeyd edib ki, inkişaf etmiş ölkələrin təcrübəsi sübut edir ki, fundamental tədqiqatlar aparılmayan ölkələrdə yüksək keyfiyyətə malik təhsil haqda danışmaq mümkünsüzdür. Universitetin elm strategiyası və 2021-ci il üzrə elmi fəaliyyətə dair hesabatını təqdim edən Rza Məmmədov bildirib ki, 2021-ci ildə 8-i Web of Science, 3-ü Scopus, 14-ü sahə indeksli olmaqla universitetin 66 əməkdaşının 74 elmi məqaləsi nəşr olunub. Bu statistikanı ötən illə müqayisə etdikdə 10 faiz artım müşahidə olunmaqdadır. Vurğulanıb ki, nəşr




olunan məqalələrin 60 faizi ingilis, 25 faizi rus, 8 faizi türk, 7 faizi isə Azərbaycan dilindədir. Bu məqalələr İngiltərə, Rusiya, Bolqarıstan, Hindistan, Ukrayna, Xorvatiya, Meksika, Peru, qardaş Türkiyə və Azərbaycan mərkəzli jurnallarda nəşr olunub.

Beynəlxalq münasibətlər və hüquq fakültəsinin dekanı, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Yusif Hüseynov nüfuzlu jurnallarda məqaləsi nəşr olunmuş əməkdaşlara universitet rəhbərliyinin diqqət və qayğısı mövzusunda çıxış edib. Çıxışda qeyd olunub ki, kollektiv bundan sonra da daha səy və inamla çalışacaq, göstərilən yüksək etimadı doğruldacaq.

Sonra Web of Science, Scopus indeks bazalarında məqalə nəşr etdirən və məqalələrinə istinad sayı çox olan müəlliflərə plaket və pul mükafatı təqdim olunub. Beynəlxalq elmi bazalarda məqalə nəşr etdirən digər müəllimlər isə təşəkkürnamə və pul mükafatı ilə təltif ediliblər.

## ALİ TƏHSİL MƏKANINDA İLK DƏFƏ NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ İELTS QEYDİYYAT VƏ İMTAHAN MƏRKƏZİ FƏALİYYƏTƏ BAŞLAYIB

Bu məqsədlə Britaniya Şurasının Azərbaycan Respublikası üzrə direktoru Fransis Qardener –Trexo Naxçıvan Dövlət Universitetində olub. Ali təhsil ocağının Diplomatiya kabinəsində keçirilən görüşdə çıxış edən universitetin rektoru Elbrus İsayev qonağı salamlayaraq artıq universitetdə ikinci dəfədir görməkdən məmnunluğunu ifadə edib. Rektor İELTS qeydiyyat və imtahan mərkəzinin fəaliyyətə başlamasını muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələri və ictimaiyyət üçün yaddaqalan hadisə kimi dəyərləndirib. Rəhbərlik etdiyi ali təhsil müəssisəsində başlanan bu ənənənin gələcəkdə digər ümumtəhsil məktəblərini də əhatə edəcəyinə inam ifadə olunub. Bildirilib ki, universitetdə əcnəbi tələbələrin sayca üstünlüyünü nəzərə alsaq digər regionlardan universitetə təhsil almaq üçün gələnlər də bu mərkəzdən faydalana bilərlər. Rektor universitetin elmi mühitində uğurlar əldə etmənin, professor-müəllim heyətinin nüfuzlu jurnallara çıxışının təmin olunmasında da mərkəzin fəaliyyətini xüsusilə önə



çəkib. Qeyd edilib ki, artıq universitetdə müəllim və tələbələr İELTS sertifikatı üzrə təlimlərə başlayıblar. Elbrus İsayev beynəlxalq akkreditasiya ilə bağlı məsələlərdə, bəzi ixtisasların beynəlxalq sertifikatlaşma məsələlərini universitetin gələcək hədəfi kimi qarşıya qoyub. Həmçinin diqqətə çatdırılıb ki, yaradılan mərkəzdə ilk dəfə olaraq universitetin İngilis dili müəllimləri və həmin ixtisas üzrə təhsil alan tələbələr imtahan verəcəklər. Rektor mərkəzin açılmasına verilən dəstəyə görə universitetin kollektivi adından öz təşəkkürünü bildirib.

Britaniya Şurasının Azərbaycan Respublikası üzrə direktoru Fransis Qardener –Trexo öz növbəsində universitetdə görüşməkdən şad olduğunu dilə gətirib. Qeyd edilib ki,regionlara əlçatanlığın təmin olunması mərkəzin ən böyük hədəflərindən biridir. Vurğulanıb ki, Naxçıvan Dövlət Universiteti ən böyük İELTS tərəfdaşımız olacaq. Bildirilib ki, Britaniya Şurasının 140-dan çox ölkədə mərkəzi fəaliyyət göstərməklə, 11000-dən artıq təhsil ocaqları ilə tərəfdaşlığı mövcuddur. İELTS-i təhsilin dünyaya qapısı adlandıran Fransis Qardener–Trexo ali təhsil ocağında mərkəzin açılmasını tələbələrin xaricdə təhsil almaları üçün gözəl fürsət olaraq dəyərləndirib. Həmçinin bildirilib ki, əslində mərkəz fəaliyyətə başlayanda qeydiyyat mərkəzi kimi işləsə də bu gün universitetdə açılan mərkəzin bir üstünlüyü də ondadır ki, bura həm qeydiyyat, həm də imtahan mərkəzi kimi fəaliyyət göstərəcək. Bu da mərkəzin gələcəkdə perspektivlərinin qiymətləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Görüşün sonunda birgə fəaliyyətə dair əməkdaşlıq müqaviləsi imzalanıb. Qonaq universitetin xatirə kitabına öz ürək sözlərini yazıb.



Qeyd edək ki, görüşdə universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru Seymur Talıbov da iştirak edib.

Sonra Xarici dillər fakültəsində İELTS qeydiyyat və imtahan mərkəzinin açılışında olublar. Elbrus İsayev bildirib ki, mərkəzin fəaliyyət göstərməsi üçün fakültədə iki otaq ayrılıb və kamera ilə təchiz edilib. Vurğulanıb ki, mərkəzin idarə olunmasına rəhbərlik universitetin Beynəlxalq Münasibətlər kafedrasının müəllimi Bayram Əliyevə həvalə olunub. Diqqətə çatdırılıb ki, Bayram müəllim Almaniya Siegen Universitetinin İsveçin Uppsala və Portuqaliyanın Koimbra Universitetləri ilə birgə apardığı Sosial Elmlər üzrə beynəlxalq magistr proqramını bitirib və hal-hazırda ali təhsil ocağında İELTS üzrə hazırlıq aparır.

Sonda Fransis Qardener -Trexo Xarici dillər fakültəsi Sinxron tərcümə mərkəzində müəllim və tələbələrlə görüşüb. Ölkələrimiz arasında beynəlxalq əlaqələr, təhsil sahəsində əməkdaşlıq haqda ətraflı məlumat verilib. Bu günkü görüşün gələcəkdə ali təhsil müəssisəsi üçün verəcəyi imkanlar haqda danışan qonaq öz fəaliyyəti haqda da tələbələrlə səmimi söhbət edib. Müəllim və tələbələrin suallarını cavablandıran Fransis Qardener –Trexo bu gün açılan mərkəzin gələcək fəaliyyət istiqamətinin uğurlu tərəflərini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN 99-CU İLDÖNÜMÜ NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ VƏ TÜRK AĞSAQQALLARI BİRLİYİNİN BİRGƏ TƏŞKİLATÇILIĞI İLƏ QEYD OLUNUB

Naxçıvan Dövlət Universiteti və Türk Ağsaqqalları Birliyinin birgə təşkilatçılığı ilə ali təhsil ocağında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş, "Heydər Əliyev və Türk dünyası" mövzusunda elmi-praktiki konfrans keçirilib. Universitetin İncəsənət fakültəsində Elmi Kitabxananın təşkilatçılığı ilə "Heydər Əliyev irsinin öyrənilməsi və təbliği" adlı sərgiyə baxış olub. Üç hissədən ibarət olan sərgidə Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Dövlət Universiteti professor-müəllim heyətinin müəllifi olduqları kitablar, monoqrafiyalar, elmi əsərlər, konfrans materialları nümayiş olunub. Ümummilli liderin əziz xatirəsinə ehtiram əlaməti olaraq sərgidə öz rəmzi mahiyyət etibarilə 99 sayda kitab və qəzet materialı yer alıb. Fakültənin sərgi salonunda İncəsənət fakültəsinin müəllim və tələbələrinin Ümummilli liderin əziz xatirəsinə həsr olunmuş rəngkarlıq, heykəltaraşlıq, tikmə, böyük stenddə güllərdən hazırlanmış portreti və imzası olmaqla ümumilikdə 50-yə yaxın əl işlərinin sərgisi nümayiş olunub.

Fakültənin akt zalında keçirilən tədbirdə Ümummilli lider Heydər Əliyevin və vətənimizin bütövlüyü uğrunda canından keçən şəhidlərin əziz xatirəsi yad edilib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Universitetin rektoru Elbrus İsayev konfrans iştirakçılarını salamlayıb, konfransın işinə uğurlar arzulayıb. Azərbaycanı bu günkü inkişaf səviyyəsinə çatdıran Ulu Öndərin 99-cu ildönümünün Naxçıvanda, hətta universitetdə qeyd olunması ümummilli liderin apardığı uğurlu təhsil strategiyası ilə əlaqələndirilib. Rektor Azərbaycan elminin böyük hamisi Heydər Əliyevin ali təhsil ocağında 4 dəfə olmasını onun Naxçıvan təhsilinə, muxtar respublika ictimai mühitinə verdiyi qiymətin təzahürü kimi dəyərləndirib. Qeyd edilib ki, Ulu Öndər Heydər Əliyevin siyasi irsi müstəqil dövlətçiliyimizin əsasıdır. Azərbaycanın XX əsr tarixinin əlli ildən artıq dövrü Heydər Əliyev şəxsiyyəti ilə, onun böyük quruculuq fəaliyyəti ilə bağlıdır. Diqqətə çatdırılıb ki, Ulu öndərin Naxçıvanın ağır günlərində onu qorumaqla yanaşı, ən çətin məqamlarda belə muxtar respublikada qəbul etdiyi qərarlar, nəinki Naxçıvanın, hətta Azərbaycanın gələcəyi naminə hesablanmış siyasətin təməl prinsipləri olub.



Türk Ağsaqqalları Birliyinin sədri, Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, akademik Sudeif İmamverdiyev sədri olduğu qurumun fəaliyyətindən və birliyin türk dövlətləri ilə birgə keçirdiyi görüşlərdən danışıb. TAİB-nin əsas məqsədlərini diqqətə çatdıran akademik qeyd edib ki, son 30 ildə ölkəmizin qazandığı uğurlar, ictimai-siyasi sferada baş vermiş hadisələrlə bağlı ictimaiyyəti məlumatlandırmaq, gənclərin düşüncəsində dövlətçiliyin formalaşdırılması ilə əlaqədar bəzi məqamları çatdırmaq bizim əsas hədəflərimiz sırasındadır. Vurğulanıb ki, dahi rəhbərin siyasi fəaliyyətinin Naxçıvan dövrü nə qədər çətin və mürəkkəb bir zamana təsadüf etsə də, bu dövr Azərbaycanın müstəqillik tarixində çox böyük dəyərə malikdir. Akademik Ulu Öndərin apardığı məqsədyönlü siyasətin tarixi mərhələlərinə xronoloji qaydada nəzər salıb. Türk Ağsaqqalları Birliyinin sədri Sudeif İmamverdiyev muxtar respublikada aparılan məqsədyönlü siyasəti Ulu öndər ideyalarına sadiqliyin təcəssümü kimi qiymətləndirib.

"Heydər Əliyev siyasi irsinin politoloji aspektləri" mövzusunda çıxışında Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, professor Hikmət Babaoğlu qeyd edib ki, Azərbaycan xalqı üçün ümummilli lider, dünya üçün ümumbəşəri dəyər olan Heydər Əliyevin adı və fəaliyyəti Azərbaycan etnosiyasi-coğrafiyası ilə məhdudlaşmır. Naxçıvanı Azərbaycanın dövlətçilik, mənəviyyat, ideoloji paytaxtlarından biri adlandıran professor qədim yurd yerini tarixi yaddaş, milli mənəviyyat körpüsü kimi dəyərləndirib. Hikmət Babaoğlu Heydər Əliyevin siyasi irsini nəinki Azərbaycanla bütün türk dünyası ilə əlaqələndirib. Professor 2003-cü ildə xalqın yüksək etimadı ilə Azərbaycan Prezidenti seçilən cənab İlham Əliyevin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş sosial-iqtisadi inkişaf və siyasi sabitlik kursunu əzmkarlıqla davam etdirməsini çox sevindirici hal kimi qiymətləndirib.

YAP Universitet şəhərciyi Ərazi Təşkilatının sədri, Beynəlxalq münasibətlər kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru Arzu Abdullayev Heydər Əliyevin Naxçıvandan başlanan xilaskarlıq missiyasından danışıb. Vurğulanıb ki, Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin varislik ənənələri ilk dəfə Naxçıvanda bərpa olunub. Diqqətə çatdırılıb ki, Ümummilli lider Heydər Əliyevin siyasi və dövlətçilik irsini öyrənmək, müstəqil dövlət quruculuğunda istifadə etmək, gəncliyin tərbiyəsində bir mayaka çevirmək bizim elmi, siyasi-nəzəri və pedaqoji sahələrdə ən mühüm vəzifələrimizdən biridir.

"Heydər Əliyev və milli şüur konsepsiyası" adlı çıxışında universitetin Fəlsəfə və sosial iş kafedrasının professoru, fəlsəfə elmləri doktoru Məmməd Rzayev vurğulayıb ki, Azərbaycanın dövlət müstəqilliyinin dönməzliyini, təmin etməklə bərabər millətimizin və dövlətimizin ideoloji xəttini, söykənəcəyi təməl prinsiplərini irs olaraq müəyyənləşdirən Heydər Əliyev XX əsrdə Azərbaycan xalqının yetişdirdiyi çox görkəmli sima, dövlət idarəçiliyi sahəsində son dərəcə böyük və təcrübəli siyasət adamı, dövlət xadimi idi. Vurğulanıb ki, Ulu Öndər Azərbaycanın, dövlətimizin tarixində həmişəlik qalacaq və həmişə anılacaq şəxsiyyətdir. Onun zəngin dövlətçilik təcrübəsi dünya siyasətçiləri tərəfindən təqdir edilir və yüksək qiymətləndirilir.

Sonda Naxçıvan Televiziyasının hazırladığı "Heydər Əliyev və türk dünyası" adlı film nümayiş olunub. Rektor konfransdan xatirə olaraq akademik Sudeif İmamverdiyevə plaket və hədiyyə təqdim edib. Konfrasda iştirak edənlərə isə iştiraketmə vərəqəsi verilib.

Akademik də öz növbəsində belə mötəbər konfransa ev sahibliyi edən rektoru təşəkkürnamə ilə mükafatlandırıb.

Universitetin İncəsənət fakültəsi müəllim və tələbələrinin ifasında konfransın bağlanış konserti olub. Konsertdə ümummilli liderin əziz xatirəsinə həsr olunan və onun sevdiyi mahnılar ifa olunub. M.Məmmədovun "Azərbaycan", N.Məmmədovun "Sənsən xilaskar", R.Mirişlinin"Məşəl kimi yanan ürək", C.Cahangirovun "Alagöz", E.Mansurovun "İlhamla sabaha" mahnıları tamaşaçılar tərəfindən yüksək zövqlə dinlənilib.

# YAPONİYADA YAŞAYAN AZƏRBAYCANLI ALİM XƏLİL KƏLƏNTƏR NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ OLUB

Naxçıvan Dövlət Universitetində keçirilən görüş zamanı ali təhsil ocağının rektoru Elbrus İsayev X.Kələntəri universitetin kollektivi adından salamlayaraq onun elmi fəaliyyəti və nailiyyətləri haqqında məlumat verib. Bildirilib ki, professor Xəlil Kələntər LED işıqları (maye kristal displeyin arxa fon işıqları) televizor, kompüter və mobil telefonların əsas hissələrindən biridir. Bu texnologiyadan smartfonlar, mobil telefon və kompüterlərdə, həmçinin avtomobillərdə geniş istifadə olunur. O, eyni zamanda özünün müəllifi olduğu və bütün



əvvəlki və yeni nəsil monitorların yaradılmasında əvəzsiz xidmətləri olan alimdir. Bütün dünyada elektronika sahəsində tədris olunan onlarla kitabın, çoxsaylı elmi məqalələrin müəllifi olan X.Kələntər həm də Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının üzvüdür. Rektor nüfuzlu alimin 40 ilə yaxındır ki, Yaponiyada yaşamasına və fəaliyyət göstərməsinə baxmayaraq, öz vətəni olan Azərbaycanla çox sıx münasibətləri olduğunu qeyd edib.

"Çoxsaylı patent və ixtiraların müəllifi olan Xəlil Kələntərin Yaponiyada yaradılmış və bütün dünyada geniş istifadə olunan texnologiyaların – fotoaparatlar, kameralar, elektron şüa qurğuları, mikrosxemlər, plazma monitorları, maye kristal monitorların hazırlanmasında böyük xidmətlərinin olması olduqca qürurverici hadisədir. Alimin elmi və praktiki nailiyyətləri beynəlxalq elm aləmində də yüksək səviyyədə qiymətləndirilir" - deyə Elbrus İsayev vurğulayıb.

Professor apardığı elmi tədqiqatlar və patentlər haqda məruzəsini təqdim edib. Maye kristalları və onun inkişaf perspektivlərindən söz açan Xəlil Kələntər bildirib ki, dünya ölkələrində geniş istifadə olunan "Backlight unit" və "Backligt optics" texnologiyaları barədə məlumat verib.

Professor ənənəvi və müasir televizorların arxa fon işıqlarının strukturu, maye kristal ekranlar, 3D dispeleylər və digər ekran texnologiyaları barədə də danışıb.



Həmçinin apardığı tədqiqatların nəticələrini, ixtira və patentlərini seminar iştirakçılarının diqqətinə çatdırıb. Professor "Biz kəskin baxışlar və inkişaf etmiş zehinlərlə yaxın ölkələrdəki vəziyyəti nəzərdən keçirməli və gələcək işimizi bu istiqamətdə qurmalıyıq" fikirlərini gənc nəslə tövsiyyə edib.

Rektor professora xatirə plaketi və hədiyyələr təqdim edib. Görüşdə universitetdə qurulacaq Texnoparkda birgə əməkdaşlığa dair razılıq əldə olunub.

Tədbirdə müəllim və tələbələrin sualları cavablandırılıb.

Qeyd edək ki, 1981-ci ildən Yaponiyada yaşayan X. Kələntər Naqoya və Tohoku universitetlərində doktorluq dərəcəsi alıb. Elektronika mühəndisliyi, yeni nəsil ekranların yaradılması sahəsində 100-ə yaxın patentin, yapon dilində altı kitabın, 130-dan artıq elmi məqalənin müəllifidir. Azərbaycanlı alim LCD televizor, kompüter və mobil telefonların əsas hissələrindən biri – maye kristal displeyin arxa fon işıqlarının yaradıcısıdır. Dünyada ilk dəfə işıqla yönləndirilən mikroreflektorlu və mikro-deflektorlu optik lövhələr yaradıb. Bununla yanaşı, o, işıqla yönləndirilən mikrostrukturlu funksional optik lövhələrin ilk dizayneri, müəllifi və istehsalçısıdır. Əsərləri ingilis, yapon, Çin və Koreya dillərində dərc olunub. Yalnız Yaponiyada deyil, Amerika, Asiya və Avropada elektronika, yeni nəsil displey ekranlar sahəsində böyük mütəxəssis kimi tanınır. Həmin sahədə uzun müddət çalışdığına görə Xəlil Kələntərə müvafiq beynəlxalq konfranslarda Yaponiyanı təmsil etmək hüququ verilib.



# TÜRK AĞSAQQALLAR BİRLİYİNİN SƏDRİ VƏ TƏŞKİLAT KOMİTƏSİNİN ÜZVLƏRİ UNİVERSİTETDƏ OLUB

Universitetin Diplomatiya kabinəsində keçirilən görüşdə ali təhsil ocağının rektoru Elbrus İsayev rəhbərlik etdiyi universitetin 55 illik tarixi inkişaf yolu, maddi-texniki bazası, müasir tədris üsulları haqda danışıb. Qeyd edilib ki, universitetdə 8000-dən artıq tələbə təhsili ilə 1000-ə yaxın akademik heyət məşğul olur. Rektor universitetin beynəlxalq əlaqələri, xarici ölkə universitetləri ilə bağladığı müqavilələr, qardaş Türkiyə Universitetləri ilə ikili diplom layihələrinin mövcudluğu haqda ətraflı məlumat verib. Ali təhsil ocağının qazandığı elmi nailiyyətləri diqqətə çatdıran rektor universitetdə İngilisdilli ixtisasların fəaliyyətindən söz açıb. Elbrus İsayev elektron təhsil şəbəkəsini quran ilk universitet kimi ali təhsil ocağında hibrid təhsil metodunun uğurla tətbiq edilməsindən danışıb.

Rektor Britaniya Şurasının universitetdə açdığı İELTS qeydiyyat və imtahan mərkəzinin fəaliyyətə başlamasını ali təhsil ocağının qazandığı nailiyyətlər sırasında qeyd edib. Vurğulanıb ki, mərkəzin ilk imtahanı bu ilin iyun ayında keçiriləcək. Elbrus İsayev qeyd edib ki, əcnəbi tələbələrin sayca üstünlüyü ilə ölkə universitetləri sırasında öz öncüllüyünü qoruyan ali təhsil ocağında 10 ölkədən 1500 tələbə təhsil alır.

TAİB sədri, Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, akademik Sudeif İmamverdiyev təhsilin və tədrisin yüksək səviyyədə təşkilindən, muxtar respublikanın tələbləri nəzərə almaqla aparılan kadr potensialından xüsusilə razılığını ifadə edib.

Millət vəkili, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Hikmət Babaoğlu universitetin 55 illik yubileyi münasibətilə təbrik edib, ali təhsil ocağının inkişaf perspektivləri ilə bağlı müəyyən məqamlara toxunub, öz təklif və tövsiyyələrini çatdırıb.

Jurnalist, Ekspert Mərkəzinin rəhbəri Ceyhun Musaoğlu, TAİB Təşkilat Komitəsinin üzvü Eyvaz Hümbətov, Missiya Media Qrupunun baş redaktoru, Türk Ağsaqqalları Birliyinin Aparat rəhbəri Nicat Dağlar universitet haqda xoş təəssüratlarını bölüşüb, görülən işlərdən məmnunluq hisslərini dilə gətiriblər. Qeyd edilib ki, yaradılan şərait, qurub-yaradılan imkanlar hər kəsdən bu sahədə xüsusi bacarıqla işləmək və təhsil almaq imkanı yaradır.

Sonda TAİB sədri, Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, akademik Sudeif İmamverdiyev universitetin xatirə kitabına ürək sözlərini yazıb.

Qeyd edək ki, Türk Ağsaqqallar Birliyinin sədri və təşkilat komitəsinin üzvlərinin iştirakı ilə universitetdə ustad dərsləri təşkil edilib.

**Səadət Əliyeva**

***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# ANKARA UNİVERSİTETİ İLƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIĞA DAİR PROTOKOL İMZALANIB

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Ankara Universitetinin rektoru, professor Necdet Ünüvar, universitetin prorektoru Hicabi Kırlangıçın qatıldığı görüşdə hər iki ölkə arasında qardaşlıq münasibətlərinə toxunulub, təhsil sahəsində ötən ildən başlayaraq əsası qoyulan əməkdaşlığın perspektivlərindən danışıblar.

Elbrus İsayev rəhbərlik etdiyi ali təhsil ocağının dünyanın 130-dan çox ölkəsi ilə beynəlxalq əməkdaşlığa malik olduğuna diqqət çəkərək bildirib ki, Türkiyənin 80-dən çox ali təhsil ocağı ilə geniş əməkdaşlıq fəaliyyəti mövcuddur. Onların sırasında Ankara Universitetinin xüsusi yeri vardır. Elbrus İsayev akademik və tələbə mübadiləsi proqramları ilə bu əlaqələrin daha da genişləndiriləcəyinə əminliyini bildirib.

Ankara Universitetinin rektoru, professor Necdet Ünüvar təmsil etdikləri ali təhsil ocağının beynəlxalq əməkdaşlıqlarında Azərbaycan universitetlərinin xüsusi payı olduğunu diqqətə çəkib. Qeyd edilib ki, Türkiyənin on ən yaxşı universiteti sırasında yer alan Ankara Universitetinin əsası 1946-cı ildə qoyulub. Rektor universitetdə mövcud ixtisaslar, beynəlxalq əlaqələr haqda məlumat verdikdən sonra bildirib ki, 36 ayrı kampusda fəaliyyət göstərən universitetdə 4800 əcnəbi tələbə təhsil alır ki, bunlardan 450-si Azərbaycan vətəndaşıdır. Magistratura və doktorantura proqramları sahəsində də əməkdaşlığın perspektivləri barədə danışan Necdet Ünüvar gələcəkdə ikili diplom layihələrinin həyata keçirilməsinin də mümkün olacağını irəli sürüb.

Sonra rektorlar Naxçıvan Dövlət Universiteti ilə Ankara Universiteti arasında akademik sahədə əməkdaşlıq protokolunu imzalayıblar.

Qeyd edək ki, protokolda tərəflərin qarşılıqlı olaraq maraqlarına uyğun akademik və elmi mövzulardakı fəaliyyətlərində bir-birinin imkan və təcrübələrindən faydalanacağı, elmi məqsədlər daxilində professor-müəllim mübadiləsi, dərs, müşavirə, tədqiqat və



oxşar fəaliyyətlərində, tədris və tədqiqat məqsədilə hər növdən kitab, elmi nəşrlər və oxşar materialların qarşılıqlı mübadiləsi, birgə tədqiqat layihələri və elmi yığıncaqların keçirilməsi öz əksini tapıb.

Mövlana proqramının yenilənməsi, Tibb təhsili ilə bağlı bakalavr, rezidentura pillələrində təcrübə, Ankara Universitetində qurulmuş Big Data mərkəzində praktiki təcrübə keçmək imkanı, bakalavr səviyyəsində Tarix, Biologiya, Elektrik və elektronika, Kompüter mühəndisliyi, Kimya ixtisasları, Magistratura pilləsi üzrə Klinik psixologiya ixtisası istiqamətində birgə təlim, tədris və tədqiqatın təşkil edilməsi, Konservatoriya ixtisasları üzrə NDU təcrübəsinin Ankara Universitetləri ilə paylaşılması məsələləri müzakirə edilib. Hər iki universitet rektorları qarşılıqlı əlaqələrə toxunub, birgə əməkdaşlığın perspektivləri müzakirə edilib.



# DÜNYANIN MÜHƏNDİS HAZIRLAYAN İLK UNİVERSİTETİ İSTANBUL TEXNİKİ UNİVERSİTETİ ARASINDA ƏMƏKDAŞLIQ MÜQAVİLƏSİ İMZALANIB

Naxçıvan Dövlət Universitetində bu münasibətlə təşkil edilən görüşdə İstanbul Texniki Universitetinin rektoru, professor İsmayıl Koyuncu, universitetin prorektoru, professor Lütfiyə Durak Ata, Türk Musiqisi Dövlət Konservatoriyasının müdiri, professor Ali Tüfəkçi iştirak ediblər. İkitərəfli görüşdə ali təhsil ocağının rektoru Elbrus İsayev qonaqları salamlayaraq onları universitetdə görməkdən məmnunluq duyduğunu bildirib. Ötən il İstanbul Texniki Universiteti (İTU) ilə qarşılıqlı görüşlərdən sonra bu günkü görüşün xüsusi əhəmiyyətə malik olduğu vurğulanıb. Rektor rəhbərlik etdiyi ali təhsil ocağının beynəlxalq əlaqələrində Türkiyə Universitetlərinin xüsusi payı olduğunu diqqətə çatdırıb. Elbrus İsayev Türkiyə Universitetləri ilə texniki sahədə gələcək əməkdaşlıq məsələlərinin vacib məqamlarına toxunub. Rektor rəhbərlik etdiyi ali təhsil ocağının kadr potensialı, professor-müəllim heyətinin malik olduğu elmi baza, maddi-texniki imkanlar, beynəlxalq əlaqələri, tərəfdaş olduğu xarici ölkə universitetləri haqda məlumat verib.

İstanbul Texniki Universitetinin rektoru, professor İsmayıl Koyuncu qeyd edib ki, 1773-cü ildə yaradılan və dünyanın mühəndis hazırlayan ilk universiteti kimi tarixə düşən İstanbul Texniki Universiteti müasir təhsil sistemi, güclü akademik heyəti ilə Türkiyənin nüfuzlu ali təhsil müəssisələri arasında ön sıralarda dayanıb. Universitetin prorektoru, professor Lütfiyə Durak Ata Türkiyənin bir çox zavod, fabrik və xüsusilə də İT şirkətlərinin yaradılmasında və idarə edilməsində ali təhsil ocağının mühəndislərinin əməyinin danılmaz olduğunu dilə gətirib. Vurğulanıb ki, İstanbul Texniki Universiteti geniş beynəlxalq əlaqələri sayəsində yalnız ölkə daxilində deyil, beynəlxalq mühitdə də qabaqcıl ola biləcək tələbələr yetişdirən bir dövlət ali məktəbidir. Bildirilib ki, hazırda İstanbul Texniki Universitetində 13 fakültə, fakültələr daxilində 39 bölmə və 6 institut fəaliyyət göstərir.

Görüşdə Texnopark sahəsində birgə fəaliyyəti həyata keçirmək, İTU-nun texnopark sahəsində təcrübəsindən yararlanmaq, birgə seminarlar keçirmək məsələləri müzakirə olunub. Süni intellekt texnologiyaları, kompüter, elektrik və elektronika mühəndisliyi üzrə ikili diplom müzakirə edilən əsas məsələlərdən olub. Sonra hər iki universitet arasında birgə əməkdaşlığa dair protokol imzalanıb. Müqavilədə elmi rəqabətliliyin təmin edilməsi, tələbə, müəllim mübadiləsi, mədəniyyət, incəsənət və.s sahələrdə birgə fəaliyyət, tələbə təqaüdü proqramları, elmi əməkdaşlıqda magistr və doktorantura proqramları, elmi tədqiqat sahələrində birgə araşdırmalar, tədqiqatlar aparmaq əsas fəaliyyət istiqamətləri kimi müəyyənləşdirilib.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# TÜRKİYƏNİN ƏN QABAQCIL VƏ NÜFUZLU QAZİ UNİVERSİTETİ İLƏ ƏMƏKDAŞLIQ MÜQAVİLƏSİ İMZALANIB

Naxçıvan Dövlət Universitetində təşkil edilən ikitərəfli görüşdə Qazi Universitetinin rektoru, professor Musa Yıldız, universitetin Tibb fakültəsinin dekanı, professor Mustafa Necmi İlhan iştirak ediblər.

Ali təhsil ocağının rektoru Elbrus İsayev rəhbərlik etdiyi ali təhsil ocağında müxtəlif profilli ixtisaslar üzrə aparılan kadr hazırlığı haqda məlumat verib. Universitetin beynəlxalq əlaqələr sahəsində qazandığı uğurları qeyd edən rektor ötən ilin yayında Qazi Universiteti ilə keçirilən görüşlərin səmərəliliyinə diqqəti çəkib. Bildirilib ki, xüsusilə humanitar və ictimai elmlər sahəsində uzunmüddətli təcrübəsi olan NDU-da bu istiqamətdə birgə elmi-tədqiqat və elmi nəşrlər sahəsində ortaq fəaliyyət göstərmək üçün əlverişli mühit mövcuddur.

Qazi Universitetinin rektoru, professor Musa Yıldız əsası 1926-cı ildə qoyulmuş və hazırda 40 mindən artıq tələbəsi olan Qazi Universitetində həyata keçirilən kadr hazırlığı istiqamətləri haqqında ətraflı məlumat verib. Türkiyənin milli ali sistemində özünəməxsus yeri olan Qazi Universitetinin əldə etdiyi uğurlardan bəhs edən rektor tədqiqat universiteti olaraq həyata keçirdikləri çoxsaylı layihələrdən danışıb.

Sonra hər iki universitet arasında birgə əməkdaşlığa dair protokol imzalanıb. Müqavilədə Erasmus+ çərçivəsində müəllim və tələbələrin mobilliyi, Mövlana proqramı layihəsinin yenilənməsi, Biotexnologiyalar, İncəsənət ixtisasları sahəsində əməkdaşlıq, birgə konfransların, simpozium və forumların keçirilməsi, ortaq nəşrlər öz əksini tapıb.

Görüşdə doktorantura proqramları, sinxron tərcümə ilə bağlı məsələlər müzakirə olunub. Elmi tədqiqat sahələrində birgə araşdırmalar, mədəniyyət, incəsənət və. s sahələrdə birgə fəaliyyət barədə razılığa gəlinib. Müqavilədə bakalavr səviyyəsində Fizika, Rəsm, İngilis dili ixtisasları üzrə ikili diplom layihələri, həmçinin, Qazi Universitetində xarici dili tədris edən müəllimlərin NDU-da tədrisə yönləndirilməsi, tibb sahəsində birgə təlim, tədris və tədqiqatın həyata keçirilməsi, rezidentura tədrisinə dəstək məsələləri öz əksini tapıb. İmzalanmış protokola görə tərəflərin qarşıya qoyduqları öhdəliklər müzakirə edilib, universitetlərarası əməkdaşlıq sahələri haqqında fikir mübadiləsi aparılıb.



# TİBB FAKÜLTƏSİNİN TƏLƏBƏLƏRİ NAXÇIVAN GİGİYENA- EPİDEMİOLOGİYA MƏRKƏZİNDƏ OLUBLAR

Naxçıvan Gigiyena - Epidemiologiya Mərkəzində keçirilən görüş zamanı Naxçıvan Muxtar Respublikası Səhiyyə naziri Niyazi Novruzov qeyd edib ki, muxtar respublikada əhalinin sağlamlığının qorunması sahəsində mühüm tədbirlər həyata keçirilir. Bu tədbirlərin tərkib hissəsi olaraq Gigiyena və Epidemiologiya Mərkəzi də hərtərəfli qayğı ilə əhatə olunub, əhali arasında yoluxucu xəstəliklər minimum həddə endirilib. Vaxtında aparılan profilaktik və əks-epidemik tədbirlərin nəticəsidir ki, muxtar respublika ərazisində polimelit, difteriya və maliyariya xəstəliyi qeydə alınmır.



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxışı zamanı bildirib ki, ali təhsil ocağının göstəriciləri arasında Tibb fakültəsinin özünəməxsus yeri var. Qeyd edilib ki, hazırda fakültədə 1300-dən artıq tələbə təhsil alır ki, onların bu sahədə peşəkar kadr kimi yetişdirilməsi üçün müxtəlif tədris planları, təcrübə proqramları həyata keçirilir. Diqqətə çatdırılıb ki, Türkiyənin nüfuzlu Ankara və Qazi universitetlərilə yaradılan əlaqələr nəticəsində artıq tələbələr yay təcrübələrini həmin ali təhsil müəssisələrində keçmə imkanı əldə edəcəklər. Qeyd edilib ki, universitetdə 1999-cu ildən tibb sahəsi üzrə kadr hazırlığına başlansa da, gigiyena-epidemiologiya profilinə uyğun kadrların hazırlanmasına 2007-ci ildən başlanıb. Elbrus İsayev qeyd edib ki, keçirilən görüşdə əsas məqsəd tələbələri mərkəzdə yaradılan şərait, buradakı maddi texniki baza ilə tanış etmək, onları təcrübi cəhətdən məlumatlandırmaq və düzgün istiqamət verməkdən ibarətdir.

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin dekanı, biologiya üzrə fəlsəfə doktoru, dosent Elsevər Əsədov ali təhsil ocağında gigiyena – epidemiologiya sahəsində kadr hazırlığından danışarkən qeyd edib ki, bu gündək Tibbi profilaktika sahəsində 100-dən artıq tələbə məzun olub ki, hazırda qeyd olunan ixtisas üzrə 63, İctimai səhiyyə ixtisası üzrə isə 24 tələbə təhsil almaqdadır.

Naxçıvan Muxtar Respublikası Səhiyyə nazirinin müavini, Naxçıvan Gigiyena – Epidemiologiya Mərkəzinin baş həkimi Zeynəb Mustafayeva mərkəz haqqında məlumat verərkən qeyd edib ki, burada zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan mərkəzdə 35 iş otağı, 6 laboratoriya, 1-i elektron lövhəli olmaqla 2 sinif otağı, elektron lövhəli 72 yerlik iclas zalı, 2 soyuducu kamerası olan anbar və yardımçı otaqlar var.

Ümumi təbabət və klinik fənlər kafedrasının baş müəllimi Güllü Səfərova Gigiyenist epidemioloq həkimlərinin cəmiyyətdəki rolu mövzusunda çıxış edib.

Sonra universitetin Tibbi profilaktika ixtisası üzrə VI kurs tələbəsi İlay Ələfsərlinin "Gigiyena-epidemiologiya sahəsində tələbələrin öhdəlikləri" mövzusunda çıxışı dinlənilib.

Daha sonra tələbələr mərkəzdə yaradılan şəraitlə əyani tanış olublar. Xüsusi təhlükəli infeksiyalar şöbəsi, ümumi laboratoriya şöbəsi ilə tanışlıq zamanı tələbələrə, DNT, PZR testləri haqqında məlumat verilib. Bildirilib ki, DNT testi bioloji materialın müxtəlif formaları ilə aparılır - tüpürcək, qan, dırnaqlar, saçlar və hətta bir insanın paltarı və ya içdiyi bir fincan ilə test etmək mümkündür. PZR testi haqda məlumat verilərkən qeyd edilib ki, COVID-19 xəstəliyi yayıldıqdan sonra ən çox adı çəkilən testlərdən biri də PZR testi oldu. PZR virusların molekulyar diaqnostikasında da istifadə edilən mikrobioloji müayinə metodlarından biridir.

Virusoloji, bakterioloji laboratoriyalarla tanışlıq zamanı sterilizasiya, şüalanma, infeksion xəstəliklərin aşkarı haqqında da tələbələr məlumatlandırılıb. Diqqətə çatdırılıb ki, sterilizasiya zamanı maddələrin və əşyaların mikroorqanizmlərdən tam azad olması, yəni patogen və qeyri-patogen törədicilərin vegetativ və spor formaları məhv edilir. Adətən, sterilizasiyadan əvvəlki proses mexanikləşdirilmiş və ya əl üsulu ilə həyata keçirilir. İnfeksion xəstəliklər haqqında danışarkən diqqətə çatdırılıb ki, hər bir infeksiyanın özünəməxsus yoluxma mexanizmi var ki, tənəffüs yollarının infeksion xəstəliklərində xəstə öskürdükdə, asqırdıqda və danışdıqda infeksiya selik damcıları vasitəsilə ətrafa yayılır və sağlam insana hava ilə yoluxur. İnfeksiyanın yoluxma mexanizminin aydınlaşdırılması infeksion xəstəliklərin profilaktikasının əsasını təşkil edir. Qeyd edilib ki, bütün bu sadalanan proseslər mərkəzin laboratoriyalarındakı cihazlarla müəyyən edilir.

**Məmmədbağır Dünyamalıyev**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# TƏHSİLDƏ KEYFİYYƏT TƏMİNATI AGENTLİYİNİN TƏLİMLƏRİ UĞURLA YEKUNLAŞIB

Naxçıvan Dövlət Universiteti ilə Təhsildə Keyfiyyət Təminatı Agentliyi arasında imzalanan əməkdaşlıq müqaviləsinə əsasən ali təhsil ocağında agentliyin təlimlərinə start verilib. Universitetin rektoru Elbrus İsayev qeyd edib ki, sürətlə modernləşən Azərbaycan Respublikasında təhsil sisteminin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi istiqamətində yeni addımların atılmasına və təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılmasına ehtiyac vardır. Bildirilib ki, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədində təhsilin keyfiyyəti başlıca strateji prioritet kimi qeyd olunub. Rektor diqqətə çatdırıb ki, təlimlərin mahiyyəti rəhbərlik etdiyi ali təhsil ocağının pedaqoji və inzibati heyətinə daxili və xarici keyfiyyət təminatı sisteminə dair geniş məlumat vermək və daxili keyfiyyət təminatının formalaşmasına dəstək verməkdən ibarətdir.

Dörd gün davam edən təlimi Agentliyin Təlim və metodologiya şöbəsinin müdiri Asiman İlyasov keçib. Təlimin ilk günündə təlimçi Təhsil müəssisələrinin akkreditasiya qaydalarından danışıb. Daxili və xarici keyfiyyət təminatı, mövcud təhsil standartları, akkreditasiya mərhələləri haqda ətraflı məlumat verilib.

Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar (ESG) haqda mövzuya təlimin ikinci günündə aydınlıq gətirilib. Keyfiyyət təminatı sistemi, tələbə yönümlü təhsil, tədris və qiymətləndirmə, tələbələrin komanda ilə işləmək bacarığı məqamları haqda ətraflı məlumat verilib. Tələbələrin ali məktəbə qəbulu, təhsil alması, tanınması və attestasiyası məsələləri barədə çıxış edən təlimçi tələbələrə dəstək, təhsil resursları haqda iştirakçıları maraqlandıran sualları cavablandırıb.

Asiman İlyasov təlimin üçüncü günündə Strateji idarəetmə və daxili idarəetmə sisteminin qurulması mövzusunda çıxışında bildirib ki, strategiya və keyfiyyət siyasəti idarəetmə strategiyası ilə başlayır. Qeyd edilib ki, strukturlararası kommunikasiya onlar arasında hesabatlılıq al təhsil müəssisələrinin strategiyası ilə bağlı olmalıdır. Həmçinin planlama, daxili nəzarət mexanizmləri, audit zamanı daxili nəzarət strukturu haqda təlim iştirakçıları məlumatlandırılıb.

Təlimin son iki günündə təlimçi Daxili səmərəli monitorinq sisteminin qurulması və qiymətləndirmə meyarlarının təyin olunması və Sillabusların



dizaynı, təlim nəticələrinin yazılması və qiymətləndirilməsi qaydalarından danışıb. Mövzular ilə bağlı müəllimlərin sualları ətraflı cavablandırılıb.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 29 dekabr 2019-cu il tarixli Sərəncamı ilə yaradılmış Təhsildə Keyfiyyət Agentliyinin fəaliyyət istiqaməti təhsil müəssisələrində daxili keyfiyyət təminatı sistemlərinin qurulması və inkişaf etdirilməsi ilə bağlı məsləhət və metodiki dəstək xidmətləri təşkil etmək, eləcə də təhsil müəssisələrinin akkreditasiyasının həyata keçirilməsi üçün tövsiyələr hazırlamaq və təlimlər təşkil etməkdir.

Məlumat üçün onu da bildirək ki, Asiman İlyasov 1992-ci ildə Naxçıvan şəhərində anadan olub. 2015-ci ildən bəri müxtəlif illərdə Azərbaycan ali təhsil müəssisəslərində Əlavə təhsil bölməsinin müdiri, Gənc müəllimlərin yetişdirilməsi bölməsinin müdiri, İnsan resurslarının təlimi və inkişafı şöbəsinin müdiri, Keyfiyyətin təminatı şöbəsinin müdiri, strateji məsələlər üzrə rektor müşaviri kimi fəaliyyət göstərib. ERASMUS+ CRENG, BP Cisco, Dünya Bankı və OSCE-nin müxtəlif layihələrində, ERASMUS+EQAC (Azərbaycan ali təhsil müəssisələrində Keyfiyyətə Nəzarət Mərkəzlərinin qurulması) layihəsinin meneceri olaraq layihə çərçivəsində Litva, İspanya, İngiltərə və İsveçdə keyfiyyət təminatına dair müxtəlif təlimlərdə iştirak edən təlimçi 10 elmi məqalənin və 2 dərs vəsaitinin müəllifidir.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***



# TƏLƏBƏLƏR NAXÇIVAN MUXTAR RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİNDƏ TƏCRÜBƏDƏ OLUBLAR

Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı naziri Bəhruz Bayramov qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarının icrası çərçivəsində tələbələrlə keçirilən görüş, onların bir mütəxəssis kimi hazırlanmasında atılan addımlardan biridir. Nazir artıq bu sahə üzrə uzun illərin təcrübəsini qazanan muxtar respublika kənd təsərrüfatının hazırda Naxçıvan üçün öncül sahələr sırasında olduğunu diqqətə çatdırıb.

Universitetin rektoru Elbrus İsayev qeyd edib ki, nazirliyin təşəbbüsü ilə keçirilən görüşün məqsədi təcrübələrin və dərslərin səmərəli keçirilməsinə dəstək olmaqdır. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin verdiyi Sərəncamlar əsasında 40-a yaxın təşkilatla hamilik proqramına uyğun olaraq tədbirlər həyata keçirilir ki, bu da tələbələrin peşəkar kadr kimi formalaşmasında, onların gələcəkdə işlə təmin olunmasında mühüm əhəmiyyətə malikdir. Diqqətə çatdırılıb ki, universitetin torpaqşünaslıq və aqronomiya sahəsində təcrübə bazaları, laboratoriyaları, ixtisaslaşmış, peşəkar mütəxəssiləri mövcuddur. Rektor tələbələrin bunlardan səmərəli istifadə etməklə təcrübələrinin yekununda nazirliyin əməkdaşları ilə birgə layihələr, startaplar hazırlayıb təqdim etmələri barədə öz təklif və tövsiyyələrini çatdırıb.

Sonra tələbələr nazirliyin kitabxanası ilə tanış olublar. Nazir qeyd edib ki, kitabxanada yerli mütəxəssilərin kitabları ilə yanaşı, kənd təsərrüfatı sahəsində dünya klassiklərindən olan kitablar da mövcuddur.

Daha sonra nazirliyin Aqrokimya, torpaqşünaslıq və torpaqların kütləvi analizləri laboratoriyasında aparılan analizlər haqqında tələbələrə məlumat verilib. Bildirilib ki, laboratoriyada torpağın mexaniki, struktur tərkibi, torpağın hidroskopik nəmliyinin, turşuluğunun, şoran və şorakətliyinin, torpaqda azot, fosfor, kalium həmçinin mikroelementlərin və torpağın elektrik keçiriciliyinin təyini həyata keçirilir. Toxumçuluq laboratoriyasında toxumun təmizlik faizi, cücərmə qabiliyyəti, təsərrüfat yararlılığı, səpin norması, cücərmə enerjisi, nəmliyi, tarla şəraitində taxılın un çıxımı, toxumda kleykovinanın( yapışqanlığın) və bitki məhsullarının tərkibində nitrat və nitritlərin təyini haqqında tələbələr məlumatlandırılıb.

Toxum bankı, bitki dərmanları ilə tanışlıqdan sonra kənd təsərrüfatı texnikalarına baxış keçirilib.

Sonda tələbələr əyani formada əkin sahələrinin gübrələnmə, dırmıqlanma və dərmanlanma prosesinin şahidi olublar.

**Məmmədbağır Dünyamalıyev**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 99-CU İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ BƏDİİ YARADICILIQ FESTİVALI KEÇİRİLİB

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş bədii yaradıcılıq festivalının baxış müsabiqəsi keçirilib. Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı (ATİAHİ) Respublika Komitəsinin Rəyasət Heyətinin qərarı ilə ali, orta və ilk peşə ixtisas təhsili müəssisələrinin tələbələri arasında keçirilən festival milli vətənpərvərlik, mədəniyyətimizə, incəsənətimizə, milli adət-ənənələrimizə hörməti inkişaf etdirmək məqsədi daşıyır. Bu məqsədlə Naxçıvan Dövlət Universitetində keçirilən tədbirdə universitetin rektoru Elbrus İsayev çıxış edərək qonaqları salamlayıb, ədəbiyyat və incəsətin birgə vəhdətindən ərsəyə gələn tədbiri yüksək qiymətləndirib. Qeyd edilib ki, İncəsənət fakültəsindən fərqli olaraq bu günkü tədbirdə digər ixtisaslarda təhsil alan tələbələr iştirak edirlər. Elbrus İsayev universitetin professor-müəllim heyəti və tələbələri üçün gözəl xatirələrlə yadda qalacaq görüşdən hər kəsin faydalanacağı barədə öz təklif və tövsiyyəlirini çatdırıb.



Tədbirdə onlarla istedadlı tələbə şeir, musiqi, bədii qiraət və rəsm üzrə öz bacarıqlarını nümayiş etdiriblər. İstedadlı tələbələrin müəyyən edilməsi Münsiflər heyətinin sədri Azərbaycan Milli Konservatoriyasının müəllimi, Azərbaycan Respublikasının xalq artisti Mübariz Tağıyev, münsiflər heyətinin üzvləri Bakı Xoreoqrafiya Akademiyasının prorektoru, Azərbaycan Respublikasının xalq artisti Təranə Muradova, Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi Baba Vəziroğlu, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, Azərbaycan Respublikasının xalq artisti Samir Cəfərov, Təhsil Nazirliyinin Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsinin baş məsləhətçisi Maral Salmanova tərəfindən həyata keçirilib.

Müsabiqənin sonunda münsiflər heyəti öz təklif və tövsiyyələrini verdikdən sonra tələbələrə uğurlar arzulayıblar. Qeyd edək ki, festival qaliblərinin yekun konserti may ayında keçiriləcək. Qaliblər Təhsil Nazirliyi və ATİAHİ-nin diplom və hədiyyələri ilə mükafatlandırılacaq.

Görüşdən sonra qonaqlar universitetin ərazisini gəzib, mövcud fakültələrlə tanış olublar. İncəsənət fakültəsinin sərgi salonunda müəllim və tələbələrin əl işlərindən ibarət sərgiyə baxış olub.

Sonra ali təhsil ocağının Magistratura mərkəzində Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi Baba Vəziroğlu ilə görüş olub. Rektor nasir, şair, tərcüməçi, kinodramaturq, 1981-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olan Baba Vəziroğlu haqda danışıb. Bu günkü görüşün hər kəs üçün xoş təəssürat oyadacağına əminlik ifadə olunub. Görkəmli şairin sözlərinə bəstələnən mahnıların olduğu albom rektora hədiyyə edilib.

Tədbir diskussiya formatında davam etdirilib. Müəllim və tələbələr Baba Vəziroğluna müxtəlif istiqamətlərdə maraqlı suallar ünvanlayıblar. Şairin öz şeirlərini bədii qiraət etməsini iştirakçılar həvəslə dinləyiblər. Həmçinin tədbirdə qonaqlar tərəfindən şairə kitab və hədiyyələr təqdim edilib.

Azərbaycan Milli Konservatoriyasının müəllimi, Azərbaycan Respublikasının xalq artisti Mübariz Tağıyev, Bakı Xoreoqrafiya Akademiyasının prorektoru, Azərbaycan Respublikasının xalq artisti Təranə Muradova İncəsənət ixtisaslarında təhsil alan tələbələrlə görüşüblər. Tədbirdə tələbələrin musiqi bacarıqları, gənclərin retro musiqisinə olan marağı qiymətləndirilib. Xalq artisti tələbələr üçün gözəl ifalar da səsləndirib. Milli rəqslərimiz və yallılar haqda danışan dünya ölkələrində Azərbaycan incəsənətini və mədəniyyətini özünəməxsus ustalıqla və incəliklə təmsil edən Təranə Muradova tələbələrə milli geyimlərimiz barədə danışıb. Vurğulanıb ki, milli rəqslərimiz həm də milli geyimlərimizin təbliği baxımından da müsbət qiymətləndirilməlidir. Yallı rəqsinin qədim tarixə malik olduğunu qeyd edən Xalq artisti tələbələr üçün milli rəqslərimizdən nümunələr göstərib.

Tədbir hər kəs üçün xoş xatirələrlə yadda qalıb.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# İELTS MƏRKƏZİNİN FƏALİYYƏTƏ BAŞLAMASI ALİ TƏHSİL OCAĞI ÜÇÜN YADDAQALAN HADİSƏDİR



Ali təhsil ocağının Xarici dillər fakültəsində yeni yaradılan İELTS mərkəzinin gələcək perspektivləri müzakirə edilib. Bu münasibətlə universitetin rektoru Elbrus İsayev çıxış edərək mərkəzin fəaliyyətə başlamasını nəinki universitet, həmçinin muxtar respublika ictimai və mədəni mühitinə verilən yüksək töhfə olaraq dəyərləndirib. Qeyd edilib ki, artıq İngilis dili və tərcümə və İngilis dili müəllimliyi ixtisasını bitirən tələbələr İELTS üzrə əvvəlcədən təyin olunmuş bal topladığı zaman bitirdikləri ixtisas üzrə diplom ala biləcəklər. Bildirilib ki, müasir dövrün tələbləri nəzərə alınmaqla ixtisas dərslərini mənimsəyən tələbələrin bu istiqamətdə nəzəri və təcrübi bilikləri yoxlanılacaq. Rektor onu da vurğulayıb ki, tələbələrlə bərabər, həmçinin bu ixtisaslarda dərs deyən müəllimlərin də İELTS üzrə sertifikat əldə etməsi mütləqdir. Qeyd edilib ki, bu ilin iyun ayına planlaşdırılan imtahanlarda yaş məhdudiyyəti nəzərə alınmadan İngilis dili ixtisaslarında dərs deyən bütün müəllimlər iştirak edəcəklər. Elbrus İsayev magistratura və doktorantura təhsil pillələrində xarici dil kimi ingilis dilinin daxil edilməsini və bu istiqamətdə dil bilgilərinin yoxlanılmasını nəzərə alaraq bu mərkəzin gələcəkdə müəllim və tələbələr üçün hansı üstünlüyə malik olacağını da vurğulayıb. Müəllimlərin bu istiqamətdə təklif və tövsiyyələrini dinləyən rektor hər kəsə uğurlar arzulayıb.

Qeyd edək ki, İELTS mərkəzinin bir üstünlüyü də ondan ibarətdir ki, ali təhsil ocağında ixtisası ingilis dilində olan İqtisadiyyat ixtisası tələbələrinin də təcrübi bilik bazasının formalaşmasına müsbət təsir göstərəcək. Rektor bu məqsədlə həmin ixtisasın tələbələri ilə görüşüb. Bildirilib ki, artıq universitetdə bu sahə üzrə mövcud kadr potensialı da nəzərə alınmaqla bu istiqamətdə ixtisasların sayının artırılması da diqqət mərkəzindədir. Qeyd edilib ki, bu tədris ilindən etibarən artıq Beynəlxalq münasibətlər ixtisası da öz tədrisini ingilis dilində davam etdirəcək. Rektor tələbələrin keçdikləri fənlərə dair verdikləri arzu və təkliflərini dinləyib. Həmçinin görüşdə o da diqqətə çatdırılıb ki, İqtisadiyyat ixtisasını bitirən tələbələr də gələcəkdə İELTS üzrə sertifikat imtahanından yüksək nəticə əldə etməklə universiteti bitirəcəklər. Elbrus İsayev keçirilən görüşü yüksək qiymətləndirib və tələbələrə keçdikləri fənləri daha dərindən mənimsəyərək gələcəyin peşəkar kadrı olmağı tövsiyyə edib.

Sonda ingilisdilli İqtisadiyyat ixtisasında təhsil alan tələbələrə hədiyyələr təqdim edilib.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# TƏLƏBƏ RƏSSAMIN HEYKƏLTARAŞLIQ NÜMUNƏLƏRİNƏ DAİR FƏRDİ SƏRGİSİ

Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsində Təsviri incəsənət müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Fərqanə Seyidovanın heykəltaraşlıq nümunələrindən ibarət fərdi sərgisi təşkil olunub. Sərgidə çıxış edən universitetin rektoru Elbrus İsayev fakültədə ənənə halı alan sərgilərin hətta universitetə səfər edən qonaqların da xüsusi marağına səbəb olduğunu diqqətə çatdırıb. Bildirilib ki, fakültədə artıq heykəltaraşlıq üzrə peşəkar komandanın formalaşmağının nəticəsidir ki, ali təhsil ocağında müəllimlərin sərgisi ilə bərabər bu ixtisasda təhsil alan tələbələrin də fərdi bacarıqları nümayiş olunur. Rektor gənc istedad sahibini qazandığı uğurları münasibətilə təbrik edib və sərgidə fəal iştirakına görə universitetin sertifikatını təqdim edib.



Fakültənin dekanı, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılov xüsusi qabiliyyəti və istedadı ilə seçilən gənc rəssam haqda danışaraq qeyd edib ki, Fərqanə hələ uşaq yaşlarından etibarən bu sahəyə xüsusi maraq göstərib. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Gənc Rəssamlar Bölməsinin və Gənc Rəssamlar Klubunun üzvü olan Fərqanə Seyidova 2020-ci ildə xüsusi istedadına görə "İlin gənc rəssamı" nominasiyasına görə təltif edilib.

Təsviri incəsənət kafedrasının professoru, Xalq rəssamı Hüseynqulu Əliyev, həmin kafedranın müəllimi, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Elman Cəfərov öz çıxışlarında qeyd ediblər ki, universitetdə keçirilən bütün sərgilərdə iştirak edən və uğurları ilə hər zaman seçilən Fərqanə Seyidova yaradıcılığının müxtəlif dövrlərində müxtəlif adda fəxri fərman və diplomlara layiq görülüb.

Təsviri incəsənət kafedrasının müdiri Siddiqə Hacıyeva gənc istedadın dəzgah heykəltaraşlıq, monumental-dekorativ, dekorativ heykəltaraşlıq növlərində olan əsərlərini xüsusi bacarıqla ortaya çıxardığını qeyd edib.

Sonda Fərqanə Seyidova yaradıcılığında bu mərhələyə çatdığına görə atasına minnətdar olduğunu diqqətə çatdırıb. Bildirilib ki, atasından öyrəndiyi bu sənəti ali təhsil ocağında xüsusi ixtisaslı müəllimlərdən aldığı nəzəri və təcrübi biliklər sahəsində təkmilləşdirib. Gənc heykəltaraş ona verilən dəstək və yaradıcılığının qiymətləndirilməsi üçün göstərilən xüsusi qayğı üçün öz minnətdarlığını ifadə edib.

Qeyd edək ki, sərgidə rəssam-heykəltaraşın 30-dan artıq heykəltaraşlıq əsəri nümayiş olunub. Bundan başqa gənc rəssamın yağlı, sulu boya ilə işlənmiş rəngkarlıq nümunələri, qrafik işləri, dekorativ tətbiqi sənət əsərləri də sərgilənib.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***



# FİZİKA, ASTRONOMİYA VƏ RİYAZİYYATIN AKTUAL PROBLEMLƏRİ MÖVZUSUNDA RESPUBLİKA ELMİ KONFRANSI KEÇİRİLİB

Naxçıvan Dövlət Universitetində keçirilən konfransda Fizika-riyaziyyat fakültəsinin dekanı, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Məftun İsmayılov çıxış edərək qeyd edib ki, konfransın məqsədi Fizika, Astronomiya və Riyaziyyatın əsas istiqamətləri ilə bağlı aktual elmi müzakirələr aparmaq, əldə ediləcək elmi-nəzəri nəticələrin təcrübədə tətbiqinin forma, metod və yollarını müəyyənləşdirməkdən, həmçinin kosmik fəzanın elmi cəhətdən öyrənilməsinə nail olmaqdan ibarətdir.

Elmi konfransda çıxış edən universitetin rektoru Elbrus İsayev ölkəmizdə elmin inkişafına göstərilən diqqət və qayğıdan danışıb. Qeyd edilib ki, elmin inkişafı strategiyasının işlənilməsi istiqamətində müasir fizikanın və ona bağlı olan elmlərin tətbiqi sahələr ilə əlaqəsinin aydınlaşdırılması və bu əlaqələrin müəyyənləşdirilməsi yollarının axtarılması zərurəti gündəmdədir. Rektor elmin müxtəlif sahələrinin kəsişməsində aparılan tədqiqatların səmərəliliyinin artmasına öz töhfəsini verəcək bu cür tədbirlərin əhəmiyyətini önə çəkib. Bildirilib ki, ali təhsil ocağında bakalavr üzrə Fizika və Fizika müəllimliyi, magistratura üzrə Fizika fənninin tədrisi, metodikası və metodologiyası, Yarımkeçiricilər fizikası, doktorantura üzrə isə Nəzəri fizika, Yarımkeçiricilər fizikası, Bərk cisimlər fizikası ixtisasları üzrə kadr hazırlığı həyata keçirilir. Elbrus İsayev bu ixtisaslar üzrə təhsil alan tələbələrin müvafiq laboratoriyalarda keçdikləri təcrübi dərslərin əhəmiyyətindən danışıb, konfransın işinə uğurlar arzulayıb.

Tədbirə onlayn qatılan AMEA-nın müxbir üzvü, fizika riyaziyyat elmləri doktoru, professor Əyyub Quliyev Günəş sistemində naməlum planet problemi mövzusunda çıxışında planentlərin kəşfindən danışıb. Qeyd edilib ki, Günəş sistemində axırıncı böyük planet olan Neptun 1846-cı ildə fransız və ingilis alimləri tərəfindən kəşf olunub. Növbəti planetin axtarışına 170 ilə yaxın vaxt sərf olunsa da, bu sahədə müsbət nəticə əldə edilməyib. Bu nəzəriyyəyə görə növbəti planet Günəşdən təxminən 150 milyon kilometrə bərabərdir ki, planet bu məsafədə böyük meyil bucağı altında hərəkət edir. Bildirilib ki, planet komet sistemində müəyyən təlatümlər yaradır ki, onların da aşkar edilməsi üçün müəlliflər tərəfindən riyazi alqoritmlər işlənib. Professor diqqətə çatdırıb ki, araşdırmalara əsasən planetin kütləsinin Yerin kütləsinə nisbətən bir neçə dəfə böyük olması ehtimal olunur.

Konfransda onlayn çıxış edən "Dəyişən dərəcəli funksional fəzalarda qeyri-xətti hiperbolik tənliklərin qlobal həllinin varlığı və yoxluğu" mövzusunda Differensial tənliklər şöbəsinin müdiri, fizika-riyaziyyat elmləri doktoru, professor Əkbər Əliyev qeyri-xətti hiperbolik operatorlar üçün birtərəfli məsələlərin qlobal həll olunması şərtlərini müəyyən edib. Professor qeyri-xətti hiperbolik tənliklər üçün Koşi məsələsinin və qarışıq məsələnin həll olunması və keyfiyyət nəzəriyyəsinin tətbiqi üçün üsullar haqqında ətraflı məlumat verib.

Elmi konfransa onlayn qoşulan Azərbaycan Dövlət Pedaqoji Universiteti Ümumi fizika kafedrasının dosenti, fizika elmləri doktoru Aydın Ələkbərov "Fizikanın müasir problemləri" mövzusunda çıxışında qeyd edib ki, elmin inkişafı strategiyasının işlənilməsi istiqamətində müasir fizikanın və ona bağlı olan elmlərin tətbiqi sahələr ilə əlaqəsinin aydınlaşdırılması və bu əlaqələrin müəyyənləşdirilməsi yollarının axtarılması zərurəti yaranıb. Bildirilib ki, təbiət haqda elm olan fizikanın qanunauyğunluqları təbiətdə baş verən bütün hadisələrin, canlı və cansız materiya ilə qarşılıqlı əlaqələrin öyrənilməsində, elmi-texniki tərəqqinin inkişafında aparıcı rol oynayır.

Naxçıvan Dövlət Universiteti Ümumi və nəzəri fizika kafedrasının dosenti, fizika üzrə fəlsəfə doktoru Xanəli Həsənov Yerin forması və oxu ətrafında fırlanmasına dair bəzi qeydləri tədbir iştirakçılarının nəzərinə çatdırıb. Çıxışda qeyd edilib ki, cismin çəkisi ağırlıq qüvvəsindən azdır, oxu ətrafında fırlanan massiv göy cisimlərində basıqlıq əmələ gətirir, fırlanma periodu azaldıqca basıqlıq artır.

Sonda müəllim və tələbələrin sualları cavablandırılıb.

Konfrans Fizikanın aktual problemləri, Astronomiyanın aktual problemləri, Riyaziyyatın aktual məsələləri adlı 3 bölmədə öz işini davam etdirib.

Qeyd edək ki, konfransın bölmə iclaslarında Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Milli Aviasiya Akademiyası Milli Aerokosmik Agentlik, Ekologiya İnstitutu, Bakı Dövlət Universiteti, Sumqayıt Dövlət Universiteti, AMEA Naxçıvan bölməsi, AMEA Naxçıvan Bölməsinin Batabat Astrofizika Rəsədxanası, Naxçıvan Universiteti, Naxçıvan Müəllimlər İnstitutunun əməkdaşları öz elmi məqalələri ilə çıxış ediblər.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# "NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA SƏNAYENİN DAVAMLI İNKİŞAFINDA İNNOVASİYALARIN ROLU" MÖVZUSUNDA RESPUBLİKA ELMİ KONFRANSI KEÇİRİLİB

Konfransı açıq elan edən ali təhsil ocağının rektoru Elbrus İsayev qeyd edib ki, sənaye sahəsində rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalının təşviqi, innovasiyalara əsaslanan yeni müəssisələrin qurulması və uğurların artırılması üçün 2022-ci il muxtar respublikada "Sənaye ili" elan edilib. Vurğulanıb ki, son dövrlərdə muxtar respublikada iqtisadiyyatın bütün sahələrində olduğu kimi, sənayenin inkişafında da böyük uğurlar qazanılıb. Bildirilib ki, muxtar respublikanın əldə etdiyi sosial-iqtisadi uğurları həm də ölkəmizin məqsədyönlü regional inkişafı və davamlı milli iqtisadi quruculuq prosesləri fonunda strateji əhəmiyyətli göstərici olaraq dəyərləndirmək olar. Diqqətə çatdırılıb ki, hazırkı mərhələdə ənənəvi sənaye sahələri ilə yanaşı, yeni prioritet istehsal sahələrinin, sənaye parklarının yaradılması, regionda sənaye potensialının gücləndirilməsi, sənayenin innovasiyalar əsasında inkişafını təmin edən amillərdəndir ki, universitet ərazisində yaradılan Texnopark layihəsi buna bariz nümunədir.

İqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov "Naxçıvan Muxtar Respublikasında sənayenin davamlı inkişafı və innovasiya fəaliyyət subyektlərinin formalaşması" mövzusunda çıxış edib. Qeyd edilib ki, iqtisadiyyatın hərtərəfli inkişafını təmin etmək, yüksək texnologiyalar əsasında sənayenin davamlı inkişafına və şaxələndirilməsinə nail olmaq iqtisadi siyasətin əsas məqsədlərindən biridir. Son illər müasir dövrün tələblərinə uyğun həyata keçirilən uğurlu siyasət davamlı iqtisadiyyatın sənayeləşməsini və innovativ istehsalın inkişaf etdirilməsini daha da sürətləndirib.



Konfransa onlayn qoşulan UNEC-in iqtisad üzrə elmlər doktoru, professor Rəsul Balayev regionun davamlı inkişafına təsir edən amil və şərtlər və rəqəmsal iqtisadiyyat haqqında danışıb. Rəqəmsal iqtisadiyyatın qiymətləndirilmə meyarları, indikatorları və strukturu haqda danışan professor Azərbaycanda rəqəmsal iqtisadiyyatın inkişafı üçün görülən işlərin mühüm müsbət nəticələrini və əsas indikator olaraq tranzaksiya xərclərini şərh edib, rəqəmsal mühitdə rəqabət və tənzimləmə məsələlərinə toxunub.

Sonra iqtisad üzrə fəlsəfə doktoru, dosent Əli Cabbarovun "Naxçıvan Muxtar Respublikasında turizm sənayesinin inkişafında konfort standartlarının tətbiqi" mövzusunda çıxışı dinlənilib. Qeyd edilib ki, bu sahədə tətbiq edilən standartlaşma müəyyən olunan norma, qaydalar əsasında göstərilən turizm və rekreasiya servislərinin, həyata keçirilən işlərin turistlərin sağlamlığına və ətraf ekoloji mühitə göstərdiyi təhlükəsizliyi təmin etmək məqsədi daşıyır.

Daha sonra konfrans Sənayenin innovativ inkişafı, Sənaye iqtisadiyyatı və sosial iqtisadi inkişaf və Sənayenin davamlı inkişafı və turizmi adlı bölmə iclasları ilə davam edib.

**Məmmədbağır Dünyamalıyev**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# JURNALİSTİKA İXTİSASINDA TƏHSİL ALAN TƏLƏBƏLƏR ÜÇÜN NƏZƏRİ-PRAKTİKİ TƏLİM KEÇİRİLİB

Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin İctimai və siyasi məsələlər redaksiyasının redaktoru Kifayət Mahmudova Jurnalistika ixtisasının tələbələri üçün "Düzgün və səlis nitqin qaydaları" adlı təlim keçib.

"Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Şəhla Şirəliyeva qeyd edib ki, hamilik proqramı çərçivəsində imzalanan müvafiq sərəncamların icrası istiqamətində keçirilən təlim gələcəyin jurnalist kadrlarının yetişməsi üçün atılan növbəti addımlardandır. Təlimçi haqqında tələbələrə məlumat verən Şəhla Şirəliyeva düzgün nitqin formalaşmasında bu kimi təlimlərin əhəmiyyətindən də bəhs edib.

Təlimçi-jurnalist Kifayət Mahmudova düzgün tələffüs prosesi, intonasiya, orfoepik qaydalar, nitq mədəniyyətinin nəzəri mövzularını mövcud qaydalarla yanaşı, nümunələr əsasında izah edib. Artikulyasiyada yaranan problemlərin səbəbi, cümlədə heca və məntiqi vurğunun əhəmiyyəti, orfoepiyada jurnalistlər üçün bilinməsi vacib məqamlar, nitq mədəniyyətində diqqət edilməli keyfiyyətlər təlim iştirakçılarının nəzərinə çatdırılıb. Təlimçi eyni zamanda nitqi pozan səbəblər və bu səbəblərin aradan qaldırılma yollarını videolar, qrafik mətnlər üzərində göstərərək fasilənin, sürətin, emosionallığın, həyəcanın tarazlanmasına diqqəti çəkib.



Qarşılıqlı diskusiya formasında keçən nəzəri-praktiki təlimdə iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılıb.

**Fəxriyyə Səyyadova**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# TÜRK AĞSAQQALLARI BİRLİYİNİN, TƏRKİBİNDƏ MİLLƏT VƏKİLLƏRİNİN DƏ OLDUĞU NÜMAYƏNDƏ HEYƏTİ NAXÇIVANA SƏFƏR ÇƏRÇİVƏSİNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MUZEYİNİ ZİYARƏT EDİBLƏR

Türk Ağsaqqalları Birliyinin sədri və tərkibində millət vəkillərinin də olduğu nümayəndə heyəti Naxçıvanda səfər çərçivəsində Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, heykəlin önünə gül dəstələri qoyub hörmət və ehtiramlarını ifadə ediblər. Heydər Əliyev Muzeyi ilə tanışlıq zamanı muzeyin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Ramil Orucəliyev qonaqlara məlumat verib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini əks etdirən muzey 10 may 1999-cu ildən fəaliyyət göstərir. Muzey yarandığı dövrdə də 420 eksponatla fəaliyyətə başlasa da, bu gün muzey fondunda 5379 eksponat mövcuddur. Muzeyin kitabxanasında ümummilli liderin həyat və fəaliyyətini əks etdirən jurnal, albom və kitablar mühafizə və nümayiş olunur. Vurğulanıb ki, Ulu Öndərimizin dünyaya gəldiyi və ilk əmək fəaliyyətinə başladığı şəhərdə yaradılan muzey Ulu Öndərin sağlığında onun şərəfinə yaradılan ilk muzeydir.



Muzeyin direktoru ümummilli liderin həyatı və onun ictimai-siyasi fəaliyyəti barədə danışıb, muzeydə sərgilənən dəyərli eksponatlarla qonaqları tanış edib. İştirakçılara ümummilli liderin şərəfli ömür yolunu əks etdirən fotoşəkillər, dahi rəhbərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olarkən imzaladığı qərarlar, onun uşaqlıq və gənclik illərinə həsr olunmuş stendlər, xatirə əşyaları və digər dəyərli eksponatlar barədə ətraflı məlumat verilib. Muzeydə sərgilənən eksponatlar qonaqlar tərəfindən maraqla izlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, muzeyin həyatında ən əlamətdar hadisələrdən biri 1999-cu ilin oktyabr ayında ulu öndər Heydər Əliyevin muzeyin ekspozisiyası ilə tanış olmasıdır. Bu ziyarət zamanı çəkilmiş fotolar muzeyin dəyərli eksponatları siyahısındadır. Muzeyin xatirə kitabında dünyanın müxtəlif xalqlarının nümayəndələrinin Ulu Öndər haqqında yazdığı fikirlər də maraq doğurur.

Sonda qonaqlar Ulu öndərin zəngin və şərəfli ömür yolunu, ölkəmizin tərəqqisi uğrunda göstərdiyi xidmətləri özündə əks etdirən videokompozisiyaya baxıblar.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***



# AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN AKADEMİKİ SUDEİF İMAMVERDİYEV NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ USTAD DƏRSİ KEÇİB

Azərbaycan Ağsaqqallar Şurasının Sədri, Azərbaycan Respublikasının dövlət və elm xadimi, Yeni Azərbaycan Partiyasının yaradıcılarından biri, Azərbaycan Tibb Universitetinin Urologiya kafedrasının müdiri, uroloq, akademik Sudeif İmamverdiyev Tibb fakültəsinin müəllim və tələbələri üçün ustad dərsi keçib.

Tədbiri giriş sözü ilə açan ali təhsil ocağının rektoru Elbrus İsayev uzun illər tibb elminin inkişafında xüsusi xidmətləri ilə seçilən, ömrünün 64 illini həkimlik, 57 illini pedaqoji fəaliyyətə həsr edən akademiki salamlayıb. Bu kimi görüşlərin əhəmiyyətindən bəhs edən rektor elm sahəsində xüsusi rolu olan şəxslərlə keçirilən ustad dərslərin ali təhsil ocağında ənənə halı aldığını qeyd edib.

Akademik Sudeif İmamverdiyev görüşdən məmnunluğunu ifadə edib. Tədbirdə urologiya və nefrologiyanı əhatə edən ustad dərsində urologiyaya dair xəstəliklər, onların yaranma səbəbləri, əlamətləri, müalicəsindən ətraflı bəhs edilib. Böyrəklərin quruluşu, işləmə prinsipi, böyrəklərdə baş verən xəstəliklərin aşkarlanması üçün analizlərin aparılma qaydası, böyrək təzyiqinin yaranma səbəbləri, orqanizmdə zülalların miqdarı tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Sonda müəllim və tələbələrin mövzu ilə bağlı müxtəlif səpkili sualları Sudeif İmamvediyev tərəfindən cavablandırılıb.

Sonda Elbrus İsayev akademikə önəmli məlumatların yer aldığı ustad dərsinə görə universitetin təşəkkürnaməsini təqdim edib.

Qeyd edək ki, Azərbaycanda və xarici ölkələrdə tibb sahəsində görkəmli alim və cərrah kimi tanınan Sudeif İmamverdiyev urologiyanın ən ağır və aktual problemlərinə həsr olunan 375-dən çox elmi əsərin, o cümlədən 4 dərslik, 10 monoqrafiya, 5 metodik, 6 dərs vəsaitinin müəllifidir.

Əməyi dövlət tərəfindən yüksək qiymətləndirilən akademik ümummilli lider Heydər Əliyevin Sərəncamı ilə 2000-ci ildə "Şöhrət" ordeni, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə "Əməkdar elm xadimi" fəxri adına , "Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nə, "Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu" na layiq görülüb.

Tibb sahəsindəki səmərəli fəaliyyəti nəticəsində ölkənin hüdudlarından kənarda da tanınan akademik 1993-cü ildən Avropa Uroloqları Assosiasiyasının həqiqi üzvü, həmçinin 2002-ci ildə Gürcüstan Uroloqlar, 2007-ci ildə Türkiyə Androloqlar assosiasiyalarının fəxri üzvü seçilib. Sudeif İmamverdiyev, eyni zamanda, Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü olmaqla yanaşı tibb üzrə bir sıra beynəlxalq qurumlar tərəfindən müxtəlif medallarla təltif olunub.

**Fəxriyyə Səyyadova**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# MİLLƏT VƏKİLİ HİKMƏT BABAOĞLU MÜƏLLİM VƏ TƏLƏBLƏR ÜÇÜN USTAD DƏRSİ KEÇİB



Ali təhsil ocağının rektoru Elbrus İsayev qonağı salamlayaraq, universitetdə görməkdən məmnunluğunu ifadə edib. Qeyd edilib ki, artıq universitetdə bütün ixtisaslar üzrə ustad dərslərin keçirilməsi ənənə halını alıb ki, keçirilən bu görüş də həm müəllim, həm də tələbələr üçün xüsusi əhəmiyyətə malikdir. Rektor diqqətə çatdırıb ki, siyasi sahədə hər zaman öz sözünü deyən Hikmət Babaoğlunun bu sahədə müxtəlif dərs vəsaitləri də nəşr olunub. Oxuculara təqdim olunan bu dərsliklərdə xarici siyasətin elmi-nəzəri və konseptual əsasları öz əksini tapıb.

Universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov qonağı təqdim edərək qeyd edib ki, millət vəkili olan Hikmət Babaoğlu, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, siyasi elmlər doktoru, professor, Azərbaycan Jurnalistlər Birliyinin üzvü olmaqla yanaşı həmçinin, Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının politoloji aspektlərini kompleks şəkildə öyrənən ilk tədqiqatçıdır.

Daha sonra Hikmət Babaoğlu iştirakçıları salamlayaraq "Beynəlxalq münasibətlər", "Xarici siyasət", "Yeni dünya nizamı" kimi mövzularda çıxış edib. Bildirilib ki, müasir dövrdə milli dövlətlərin beynəlxalq münasibətlər sistemində yerini, rolunu, mövqeyini, iştirakçılıq səviyyəsini müəyyən edən başlıca strateji amillərdən biri həyata keçirilən xarici siyasət kursudur. Vurğulanıb ki, bir sıra nəzəri-konseptual mənbələrdə xarici siyasət, əsas etibarilə, daxili siyasətin davamı kimi səciyyələndirilir. Lakin bütövlükdə xarici siyasət spesifik xarakter daşıyır, yəni öz istiqamətləri, hədəfləri, məqsədləri və prioritetlərinə görə daxili siyasətdən fərqli xarakterə malik olan strateji vasitə kimi çıxış edir.



Qeyd olunub ki, xarici siyasət dedikdə ölkənin beynəlxalq müstəvidə, regional və qlobal miqyasda siyasi, iqtisadi, mədəni, humanitar, hərbi, təhlükəsizlik və digər sahələri əhatə edən strateji maraqlarının təmin olunmasına xidmət edən milli fəaliyyət növü nəzərdə tutulur. Yeni dünya nizamı haqqında danışan Millət vəkili qeyd edib ki, Azərbaycan özünə perspektivli yer təyin edib. Vurğulanıb ki, Azərbaycan həyata keçirdiyi məqsədyönlü, strateji diplomatiya sayəsində dünya siyasətinin cazibə mərkəzlərindən birinə çevrilməkdədir. Bunun əsas səbəblərindən biri Prezident İlham Əliyevin dünya siyasətində baş verən dəyişiklikləri düzgün qiymətləndirmək və bu kontekstdə mili təhlükəsizliyimizi, milli maraqlarımızı yeni çağırışlarla uzlaşdıra bilmək bacarığıdır.

Müəllim və tələbələrin suallarına cavablandırıldıqdan sonra Sonda Elbrus İsayev millət vəkilinə ustad dərsin təşkilinə görə universitetin təşəkkürnaməsini təqdim edib.

**Məmmədbağır Dünyamalıyev**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# "GƏNCLİYİN MİSSİYASI: DÖVLƏTÇİLİYƏ SƏDAQƏT" LAYİHƏSİNİN NÖVBƏTİ QONAĞI AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN DEPUTATI RAMİL HƏSƏN OLUB

Naxçıvan Dövlət Universitetində Yeni Azərbaycan Partiyası Universitet Şəhərciyi Ərazi Partiya Təşkilatı və ali təhsil ocağının Tələbə Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə "Gəncliyin missiyası: Dövlətçiliyə sədaqət" layihəsi çərçivəsində "Gənclər və Azərbaycanın xarici siyasəti" mövzusunda növbəti tədbir keçirilib. Tədbirdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi, Türkdilli Dövlətlərin Parlament Assambleyasının sabiq baş katibi Ramil Həsən tələbə-gənclərlə görüşüb.

Ali təhsil ocağının rektoru Elbrus İsayev çıxış edərək bildirib ki, gənclər siyasəti dövlət siyasətinin mühüm və ayrılmaz tərkib hissəsidir. Qeyd olunub ki, bu gün cəmiyyətimizdə savadlı, müasir dünyagörüşlü, vətənpərvər gənc kadrların formalaşdırılması mühüm dövlət siyasətinin tərkib hissəsi kimi qəbul olunmaqdadır. Diqqətə çatdırılıb ki, Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində kifayət qədər fəaldır. Onlar ölkə rəhbərliyinin siyasi, iqtisadi, humanitar, sosial istiqamətlər üzrə həyata keçirdiyi tədbirlərə hər zaman dəstək verir, cəmiyyətdə dayanıqlı sabitliyin və ardıcıl inkişafın təmin olunmasında yaxından iştirak edirlər.

Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi partiya təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru Arzu Abdullayev müasir gəncliyin müstəqil dövlətçiliyin inkişafındakı aparıcı rolundan danışıb. Qeyd edilib ki, gənclər cəmiyyətin aparıcı, daim axtarış və yeniliyi sevən qüvvəsidir.



Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi, Türkdilli Dövlətlərin Parlament Assambleyasının sabiq baş katibi Ramil Həsən çıxış edərək bildirib ki, bu gün böyük iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi qoruyub yaşadır. Onlar öz həyatını qurarkən, ilk növbədə, müstəqil Azərbaycanın bu günü və gələcəyi haqqında düşünür, əməli fəaliyyətində yüksək vətəndaşlıq mövqeyi nümayiş etdirirlər. Qeyd olunub ki, müstəqil Azərbaycanın dövlət gənclər siyasəti ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Həyatı boyu, respublikaya rəhbərliyinin bütün dövrlərində ulu öndər sağlamdüşüncəli gəncliyin, bu dövlətə sahib dura biləcək bir nəslin yetişməsinə xüsusi əhəmiyyət verir, bu siyasəti müstəqil Azərbaycan dövlətinin ən mühüm fəaliyyət istiqamətlərindən biri kimi dəyərləndirirdi. Əminik ki, Azərbaycan gəncliyi öz uğurlu missiyasını davam etdirir, azad edilmiş torpaqlarımızı qarlı-şaxtalı səngərlərdə göz bəbəyi kimi qoruyur. Əminik ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Qarabağın çiçəklənməsində, tarixi torpaqlarımızın dirçəldilməsində də gənclərimiz yaxından iştirak edəcək. Heç şübhəsiz ki, Naxçıvan Dövlət Universitetinin fəal tələbə-gəncləri də bu sahədə öz sözünü deyəcək, nələrə qadir olduqlarını ən gözəl şəkildə nümayiş etdirəcəklər.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Məmmədbağır Dünyamalıyev**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

## TƏLƏBƏLƏRİN DÖVLƏTÇİLİYƏ SƏDAQƏT RUHUNDA TƏRBİYƏ OLUNMASI DİQQƏTDƏ SAXLANILIR

Naxçıvan Dövlət Universitetində Yeni Azərbaycan Partiyası Universitet Şəhərciyi Ərazi Partiya Təşkilatı ilə ali təhsil ocağının Tələbə-Gənclər Təşkilatının birgə "Gəncliyin missiyası: dövlətçiliyə sədaqət" layihəsi fərqli formatda keçirilməsi ilə yadda qalıb. Bu çərçivədə növbəti tədbir ali təhsil ocağının İqtisadiyyat və idarəetmə fakültəsinin önündə açıq havada təşkil olunub.



YAP Universitet Ərazi Partiya Təşkilatının sədri Arzu Abdullayev çıxışında qeyd edib ki, əsası ulu öndər tərəfindən qoyulan dövlət gənclər siyasətinin nəticəsidir ki, bu gün ölkəmizdə idarəetmə bacarığı ilə seçilən intellektual, dünyagörüşlü, vətənpərvər yeni nəsil yetişib. Bildirilib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ötən il Aəzrbaycan xalqı və Silahlı Qüvvələri Ermənistanın təxribatlarına cavab olaraq respublikamızın ərazi bütövlüyünün bərpası, tarixi topraqlarımızın işğaldan azad olunması uğrunda müqəddəs savaşa qalxaraq 44 gün ərzində düşmənin dərsini layiqincə verdi, ona dəmir yumruğunu göstərdi. Bu, Azərbaycanın işğal olunmuş tarixi torpaqlarının son iki yüz il ərzində ilk dəfə güc yolu ilə azad edilməsinin bariz nümunəsidir.

Layihənin ilk qonağı qismində çıxış edən universitetin rektoru Elbrus İsayev qeyd edib ki, Ulu öndərin milli ideologiyasının əsasında dayanan dövlət gənclər siyasəti əsrlər boyu xalqımızın malik olduğu milli-mənəvi dəyərlər əsasında müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsindən ibarət olub. Milli dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, demokratik cəmiyyət quruculuğu, siyasi, hüquqi və iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı ümummilli liderin ideyaları və irəli sürdüyü prinsiplər Azərbaycanın hazırkı və gələcək inkişaf strategiyasının əsasını təşkil edib. Vurğulanıb ki, gənclik ulu öndər tərəfindən əsası qoyulan gənclər siyasətini uğurla həyata keçirən ölkə Prezidenti ətrafında sıx birləşib, milli təəssübkeşlik, vətənpərvərlik nümunəsi ortaya qoymalı, xalqımıza, milli dövlətçiliyimizə zərər verməyə çalışan xarici qüvvələrə və onların daxildəki havadarlarına layiqli cavab verməyi bacarmalıdır. Çünki müstəqil Azərbaycan dövlətini qorumaq, dövlətə sahib çıxmaq hər bir Azərbaycan vətəndaşının ilkin vəzifəsidir. Rektor gənclərə öz tarixi keçmişimizlə fəxr etməyi və gələcək nəsillərə çatdırmağı tövsiyyə edib.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

## "BEYNƏLXALQ JURNALİSTİKADA XƏBƏRÇİLİK" MÖVZUSUNDA VEBİNAR KEÇİRİLİB

Tədbiri giriş sözü ilə açan "Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Şəhla Şirəliyeva universitetin jurnalist məzunlarından olan Kazım Kazımov haqqında məlumat verib. Bildirilib ki, o hal-hazırda Türkiyə Respublikasının Milli Media qrupunun Xarici siyasət departamentinin redaktoru vəzifəsində fəaliyyət göstərir.

Beynəlxalq jurnalistika və xəbərçilik haqqında məlumat verən Kazım Kazmov qeyd edib ki, internet, media, peyk yayım sistemi, başqa texnoloji yeniliklər dünyanın bütün nöqtələrini əlçatan edib. Dünyanın ən ucqar nöqtəsində baş verən hadisə bir an içində bütün bölgələrdə və qitələrdə yaşayan əhaliyə çatdırılır. Diqqətə çatdırılıb ki, universallaşma günü-gündən sürətlənir, bir çox ideyalar ümumbəşəri xarakter alır.



Vebinarda dünyada baş verən müharibələr zamanı jurnalistlərin təhlükəsizliyinin təmin olunması, beynəlxalq dərəcəli jurnalist olmaq üçün qoyulan tələblər, ekstremal şəraitdə və fövqəladə vəziyyətdə hazırlanan xəbərlərin doğruluq prinsipinə əməl olunma qaydaları və digər suallar ətraflı cavablandırılıb.

**Sevinc Hüseynova**
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

## YILDIZ TEXNİKİ UNİVERSİTETİ İLƏ "NANOBİOTEXNOLOGİYA VƏ SAĞLAMLIQ TƏTBİQLƏRİ" MÖVZUSUNDA VEBİNAR KEÇİRİLİB

Vebinarda çıxış edən Naxçıvan Dövlət Universitetinin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov iki ali təhsil ocağı arasındakı beynəlxalq əməkdaşlıqdan söz açıb. Diqqətə çatdırılıb ki, ötən il universitetin bir qrup heyətinin qardaş Türkiyəyə səfəri çərçivəsində Yıldız Texniki Universiteti ilə təhsil sahəsində bir sıra müqavilələr imzalanıb. Prorektor iki universitet arasında mütəmadi olaraq müxtəlif sahələr üzrə onlayn görüşlərin keçirildiyini vurğulayaraq, bu kimi tədbirlərin qarşılıqlı təcrübə mübadiləsinin aparılması baxımından önəmini qeyd edib.

Tibb fakültəsinin dekanı Elsevər Əsədov qonaq haqqında məlumat verərək qeyd edib ki, Yıldız Texniki Universiteti Kimya-Metallurgiya Fakültəsi, Biomühəndislik Bölməsinin professoru Serap Acar Dermanın əsas fəaliyyət istiqaməti nanomateriallar, biomateriallar, sintetik peptid kimyası, nəzarət edilən dərman buraxılışı, dərman daşıma sistemləri və sisteik peptid vaksinləri və hədəflənmiş dərmandır. Diqqətə çatdırılıb ki, onun beynəlxalq jurnallarda 667 dəfədən çox istinad edilən 35-dən çox məqaləsi dərc olunub. Bildirilib ki, professor 5 icmal məqaləsi, 1 kitab bölməsi, 5 patent müraciəti, 50-dən çox milli və beynəlxalq konfrans məqaləsinin müəllifidir.




Sonra nanotexnologiya və biotexnologiya haqqında məluamt verən professor Serap Acar Derman nanotexnologiyanın tarixi inkişafı, biotexnologiya nədir, nanobiotexnologiyanın üstünlükləri, bəzi tətbiq sahələri barədə danışıb. Professor nanohissəcik nədir, nanohissəciklərin istehsal üsulları, növləri, polimer nanohissəciklər, onların üstünlükləri, nanoçökmə üsulu, metal nanohissəciklərin sintezində bitkilər, bitkilərdə nanohissəciklərin sintezi və digər məsələləri slayd vasitəsilə ətraflı şəkildə izah edib. Serap Derman, həmçinin həyata keçirilən layihələr və görülən işlər barədə tədbir iştirakçılarını məluamatlandırıb.

Sonda Naxçıvan Dövlət Universiteti və Yıldız Texniki Universiteti arasındakı əməkdaşlıq çərçivəsində keçirilən "Nanobiotexnologiya və sağlamlıq tətbiqləri" adlı vebinar təlim keçdiyinə görə Serap Acar Dərmana universitetin təşəkkürnaməsi onlayn formada təqdim olunub.

**Fəxriyyə Səyyadova**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

## "AUDİTORİYADAN REDAKSİYAYA APARAN YOL" ADLI GÖRÜŞ OLUB

"Şərq qapısı" qəzetində Naxçıvan Dövlət Universitetinin hamiliyə verilmiş Jurnalistika ixtisasının IV kurs tələbələrinin istehsalat təcrübəsinin yekununa həsr olunmuş tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan "Şərq qapısı" qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti, filologiya üzrə fəlsəfə doktoru Mehriban Sultan açaraq bildirib ki, diyarımızda jurnalistikaya olan dövlət qayğısı və media siyasəti paralel şəkildə aparılır. Bunun bir istiqamətini də gənc jurnalist kadr potensialının formalaşdırılması təşkil edir. Naxçıvan Dövlət Universitetində 20 ildən artıqdır ki, fəaliyyət göstərən Jurnalistika ixtisası bu sahədə mühüm rol oynayır. Bu ixtisasın məzunları bu gün jurnalistika sahəsinin ən aparıcı mövqelərində fəaliyyət göstərirlər, müxtəlif vəzifələrdə çalışırlar.




Qeyd olunub ki, universitetdə Media Mərkəzinin fəaliyyəti ölkənin ali təhsil tarixində analoqu olmayan hadisədir ki, burada ixtisas tələbələri üçün hərtərəfli fundamental, praktik baza formalaşıb. Burada Media Mərkəzi adı altında radiojurnalistikanı öyrənmək baxımından "Nuhçıxan" radiosu, mətbəə-nəşriyyat işini öyrənmək üçün "Qeyrət" nəşriyyat, televiziya jurnalistikasını öyrənmək baxımından Universitet televiziyası, qəzetçilik üslubunu öyrənmək baxımından "Yeni fikir" qəzeti, universitetin mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi jurnalist kadrların formalaşmasına ən böyük diqqətdir. Hazırda universitet televiziyası muxtar respublika üzrə yayımlanır. Bu özü həm böyük məsuliyyət, həm böyük etimad, həm də böyük təşəbbüs deməkdir ki, bütün bunlar gənc jurnalist tələbələrin çiyinləri üzərində formalaşır, inkişaf edir. Həmin jurnalist kadrlar orada yetişib, gəlib bizimlə bir sırada uğurla fəaliyyət göstərirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair Sərəncamlarından irəli gələn vəzifələrin icrası istiqamətində görülən işlərdən danışan Mehriban Sultan bildirib ki, hazırda muxtar respublikanın digər KİV-ləri kimi "Şərq qapısı" qəzeti də Jurnalistika ixtisasının tələbələrinə hamilik edir. Mütəmadi olaraq tələbələrlə görüşlər, yaradıcılıq müzakirələri keçirilir, onların məqalələri "Estafet" rubrikası altında qəzetdə dərc olunur. Növbəti istehsalat təcrübəsinin də tələbələrimiz üçün faydalı olacağına əminliyini bildirən qəzetin baş redaktoru Mehtiban Sultan mətbuatın inkişafına göstərilən yüksək diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin dekanı, dosent Arif Ağalarov çıxışında muxtar respublikada tələbələr üçün yaradılan şəraitdən danışıb, Jurnalistika ixtisasında təhsil alan tələbələrin təcrübələrə həvəslə cəlb olunmasını yüksək qiymətləndirib.

Qeyd olunub ki, muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafına, ali təhsilli jurnalist kadrların hazırlanmasına dövlət qayğısının ifadəsi olaraq 2001-ci ildən universitetdə Jurnalistika ixtisası fəaliyyətə başlayıb, 2002-ci ildə Jurnalistika və dünya ədəbiyyatı kafedrası yaradılıb, 2005-ci ildən etibarən Mətbuat tarixi və Radiotelejurnalistika ixtisasları üzrə magistr hazırlığına başlanıb. Bu gün məzunlarımız ölkəmizdə, eləcə də muxtar respublikamızda müxtəlif kütləvi informasiya vasitələrində çalışırlar. Bildirib ki, ixtisaslı kadrların yetişməsində nəzəri biliklərin vacibliyi ilə yanaşı aparılan təcrübələr, əsas diqqət mərkəzində olan məsələlərdəndir. müvafiq sərəncamdan irəli gələn vəzifələrin icrası, hami təşkilatların əməkdaşlarının Jurnalistika ixtisasının tələbələri ilə mütəmadi görüşlərinin keçirilməsi muxtar respublikada peşəkar jurnalistlərin yetişməsinə şərait yaradır.

Görüşdə Naxçıvan Dövlət Universitetinin dosenti, IV kurs Jurnalistika ixtisası tələbələrinin təcrübə rəhbəri İman Cəfərovun "Qəzet jurnalistikasının öyrənilməsi üçün fundamental təcrübi baza", Qəzetin əməkdaşları Nail Əsgərovun "Ənənəvi mətbuat kimi informasiya rəqabətində üstünlüyü necə qoruyub saxlamalı", Güntac Şahməmmədlinin "Şərq qapısı" qəzeti timsalında ictimai-siyasi mətbuat orqanlarında istifadə olunan publisitik janrlar" adlı çıxışları dinlənilib.

Sonda Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi Səma Tağıyeva istehsalat təcrübəsinin əhəmiyyətindən danışıb, belə tədbirlərin tələbələrin praktiki biliklər əldə etməsində böyük əhəmiyyəti daşıdığını vurğulayaraq redaksiya kollektivinə təcrübə müddətində göstərdiyi yaradıcılıq dəstəyinə görə minnətdarlıq edib.

**Gülcamal Tahirova**

## TƏLƏBƏ GƏNCLƏR TƏŞKİLATI İLƏ "VƏTƏNDAŞ CƏMİYYƏTİNDƏ DEBAT"(DVC) İCTİMAİ BİRLİYİ ARASINDA ONLAYN GÖRÜŞ KEÇİRİLİB

Universitetin Tələbə Gənclər Təşkilatının sədri Əziz Qasımov tələbələr arasında təşkil edilən belə görüşlərin onların təcrübələrinin artmasına və dünyagörüşlərinin formalaşmasına müsbət təsir göstərdiyini bildirib. Qeyd edilib ki, görüş tərəfdaşlar arasında birgə layihə və proqramların həyata keçirilməsi, iş təcrübəsinin öyrənilməsi məqsədilə ictimai birliyin aparıcı proqramlarından olan Milli Debat Proqramı çərçivəsində müxtəlif sahələr üzrə debat yarışlarının, forumların, gənclərin səlis nitq və fikri ifadə etmək bacarığının formalaşdırılmasına yönəldilmiş proqramların keçirilməsini nəzərdə tutur.




Məlumat üçün bildirək ki, "Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyi fəaliyyətdə olduğu 20 il ərzində yerli və beynəlxalq biznes strukturları, dövlət qurumları, eləcə də beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. DVC-nin Milli Debat Proqramı debat metodologiyası vasitəsilə gənclərin və yeniyetmələrin fərdi inkişafına və maariflənməsinə yönələn ölkə səviyyəli proqramdır. Proqram respublikanın 45 rayonunu və bütün böyük şəhərləri əhatə etməklə, 12 regional debat mərkəzini, ali və orta təhsil müəssisələrində yaradılmış debat klublarını özündə birləşdirir.

**Məmmədbağır Dünyamalıyev**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***



## TƏLƏBƏLƏR "SƏNAYE İLİ" İLƏ ƏLAQƏDAR İSTEHSALAT MÜƏSSİSƏLƏRİNDƏ OLUBLAR

Sənaye sahəsində rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalının təşviqi, innovasiyalara əsaslanan yeni müəssisələrin qurulması və uğurların artırılması üçün 2022-ci il muxtar respublikada "Sənaye ili" elan edilib, bununla bağlı Tədbirlər Planı təsdiq olunub. Bu münasibətlə Ali təhsil ocağının Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə tələbələr Naxçıvan şəhərində yerləşən sənaye müəssisələri ilə tanış olublar.

Naxçıvan Avtomobil Zavodunda olan tələbələrə avtomobil sənayesində tətbiq edilən yüksək səviyyədə dizayn, təhlükəsizlik və ekoloji normalara uyğun ən müasir avtomobillərin istehsalı ilə bağlı məlumat verilib. Qeyd olunub ki, istehsal prosesində Almaniya, İtaliya və Belçikadan gətirilən ən son texnoloji avadanlıqlardan istifadə edilir ki, bu da öz növbəsində hər il yeni model avtomobillərin istehsal edilməsinə təkan verir. Həmçinin o da bildirilib ki, Çinin "FAW İndustrial Group" avtomobil istehsalçısı ilə bağlanan müqaviləyə əsasən hal-hazırda FAW markalı avtomobillərin istehsalına başlanılıb.

"Ləzzət biskvit və şokolad fabriki" MMC ilə tanışlıq zamanı müəssisədə gedən ümumi iş prosesinin mahiyyəti, məhsulların istehsal mərhələləri haqqında mütəxəssislər ətraflı məlumat verib. İstehsal prosesi ilə əyani formada tanış olan tələbələr istehsalın gigiyenik qaydalara əməl olunmaqla aparılmasına şahidlik ediblər.

"Gəmiqaya sənayə kompleksi" MMC-də diqqətə çatdırılıb ki, sənaye kompleksi fərdi bir müəssisə kimi fəaliyyətə başlayaraq, 2004-cü ildən Gəmiqaya sənaye kompleksi MMC adı ilə bu sektorda xidmətlərini bu günə qədər davam etdirir. Qeyd edilib ki, firma 2010-cu ildən yeni metal qurğusundan istifadə edərək öz işlərini davam etdirməkdədir.

Daha sonra "Plastmas kapsul və qapaq" MMC-də olan tələbələr 7500 kvadratmetr sahəni əhatə edən müəssisədə Kanada istehsalı, avtomatlaşdırılmış avadanlıqlarla yaxından tanış olublar. Bildirilib ki, gücü ildə 60 milyon ədəd kapsul, 80 milyon ədəd plastik qapaq olan istehsal xəttində 10 çeşiddə plastik kapsul və bir çeşiddə plastik qapaq istehsal olunur.

Sonda "Tudor logistika və sənaye mərkəzi" MMC ilə tanışlıq zamanı diqqətə çatdırılıb ki, 3 istehsal sahəsini əhatə edən müəssisədə 1229 kvadratmetrlik bir ərazini qənd istehsalı və şəkər tozu qablaşdırılması, 880 kvadratmetrlik bir ərazini dənli və paxlalı bitkilərin qablaşdırılması, 1147 kvadratlıq ərazini isə çay qablaşdırma sahəsi əhatə edir. Vurğulanıb ki, mərkəzdə istifadə olunan cihazlar Avropa standartlarına cavab verən, Türkiyə Respublikasının istehsalı olan avadanlıqlardır.

**Məmmədbağır Dünyamalıyev**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***



## TANINMIŞ HÜQUQŞÜNAS-ALİM, PROFESSOR MƏHƏBBƏT DƏMİRÇİYEVA TƏLƏBƏLƏR ÜÇÜN MÜLKİ VƏ AİLƏ HÜQUQU HAQDA TƏLİM KEÇİB

Ali təhsil ocağının Beynəlxalq münasibətlər və hüquq fakültəsində keçirilən görüş zamanı universitetin rektoru Elbrus İsayev qonağı salamlayaraq qeyd edib ki, Naxçıvan Dövlət Universiteti Azərbaycanda Hüquq ixtisası üzrə kadr hazırlığı həyata keçirən azsaylı ali təhsil ocaqlarından biridir. Vurğulanıb ki, ali təhsil ocağında tədrisi həyata keçirilən "Hüquqşünaslıq" ixtisası 25 ildir ki, muxtar respublikanın bu sahəyə olan kadr hazırlığını təmin edir. Təsadüfi deyil ki, muxtar respublikanın hüquq-mühafizə orqanları əməkdaşlarının bir çoxu universitetdən məzun olan kadrlardır. Rektor professor haqqında danışarkən bildirib ki, işinin peşəkarı, bu sahədə öz sözünü deyən Məhəbbət Dəmirçiyeva Azərbaycanda mülki hüquq üzrə yeganə xanım hüquqşünasdır. Elbrus İsayev universitetə bağışladığı 50-dən artıq kitaba görə professora öz təşəkkürünü bildirərək, tələbələrin bu kitablardan səmərəli formada faydalanacağına əminlik ifadə edib.

Sonra professor universitetdə yaradılan şəraitə, xoş qarşılanmaya görə minnətdarlığını bildirərək seminara başlayıb. Mülki hüquq və ailə hüququ haqqında məlumat verən hüquq elmləri doktoru Məhəbbət Dəmirçiyeva qeyd edib ki, Mülki hüquq fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini, onların əmlak və şəxsi qeyri əmlak hüquqlarının əmələ gəlməsi əsaslarını, həyata keçirilməsi və xitam verilməsi qaydalarını müəyyənləşdirir. Bildirilib ki, ailə, əmək münasibətləri, təbii ehtiyatlardan istifadə, ətraf mühitin mühafizəsi, müəlliflik hüququ ilə bağlı münasibətlər mülki qanunvericilik və başqa hüquqi aktlar ilə tənzimlənir. Diqqətə çatdırılıb ki, istər sahibkarlıq fəaliyyəti ilə məşğul olan və olmayan hər hansı fiziki və ya hüquqi şəxslər isə mülki hüquq münasibətlərinin subyektləri ola bilərlər. Professor ailə hüququ haqqında danışarkən qeyd edib ki, hüquq sahəsi olaraq ailə hüququ ictimai münasibətlərin müəyyən növünü - ailə münasibətlərini, yəni nikah faktından meydana gələn və ailəyə mənsub olan münasibətləri tənzim edir.

Sonda professor tədbir iştirakçılarını maraqlandıran sualları cavablandırıb.

**Məmmədbağır Dünyamalıyev**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

## ALMAN DİLÇİSİ VƏ AZAD BERLİN UNİVERSİTETİNİN FƏXRİ PROFESSORU EKKEHARD KÖNİGİN İŞTİRAKI İLƏ VEBİNAR KEÇİRİLİB



Ali təhsil ocağının Xarici dillər fakültəsində həmin fakültənin müəllimi Nuri Ələviyyənin təşkilatçılığı ilə keçirilən onlayn görüş zamanı Avropa Akademiyasının üzvü, Beynəlxalq Əməkdaşlıq üçün Maks Plank Tədqiqat mükafatçısı, linqvistik tipologiya, semantika və ingilis dilinin dilçiliyi üzrə ixtisaslaşmış Ekkehard König "İngilis dilinin tipoloji portreti: İngilis dilini digər dillərdən fərqləndirən nədir?" mövzusunda vebinar keçib. İngilis dilinin tarixi və bu günkü rolundan danışan professor qeyd edib ki, müasir dövrdə ingilis dili siyasi danışıqlar və biznes dilinə çevrilib. Beynəlxalq razılaşmalara əsasən təyyarələrdə işləyən bələdçilər ingilis dilini bilməlidir. Bildirilib ki, Cənubi Amerika və Avropa məktəblərində ən çox tədris olunan dil ingilis dilidir. Filippində və Yaponiyada uşaqlar ingilis dilini ən kiçik yaşlarından öyrənməyə başlayırlar. İngilis dili Britaniya, Kanada, Birləşmiş Ştatlar, Avstraliya və Cənubi Afrika daxil olmaqla 75-dən çox ölkənin rəsmi dilidir. Diqqətə çatdırılıb ki, müxtəlif dillərin danışıldığı ölkələrdə insanların bir-biri ilə ünsiyyətini təmin etmək üçün çox vaxt ingilis dili rəsmi dövlət dili kimi çıxış edir. Daha sonra professor tərif, eyniləşdirmə, müqayisəliliyin qurulması, müəyyən artikllərin işlənməsində sintaktik müxtəliflik, nominal ifadələrdə müəyyən artikllərin çoxlu istifadəsi və.s kimi mövzularda iştirakçıları məlumatlandırıb.

Xarici dillər fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Şirməmməd Qulubəyli Ekkehard Königə müəllim və tələbələr adından minnətdarlıq edib.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Məmmədbağır Dünyamalıyev**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

## NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN TEXNOLOGİYALAR PARKININ VƏ REKTORLUQ BİNASININ TİKİNTİSİ DAVAM EDİR

Muxtar respublikamızda həyata keçirilən kompleks tikinti quruculuq işlərindən bu gün diyarımızın ən prestijli təhsil ocağı olan Naxçıvan Dövlət Universitetinin də payına düşüb. Məlumat üçün bildirək ki, ali təhsil ocağının nəzdində inşa edilən Azərbaycan təhsil sahəsində bir ilk olan, Naxçıvan Muxtar Respublikası Ali Məclis Sədrinin 2020-ci il 14 dekabr tarixli "Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması haqqında" Sərəncamından irəli gələn vəzifələrin icrası istiqamətində tikintisinə başlanılan Texnologiyalar Parkının və yeni Rektorluq inzibati binasının inşası sürətlə davam edir.





Universitetin Rektorluq inzibati binasının tikintisinə ötən ildən başlanılıb. Üç mərtəbədən ibarət olan binada ali təhsil ocağının bütün struktur bölmələrinin yerləşdirilməsi nəzərdə tutulub. Bununla belə, binada kabinet və iş otaqları ilə yanaşı, enerji diplomatiyası mərkəzi, senat otağı, universitet muzeyi və yeməkxananın yerləşməsi nəzərdə tutulmuşdur.

Bununla yanaşı ali təhsil ocağının Texnologiyalar Parkının əsas binasında da tikinti prosesləri sürətlə davam edir. Diqqətə çatdıraq ki, yeni qurulacaq texnoparkda Energetika sahəsi, Gülkarlıq sahəsi, Biopark binası, Texnopark binası, Tingçilik sahəsi, Nəbatat bağı, Hovuz sahəsi, Kənd təsərrüfatı və Aqronomluq sahəsi, Coğrafiya sahəsi, Üzümçülük sahəsi, Meliorasiya sahəsi, Arıçılıq sahəsi, Tədris otaqları və Sərgi sahəsi fəaliyyət göstərəcəkdir. Texnoparkın binasının isə zirzəmi ilə birlikdə, ümumilikdə, 5 mərtəbədən ibarət olması nəzərdə tutulmuşdur.

Binanın zirzəmisində texnoservis mərkəzi, nano araşdırmalar mərkəzi, proqramlaşdırma və avtomatlaşdırma otağı, biotexnologiyalar mərkəzi, prototip mərkəzi, kafe və təsərrüfat otağının yerləşdirilməsi nəzərdə tutulmuşdur.

Binanın birinci mərtəbəsində Şərur sənaye məhəlləsi, Naxçıvan Məhsulları, Microsoft şirkətinin ofisi, Naxtel 4G operatorunun ofisi, CİSCO şirkətinin ofisi, KOİCA şirkətinin ofisi, Bakunity şirkətinin ofisi, digər gələcək rezident şirkətlər üçün ofislər və qarderob nəzərdə tutulmuşdur.

İkinci mərtəbədə İnnovasiya mərkəzi, layihələrin əlaqələndirilməsi mərkəzi, İnformasiya Texnologiyaları xidmətləri mərkəzi, Süni intellekt elmi tədqiqat mərkəzi, İncəsənət, Dizayn və Memarlıq layihələri xidməti, Elektronika otağı, Texnopark direktoru və direktor müavini üçün iş otaqları nəzərdə tutulmuşdur.

Üçüncü mərtəbədə Biznes inkubatoru, İdeya bankı, Co-working mərkəzi, Startap mərkəzlərinin, dördüncü mərtəbədə isə 3 müzakirə otağı və 240 nəfərlik akt zalının yerləşdirilməsi nəzərdə tutulmuşdur. Biopark binasında isə Naxçıvan faunasına aid nümunələrin yerləşdiyi muzey, APİAİR müalicə sahəsi, Laboratoriya (arı südü, arı zəhəri istehsalı), 1 ədəd inzibati otaq, Arı mayalandırma sahəsi, barama yetişdirmə sahəsi, dovşan yetişdirmə sahəsi, ağ siçan yetişdirmə sahəsi və zəli yetişdirmə sahəsi nəzərdə tutulmuşdur.

**Məcid Əkbərov**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

## MUSİQİ KOLLECİNİN AŞIQ SƏNƏTİ İXTİSASI ÜZRƏ TƏLƏBƏLƏRİNİN NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ KONSERTİ OLUB

Universitetin Konservatoriyasında Musiqi Kollecinin Xalq çalğı alətləri şöbəsinin təşkilatçılığı ilə "Aşıq sənəti" ixtisası üzrə tələbələrin konserti tədbir iştirakçılarında xoş ab-hava yaradıb.



Kollecin müəllimləri Həsən Həsənli və Sərdar Qurbanov bədii rəhbərlik etdiyi konsertdə Aşıq sənəti sinfinin tələbələri aşıq havalarını ustalıqla ifa ediblər. Belə ki, "Osmanlı Divanisi", "Ayaq şəşəngi", "Naxçıvani", "Misri", "Şirvan müxəmməsi", bundan başqa "Baş sarıtel", "Rühani", "Səyyadı", həmçinin "Yanıq Kərəmi", "Baş müxəmməs" ifaları alqışlarla qarşılanıb. Kollecin müəllimi Həsən Həsənlinin ifasında "Türkü" konsert iştirakçılarına xüsusi ovqat bəxş edib.

Konsertin sonunda çıxış edən universitetin rektoru Elbrus İsayev gənclərin xalq yaradıcılığı məhsulu olan Aşıq sənətinə yiyələnərək onu yaşatmalı olduğunu bildirib. Qeyd olunub ki, UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilən bu qədim sənət növü muxtar respublikada yaşadılaraq gənc nəslə ötürülür. Naxçıvan Muxtar Respublikasında aşıq yaradıcılığına göstərilən diqqət və qayğıdan danışan rektor tədbirin təşkilini yüksək qiymətləndirərək bu kimi konsertlərin davamlı olmağını məsləhət görüb.

**Kamil İsgəndərli**
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

## UNİVERSİTETDƏ "FRANKOFONİYA GÜNLƏRİ" ÇƏRÇİVƏSİNDƏ NATİQLİK MÜSABİQƏSİ KEÇİRİLİB

Ali təhsil ocağının Xarici dillər fakültəsində keçirilən görüş zamanı Azərbaycan Fransız İnstitutunun direktor müavini Hakan (Conathan) Unlu Frankofoniya Günlərinin məqsədi və beynəlxalq strategiyası haqqında məlumat verib. Qeyd edilib ki, fransız dili tədrisinin daha genişləndirilməsi məqsədilə hər il Frankofoniya Günləri bütün dünya-



da, fransızdilli ölkələrdə, eləcə də fransız dilinin tədris edildiyi və öyrənildiyi ölkələrdə, o cümlədən Azərbaycanda qeyd olunur. Bildirilib ki, Frankofoniya Günləri çərçivəsində kino, sərgi, natiqlik müsabiqəsi, konfranslar, məktəblərdə görüşlər və digər tədbirlər təşkil olunur. Hakan (Conathan) Unlu universitetə 70-ə yaxın fransız dilli kitab hədiyyə edib.

Fransa, Litva və Mərakeşin Azərbaycandaki səfirləri münsiflər heyəti olaraq müsabiqəyə onlayn qoşulduqdan sonra Azərbaycn Fransız dili İnstitutunun tələbələr arasında təşkil etdiyi natiqlik müsabiqəsinə start verilib. Müsabiqə yalnız hazırda Naxçıvan Dövlət Universitetinin Fransız dili ixtisasında bakalavr və magistr pilləsində təhsil alan tələbələr üçün nəzərdə tutulub. Natiqlik müsabiqəsi 2 turda həyata keçirilib. 1-ci turda namizədlər 3 dəqiqəlik videoçəkiliş edib, redaktə etmədən, sabit planda qabaqcadan onlara verilən email ünvanına göndəriblər. Qeyd edək ki, 2-ci tur yəni final mərhələsində 5 ən yaxşı namizədin seçimi aparılıb. İştirakçılar final mərhələsində gender bərabərliyi, ətraf mühit, ekologiya, davamlı inkişaf, linqvistik müxtəliflik, Frankofoniyanın dəyərləri kimi mövzulardan birini seçərək həmin mövzu haqqında danışıblar. Bu mərhələdə namizədlərə öz çıxışlarını təqdim etmələri üçün 3 dəqiqə 30 saniyə vaxt verilib. Münsiflər heyəti iştirakçıların özlərini təqdim edib, mövzu haqqında çıxışlarına, söz bazası, sintaksis, tələffüz kimi şifahi ifadənin keyfiyyətinə və fikirlərin orjinallığı, nitqin təşkili, mövzuya münasibət kimi arqumentlərin keyfiyyətinə xüsusi diqqət yetiriblər.

Daha sonra münsiflər heyəti qalibi təyin ediblər.

Nəzərinizə çatdıraq ki, I yerdə qərarlaşan fransız dili müəllimliyi üzrə III kurs tələbəsi Sədaqət Babayeva cari ilin yayında uçuş, yaşayış yeri, yarım pansion, fəaliyyətlər daxil olmaqla Fransaya 2 həftəlik səyahət qazanıb. II yerə layiq görülən I kurs magistrant Aytac Ələkbərova Bakıda Azərbaycan Fransız dili İnstitutunda pulsuz fransız dili dərsləri almaq imkanı əldə edib. III, IV və V yerlərə layiq görülən tələbələr isə TotalEnergies tərəfindən təklif olunan kitablar da daxil olmaqla bir çox hədiyyələrlə mükafatlandırılıblar.

Universitetin ümumi işlər üzrə prorektoru Xəyal Camalov çıxışı zamanı münsiflər heyətinə müəllim və tələbələr adından minnətdarlığını bildirib.

Sonda tələbələrin sualları cavablandırılıb.

Məlumat üçün onu da bildirək ki, bu il, Frankofoniya Günləri Frankofoniyanın gənclərə və onların istəklərinə, xüsusən də sahibkarlıq, rəqəmsal texnologiya və davamlı inkişaf sahələrində dəstəyini vurğulamaq üçün "Gələcəyin frankofoniyası" mövzusu adı ilə qeyd olunur.

**Məmmədbağır Dünyamalıyev**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***



## UNİVERSİTETİN TƏLƏBƏLƏRİ "UĞURLU BİZNESDƏ REKLAM VƏ MARKETİNQ" MÖVZUSUNDA TƏLİMDƏ İŞTİRAK EDİBLƏR

Ali təhsil ocağının Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə əsasən İqtisadiyyat və idarəetmə fakültəsinin Marketinq ixtisasında təhsil alan tələbələrə "Sahibkarlıq piramidası" layihəsi çərçivəsində "Uğurlu biznesdə reklam və marketinq" mövzusunda təlim keçirilib.

"Nəqşicahan" holdinqin reklam və marketinq işləri üzrə direktor müavini Nəriman Qasımovun keçdiyi təlimdə Marketinq nədir?, marketinq planı nə üçün lazımdır?, reklam çağırışı necə olmalıdır?, sosial şəbəkələrdə məhsul tanıtımı üçün strategiya, sosial media marketinqinin planı kimi mövzular haqda məlumat verilib. Təlimçi bunlarla yanaşı SWOT, PESTEL və ABC analizi haqqında da danışıb. Qeyd edilib ki, marketinq mübadilə fəaliyyətini həyata keçirmək üçün bazarda aparılan məqsədyönlü fəaliyyətdir. Vurğulanıb ki, mübadilə prosesini effektiv həyata keçirmək üçün istehlakçıların tələbatlarının müəyyən edilməsi, bu tələbatlara uyğun məhsulların hazırlanması, məhsulların bazara çıxarılması, qiymətləndirilməsi, satışdan əvvəl və sonrakı xidmətin təşkili zamanı reklam fəaliyyəti tələb olunur və bütün bunlar marketinq tərəfindən həyata keçirilməlidir.

Sonda layihənin rəhbəri, İqtisadiyyatın tənzimlənməsi ixtisası üzrə I kurs tələbəsi Məhərrəm Həsənova diplom, təlimdə fəal iştirak edən gənclərə isə sertifikatlar təqdim edilib.

Məlumat üçün onu da bildirək ki, 80 tələbənin iştirak etdiyi təlim 3 saat davam edib. İki mərhələdə keçirilən təlim zamanı fasilə müddətində iştirakçılar üçün kofe fasiləsi təşkil olunub.

**Məmmədbağır Dünyamalıyev**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

## ORTA MƏKTƏB ŞAGİRDLƏRİ NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ OLUBLAR

Naxçıvan şəhər Xanım Qızlar liseyinin şagirdləri Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində olublar. Fakültənin dekanı, biologiya üzrə fəlsəfə doktoru, dosent Elsevər Əsədov şagirdlərə fa-



kültə haqqında ümumi məlumat verib. Qeyd edilib ki, 20 ildən artıq təcrübəsi olan fakültənin fəaliyyətinə göstərilən dövlət dəstəyinin nəticəsidir ki, bu gün Tibb fakültəsi üçün ayrıca bina, xəstəxana mövcuddur. Diqqətə çatdırılıb ki, peşəkar tibbi kadrların hazırlığı üçün xarici universitetlərlə geniş əlaqələrə malik universitetin təcrübə mübadiləsi, beynəlxalq layihələrdə iştirakı diqqət mərkəzindədir. Müasir avadanlıqlarla zəngin laboratoriyaların qurulması fakültənin tədris imkanlarını daha da artırır. Vurğulanıb ki, Tibb fakültəsinin məzunları nəinki Naxçıvanda, hətta onun hüdudlarından kənarda – Amerika Birləşmiş Ştatları, Braziliya, İspaniya, Almaniya, İtaliya, Türkiyə və digər ölkələrdə təhsillərini davam etdirərək muxtar respublika səhiyyəsinin inkişafına öz töhfələrini verirlər.

Təməl tibb fənləri kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru İlhamə Mustafayeva Mulyaj simulyasiya kabinəsi ilə tanışlıq zamanı şagirdləri ilkin tibbi yardım haqqında məlumatlandırıb.

Daha sonra şagirdlər fakültədə fəaliyyət göstərən kitabxana, kompüter otağı, histologiya, anatomiya, fizioterapiya, patalogiya, stomatoloji simulyasiya, əczaçılıq simulyasiya kabinələri, kimya, fiziologiya və stomatoloji texniki laboratoriyalar ilə tanış olublar.

Bundan sonra məktəblilər qruplara bölünərək müxtəlif dərs proseslərində iştirak ediblər. Dərs müddətində laboratoriya təcrübələrində iştirak edən şagirdlər universitetin klinik xəstəxanasında tələbələrin iştirakı ilə bilavasitə xəstə müayinələrinin aparılma qaydalarını müşahidə ediblər.

Universitetin Xarici dillər fakültəsində keçirilən tədbirdə isə M.T.Sidqi adına 4 saylı orta məktəbin şagirdləri və təcrübəçi tələbələri olublar. Fakültə haqqında ümumi məlumat verildikdən sonra şagirdlər fakültədə mövcud olan maddi-texniki baza ilə tanış olublar.

"Xarici dilin öyrənilməsinin məqsəd və əhəmiyyəti" adlı tədbirdə abituriyentlər xarici dili öyrənməyin vacib məqamları haqda məlumatlandırılıb. Fakültənin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Şirməmməd Qulubəyli tədbirdə çıxış edərək xarici dilin öyrənilməsinin məqsəd və əhəmiyyəti haqqında danışıb.

Sonra fakültənin müəllimləri aktual mövzu ilə bağlı çıxışlar ediblər.

Şagirdlər Xarici dillər fakültəsində dərs prosesi ilə yaxından tanış olub, sinxron tərcümə mərkəzində, linqafon kabinədə dərsin və tərcümə prosesinin gedişatı barədə ətraflı məlumat əldə ediblər.

Sonda şagirdlər ədəbiyyat kabinəsində ingilis və amerikan yazıçılarının kitabları ilə tanış olub və oradakı kitabxanadan istifadə qaydalarını öyrəniblər.

**Məmmədbağır Dünyamalıyev**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

## ƏCNƏBİ TƏLƏBƏLƏR ARASINDA "AZƏRBAYCAN DİLİ VƏ MƏDƏNİYYƏTİ" MÖVZUSUNDA İNTELLEKTUAL OYUN KEÇİRİLİB



Naxçıvan Dövlət Universiteti Beynəlxalq Münasibətlər və Hüquq fakültəsində xarici tələbələrin iştirakı ilə "Azərbaycan dili və mədəniyyəti" adlı intellektual oyun təşkil olunub.

Tədbiri giriş sözü ilə açan universitetin Ümumi işlər üzrə prorektoru Xəyal Camalov universitetdə mütəmadi olaraq bu cür intellektual oyunların keçirildiyini diqqətə çatdırıb. Qeyd edilib ki, bu bilik yarışmalarının keçirilməsinin əsas məqsədi xarici tələbələrə ölkəmizin tarixini və mədəniyyətini tanıtmaqdır.

Sonra universitetin Xarici tələbələrlə iş üzrə dekanı Ceyran Quliyeva tələbələrə yarışda uğurlar arzulayıb.

Tələbələr qaydalar haqqında məlumatlandırıldıqdan sonra oyuna start verilib.

On komandanın fəal iştirak etdiyi oyun bir mərhələli şəkildə həyata keçirilib. Tələbələrə ayrılan 50 sualın sonunda "Şah İsmayıl" komandası qalib olub. "Xocalı" komandası II, "Bəzz qalası" komandası isə III yerin sahibi olub.

Tədbirin sonunda qalib komandalara sertifikatlar verilib.

**Tərlan İbrahimova**
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

## NAXÇIVAN MUXTAR RESPUBLİKA BASKETBOL FEDERASİYASININ KOMANDASI İĞDIR UNİVERSİTETİ İLƏ YOLDAŞLIQ GÖRÜŞÜNDƏN QALİB AYRILIB

Naxçıvan Muxtar Respublika Basketbol Federasiyasının təşkilatçılığı ilə Naxçıvan Dövlət Universiteti ilə İğdır Universitetinin tələbələrdən ibarət basketbol komandaları arasında yoldaşlıq görüşü keçirilib. İğdır Universitetində keçirilən görüşdə universitetin tanıtım videosu nümayiş olunub.

İğdır Universitetinin rektoru Mehmet Hakkı Alma ali təhsil ocağı haqqında məlumat verərkən Naxçıvan Dövlət Universiteti ilə olan əlaqələrdən bəhs edib. Qeyd edilib ki, Türkiyə və Azərbaycan arasında bütün sahələrdə olduğu kimi təhsil sahəsində də edilən əməkdaşlıq hər iki universitetin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. Mehmet Hakkı Alma İğdır Universiteti adından Naxçıvan Dövlət Universitetinin Həmkarlar İttifaqı Komitəsinin sədri, Fizika-riyaziyyat elmləri namizədi, dosent Elşən Məmmədova hədiyyə təqdim edib.

Müəllim və tələbələrə universitetin tanıtım kitabları təqdim edildikdən sonra heyət oyunun keçiriləcəyi Şəhid Mehmet Bora Tayfur adına qapalı idman zalına yola düşüb. Burada Naxçıvan Dövlət Universitetinin müəllimləri ilə İğdır Universiteti tələbələri arasında səmimi oynanan tenis maraqla qarşılanıb.

Sonra oyuna start verilib. 2 saata yaxın davam edən oyun azarkeşlərin yüksək dəstəyi ilə izlənilib. Hər iki komandanın aldığı xal sayını yüksək sevinclə qarşılayan izləyicilər yoldaşlıq görüşünü sözün əsl mənasında nümayiş etdiriblər. Yüksək peşəkarlıq və hakimləri düzgün nəzarəti ilə baş tutan oyun Naxçıvan Dövlət Universitetinin 46-42 hesablı qələbəsi ilə yekunlaşıb.



Sonda Mehmet Hakkı Alma hər iki komandanı göstərdikləri yüksək şücaətə və oyun bacarığına görə təbrik edib. Qeyd edilib ki, "Bir millət, iki dövlət" şüarını meydanda nümayiş edən gənclərin anlayışları, davranışları təqdirəlayiq haldır. Rektor bundan sonra da bu cür görüşlərin keçiriləcəyini diqqətə çatdıraraq qalib komandaya kubok təqdim edib.

**Məmmədbağır Dünyamalıyev**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ƏMƏKDAŞLARININ ELMİ UĞURLARI

Naxçıvan Dövlət Universiteti Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsi Biologiya kafedrasının dosenti, pedaqogika elmləri doktoru Zərövşən Babayeva Beynəlxalq Scientix STEM Discovery Campaign çərçivəsində 2022-ci ilin STEM müəllimi təlimində fəal iştirakına görə sertifikat alıb.

Təlimin məqsədi dünyada artıq təsdiqini tapmış STEM metodikasının təhsilalanlara bilikləri nəzəri olaraq deyil, məhz tətbiqi xüsusiyyətlərinin aşkarlanmasına yönəldilməsidir. Təlimdə öyrənənlərin elm, texnologiya, riyaziyyat, mühəndislik fənlərindən aldıqları bilikləri tədqiq edərək məntiqi təfəkkürlərini, problem həll etmə bacarıqlarını inkişaf etdirməyə hədəflənməsi ətraflı müzakirə edilib.

Qeyd edək ki, kursun təşkilatçısı və təlimçi-mütəxəssisi Scientix və STEM PD səfiri, Qabaqcıl təhsil işçisi, Tərəqqi medalı mükafatçısı, STEAM üzrə beynəlxalq sertifikasiyalı mütəxəssis Aliyə Əhmədova




olub. Finlandiya, Latviya, İsrail, Türkiyə, Brüssel tərəfindən onlayn təşkil olunan təlimdə müxtəlif fənn müəllimləri iştirak edib.

Naxçıvan Dövlət Universiteti İngilis dili və metodika kafedrasının müdiri Cavid Babayevin "Onomastikanın üslub imkanları" (Stylistic opportunities of onomastics") adlı elmi məqaləsi İtaliyanın Florensiya şəhərində işıq üzü görüb. Müəllif məqalədə dilçilik sahəsi olan onomastikanın yaratdığı üslub vasitələrini araşdırıb. Məqalədə belə bir qənaətə gəlinib ki, insan ad və familyaları, şəhər, kənd, ölkə kimi yer adları metonimiya, metafora, epitet, personifikasiya, antonomasiya, pars pro toto, sinekdoxa və s. yaradır. Burada metafora və antroponomastika arasındakı fərq aşkara çıxarılaraq qeyd olunub ki, metaforada insan xüsusiyyətləri cansız əşya üzərinə köçdüyü halda, antroponomastikada yalnız ad köçür, xüsusiyyətlər köçməyə də bilər. Qeyd edək ki, antroponomastika yer adlarının insan adları ilə adlandırılmasıdır. Müəllif öz məqaləsində həmçinin zooponomastika (yerlərə heyvan adı verilməsi) və vegeponomastika (yerlərə bitki adlarının verilməsi) kimi yeni terminlər də təklif edib.




Qeyd edək ki, elmi məqalənin dərc olunduğu jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya komissiyasının tövsiyyə etdiyi ən nüfuzlu 6 beynəlxalq xülasələndirmə sistemindən birinə Copernicus-a daxildir.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

Naxçıvan Dövlət Universiteti Təbiətşünaslıq və Kənd Təsərrüfatı fakültəsinin Biologiya müəllimliyi ixtisasının II kurs tələbəsi Aydan Məhərrəmlinin "İstixanalarda yetişdirilən tərəvəz bitkilərinin tozlandırılmasında Bombus arılarının rolu" (The role of bumblebees in pollunation of vegetable crops groun in greenhouses) adlı elmi məqaləsi Rusiyanın Penza şəhərində dərc olunub. Universitetin TEC xətti ilə yerinə yetirilən elmi işlər çərçivəsində yazılan elmi məqalə "Tələbə elmi: Aktual məsələlər, nailiyyətlər və innovasiyalar" VII beynəlxalq elmi-praktik konfransında I dərəcəli diplom və sertifikatla təltif olunub.




Məqalədə Bombus arıları (Bumblebees) haqqında ümumi məlumatlardan bəhs edilib, onlardan istifadə etməklə istixanalarda tərəvəz bitkilərinin tozlandırılmasına dair bir sıra ilkin məlumatlar qeydə alınıb. Həmçinin müəllif öz məqaləsində inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə imkanlarının öyrənilməsinə yer verib. Bombus arılarının tərəvəz bitkilərinin tozlandırılmasındakı üstün rolunun aşkar edilməsinə dair bir çox dəyərli məlumatlardan da bəhs edilib.

Nəticə olaraq belə bir qənaətə gəlinib ki, tərəvəz bitkilərinin tozlandırılmasında insan sağlamlığı üçün müxtəlif zərərli təsirləri olan bitki hormonlarının istifadə edilməsi, bunun yerinə meyvənin keyfiyyətini və məhsuldarlığını artıracaq bombus arılarının istifadəsi həm istehsalçı, həm də istehlakçı üçün son dərəcə vacibdir. İstehsalçı və istehlakçı zəminində belə bir əhəmiyyətə sahib olan bombus arılarının istifadəsi üçün lazımı məlumatlar və təcrübələr istehsalçılara çatdırılmalıdır və onların tətbiq sahəsi genişləndirilməlidir.

# NAXÇIVAN MUXTAR RESPUBLİKA KİTABXANALARININ TƏŞƏKKÜLÜ VƏ İNKİŞAF TARİXİNƏ DAİR DƏYƏRLİ TƏDQİQAT ƏSƏRİ İCTİMAİYYƏTƏ TƏQDİM EDİLİB

Naxçıvan Dövlət Universiteti Elmi Kitabxanasında Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, "Muzeyşünaslıq, arxiv işi və kitabxanaçılıq" kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Nəzakət İsmayılovanın dərs vəsaitinin təqdimatı keçirilib. Ali təhsil ocağının rektoru Elbrus İsayev qeyd edib ki, Naxçıvan hələ tarixin erkən çağlarından başlayaraq təhsilə, elmə, kitab və kitabxanalara çox böyük qiymət verib, onu qoruyub saxlayıb. Vurğulanıb ki, dərs vəsaiti ən böyük informasiya mənbəyi olan və uzun əsrlər boyu cəmiyyətin tərəqqisinə xidmət edən muxtar respublika kitabxanalarının tarixinin araşdırılıb elmi təhlilinin aparılması sahəsində ilk dəyərli mənbədir. Rektor diqqətə çatdırıb ki, "Naxçıvan Muxtar Respublika kitabxanalarının təşəkkülü və inkişaf tarixi" adlı kitab universitet Elmi Şurasının qərarı ilə dərs vəsaiti kimi çapa tövsiyyə olunub.

Muzeyşünaslıq, arxiv işi və kitabxanaçılıq kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Aypara Behbudova kitab haqqda ümumi məlumat verərək qeyd edib ki, müəllif kitabda muxtar respublikada kitabxana işi haqda tədqiqat aparıb, burada ən qədim dövrlərdən formalaşan kitab mədəniyyəti və sonralar arxeoloji tədqiqatlar nəticəsində üzə çıxarılan çox sayda kitabə və əlyazmalardan bəhs edib. Müəllif dərs vəsaitində təkcə kitabxanaların tarixinə yox, həmçinin yeni kitabxana




texnologiyalarına, yeni texnologiyaların tətbiqi məsələlərinə də diqqət yetirib.

AMEA Naxçıvan Bölməsinin Elmi Kitabxanasının direktoru Sahab Əliyeva bildirib ki, 266 səhifədən ibarət olan dərs vəsaiti Naxçıvanda kitabxanaların tarixini müəyyən edən ciddi elmi tədqiqat işi kimi çox qiymətlidir. Vurğulanıb ki, giriş, Naxçıvanda kitabxana işinin mərhələlərlə tədqiqinin yer aldığı bölmələr və burada fəaliyyət göstərən kitabxanaların yaranması və keçdiyi inkişaf yolunu əhatə edən başlıqlardan ibarət olan kitabda respublikamızın ərazisində yerləşən kitabxanaların keçdiyi inkişaf yolu fakt və mənbələr əsasında geniş tədqiq edilib.

M. S. Ordubadi adına Naxçıvan Muxtar Respublika Mərkəzi Kitabxanasının direktoru Tamella Əsgərova bildirib ki, müəllif muxtar respublikamızda ən qədim dövrdən – ilk yazılı kitabələrdən başlayaraq müasir dövrümüzə qədər kitabxanaların təşəkkülü və inkişaf tarixinə dair geniş araşdırma aparıb.

Çıxış edənlər zəngin bir tarixi dövrü özündə əks etdirən, uzunmüddətli gərgin axtarışların bəhrəsi olan kitab haqda dəyərli fikirlər səsləndirib, müəllifi təbrik edib, ona yaradıcılıq uğurları arzulayıblar.

Sonda müəllif muxtar respublikada kitaba, kitabxanaya göstərilən yüksək dəyərə görə öz minnətdarlığını ifadə edib.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏN SONRA MUXTAR RESPUBLİKANIN SOSİAL-İQTİSADİ İNKİŞAFINA DAİR YENİ KİTABIN TƏQDİMATI OLUB

Bu münasibətilə keçirilən tədbirdə universitetin rektoru Elbrus İsayev ali təhsil ocağında tarixçi kadrların hazırlanmasında Tarix kafedralarının xüsusi çəkisi olduğuna diqqəti çəkərək bu sahədə yeni araşdırmaların aparılmasının vacibliyini vurğulayıb. Bildirilib ki, bu gün təqdimatı keçirilən "Azərbaycan tarixi" kafedrasının dosenti, tarix üzrə elmlər doktoru Xəzər Hüseynovun "İkinci dünya müharibəsindən sonra Naxçıvan Muxtar Respublikasının soaial-iqtisadi və mədəni inkişafı" monoqrafiyası bu sahədə dəyərli tədqiqat nümunəsidir. Rektor diqqətə çatdırıb ki, tarixi araşdıran zaman müxtəlif dövrlərin hər birinin ayrılıqda tədqiq olunması ən vacib məsələlərdəndir. Vurğulanıb ki, kitab ali məktəb tələbələri, muxtar respublikanın sosial-iqtisadi inkişafı və mədəniyyəti ilə maraqlananlar üçün nəzərdə tutulub.

"Azərbaycan tarixi" kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru Qadir Əkbərov qeyd edib ki, kitab aktuallığı, tarixi faktlarla zənginliyi, xüsusilə arxiv materialları ilə seçilən bir tədqiqat əsəridir. Kitab giriş, 3 fəsil, 15 yarımfəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Diqqətə çatdırılıb ki, monoqrafiyanın mühüm hissəsi İkinci Dünya müharibəsindən sonrakı dövrdə muxtar respublikada xalq təsərrüfatının inkişafı məsələləri, bəhs edilən dövrdə sosial-iqtisadi və mədəni inkişafda əldə edilən uğurlar, ayrı-ayrı dövrlərdə məruz qaldığı çətinliklər və başqa bu kimi məsələlər araşdırılıb.

"Azərbaycan tarixi" kafedrasının dosenti, tarix üzrə elmlər doktoru Sevinc Abbasova müəllifin gərgin əməyi sayəsində ərsəyə gələn kitabda ümummilli lider Heydər Əliyevin 1969-cu ildə Azərbaycanda siyasi hakimiyyətə gəlməsindən sonra muxtar respublikada sosial-iqtisadi və mədəni tədbirlərin həyata keçirilməsindən, quruculuq işlərindən, təhsil sahəsindəki mühüm irəliləyişlərdən bəhs edildiyini vurğulayıb.

"İqtisadiyyat" kafedrasının müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent Ceyhun Mahmudov qeyd edib ki, kitabda muxtar respublikanın həmin dövrdə iqtisadi cəhətdən imkanları araşdırılaraq dəqiq faktlar və rəqəmlərlə verilməsi monoqrafiyanı iqtisadçılar üçün də faydalı edəcək. Bildirilib ki, İkinci Dünya müharibə-




sindən sonra muxtar respublikada sənaye potensialının yaradılması vəziyyəti və inkişaf perspektivləri, həmin dövrlərdə Naxçıvanın yüngül və yeyinti sənayesi, muxtar respublika əhalisinin sosial təminatı, mənzil şəraiti, pambıqçılıq və tütünçülüyün inkişafı və bir çox məsələlər araşdırılaraq nəticələri rəqəmlərlə cədvəllər formasında kitabda öz əksini tapıb.

Çıxış edənlər müəllifi təbrik edib ona tarix sahəsində yeni araşdırmalar və yaradıcılıq uğurları arzu ediblər.

Sonda müəllif kitabın ərsəyə gəlməsində göstərilən diqqət və qayğıya görə öz minnətdarlığını ifadə edib.

**Fəxriyyə Səyyadova**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASININ 140-İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ DƏYİRMİ MASA KEÇİRİLİB

Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsində İrəvan müəllimlər seminariyasının 140-illik yubileyinə həsr olunmuş "İrəvan Müəllimlər Seminariyasına rəhbərlik edən direktorların elmi fəaliyyəti" mövzusunda dəyirmi masa təşkil olunub. Pedaqoji fakültədə keçirilən tədbirdə çıxış edən fakültənin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vəli Əliyev qeyd edib ki, Azərbaycanın təhsil tarixində əhəmiyyətli rol oynamış təhsil ocaqlarından biri də İrəvan Müəllimlər Seminariyasıdır.

Müzakirədə "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 29 dekabr tarixli Sərəncamı diqqətə çatdırılıb. İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi ilə bağlı Sərəncamın mühüm elmi-pedaqoji, siyasi-ideoloji, mədəni-mənəvi



əhəmiyyət kəsb edildiyi vurğulanıb. Çıxışlarda bildirilib ki, müvafiq Sərəncam İrəvan mahalında azərbaycanlıların min illər boyu yaratdığı tarixi irsə sahib çıxmaqla yaddaşımızı bərpa etməyə və strateji hədəflərə nail olmağa yönəlib.

Dəyirmi masada iştirak edənlər seminariyaya rəhbərlik edən direktorların elmi fəaliyyəti ilə bağlı öz fikirlərini irəli sürüblər.

**Nazlı Himmətova**
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

# ALİ TƏHSİLDƏ YENİ ÇAĞIRIŞLAR: KEYFİYYƏT, DAVAMLI İNKİŞAF

Bu gün ölkə qarşısında duran strateji vəzifə sosial-iqtisadi həyatın daha da modernləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması yolu ilə davamlı iqtisadi inkişafın təmin edilməsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsindən ibarətdir. Müasirləşdirmə, ilk növbədə, qabaqcıl texnologiyaların və idarəetmə üsullarının, elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların ölkənin sosial-iqtisadi həyatına uğurlu tətbiqi ilə bağlıdır. Bunun üçün prioritet istiqamət ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi ilə yanaşı, ölkədə insan kapitalının inkişafı, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsidir. İnsan kapitalının inkişafı iqtisadiyyatın qlobal sistemə uğurlu inteqrasiyası və ölkənin beynəlxalq rəqabətdən daha effektli faydalanması prosesində ən mühüm şərtlərdən olub, ölkənin təhsil sisteminin başlıca vəzifəsini təşkil edir.

***Təhsildə yeni çağırışlar***

Müasir dövrün çağırışlarına uyğun olaraq dünyada təhsilin inkişaf tendensiyaları dəyişir. Çünki hər hansı bir xalqın və dövlətin formalaşması və inkişafı, onun gələcəyinin güclü təməllər üzərində qurulması təhsil sistemində əldə edilmiş nailiyyətlərlə əhəmiyyətli dərəcədə bağlıdır.

Təhsilin inkişafı nəticəsində formalaşmış insan kapitalı ölkələrin iqtisadi və sosial rifahının artırılmasında çox əhəmiyyətli yer tutur. İnsanların yetərli bilik və bacarıqlar əldə edərək cəmiyyətdə özünə yer tapmasında təhsil, xüsusilə də ali təhsil ən mühüm vasitələrdən biridir. Ali təhsil formalaşmış insan kapitalını cəmiyyətə təqdim etməklə, sosial rifahı artırmaqla yanaşı, insanların əldə etdiyi gəlir səviyyəsini yüksəldərək fərdi rifahı da təmin edir. Məhz ali təhsilin cəmiyyətə və fərdlərə qazandırdığı bu faydalar səbəbindəndir ki, təhsildə yeni çağırışlara tələb sürətlə artmaqda davam edir.

Ölkənin və xalqın taleyində, hərtərəfli tərəqqisində, uğurlar qazanmasında təhsilin xüsusi rolunu, əhəmiyyətini həmişə yüksək dəyərləndirən ulu öndər deyirdi: “Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır”. Dahi rəhbər həm təhsilin məzmunu, mahiyyəti, məqsədləri, səmərəli təşkili, müəllim əməyinin şərəfi, şagirdlərin və tələbələrin vəzifələri barədə dəyərli fikirlər söyləmiş, həm də Azərbaycan təhsilinin hərtərəfli yüksəlişi qayğısına qalmış, illər boyu bu sahədə böyük inkişafa rəvac verən, təhsil islahatlarının əsasını yaratmışdır. Bu siyasətin nəticəsidir ki, bu gün təhsildə həm forma, həm də məzmunca ciddi dəyişikliklər gedir. Beynəlxalq təcrübənin son nailiyyətlərinə əsaslanan müasir milli təhsil sistemi yaradılır. Texnoloji nailiyyətlərə söykənən çağdaş dünyanın informasiya bolluğu şəraitində məktəbin, təhsilin hədəfləri sürətlə dəyişir. Belə ki, intellektin, məntiqin inkişaf etdirilməsi ön plana keçir. Dünyanın təhsil məkanında bilik və bacarıqlarla bərabər dəyərlər bugünkü təhsilin keyfiyyət göstəriciləri kimi qəbul edilir. Bu deyilənlər - qlobal səviyyədə təhsil sahəsində ortaya çıxan yeni çağırışlar və Azərbaycan iqtisadiyyatının yeni inkişaf mərhələsinə daxil olması ölkədə təhsilin inkişafı üzrə vahid dövlət strategiyasının formalaşdırılmasını zəruri etmişdir.

***Ali təhsildə zəruri islahatlara doğru***

Son illər sürətlə modernləşən Azərbaycan Respublikasında təhsil sisteminin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi istiqamətində yeni addımların atılması və ümumi təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün təhsili idarəetmə sisteminin yenidən qurulması, bu sahədə insan resurslarının inkişaf etdirilməsi zərurətə çevrilmişdir.

Demokratikləşdirmə, inteqrasiya prinsiplərinə əsaslanan yeni təhsil sisteminin qurulmasını nəzərdə tutan islahatlar prosesinin əsas istiqamətlərindən biri də ali təhsil sistemi olmuşdur. Belə ki, qeyd edilən islahat proqramının icrası nəticəsində ali təhsil sistemində bir sıra struktur dəyişiklikləri aparılmış, ali təhsil müəssisələri şəbəkəsinin optimallaşdırılması istiqamətində addımlar atılmış, mütəxəssis hazırlığının strukturuna yeni ixtisaslar əlavə edilmişdir. Azərbaycanın 2005-ci ildə Bolonya prosesinə qoşulması ölkədə ali təhsil islahatlarının yeni mərhələsinə start vermişdir. Bu çərçivədə 2009-cu ildə qəbul edilmiş “2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı”nda qeyd olunmuşdur ki, proqramın məqsədi ölkənin ali təhsilinin Avropa təhsil məkanına inteqrasiyası, onun məzmununun Bolonya prosesinin prinsiplərinə uyğun qurulması, cəlbedici və rəqabət qabiliyyətliliyinin təmin edilməsi, ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun ali təhsilli kadrlara yaranan tələbatın ödənilməsi, habelə informasiya cəmiyyətinin və biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğun olaraq kadr potensialının yaradılması, əhalinin müasir tələblərə cavab verən ali təhsil almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli ali təhsil sisteminin formalaşdırılmasıdır. Bu məqsədlə 24 oktyabr 2013-cü ildə Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilən “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” ölkədə ali təhsil sistemi də daxil olmaqla, bütövlükdə təhsil sisteminin qeyd olunan çağırışlar və tələblər istiqamətində qısa, orta və uzunmüddətli inkişafını təmin edəcək vahid dövlət siyasətini özündə əks etdirməklə zəruri islahatları doğurmuşdur.

Ölkə rəhbəri İlham Əliyevin irəli sürdüyü neft kapitalının insan kapitalına çevrilməsi konsepsiyası çərçivəsində “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nın qəbul edilməsi və proqramın həyata keçirilməsi, qloballaşan dünyada prioritet hesab edilən sahələr üzrə ölkənin əmək bazarının gələcək ehtiyaclarını müəyyənləşdirmək baxımından uğurlu addım olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı” da xüsusi əhəmiyyət kəsb edir. Yeni Dövlət Proqramının icrası ölkədə daha keyfiyyətli insan kapitalının formalaşmasına və Azərbaycan Respublikasının beynəlxalq reytinqlərdə mövqelərinin əhəmiyyətli şəkildə yaxşılaşmasına şərait yaradacaq, əmək bazarında tələb olunan ixtisas sahələri üzrə peşəkar kadrlar hazırlanacaq, ölkəyə qayıdan məzunların ən müasir təcrübə və biliklərdən istifadə edərək göstərəcəkləri fəaliyyət ölkənin tərəqqisinə töhfə verəcəkdir.

***İslahatlardan nəticəyə***

Ali təhsilin inkişafı baxımından islahatların uğurlu icrası, son illər ölkədə ali təhsilə çıxış imkanlarının genişləndirilməsi, ali təhsil kurikulumlarının əmək bazarının tələblərinə uyğunlaşdırılması, ali təhsil qurumlarında doktorantura təhsili və tədqiqat potensialının gücləndirilməsi, ali təhsil müəssisələrinin reytinq səviyyəsinin yüksəldilməsi, ali təhsil müəssisələrinin idarəetmə modelinin təkmilləşdirilməsi, onların əlavə təhsil imkanlarının genişləndirilməsi, beynəlmiləlləşmələrinin artırılması və bütövlükdə ali təhsil müəssisələrinin təhsil-tədqiqat-innovasiya mərkəzləri kimi cəmiyyətdə rolunun gücləndirilməsi istiqamətlərində bir çox uğurlu nəticələr əldə edilmişdir. İnformasiya texnologiyalarının inkişafı və qloballaşma ilə birlikdə, ali təhsildə beynəlmiləlləşmə əhəmiyyətli bir inkişaf strategiyasına çevrilmişdir. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin qəbul etdiyi “2019-2023-ci illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” ölkədə ali təhsilin və kadr hazırlığının inkişafında yeni yanaşmaları və imkanları ortaya qoymuşdur. Beynəlxalq rəqabətə və əməkdaşlıq şəbəkələrinə aktiv şəkildə qoşulmanı tələb edən bu strategiya, elmi və texnoloji proseslərdə iştirak etmə, təhsil-araşdırma təcrübəsi və resurslarını birləşdirmə, maddi resurslara çıxış, institusional potensialı təkmilləşdirmə və keyfiyyətli insan resursu cəlbetmə baxımından mühüm əhəmiyyət kəsb edir.



***Təhsildə keyfiyyət nədir?***

İnsan fəaliyyətinin müxtəlif sahələrində olduğu kimi təhsildə də keyfiyyət yüksək standartlara nail olmaqdır. Keyfiyyət ali məktəbin mədəniyyəti deməkdir, hər kəsin öz işində məsuliyyətini dərk etməsi, ali məktəbdə iş mədəniyyətinin hökm sürməsi deməkdir. Bu cəhətdən keyfiyyət asan izah olunan, lakin çətin əldə ediləndir. Keyfiyyət davamlı inkişafa yönələn sistem və üsulların hökm sürməsidir, zəruri işlərin mümkün qədər vaxtında görülməsidir. Keyfiyyət və yeniləşmə, yəni innovasiya bir-biri ilə sıx əlaqədədir, bir-birindən asılıdır. Bu sistemdə əməliyyatların aparılmasının və ümumiyyətlə, inzibati sistemin çevikliyi və ahəngdarlığı, informasiya texnologiyasına əsaslanması həlledici şərt kimi qəbul edilir. Keyfiyyət hamının iştirakıdır, komanda işinin təşkili və nəticəsidir. Təhsildə keyfiyyət təhsilə baxış sistemidir, mövqedir, daxili mədəniyyətdir. Digər tərəfdən keyfiyyəti ali məktəbin bütün fəaliyyət sahələrində minimum standartlara malik olması kimi də qəbul edilməlidir. Keyfiyyət həm də mövcüd formanın əsaslı şəkildə dəyişməsidir, yüksək standartlara doğru yönələn bir hərəkətin, təkmilləşməyə can atmanın daimiliyidir, özünütənqidin və təftişin ali məktəbdə cərəyan edən əsas prosesləri daimi izləməsidir.

***Ali təhsildə keyfiyyət təminatı və ya innovativ metodlarla davamlı inkişafa doğru***

Ali təhsil, tədqiqatlar və innovasiyalar sosial həmrəyliyin, iqtisadi yüksəlişin və beynəlxalq rəqabətədavamlılığın artırılmasında əhəmiyyətli rol oynayır. Avropa cəmiyyətlərinin daima inkişafda olan və biliklərə əsaslanan cəmiyyət qurmaq istəyini nəzərə aldıqda ali təhsilin sosial-iqtisadi və mədəni inkişafın əhəmiyyətli bir komponenti olduğu labüddür. Eyni zamanda, bacarıq və qabiliyyətlərə dair tələblər artdığı üçün ali təhsil həmin tələblərə yalnız innovativ metodlardan istifadə etməklə cavab verə bilər. Ali təhsilin əlçatarlılığının artması ali təhsil müəssisələrinə daha çox müxtəlif fərdi təcrübələrdən yararlanmaq imkanı yaradır. Ali təhsilin müxtəlifliyə və dəyişən gözləntilərə cavab verə bilməsi üçün ali təhsil müəssisələrinin fəaliyyətində əsaslı dəyişikliklər tələb olunur. Bu dəyişikliklərə təlim və tədris prosesində tələbəyə fərdi yanaşmanın artırılması, yeni şəraitə çevik uyğunlaşa bilən tədris metodlarından istifadə və rəsmi tədris planlarından kənarda əldə edilmiş qabiliyyətlərin tanınmasıdır. Ali təhsil sistemlərinin və ali təhsil müəssisələrinin bu dəyişikliklərə cavab verməsində, eləcə də tələbələrin əldə etdiyi kvalifikasiyaların təmin edilməsində keyfiyyət təminatının rolu olduqca əhəmiyyətlidir və onların ali təhsil təcrübəsi müəssisənin əsas missiyalarındandır. Ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatların əsas məqsədi fərqli regionlarda və bütün maraqlı tərəflər arasında təhsil və tədris prosesində keyfiyyət təminatına dair ortaq anlayışın yaradılmasına töhfə verməkdir. Həmin standartlar və təlimatlar Avropa ali təhsil məkanında milli və institusional keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsində və regional əməkdaşlıq məsələsində vacib rol oynayır və rol oynamaqda davam edəcəkdir. Keyfiyyət təminatı prosesləri, xüsusi ilə xarici keyfiyyət təminatı prosesləri Avropa ali təhsil müəssisələrinin keyfiyyətini nümayiş etdirməyə və şəffaflığı artırmağa imkan verir.

***Azərbaycan ali təhsil sistemi keyfiyyət təminatına doğru***

Azərbaycan ali təhsil sistemində Avropa Kredit Transfer Sisteminin tətbiq olunması, Avropanın və dünyanın aparıcı universitetlərinin müsbət təcrübəsinin ölkəmizə gətirilməsi ilə ali təhsildə keyfiyyət təminatının inkişafına şərait yaratmışdır. XXI əsrin tələblərinə uyğun olaraq rəqabətqabiliyyətli insan kapitalının yetişdirilməsi, tələbə qəbulu qaydalarının təkmilləşdirilməsi, universitetlərdə keyfiyyətin təminatı mərkəzlərinin yaradılması və məzunların işlə təmin olunmasına xidmət edən karyera mərkəzlərinin fəaliyyətində effektivliyinin yüksəldilməsi istiqamətlərində ciddi uğurlar əldə olunmuşdur. Azərbaycan 2015-ci ildən Ali Təhsildə Keyfiyyətin Təminatı üzrə Avropa Reyestri (EQAR) təşkilatının üzv seçilmişdir. Azərbaycanda yerli və beynəlxalq səviyyədə qəbul edilmiş standartlara əsaslanan ali, orta ixtisas və əlavə təhsilin keyfiyyətinin müstəqil qiymətləndirilməsi sahəsində peşəkar və mütəxəssis qurum olan Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2019-cu il tarixdə imzaladığı müvafiq Fərmana əsasən yaradılmışdır. Məqsəd isə Azərbaycan Respublikasında effektiv keyfiyyətə təminat sisteminin fəaliyyətini təşkil etməkdən, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sisteminin formalaşdırılmasından, müasir dövrün tələblərinə uyğun bilik, bacarıq, səriştə və təcrübəyə malik rəqabətqabiliyyətli insan kapitalının əmək bazarına çıxışına dəstək göstərilməsindən ibarətdir.

Çünki, ali məktəb insan gücü yetişdirir və bilik istehsal edir. Ona görə bir tərəfdən bu prosesin necə getməsini göstərən parametrlər, digər tərəfdən isə prosesin nəticəsi, yəni məzunlar keyfiyyəti müəyyən edən cəhətlərdir. Keyfiyyəti ölçən qurumların ən çatışmayan tərəflərindən biri onların nəticəyə, yəni məzunlara az diqqətin edilməsidir. Ali məktəbin kadr hazırlığında ciddi sistemin olması keyfiyyətin ən vacib ölçülərindən biridir. Ali məktəb, orta təhsil almış insanların içindən bir qismini seçib onlara ali təhsil verir və tədris prosesində imtahanlar silsiləsi və məzun olmaq üçün müəyyən olunmuş tələbatlar vasitəsilə tələbənin irəliləməsini və mütəxəssisə çevrilməsini tənzimləyən sistem qurur. Bu sistemdən keçənlər məzun olurlar. Ali məktəbin nüfuzu, gücü və səviyyəsi bu sistemin ciddiliyi, obyektivliyi, uyğunluğu və dəqiqliyi ilə birbaşa bağlıdır.

***Naxçıvanda ali təhsil: davamlı islahatlara doğru***

Qloballaşan dünya reallıqları ali təhsil sistemində bir sıra yeni prioritetlərin, inkişaf trendlərinin gündəmə gəlməsi ilə səciyyələnir. Yeni prioritetlərdən bəhs edərkən söhbət universitetlərin sürətlə dəyişən reallıqlara cavab verməsindən, yüksək rəqabətli, peşəkar, hazırlıqlı tədqiqatçıların hazırlanması sahəsində fəaliyyətin gücləndirilməsindən gedir. Ali təhsildə rəqabətliliyin təmin olunması isə, ilk növbədə, universitetlərdə aparılan elmi tədqiqatların səviyyəsindən, yeni akademik mühitin yaradılmasından, gənc tədqiqatçılar nəslinin yetişdirilməsindən bilavasitə asılıdır.

Ölkəmizdə olduğu kimi, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikada təhsilin eləcə də ali təhsilin inkişafına hərtərəfli dövlət qayğısının nəticəsidir ki, doğma diyarımız bu sahədə mühüm ilklərə imza atıb. Naxçıvan Muxtar Respublika Ali Məclis Sədrinin dəstəyi və qayğısı sayəsində muxtar respublikamızın ali təhsil ocaqları üçün müasir kampusun yaradılması, maddi tədris bazasının möhkəmləndirilməsi, infrastrukturun yenidən qurulması və sair kimi sahələrdə aparılan işlərin ardıcıl davam etdirilməsi, bütövlükdə, ümumi təhsilin keyfiyyətinin yaxşılaşmasına əhəmiyyətli təsir göstərmiş, təhsilin keyfiyyəti müasir çağırışlara uyğunlaşdırılmış, xüsusilə də inteqrasiya meyilləri getdikcə gücləndirilmişdir.

Bütün bunların nəticəsidir ki, Azərbaycan Respublikasının ən dəyərli, qabaqcıl ali məktəblərindən biri kimi səciyyələndirilən, muxtar respublikanın əsas elm, təhsil, ictimai fikir və mədəniyyət mərkəzlərindən olan Naxçıvan Dövlət Universiteti ölkəmizin ali məktəbləri sistemində yüksək nüfuzu, hərtərəfli inkişafı, yüksək ixtisaslı kadrların hazırlanması sahəsindəki fəaliyyəti ilə diqqəti cəlb edir.

Elektron təhsil, onlayn sənəd dövriyyəsi, akademik idarəetmə kimi təhsilin idarəedilməsi modellərini özündə birləşdirmək, dünya təhsil sisteminə inteqrasiyasını daha da sürətləndirmək məqsədilə ali təhsil müəssisələri arasında ilk dəfə Naxçıvan Dövlət Universitetində Distant Təhsil Mərkəzi yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamı ilə təməli qoyulan “Startap Naxçıvan” hərəkatı isə Naxçıvan Dövlət Universitetində müasir təfəkkürlü peşəkar mütəxəssis hazırlığına, tələbə-gənclərdə innovativ ideyaların üzə çıxarılmasına, yaradıcı düşüncənin inkişafına hesablanmışdır.

Bu sahədə həyata keçirilən məqsədyönlü islahatların nəticəsidir ki, Naxçıvan Dövlət Universiteti özünün maddi-texniki və təşkilati strukturuna görə ən qabaqcıl ali təhsil müəssisəsinə çevrilərək bu gün elm-təhsil-innovasiya sahəsində beynəlxalq təcrübəni tətbiq imkanı qazanmışdır. “Naxçıvan Dövlət Universitetində Texnologiyalar parkının yaradılması haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 dekabr 2020-ci il tarixli Sərəncamı bu baxımdan ali təhsil müəssisəsinin imkanlarını daha da genişləndirməklə yanaşı, beynəlxalq rəqabətqabiliyyətliliyin təmin olunması, innovativ layihələrin dəstəklənməsi və keyfiyyətli kadr hazırılığına son dərəcə böyük təsir imkanları yaradacaqdır ki, nəticədə ixtisaslı kadrlar hazırlanaraq ölkə iqtisadiyyatına mühüm töhfələr verməklə, elm-təhsil-innovasiya strategiyası formalaşacaq, təhsildə keyfiyyət təminatı uğurla icra olunacaq.

Ali təhsilli kadrların elmi-tədqiqat işlərinin yerinə yetirmə bacarığının formalaşması, müasir şəraitdə elmi-tədqiqat yönümlü yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında mühüm əhəmiyyət nəzərə alınaraq Universitetdə “Keyfiyyət Təminatı Mərkəzi”, “Diplomatiya Mərkəzi”, “Kriminalistika” laboratoriyası, “Texnologiya mərkəzi”, “Atıcılıq mərkəzi”, “Robototexnika” laboratoriyası, “Əczaçılıq Simulyasiya” kabinəsi və “Yaşıl Əczaxana” yaradılmışdır.

Ölkəmizdə Ali Təhsildə Keyfiyyət Təminatının qarşıya qoyduğu təhsil məkanının dünyanın inkişaf etmiş təhsil institutları ilə əməkdaşlığı üçün zəmin yaratmaq və ölkənin təhsil müəssisələri məzunlarının həm yerli, həm də dünya əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətinin yüksəldilməsi istiqamətində də Naxçıvan Dövlət Universitetində məqsədyönlü işlər həyata keçirilməkdədir. Əlamətdar haldır ki, hazırda Naxçıvan Dövlət Universiteti ilə Türkiyənin öncül universitetləri arasında tələbə və müəllim mobilliyi sahəsində əməkdaşlıq müqavilələri uğurla icra olunur.

Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələrində qardaş Türkiyə Respublikasının özünəməxsus yeri vardır. Naxçıvan Dövlət Universiteti üçün uğurlu bir başlanğıcın əsasını qoyan, Çankırı Karatekin Universiteti ilə İqtisadiyyat ixtisası üzrə ikili diplom layihəsinin icrasına başlanılmışdır. Hər iki ali təhsil ocağı 5 il müddətində “Kimya mühəndisliyi” ixtisası sahəsində ikili diplom layihəsinin həyata keçirilməsi və müxtəlif sahələrdə akademik araşdırmaların aparılması ilə bağlı protokol imzalamışdır. Universitet nümayəndə heyətinin 8-16 iyul 2021-ci il tarixlərində qardaş Türkiyə Cümhuriyyətinə səfəri zamanı Türkiyə Ali Təhsil Şurasında və Çankırı Karatekin, Ankara, Orta Doğu Teknik, Qazi, Hacı Bayram Vəli, İstanbul Texnik, Yıldız Texnik Universitetlərində əhəmiyyətli görüşləri baş tutmuşdur. Ardınca 29-31 mart 2022-ci il tarixlərində Ankara Universitetinin, İstanbul Texnik Universitetinin, Qazi Universitetinin rektorlarının Naxçıvan Dövlət Universitetinə səfəri ali təhsil ocaqları arasında elmi tədqiqat sahəsində birgə elmi araşdırmaların aparılması, məqalə və elektron dərgilərin yeni tədqiqat üsulları ilə birgə nəşri, Konservatoriyada eləcə də bir neçə humanitar ixtisasda, elektrik və elektronika mühəndisliyi ixtisasında təhsil alan tələbələr üçün mobillik proqramları və ikili diplom layihələri üzrə birgə tədrisin təşkili və eyni zamanda doktorantura və magistratura təhsil pilləsi üzrə texniki və mühəndislik sahələri ilə bağlı ikili diplom proqramının həyata keçirilməsi strateji hədəf kimi qarşıya qoyulmuşdur.

Bütün bunların nəticəsidir ki, inkişaf yollarında inamla addımlayan Naxçıvan Dövlət Universiteti qarşıdakı dövrlər üzrə təhsildə keyfiyyət və davamlı islahatları hədəf olaraq daha dəqiq və qətiyyətlə müəyyənləşdirmişdir.

Bütün bu islahatların son məqsədi yüksək insan kapitalına və innovasiyalara əsaslanaraq, davamlı inkişaf edən və rəqabətli Azərbaycan iqtisadiyyatının formalaşdırılmasına xidmət etməkdir. Deyilənlər cənab İlham Əliyevin aşağıdakı fikirlərində daha mükəmməl şəkildə öz əksini tapmışdır: “Ölkə qarşısında duran növbəti strateji vəzifə sosial-iqtisadi həyatın daha da modernləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması yolu ilə davamlı iqtisadi inkişafın təmin edilməsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsindən ibarətdir... Bunun üçün prioritet istiqamət ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi ilə yanaşı, ölkədə insan kapitalının inkişafı, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsidir. İnsan kapitalının inkişafı iqtisadiyyatın qlobal sistemə uğurlu inteqrasiyası və ölkənin beynəlxalq rəqabətdən daha effektli faydalanması prosesində ən mühüm şərtlərdən olub, ölkənin təhsil sisteminin başlıca vəzifəsini təşkil edir”.

**Arzu Abdullayev**

***Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi partiya təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru***

# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ: YENİ İNKİŞAF MƏRHƏLƏSİ YARADICI İDEYALAR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQLAR

Naxçıvan Dövlət Universitetinin yeni inkişaf mərhələsində reallaşdırmış olduğu uğurlar müasir dünya təhsilinin tələb və çağırışlarına səs verməklə, daha modern ixtisaslaşma səviyyəsinə yüksəlməkdədir. İstər infrastruktur sahəsindəki təsisatlar, istər innovasiyalara yönəldilmiş tədris prosesləri, istərsə də, bu dəyərlərə güclü əsaslar yaradan idarəetmə universitetin şaxələndirilmiş təhsil və tədris proseslərini daha da etibarlı etməkdədir. Bu sahədə təbii ki, qardaş Türkiyə Cümhuriyyətinin nüfuzlu universitetlərinin çoxistiqamətli təcrübələrindən həm yararlanmaq, həm də əməkdaşlıq sahələrini müzakirə etmək və başlatmaq olduq qədər səmərəli olmaqdadır. Bu sahədə olduqca diqqət çəkən İstanbul Texniki, Ankara, Qazi Universitetlərinin rektorları nümayəndə heyətləri ilə 30 mart-1 aprel tarixlərində ali məktəbimizdə olması, səfər zamanı, bir sıra əlamətdar görüşlər keçirməsi, həmçinin qarşıdakı dövrlər üzrə zəruri layihələrin və əməkdaşlıqların davamlılığı sahəsində qarşılıqlı anlaşmaların əldə olunması zəruriliyi ilə seçilməkdədir.

Qeyd etmək olar ki, üç əsrə yaxın yaşı olan İstanbul Texniki Universitetinin (İTÜ) bu istiqamətdəki təcrübəsi çox səmərəli olacaqdır. Həmin universitetlə də ali məktəbimiz arasında bir sıra əməkdaşlıq sahələrində anlaşma əldə olunması qarşıdakı dövrlərdə müəllim və tələbələrin fikir, ideya, araşdırma, ixtisaslaşma, analiz və nəticələr sahəsindəki ortaq fəaliyyətini daha da səmərəli edəcəkdir. İstanbul Texniki Universiteti ilə:

- Kompüter mühəndisliyi sahəsindəki əməkdaşlıqlar ümumilikdə, universitetimizin uyğun ixtisaslar üzrə genişmiqyaslı nəzəri araşdırmalara və təcrübi imkan yaratmış olacaq.
- Elektrik və elektronika mühəndisliyinin peşəkar və ixtisaslaşmış kadrların formalaşması sahəsindəki çəkisi artmış olacaq.
- Konservatoriya ixtisasları sahəsində ortaq ikili proqramlar və digər elmi-tədris fəaliyyətləri barədə birgə protokolların imzalanması isə milli-mənəvi dəyərlərimizin qorunmasında, tələbələrin əl işlərinin, müsiqi sənətinin yaşadılması, eyni zamanda, beynəlxalq miqyasda tanıdılması istiqamətində perspektivlər əldə olunacaq.

Bunlarla yanaşı, böyük potensiala malik olan İTÜ Arı Texnoparkının zəngin təcrübəsindən ali məktəbimizin tikilməkdə olan universitet Texnoparkı əhatəli şəkildə olmaqla yararlanacaq. Hələ bütün bu qeyd olunan məsələlər və anlaşmalar hörmətli Rektorumuzun rəhbərliyi altında ali məktəbimizin nümayəndə heyətinin ötən ilin 8-16 iyul tarixlərində qardaş Türkiyə Cümuriyyətinin digər ali məktəblərilə yanaşı İstanbul Texniki Universitetinə də səfəri zamanı əldə olunmuşdur.



Qeyd etmək lazımdır ki, hər birinin istər ikili diplom layihəsinin reallaşması, istərsə də texnoparkdan istifadə imkanları sahəsində yenilikçi təcrübəyə malik olan ali məktəblər Naxçıvan Dövlət Universitetinin müvafiq layihələrinə daha əhatəli dinamika gətirmiş olacaq. Artıq bu dövrdən etibarən yeni dəyərlər əsasında Texnopark üzrə də əməkdaşlıqların tamamilə elmə söykənən, ideyaya əsaslanan və təcrübə ilə sintez təşkil edən mərhələsi başlanmış olacaq. Eyni zamanda, bu, əməkdaşlıqların yeni keyfiyyət mərhələsinin başlanması olmaq etibarı ilə Naxçıvan Muxtar Respublikasında 2022-ci ilin "Sənaye ili" elan olunmasına mühüm töhfə olacaqdır.

İstər Texnopark, istərsə də, çoxistiqamətli sahələr üzrə işbirlikləri universitetimizlə İstanbul Texniki Universiteti arasında münasibətləri möhkəmləndirəcək. İstandul Texniki Universiteti ilə imzalanan birgə əməkdaşlığa dair protokol da imzalanmışdır. Orada:

- elmi rəqabətliliyin təmin olunması ilə araşdırma və təhlillər sahəsində həm seçim imkanlarının tanınması, həmçinin, şəffaflığın üstünlüyü mümkün olacaqdır.
- tələbə, müəllim mübadiləsində yaranacaq zəmin qarşılıqlı tədris proseslərinin, pedoqoji fəaliyyətin və həmçinin təcrübə keyfiyyətlərinin davamlılığına stimul verəcək və bu sahədəki proseslərin sürətlənməsinə səbəb olacaq;
- mədəniyyət, incəsənət və s. sahələrdə birgə fəaliyyətin əsasları yaranmış olacaq ki, bunun da nəticəsində, gənclərin və tələbələrin yaradıcı keyfiyyətləri, bilik və qabiliyyətlərinin dəyərləndirilməsinə olan imkanlar artmış olacaq;
- tələbə təqaüdü proqramlarının reallaşması nəticəsində tələbələrin sosial müdafiəsi, rifahı, yaşayışının, təhsilinin və fəaliyyətinn maliyyət təminatı yüksəlmiş olacaqdır.
- elmi əməkdaşlıqda magistr və doktorantura proqramlarında iştirak daha səmərəli hala gələcək. İxtisaslaşmada, daha aktual mövzuların tədqiqatlara cəlb olunmasında və daha səmərəliləşdirici nəticələrə gəlinməsində optimallıq əldə olunacaqdır;
- elmi tədqiqat sahələrində birgə araşdırmalar məqədilə əlverişlilik yaranacaqdır ki, bu da, nəticə etibarı ilə universitetlərarası müəllim, tələbə, təcrübə mobilliyinin daha da sürətlənməsini təmin edəcəkdir;
- tədqiqatlar aparmaq əsas fəaliyyət istiqamətləri kimi olduqca zəruri məsələlər yer almışdır. Göründüyü kimi, burada, hazırkı və gələcək dövrlər üzrə strateji tədbirlər və səmərəli nəticələr əks olunmuşdur.

Tədbirlərin ardıcıllığı, məqsədyönlülüyü, dinamikliyi əməkdaşlıqlara yeni nəfəs verir, onların reallaşmasına daha da yəqinlik gətirir. Bütün sahələr üzrə səmərəli fəaliyyət mühitinin əsasalarını nəzərdə tutan əməkdaşlıqlar həm də Naxçıvan Dövlət Universiteti ilə Ankara Universiteti arasında nəzərdə tutulmuşdur. Xüsusilə, akademik sahədə beynəlxalq əməkdaşlığa dair protokolun imzalanması universitetlərin əldə olunan anlaşmaların icrasına başladıqlarının və yaxın zamanlar ərzində daha səmərəli nəticələrin ortaya qoyulmasını ifadə etməkdədir.

Artıq yeni mərhələdə Naxçıvan Dövlət və Ankara Universitetləri arasında daha ötən il təməli qoyulan işbirliyinin yeni mərhələsinə başlanılmışdır. Bu məqsədlə, bu günlər akademik sahədə imzalanan protokolda əksini tapmış olan məsələlər əməkdaşlıq perspektivlərinin, araşdırma vərdişlərinin, qarşılıqlı elmi və pedoqoji münasibətlərin, eyni zamanda, innovativ və texnoloji məqsədlərin reallaşması sahəsində hərəkətverici təsirə malik olacaq. Beləliklə, qardaş ölkələrin ali məktəbləri arasında olan imzalanan protokola əsasən:

- tərəflərin qarşılıqlı olaraq maraqlarına uyğun akademik və elmi mövzulardakı fəaliyyətlərində bir-birinin imkan və təcrübələrindən faydalanacağı;
- elmi məqsədlər daxilində professor-müəllim mübadiləsi;
- dərs, müşavirə, tədqiqat və oxşar fəaliyyətlərində, tədris və tədqiqat məqsədilə hər növdən kitab, elmi nəşrlər və oxşar materialların qarşılıqlı mübadiləsi;
- birgə tədqiqat layihələri və elmi yığıncaqların keçirilməsi həyata keçiriləcək ki, bunlar da, mövcud potensialın daha da artırılmasına xidmət edəcəkdir.

Əldə olunan hər bir nailiyyət həm də ayrılıqda hər bir müəllimin, hər bir tələbənin elmi və pedoqoji sahələr üzrə fəaliyyət imkanlarının artırılmasına xidmət edəcək. Burada sevindirici hal həm də ondan ibarətdir ki, bu potensial daha böyük hüdudlarda, daha əhatəli arenalarda reallaşmış olacaq. Diqqət etdikdə aydın olur ki, universitetimizdə olan görüşlərdə Mövlana proqramının yenilənməsi, Tibb təhsili ilə bağlı bakalavr, rezidentura pillələrində təcrübə, Ankara Universitetində qurulmuş Big Data mərkəzində praktiki təcrübə keçmək imkanı, bakalavr səviyyəsində Tarix, Biologiya, Elektrik və elektronika, Kompüter mühəndisliyi, Kimya ixtisasları, Magistratura pilləsi üzrə Klinik psixologiya ixtisası istiqamətində birgə təlim, tədris və tədqiqatın təşkil edilməsi, Konservatoriya ixtisasları üzrə NDU təcrübəsinin Ankara Universitetləri ilə paylaşılması məsələləri ələ alınmışdır.

Artıq yeni inkişaf mərhələsində əldə olunan razılaşmalar qeyd olunan amillər üzərində daha perspektivli nəticələr ortaya qoymuş olacaq. Həmçinin əldə olunan razıalşmaların ardıcıllığına diqqət etdikdə aydın olur ki, bunlar, həm yaradıcı fəaliyyətin, həm dəqiq elmlərin inkişaf perspektivlərinin, həm texnoloji mahiyyətli tədqiqatların və digər strateji nəticələr vəd edən proseslərin əsaslarını yaratmış olacaq. Əlamətdar hal ondan ibarətdir ki, bütün bunlar, universitetimizin demək olar ki, bütün fakültələrinin çevik fəaliyyətini təmin etməklə tamamlanmış olacaq. Bunlarla yanaşı, yeni keyfiyyət mərhələsində hər birimiz mövcud olan anlaşmaların icra mexanizminin reallaşmasında Texnologiyalar Parkının da rolunu görmüş olacağıq. Belə ki, universitetimizdə görüşlər zamanı Qazi Universiteti ilə görüşlər zamanı imzalanan müqavilələrdə qarışlıqlı olmaqla, tibb, rəsm, fizika, biotexnologiyalar və mühəndislik sahələrində ikili proqramların icrası mümkün olmaqla, yanaşı eyni zamanda, elmi əməkdaşlıq və akademik mobillik üzrə əlaqələrin qurulması da diqqət mərkəzində olacaq. Tələbələrin fəal olaraq cəlb olunacağı, eləcə də, onların müəllimlərlə daha səmərəli müzakirələrinə işıq salan proseslər Erasmus proqramları üzrə birgə əməkdaşlıq sahəsində də razılığın əldə olunması ilə daha da şaxələndirilmiş olacaq.

Beləliklə, Naxçıvan Dövlət Universiteti 2020-2021-ci tədrsi ilində başlatmış olduğu beynəlxalq əməkdaşlıqlarını 2021-2022-ci tədris ilində də inamla davam etdirməkdədir. Təhsilin, tələbələrin və cəmiyyətin məmnunluğu üçün mövcud olan zəhmət, doğmalıq, iradəli idarəçilik, qətiyyətlilik, diqqət və qayğı gələcəyə istiqamətlənən bütün qapıları aça bilir. Oradan isə yalnız və yalnız aydın sabahlar görünməkdədir.

**Cavadxan Qasımov**
***"Dünya və menecment iqtisadiyyatı" kafedrasının müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent***

# DAĞLARIN QOYNUNDAKI YURD YERİM - QARABAĞLAR

Bu həftəsonu şəhərin bütün səs-küyündən qaçmaq üçün kəndimizə üz tutdum. Taksiyə əyləşib gedəcəyim ünvanı söylədim. Qıvrıla - qıvrıla uzanan yollar məni uşaqlığımın keçdiyi Qarabağlar kəndinə aparırdı. Dəqiqələr bir- birini qovaladıqca yavaş-yavaş mənzilə yaxınlaşırdım. Artıq uzaqdan kəndimizin dağları görünmürdü. Mən bu valehedici mənzərəni heyranlıqla izləyir, gözlərimi bu vüqarlı dağlardan çəkə bilmirdim. Sanki altı min illik yaşı olan "Kəngərli" tayfası bu dağların ətəyindən əl sallayaraq, xoş gəldin, deyirdi. Dağların başını həsrət buludları almışdı. Hər biri "bir əlçim" olan bu buludlar çılpaq dağların xəyal qəhrəmanları idi. Üfüqdə parlayan günəşin baxışları arasından görünən bu xəyal qəhrəmanları dağlardan ilham alırdı. Dağlar isə Elxani hökmdarı Hülaku xanın yadigarı olan və bizə XII əsr memarlıq tarixindən miras qalan Qarabağlar Türbə Kompleksindən, orta tunc dövrünün izlərini özündə saxlayan Qalacıq yaşayış məskənindən, Pələng qayası dağının cənub ətəklərindən süzülərək ana laylasına məxsus bir zümzümə ilə çöllərə səs salan Asnı bulağından ilhamlanırdı. Dağların bu ilhamı səmada süzən quşların cəh-cəhində eşidilir, bu səsi eşidənləri ovsunlayırdı. Suların zümzüməsindən və quşların nəğməsindən yaranan bu ahəng insanın yorğun düşmüş ruhunu oxşayırdı. Artıq mənzilə çatmışdım, amma ruhumu ovsunlayan bu aləm məni ata ocağına deyil, başqa bir istiqamətə aparırdı. Atdığım hər addımda həm kədərlənir, həm də qürurdan ürəyim dağa dönürdü. Elə bir dağa ki, bir az hüzn və həsrət qoxurdu. Artıq addımlarım yavaşlamışdı, dalğalanan bayraqlar cənnətin gül qoxusunu üzümə vururdu.

Tarixi özündə yaşadan bu yerlərin həm də qoynunda tarix yazan igidlər uyuyurdu. Kəndin girəcəyində uyuyan el qeyrətli şəhidlərin məzarı artıq hamının ilk ziyarət yerinə çevrilib. Bir neçə dəqiqə yurdumun qeyrət simvoluna dönən bu məzarları sükut içində izlədikdən sonra oradan ayrıldım. Kəndin təmiz havası üzümə toxunduqca sanki dünyaya yenicə qədəm qoyan məsum bir körpəyə çevrilir, qəmdən, kədərdən uzaqlaşaraq hər qarışı tarix qoxan bu yerlərin cazibəsini qapılırdım. Xəyallarım məni uzaqlara, Övliya Çələbinin yazdığı və Qarabağlar kəndinin adı keçən "Səyahətnamə" əsərinə aparırdı. "Səyahətnamə" əsərində qeyd edilirdi ki, iri şəhərlərdən biri olan Qarabağların 50 min əhalisi olub. Şəhərdə 40 məscid var imiş. Onun qeydlərində Qarabağlarla bağlı ən maraqlı hissə bağbanın hədiyyəsidir. Övliya Çələbi ürəkdolusu söhbət açır: "Allaha həmd olsun, bu şəhərin ab-havasının lətafətindən əhvalımız da xoş olub, atlara süvar olmaqla bəzi rəfiqlərimizlə şəhərə tamaşa etdik... Yeyəcək və içəcəklərinin, meyvələrinin bənzəri heç bir diyarda yoxdur. Qara Bağlar desək, yerinə düşər. Elçi ilə bir bağı gəzərkən Yəzdan Qulu adlı bir bağban iyirmi altı cür şirəli armud gətirdi... Armudlar elə dadlı və şirəlidir ki, suyu yeyənin üzərinə, əlbəttə, nabat şərbəti kimi tökülər... Böyük bazarlarında pak və pakizə işçilərinin bişirdiyi cürbəcür Rəvan düyüsündən plovlar və hərisəsi, sanki sifr kimi ləziz və xoş ətirlidir. İşçiləri olduqca təmizdir. Zira cümləsi müsəlmandır".

Keçmışdə olduğu kimi bu gündə Qarabağlar kəndi öz gözəlliyi ilə göz oxşayır. Abad yolları, sərin bulaqları, kəhrizləri, təhsil ocaqları, məscidi, tibb məntəqəsi, mədəniyyət evi ilə müasirliyi və inkişafı özündə birləşdirir bu qədim yurd yeri.

Dünyaya göz açdığım bu kənddə əvvəl anamın laylası, faydalı məsləhətləri, nəsihətləri ilə əlimdə çanta məktəbə qədəm qoyduğum gündən isə müəllimlərimizdən, ədəbiyyatımızdan yurd sevgisi, vətən məhəbbəti, anaya qayğı, adət-ənənəmizi qorumaq, yaşatmaq, milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi, dilimizi, dinimizi, keçmişimizi yaxşı bilməli olduğumuzu, onu unutmamağı öyrəndim.

Mənim doğma kəndim elə bir sehrli aləmdir ki, buraya qədəm qoyduğun ilk andan etibarən insanda yaradıcılıq eşqi baş qaldırır. O yerdə ki yaradıcılıq eşqi, o yerdə ki sənət nəfəsi var, dünyaya, həyata sənətkar baxışı var, orada insan ürək dolusu nəfəs alır, həqiqi yaşamın gözəlliyini hiss edir, duyur. Elə bu andaca Səməd Vurğunun yazdığı bir şeir yadıma düşür:



Mən bu yaşıl bağların,
Bu yarpızlı dağların
Bəslədiyi bir canam.
Hisslərim, həyəcanım
Həp onlarla çırpınar.

Qəribsəmiş ruhum qoynunda igidlərin uyuduğu bu torpaqla birləşəndən həsrətin dumanları artıq görünməz olmuşdu. Mən sevinclə ata ocağına doğru addımlayır, qarşılaşdığım hər insanla salamlaşır, hal-əhval tuturdum. Özümüzü dərk edəndən bəri bizə belə öyrədiblər ki, evdən çıxıb yol gedəndə qarşınıza çıxan hər kəsə salam verin. Bu sanki bir qayda-qanundur. Ona görə də kəndə gedəndə anam mən ilk olaraq yaşlı qohumlarımızın, sonra isə qonşuların yanına hal-əhval tutmağa aparır. Qonaqpərvərlik, insanların bir-biri ilə xoş münasibəti, qayğıkeşliyi bizim kəndin camaatının gündəlik həyat tərzidir.

Belə bir deyim var ki, "Qonşuluq, yaşadığımız yerin mədəniyyətini əks etdirən əhəmiyyətli bir göstəricidir". Kəndimizdə keçmişdən bu günə qədər qorunub saxlanan gözəl münasibətlərdən biri də qonşuluqdur. Uşaqlığımın keçdiyi bu məhəllədə hər zaman qonşularımızın evini öz doğma ocağımız kimi görmüşük. Bu səbəbdən də qapısını döydüyüm bütün qonşularımız məni görən kimi öz doğma övladını görmüş kimi sevinirlər.

Kəndimizdə heç vaxt kasıb-varlı bölgüsü olmayıb. Sosial status anlayışı yoxdur. Tutaq ki, kiminsə imkanı bir qədər yüksəkdir. Ola bilər, amma o da kənddə digər sakinlərdən seçilmir. Bir sözlə sadəlik öz füsunkar gözəlliyini hələ də qoruyub saxlayır.

Ağsaqqal və ağbirçəklərimizi ziyarət etdikdən sonra yenidən ata ocağına qayıtdım. Atam artıq həyətdə samovarı yandırmışdı. Bunu da xüsusilə vurğulayım ki , Qarabağlar kəndinə yolunuz düşərsə mütləq kəndin dağlarında bitən kəklikotu ilə dəmlənmiş samovar çayından için. Çünki buranın kəklikotusunun ətrini heç bir yerdə dada bilməzsiniz. Yaz günəşinin ılıq istisi altında elə həyətdə samovarı başında çay süfrəsi qurduq. Bütün ailəmizlə bir masa arxasında əyləşib çayımızı içə-içə şirin söhbətə girişdik. Vaxt o qədər xoş idi ki, zamanın necə gəlib keçdiyini anlaya bilmədik. Artıq şəhərə qayıtmaq anı çatmışdı. Anam hər zamankı kimi yenə bizim üçün bağlama hazırlamışdı. Keçmişdən günümüzə qədər gəlib çatmış adətlərdən biri də bu idi. Qız övladını qonaq getdiyi ata evindən heç vaxt əli boş yola salmazlar. Bağlamaları da maşına yerləşdirib yola çıxdıq. Doğrusu, kənddən heç ayrılmaq istəmirdim. Amma dərsə gedəcəyim üçün qayıtmaq məcburiyyətində idim. Kənddən ayrılanda maşının arxa şüşəsindən vüqarlı dağlarımıza bir daha dönüb baxdım. Düzdür hava qaralmışdı amma mən yenə də uzaqda bu dağların döşündə hələ də mənə əl sallayan Kəngərli tayfasını görürdüm. Bu dəfə isə onlar öz qonaqlarını yola salırdılar. Maşının açıq qalan pəncərəsindən içəriyə dolan yaz mehi isə sanki cənnətin qoxusunu içəri doldururdu. Artıq kənddən xeyli uzaqlaşmışdıq. Amma burada rahatlıq tapan ruhum və düşüncələrim kəndimizdən heç ayrılmaq istəmirdi.

**İlahə Allahverdiyeva,**
***"Jurnalistika" ixtisası üzrə III kurs tələbəsi***

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ƏMƏKDAR MÜƏLLİMİ MƏHƏBBƏT BABAYEVANIN 50 İLLİK YUBİLEYİ QEYD EDİLİB



Naxçıvan Musiqi Kollecində keçirilən tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev giriş sözü ilə çıxış edərək qeyd edib ki, Naxçıvanın mədəni həyatında öz fəallığı ilə diqqəti cəlb edən Məhəbbət Babayevanın yetişdirdiyi tələbələrin səsi qısa zamanda müxtəlif səpkili tədbirlərdə eşidilməyə başlayıb. Bildirilib ki, bu tələbələr respublika və beynəlxalq səviyyəli müsabiqələrdə fəxri fərman, təşəkkürnamələr, I, II, III dərəcəli diplomlar, Qran Pri mükafatlarına layiq görülüblər ki, bu da müəllimin sənətinə, işinə necə bağlı olduğunun bariz nümunəsidir. Rektor yubilyarı təbrik edərək universitetin fəxri fərmanını, gül dəstəsini və İncəsənət fakültəsi adından rəsm tablosunu təqdim edib.

Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi Samirə Hüseynova yubilyar haqqında məlumat verib. Qeyd olunub ki, Məhəbbət Babayeva müxtəlif səviyyəli mədəni-kütləvi tədbirlərdə fəal iştirakı ilə əlaqədar, Naxçıvan musiqi mədəniyyətinin inkişafında göstərdiyi xidmətlər və müəllimlik fəaliyyəti nəzərə alınaraq muxtar respublika rəhbəri tərəfindən 2015-ci ildə Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi fəxri adı ilə təltif edilib. Bildirilib ki, pedaqoji fəaliyyəti ilə yanaşı olaraq öz bilik və bacarıqlarını nəzəri sahədə də sınayan yubilyar 20-ə yaxın elmi məqalənin, "Musiqi və onun tədrisi metodikası" fənn proqramı, konfrans materialları, tezislərin, "Xarici ölkələrin musiqi ədəbiyyatı", "Rus musiqi ədəbiyyatı" adlı kitabların müəllifidir.

Azərbaycan Respublikası əməkdar mədəniyyət işçisi Tağı Tağıyev yubilyarı təbrik edərək qeyd edib ki, Məhəbbət Babayeva Naxçıvanda qanun məktəbi formalaşdıran istedadlı müəllimdir. Heç təsadüfi deyil ki, son 20 ildə muxtar respublikada qanun ifaçılığı sahəsində yetişən bir çox istedadlı gənc məhz onun yetirməsidir.

Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi Elman Əliyev yubilyarı təbrik edərək, onun ünvanına xoş sözlər səsləndirib.

İncəsənət fakültəsinin II kurs tələbəsi Tərlan Məmmədova Məhəbbət Babayevanın bir müəllim kimi fəaliyyətindən söz açıb. Qeyd edilib ki, müəllim adı ən yüksək zirvələrdən biridir ki, Məhəbbət müəllim sözün əsl mənasında bu ada layiqdir.

Çıxış edənlər yubilyarı təbrik edib, onunla olan xoş xatirələrini yada salıblar. Sonda yubilyar çıxış edərək təbriklərə, təşkilatçılığa görə minnətdarlığını ifadə edib.

**Məmmədbağır Dünyamalıyev**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

## UNUDULMAYAN ZİYALI

"Allaha şükürlər olsun ki, mənə tarix dərsini Əli Əliyev deyib!"- bu sözləri bir zamanlar Ulu Öndər Heydər Əliyev demişdi. Bəs kimdir Əli Əliyev? Əli müəllim ictimai, siyasi xadim, Azərbaycanın əməkdar müəllimi, tarix elmləri namizədi, dosent idi. O, 1905-cü ildə Naxçıvanın Şərur rayonunun Yuxarı Yaycı kəndində dünyaya göz açıb. İlk təhsilini dünyaya göz açdığı Yaycı kəndində o zamanlar "Üsuli- cədid" adlanan molla məktəbində alıb. Atasının ən böyük arzusu oğlunu rus-tatar məktəbində oxutdurmaq idi, amma maddi cəhətdən buna imkanı çatmırdı. Erməni təcavüzü ilə əlaqədar olaraq hələ uşaqkən bir çox hadisələrə şahid olan balaca Əli çətin və əziyyətlərlə dolu həyat yasayır. Hətta bir müddət öz doğma yurdundan didərgin düşərək ailəsi ilə birlikdə İranda qaçqın həyatı belə yaşayır. 1921-ci ilin may ayında yenidən vətənə-Naxçıvana qayıdırlar. Lakin çətinliklər heç bitmir. Evlərinin erməni daşnakları tərəfindən yandırıldığını görən ailə dağıdılmış evlər arasında nisbətən sağlam qalmış bir bina tapıb yaşamağa başlayır. Lakin işsizlik və aclıq səbəbindən atası iş tapmaq ümidi ilə yenidən İrana qayıdır. Amma onun ümidləri yenə boşa çıxır və geri qayıdır. Elə yolda ikən vəfat edir. Ailə imkansızlıqdan İsmayıl kişinin arxasınca gedib cənazəsini belə gətirə bilmir. Əlinin anası qulluqçu işləyərək övladlarını böyütməyə çalışır. Lakin o da dünyasını dəyişir və balaca Əli uşaq yaşlarından iki bacısının qayğısını çəkməyə başlayır. O, mal otarmaqla, əkinçiliklə məşğul olaraq ata-anasından yadigar qalan bacılarını böyütməyə çalışır. Bu dəfə də həyatın ağır sınağı ondan yan keçmir və Əli əvvəl bacısı Leylanı sonra isə Fatmanı itirir. Sonralar qələmə aldığı və xatirələrindən ibarət "Biz acı günlər yaşadıq" adlı kitabında Əli müəllim bacısı Fatmanın ölümünü təsvir edərək yazırdı: " Səhər işə gedəndə gördüm ki bacım Fatma xəstədir. Bacımı çox istəyirdim. Yanına çörək, su qoyub getdim. Heç demə bacım can verir başa düşməmişəm. Axşamçağı işdən qayıdanda evə girib gördüm ki, Fatma nə su içib, nə çörək yeyib. Hiss elədim ki bacım keçinib, üzümü qibləyə döndərib ucada bu bayatını çəkdim:

Əzizim, ulu dağlar,



Çeşməli, sulu dağlar.
Kimsəsiz Fatma ölüb,
Göy kişnər, bulud ağlar"

Bir müddət yenə təsərrüfatla məşğul olduqdan sonra gənc Əli əmisi oğlanlarının vasitəsilə komsomola qəbul olur. Hətta onu özəyə katib seçmək istəyirlər və Əli "mən bacarmaram"- deyir. Bu zaman onu o vaxtlar Baş Noraşen adlandırılan indiki Cəlilkənddə yerləşən yeddi illik məktəbə cəlb edirlər. Yaşadığı çətinliklərə baxmayaraq Əli müəllim təhsil almaq üçün mübarizə aparmış və çox zəngin biliyə malik bir tarixçi olmuşdu. O, 1926-cı ildə Şərur qəzasının Yenicə Nahiyə Komsomol Komitəsinin katibi seçilir. Bir il bu vəzifədə çalışdıqdan sonra hərbi xidmətə çağrılır. Hərbi xidmətini başa vurduqdan sonra 1928-1932-ci illərdə Tiflis Zaqafqaziya Kommunist Universitetində təhsil alır. O, buranı bitirdikdən sonra 1933-cü ildə N.Y. Marr adına Moskva Şərqşünaslıq İnstitutuna daxil olur. Lakin maddi çətinliklər üzündən təhsilini davam etdirə bilmir və Naxçıvana qayıdır. Yaşadığı maddi sıxıntılar onu məqsədindən döndərə bilmir. Əli müəllim beş il sonra, yəni 1938-ci ildə M.V. Lomonosov adına Moskva Dövlət Universitetinin aspiranturasına qəbul olur və XX əsrin əvvəllərində Azərbaycandan kənarda müdafiə edilən ilk dissertasiyanın müəllifi kimi tarixə düşür. Əli Əliyev təkcə biliyi ilə deyil, sahib olduğu insani xüsusiyyətləri ilə daim seçilən və sayğı duyulan bir ziyalı olub. Uzun müddət rəhbər vəzifələrdə çalışmış, dəfələrlə deputat seçilmiş, dövlət rəsmləri sırasında olmuş Əli müəllimin ömür yolu enişli-yoxuşlu olsa da vicdanının, əqidəsinin yolu isə heç bir zaman ora-bura əyilməyib, yalnız düz xətt boyunca öz tarazlığını saxlaya bilib. O xalqına, xalqının tarixinə ürəkdən bağlı olan, qeyrətli, cəsur, mənəvi cəhətdən təmiz, tələbkar bir Naxçıvan ziyalısı idi. Əli Əliyev orijinal, təkrarolunmaz tarixi əsərləri ilə mədəniyyətimizi zənginləşdirmiş, xalqının yaşadığı tarixi salnaməni olduğu kimi qələmə almışdı. Burda xüsusilə qeyd edim ki, Əli müəllim Naxçıvan Dövlət Universitetinin ilk rektoru olub. 1967-ci ildə APU-nun filialı olaraq fəaliyyətə başlayan vaxtlar universitetdə cəmi üç fakültə- ədəbiyyat, tarix və riyaziyyat fakültələri fəaliyyət göstərib və cəmi yüz tələbəsi olub. O, doğma universitetimizdə yüksək ixtisaslı tarixçilərin hazırlanmasına və formalaşmasına böyük əmək sərf edib. Belə ki, şəxsi təşəbbüsü ilə Bakıdan bir çox sayılıb –seçilən ziyalıları dərs demələri üçün buraya dəvət edib.

Bu gün illər öncə min bir çətinliklə fəaliyyət göstərən Universitetimiz 55 illik yubileyini, nəinki muxtar respublikanın, hətta ölkəmizin sayılıb seçilən Universiteti olaraq qeyd edir. Mən də bir tarixçi olaraq universitet tarixini vərəqləyərək tələbələrimizə təhsil aldıqları universitetin ilk rektoru haqqında məlumat vermək istədim. Çünki bu yubiley ərəfəsində Əli Əliyevi xatırlamamaq olmazdı.

**Rəsul Bağırov**
*"Ümumi tarix" kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru*

## FƏRMAN XƏLİLOV – 70

***Haqqınızı halal edin, Ustad!***



Bu gün gecə – səhərüzü saat 4-də yazmışam bu yazını. Elə bir mövzudan tutmuşam ki, haradan, necə başlayım deyə, çox çətinlik çəkirəm. Çünki haqqında danışacağım şəxsiyyət mənə anamın öyrətdiyi dilin ədəbi normalarını, tarixini, mənşəyini və müqəddəsliyini öyrədən müəllimimdir. Gərəkdir ki, sözlərimdə, cümlələrimdə, üslubumda və nəhayət, fikirlərimin sıralanmasında heç bir nöqsana yol verməyəm. Ki, bunu müəllimimin özü də oxuyacaq – ən birinci məsuliyyət hissim buna görədir. Bir də ona görədir ki, siz hörmətli oxucular oxuyanda mənim sevimli, bu il 70 illik yubileyini qeyd edən müəllimimin necə şagird, vətəndaş yetişdirdiyinə şahid olasınız! Hələ yazımın lap əvvəlidir, ürəyim titrəyir, həyəcan az qala əsir alır məni, gözlərim dolur!.. Təhsil illərimdən bu yaşıma qədər elmi, publisistik yazılar az yazmamışıq, az yazılar redaktə etməmişik! Amma gecənin bu çağında yuxudan oyanıb bu yazını yazmağa başlayıb hələ yazının əvvəlindən bu cür ürəyi titrəmək... Sevirəm sizi, Ustad!

1997-ci ilin noyabr ayında hazırlıq kursunun müdavimi olaraq, mən bir Azərbaycan dili və ədəbiyyat müəllimi tanıdım. Elə ikicə həftə idi kursa davam edirdim ki, əvvəlcə şüuruma, sonra da ruhuma hakim kəsilən bir qərar keçdi ağlımdan: mən "Azərbaycan dili və ədəbiyyat" ixtisasını oxuyacağam. Düz 25 ildir ki, mən bu elmi oxuyur, öyrənir və öyrətməyə çalışıram. Deməli, insan taleyinə həlledici güclə təsir etmək, onun seçəcəyi peşəsini, ixtisasını müəyyənləşdirmək, yönləndirmək, nəhayət, bilikli, elmli, qabiliyyətli insan yetişdirmək olurmuş! Bunun üçün ədaləti təbliğ etməyi, haqqı qorumağı, Vətənini, dilini sevməyi bacaran, nəhayət, bütün bunları xarakterində təcəssüm etdirə bilən Fərman Xəlilov olmaq lazımdır!

Müəllim ailəsində dünyaya gəlmişəm. Anam dərs deyib mənə, atam yox. Amma ilk dərsi və sonrakı bütün dərslərimi nümunəvi şəkildə atamdan almışam. Öyrənmişəm ki, necə olursa-olsun, bu dünyada insan olmaq şərtdir. Bunun üçün vicdana yiyə durmağı, ədaləti sevib onun tərəfində dayanmağı, haqqı gözətməyi, ən birinci Allahını sevməyi və bu sevginin sənə lütfü olan Vətənini, dəyərlərini tanıyıb onları canın bahasına qorumağı bacarmalısan! Bütöv insan idealı! Eyvallah!

Və bu öyrəndiklərimi hələ yeniyetmə ikən həftədə iki dəfə bir müəllimin simasında, pedaqoji ustalığında, şagirdlərinə qarşı davranışında görəndə Səyyarın ürəyi riqqətə gəlir, gözləri qarşısında, sözün əsl mənasında, müəllim siması inşa edilir, müəllim əzəməti canlanırdı...

Fərman müəllim biz şagirdlərinə təkcə Azərbaycan dilini, ədəbiyyatımızı öyrətmirdi, həm də bu dəyərlərimizi sevdirirdi, onu sığallayır, oxşayır, gözəl bir varlığa çevirib qarşımıza qoyurdu! Sonralar – tələbə olanda fəhm etdim ki, sən demə, Fərman müəllim təkcə tədris etdiyi fənnini sevdirmirmiş, peşəkar ustalığı, şagird ürəyinə toxuna bilən zəngin təcrübəsi ilə özünü də sevdirirmiş. Pedaqogika da təsdiq edir ki, müəllim fənninin şagirdlər tərəfindən oxunmasını, sevilməsini istəyirsə, ən əvvəl bir pedaqoq kimi özünü sevdirməlidir. Fərman müəllim mənim, mənim kimi minlərlə şagirdinin ürəyində bu sevgiyə talib olmağı bacarmışdı! Sevdik Fərman müəllimi: fənnini ustalıqla tədris edən müəllim kimi sevdik, fənnini sevib ona sahib çıxan ziyalı kimi sevdik, bizə öyrətməkdən ötrü pedaqoji ustalığı ilə sevdik! Sevdik və sevdiyimizə görə öyrətdiklərini sevə-sevə öyrəndik. Fərman müəllimi bir də obyektiv düşüncələri, ədalətli mülahizələri və milli təəssübkeşliyi ilə sevdik. Ailədə atamdan, anamdan əxz etdiyim milli varlıq nümunələrimizə, milli dəyərlərimizə Fərman müəllim dərslərində ruh verir, milli mədəniyyətimizi pərvazlandırırdı. İnanırdıq, əmin olurduq ki, doğrudan da, xalq olaraq bizim zəngin və köklü dilimiz, istedadlar ocağı olan milli ədəbiyyatımız var. Nəticə etibarilə, gözlərim önündə qənirsiz Vətənimin milli dəyərlər tablosu canlanırdı.

Fərman müəllim obyektiv dərs keçirdi. Ədəbi şəxsiyyətlərimizi olduğu kimi bizə öyrədirdi, ürəyimizə sığal çəkib ürfanı təbliğ edənləri olduğu kimi anladırdı. "Ürfan" sözünün leksik-semantik mənasını Fərman müəllimin təhlilində anlamışam. Beləcə, "Tarix" kimi, "Ədəbiyyat"ın da riya olduğuna qərar vermiş, müəllimimin simasında Azərbaycan dili sahəsini seçmişəm. Bu seçim tələbəlikdən magistratura və aspirantura təhsilimə qədər mənə hakim oldu. Fərman müəllimi tanıyandan sonra varsa, yoxsa, Azərbaycan dili dedim! Fərman müəllim Ana dilimizi müstəqilliyimizlə paralel sevdirmişdi bizə. Ki, bu yaşımda belə, "müstəqilliyin yoxdursa, dilin, dilin yoxdursa, müstəqilliyin olmayacaq" prinsipi hakim kəsilib ruhuma: dilimzin qorunması naminə mübarizə aparamağa çalışacaq qədər Fərman müəllimin əsəri, əsərləri – şagirdi, şagirdləri, tələbələri var. Buna görə, Fərman müəllim, nə xoşbəxt insansınız!!!

Fərman müəllimin tədris etdiyi fənni mən özümə ixtisas seçdim. Belə demək mümkünsə, Fərman müəllim qarşımda başqa seçənək qoymadı. Elə bir seçənək ki, sənəd qəbulunda ilk dəfə "Hüquq" ixtisasını yazan abituriyent iki gün sonra fikrini dəyişib "İxtisas seçimi ərizəsi"ni geri götürə və "Hüquq" ixtisasının əvəzinə ilk ixtisas kimi "Azərbaycan dili və ədəbiyyat" ixtisasını kodlaşdıra. Bax, Fərman müəllim məni bu seçənəklə, yaxşı mənada, silahlandırmışdı. Usta pedaqoqların bir cümləsi də var: "Ən şanslı şagird yaxşı müəllimə tuş gələndir". Bu anlamda mən təkcə şanslı deyiləm, həm də arxasında dağ kimi duran ləyaqətli müəllimi olan insanam! Yaxşı ki Ana dilimin, ən ali milli dəyərimin sirlərini mənə, bizə Fərman müəllim öyrətdi. Və mən buna görə, Fərman müəllimin şagirdi olduğuma görə bu yaşımacan fəxr etdiyim kimi, inşallah, bundan sonrakı ömrümdə də fəxr edəcək, "Fərman müəllim mənim müəllimim olub!", "Mənim müəllimim bilirsən kim olub? – Fərman Xəlilov!" nidalarını şüurumdan, dilimdən bir an belə saqınmayacağam. Zira Siz buna layiqsiniz, əziz Fərman müəllim!

Fərman müəllimin yetirməsi olan şagird kimi tələbəlik həyatına atıldım. Azərbaycan dilindən orta məktəb səviyyəsində bilmədiyim sahə, demək olar ki, yox idi. Dil bilgim o səviyyədə idi ki, qəbul imtahanında qarşımıza qoyulmuş "Azərbaycan dili və ədəbiyyat" fənni üzrə 30 suladan 27-nə cavab vermiş, 25 düz yazmışdım. Qeyd olunan 2 səhvim isə "Azərbaycan dili"ndən yox, "Ədəbiyyat"dan idi. "Azərbaycan dili" qədər sevə bilməmişdim "Ədəbiyyat"ı, "Tarix"i.

Allah-Taalanın izni, valideynlərimin maddi və mənəvi dəstəyi, ən çox da Fərman müəllimin aşıladığı bilik və bacarıq sayəsində tələbə adını qazandım. Tələbəlik illərimdə mənə, bizə dilimizi öyrədən professorlar Akif İmanlı, Əbülfəz Amanoğlu, Sədaqət Həsənova, mərhum Elbəyi Maqsudov, dosentlər Əbülfəz Muxtaroğlu, Arif Ağalarov, Qənirə Əsgərova, Mədət Səfərov, ədəbiyyatımızı Səyyara sevdirən əməkdar elm xadimi mərhum Hüseyn Həşimli, professor Əsgər Qədimov, dosentlər Əbülfəz Əzimli, İman Cəfərli, Hikmət Mehdiyev kimi dəyərli müəllimlər, alimlər tanıdım. Akif müəllim mənə təkcə dilimizi öyrətmədi, həm də dilimizi öyrətməyi – müəllimliyi öyrədən ilk müəllimim oldu. Onun tədris etdiyi "Azərbaycan dilindən təcrübi məşğələ" fənnini artıq ikinci kursda oxuyanda bizdən sonra qəbul olunan birinci kurslara tədris edirdim. Üçüncü və dördüncü kurslarda kafedranın digər müəllimlərinin də dərslərini əvəz edir, öyrətməyin yollarını öyrənirdim: artıq aşağı kursun tələbələri məni müəllim bilirdilər. Allah bu müəllimlərimizə möhkəm can sağlığı əta eləsin, onlardan hər iki aləmdə razı olsun!

Təhsilimi başa vurub müəllim işlədiyim illərdə də, bu anda da Fərman müəllimin dərs, mövzu öyrətmək təcrübəsi gözlərim önündə canlanır, həmişə dadıma yetir. Sədaqət müəllimə mənə axtarış, təvazökarlıqdan kənar olmazsa, tədqiq edib müqayisə aparmağı ilk öyrədən oldu. Rəhmətlik Hüseyn Həşimlini isə ədəbiyyat sarıdan Ustad kimi sevdik! Bunları niyə yazdım? Çünki bu insanları duyub onların öytərdiklərini heç bir çətinlik çəkmədən öyrənməyimə səbəbkar məhz Fərman müəllim oldu: təməl çox güclü idi! Ona görə, ixtisasım üzrə əldə etdiyim uğurlarımın, qazandığım savad və biliyin, sahib olduğum pedaqoji təcrübənin səbəbkarlarının fövqündə məhz Fərman müəllim dayanır. Əminəm ki, bu fikirlər təkcə mənim üçün deyil, Fərman müəllimin şagirdlərinin böyük əksəriyyəti üçün də keçərlidir.

Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Əlyazmalar Fondunun baş direktoru, filologiya elmləri doktoru, dəyərli ustadım əziz Fərman müəllim şəxsən öz adımdan və haqqım çatan şagirdləriniz adından 70 illik yubileyiniz münasibətilə Sizi təbrik edir, əllərinizdən öpür, Sizə Cənab-Haqdan möhkəm can sağlığı niyaz edir, elmi fəaliyyətinizdə böyük uğurlar diləyirəm. Ustad, 70 il dünyanın gərdişinə səbir eləmisiniz, Allah eşqinə, bir 70 il də səbir edin!

Fərman müəllim, yaxşı ki varsınız, yaxşı ki mənim müəllimim olmuşunuz! Allah Sizdən hər iki aləmdə razı olsun! Müəllimim, ustadım olaraq üzərimdə haqqınız var, haqqınızı mənə, biz şagirdlərinizə halal edin!

Sizi sevirəm, Ustad! Allah amanında qalın!

Hörmətlə, şagirdiniz

**Səyyar MƏMMƏDOV**
*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzin direktoru*

# İNCƏSƏNƏT SAHƏSİNƏ VERDİYİ TÖHFƏLƏRİ İLƏ SEÇİLƏN MUSİQİÇİ, DƏYƏRLİ MÜƏLLİM RÜXSARƏ HÜSEYNOVA

Naxçıvan Dövlət Universitetinin dəyərli müəllimləri sırasında, peşəkar pedaqoq, istedadlı musiqişünas və Naxçıvan Bəstəkarlar Təşkilatının üzvü, Azərbaycan Respublikasının əməkdar müəllimi Rüxsarə xanımın adı xüsusi qeyd edilməlidir.

Rüxsarə Hüseynova 1962-ci ildə Naxçıvan şəhərində ziyalı ailəsində anadan olmuşdur. O, peşəkar təhsil yoluna 1978-ci ildə Ü.Hacıbəyov adına Naxçıvan Orta İxtisas Musiqi məktəbinin fortepiano sinfində başlamış, 1982-1987-ci illərdə isə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında Musiqişünaslıq ixtisası üzrə davam etdirmişdir. Ali təhsilini bitirdikdən sonra təyinatla Naxçıvana gələn Rüxsarə xanım həmin ildən bugünədək nəzəri fənlərin tədrisi sahəsində yorulmadan, əzmlə çalışır, gənc musiqiçilərin yetişməsinə böyük töhfələr verir. 40 ildən artıqdır ki, həm elmi, həm də pedaqoji fəaliyyətlə məşğul olan Rüxsarə xanımın yetirmələri sırasında elmlər doktoru, mədəniyyətin müxtəlif sahələrində fəaliyyət göstərən, fəxri adlara layiq görülən incəsənət sahəsində xüsusilə fərqlənən tələbələri var.

Rüxsarə xanımın müəllimlik fəaliyyəti ilə yanaşı, elmi nailiyyətləri də diqqətəlayiqdir. O, daim elmi konfranslarda çıxışlar etmiş, müxtəlif elmi jurnallarda çoxsaylı məqalələr yazmışdır. Qeyd etmək lazımdır ki, Rüxsarə xanım elm sahəsində bir çox ilklərin də müəllifidir: Azərbaycan dilində "Musiqinin elementar nəzəriyyəsi", "Musiqi əsərinin təhlili", "Polifoniya" fənlərinə aid proqramların hazırlanması, 2015-ci ildə ali, orta ixtisas və ibtidai məktəblərin tələbə və şagirdləri üçün "Musiqinin elementar nəzəriyyəsi" adlı dərsliyi, 2016-cı ildə bakalavr təhsil səviyyəsi üçün nəzərdə tutulan polifoniyanın tarixinə aid "Polifoniya" dərsliyinin I cildi, polifoniyanın nəzəriyyəsinə aid "Polifoniya dərsliyi" adlı kitabları məhz Rüxsarə xanımın elmi uğurlarıdır.

Rüxsarə Hüseynovanın ilk kitabı olan "Musiqinin elementar nəzəriyyəsi" adlı dərsliyi musiqi incəsənəti və onun ifadə vasitələri haqqında məlumatı əhatə edir. Dərslik ibtidai, orta ixtisas və ali məktəblərdə bakalavr dərəcəsi alan tələbələr üçün nəzərdə tutulmuşdur. Kitabın ümumi materialı elə sistemli ardıcıllıqla düzülmüşdür ki, şagird və tələbələr orada musiqi nəzəriyyəsinin müxtəlif bölmələrinə aid istənilən suallara cavab tapa bilərlər. Müəllif öz təcrübələrinə əsaslanaraq, əvvəlki dərsliklərdə olmayan bəzi yeniliklər etmişdir. Belə ki, Azərbaycan ladlarının quruluşu, həm səsdən, həm də tonallıqdan akkord və intervalların təyini sistemi, artırılmış və əskildilmiş intervalların keyfiyyət tonu cədvəli, mürəkkəb intervalların dönümü cədvəli və bir çox əlavələr bundan əvvəlki dərsliklərdə rast gəlinmir. Rüxsarə xanımın dərsliyində bütün nəzəriyyə sistemi ətraflı şəkildə işıqlandırılıb. Artıq bir neçə ildir ki, istər musiqi məktəbləri, istərsə də musiqi kollecləri bu dərslikdən bəhrələnir və geniş surətdə istifadə edirlər.

Yuxarıda qeyd olunduğu kimi Rüxsarə xanım iki "Polifoniya" dərsliyinin də müəllifidir. Ondan bu kitabları yazmasının səbəbini soruşduqda belə izah edir: "Musiqi nəzəriyyəsinin əsas qollarından birini təşkil edən "Polifoniya" fənni ali və orta ixtisas musiqi məktəblərində tədris olunur. Dövlətimiz müstəqillik əldə etdikdən sonra musiqi təhsili sistemində Azərbaycan dilində yazılmış elmi-nəzəri ədəbiyyata böyük



ehtiyac duyulmağa başlanıldı. Bunun əsas səbəbi ali musiqi məktəblərinin tədris prosesində rus dilində yazılmış dərs vəsaitlərindən istifadə edilməsi və tələbələrin bu sahədə böyük çətinliklərlə üzləşməsi idi. Bu çatışmazlıqları nəzərə alaraq mən Azərbaycan dilində yeni "Polifoniya" dərsliyinin yazılması zərurətini dərindən hiss etdim və həmin çətinliklərin aradan qaldırılması üçün bu işə başlamağı qərara aldım."

Rüxsarə Hüseynova Polifoniya sahəsində yazılmış iki kitabın müəllifidir. İlk kitab 2016-cı ildə nəşr olunmuş "Polifoniya" dərsliyinin I cildidir. Tərtib olunan bu dərslik polifoniya tarixinə həsr olunub. Qeyd etmək lazımdır ki, polifoniya uzun bir tarixi inkişaf yolu keçdiyi üçün onu bir cild çərçivəsində əhatə etmək çox çətindir. Buna görə, müəllif dərsliyin iki cild şəklində tərtib edilməsini nəzərdə tutmuşdur.

Dərsliyin nəşr olunan I cildi 3 böyük fəsildən ibarətdir və IX əsrdən başlayaraq XVII əsrədək polifoniyanın keçdiyi bütün tarixi inkişaf yolunu nisbətən tam şəkildə işıqlandırır. Dərslikdə Orta əsr, İntibah və Barokko dövrlərində yaranan yeni üslublar, müxtəlif polifonik məktəblər, polifoniya sahəsində böyük irs qoymuş bəstəkarların yaradıcılığı, musiqi incəsənətində yaranmış müxtəlif janr və formalar, onların keçdiyi təkamül prosesi izlənir. Dərslikdə polifonik üslubda yazan bir çox bəstəkarın həyat və yaradıcılığı, onların əsərlərindən not nümunələri öz əksini tapır.

Təqdim olunan II kitab isə musiqili-nəzəri problemlərin və məsələlərin geniş dairəsini əhatə edir. Dərslik 2 böyük bölmədən ibarət olaraq, a capella xor polifoniyasının bədii üslubu və öz kamilliyini XV-XVI əsrlərdə əldə edən "ciddi üslub" və vokal-instrumental və instrumental polifoniyanın bədii üslubu olan və İ.S.Baxın yaradıcılığında öz zirvəsinə çatan "sərbəst üslub" polifoniyasına həsr olunmuşdur. Burada "ciddi" və "sərbəst" üslub polifoniyasının tarixi inkişaf yolunda yaranan polifonik formalar və onların müxtəlif növləri ardıcıl surətdə, sadədən mürəkkəbə prinsipi üzrə nəzərdən keçirilir. "Ciddi" və "sərbəst yazı" arasındakı musiqinin melodik-tematik, lad-harmonik və ritmik təşkilindəki fərq aydın surətdə əks etdirilir. Dərslikdə polifoniya nəzəriyyəsinin öyrənilməsi praktiki tapşırıqların həyata keçirilməsi ilə paralel verilir. Müəllimin mühazirələri ilə müşayiət olunan və onun rəhbərliyi altında yazılan fərdi praktiki çalışma-məşğələləri bilik və bacarığın tədricən artması məqsədi daşıyır, polifonik təhlil və bəstələnmə vərdişlərini inkişaf etdirir.

Dərslikdə bir çox mövzu açıqlamalarının sonunda yerinə yetirilməsi tələb olunan materiallar, həmçinin təzadlı və imitasiyalı polifoniya nümunələrinin bəstələnməsi texnikasına dair metodiki göstərişlər verilmişdir.

Azərbaycan dilində yazılmış digər dərsliklərdən fərqli olaraq burada verilən mövzular elmi dil ilə yüklənməmiş, çox sadə üslubda tələbələrə çatdırılmışdır ki, bu da onların istər məşğələlərdə, istər də imtahana hazırlaşmasında böyük yardımçı olacaqdır. Tələbələr üçün tərtib olunmuş bu dərslikdən magistrantlar, doktorantlar, həmçinin çoxsəsli musiqi ilə maraqlanan hər bir oxucu faydalana bilər.

"Polifoniya dərsliyi" adlı bu kitabın Azərbaycan dilində tərtib olunması və nəşrində əsas hədəf ali məktəb müəssisələrinin tədris prosesini zənginləşdirmək, beləliklə də respublikada elmi-pedaqoji kadrların müvəffəqiyyətlə hazırlanmasına kömək etməkdir.

Rüxsarə xanımın məhsuldar fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş və o, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 sentyabr tarixli Sərəncamı ilə "Azərbaycanın Əməkdar Müəllimi" fəxri adına layiq görülmüş, həmçinin Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən təhsil sahəsində səmərəli fəaliyyətinə görə diploma təltif edilmişdir.

Rüxsarə Hüseynova bu gün də Naxçıvan Dövlət Universitetində öz şərəfli peşəsini davam etdirərək gənc kadrların yetişməsi üçün öz bilik və bacarıqlarını əsirgəmir. Elmi sahədə isə yorulmadan çalışan müəllif hal-hazırda "Musiqi əsərinin təhlili" dərsliyi üzərində işləyir.

Dəyərli müəllimimiz Rüxsarə xanıma öz pedaqoji və elmi işlərində uğurlar arzulayır, yeni yaradıcılıq nailiyyətləri diləyir və onun tələbəsi olduğumuz üçün fəxr edirik.

**Rumiyə Məmmədova**
***"Musiqinin tarixi və nəzəriyyəsi" kafedrasının müəllimi, musiqişünas***

# MAHİRƏ MƏMMƏDOVANIN KAMANÇA İFASININ ÖZÜNƏMƏXSUS XÜSUSİYYƏTLƏRİ

Azərbaycan mədəniyyəti tarixində musiqiçilərimizin də özünəməxsus yeri var. Naxçıvan torpağında musiqi mədəniyyəti sahəsində diqqətəlayiq uğurları olmuş bir çox görkəmli musiqiçilər mədəniyyət xəzinəmizi zənginləşdirmişlər. Həmin musiqiçilər Naxçıvan mədəniyyətinin formalaşması və inkişafı sahəsində xüsusi xidmətləri olmuş Məşədi Qulu, Mirzə Səttar, Kamal Əliyev, Şulan Ələkbərov, Məmməd



Məmmədov, Yusif Əliyev, Adıgözəl Adıgözəlov, Vahid Axundov və başqalarının adlarını qeyd etmək olar. Bu sahədə öz dəsti xətti ilə seçilən, gözəl pedaqoq Naxçıvan Muxtar Respublikasının əməkdar mədəniyyət işçisi adına layiq görülmüş Mahirə Məmmədovanın da adını xüsusi vurğulamaq istərdim.

Mahirə Məmmədova 1952-ci ildə Ordubad rayonunda ziyalı bir ailədə dünyaya göz açmışdır. 1959-cu ildə Əkbər Ağayev adına orta məktəbdə təhsil almaqla yanaşı 1962-ci ildə Ordubad rayon Musiqi məktəbinin kamança sinifinə daxil olur. Gözəl ifaçılığa malik olan musiqi müəllimlərindən ixtisas və muğam fənlərindən dərs alır. Təhsilini davam etdirmək üçün 1968-ci ildə Ağdam orta ixtisas musiqi texnikumunun Xalq çalğı alətləri şöbəsinə daxil olur. O, bütün çətinliklərə baxmayaraq həvəslə musiqi ilə məşğul olaraq həmin məktəbi fərqlənmə diplomu ilə bitirir.

1972-ci ildə Azərbaycan Dövlət Konservatoriyasına qəbul olan Mahirə Məmmədova tanınmış bəstəkarımız Ramiz Mirişlinin sinfində dərs alaraq istedadlı ifaçı, pedaqoji fəaliyyətə hazır bir müəllim kimi təyinatla Naxçıvana gəlir.

1978-79-cu illərdən Mahirə xanım Səfər Rəcəbov adına uşaq musiqi məktəbində ixtisas fənlərindən və muğamdan dərs deyərək neçə-neçə istedadlı musiqiçi yetişdirir. Öz istedadı, bacarığı ilə tanınan Mahirə Məmmədova Naxçıvan musiqi texnikumunda da fəaliyyət göstərməkdədir.

Mahirə müəllimənin kamança sinifində təhsil almış tələbələrindən Əbülfət Əliyev, Mamed Xəlilov, Niyaz İsmayılov, Bənövşə Rzayeva, Məhəbbət Sultanova, İradə Vəliyeva və.s kimi musiqiçilər Naxçıvan musiqi mədəniyyətimizdə özlərinə məxsus xüsusi yer tutmuşlar. 1984-cü ildən Naxçıvan Musiqi Texnikumunda tədris işlər üzrə direktor müavini sonra isə fənn birləşməsi komissiyasının sədri vəzifəsinə təyin edilib. 1998-ci ildən Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin "Xalq çalğı alətləri" kafedrasında fəaliyyət göstərmişdir. 2006-cı ildən Naxçıvan Dövlət Filarmoniyasının Xalq Çalğı Alətləri orkestrində solist kimi işləyib. Həmin illərdə Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, Naxçıvan Mədəniyyət Nazirliyi tərəfindən bir neçə diplomlarla təltif olunmuşdur. Mahirə Məmmədovanın əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Musiqi Texnikumunun 30 illik fəaliyyətində Naxçıvan Muxtar Respublikasının fəxri fərmanı ilə təltif edilmişdir. 2010-cu ildən Naxçıvan Muxtar Respublikasında keçirilən müsabiqələrdə münsifər heyətinin üzvü olub.

Mahirə müəllimə bu gün də Naxçıvan Musiqi Kollecində Xalq çalğı alətləri şöbəsinin müdiri vəzifəsində işləyir, işini layiqincə yerinə yetirir, kollektiv tərəfindən sevilir. Mahirə Məmmədovanın yaradıcılığına yüksək qiymət verərək ilk növbədə onun çoxşaxəli fəaliyyətini qeyd etməliyik. O, həm istedadlı müsiqiçi, həm gözəl pedaqoq, bacarıqlı ifaçı, həm də Naxçıvan Musiqi Texnikumunun Xalq Çalğı Alətləri şöbəsinin rəhbəri kimi geniş yaradıcılıq təxəyyülünə malikdir.

**İradə Vəliyeva**
***"Musiqi təlimi" kafedrasının müəllimi***

# ƏBƏDİYAŞAR BƏSTƏKAR

Bu il görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirovun 100 illik yubileyi qeyd olunacaq. Onun yaradıcılığına nəzər salaq. Hələ uşaqlığından atası tarzən Məşədi Cəmil Əmirovun musiqilərinə qulaq asan Fikrət Əmirovun bəstəkar kimi formalaşmasında o dövrün sənətkarlarının, yaşadığı mühitin təsiri olub.

Əla qiymətlərlə oxuyan Fikrət 1939-cu ildə Gəncədə orta musiqi məktəbini bitirdikdən sonra Bakıya gətirilir. Əmirovun Üzeyir Hacıbəyov və Bülbüllə əhatə olunan tələbəlik illəri başlayır. 1940-cı ildə Bakının zəngin musiqi mühiti, filarmoniyada keçirilən qərb və rus bəstəkarlarının əsərləri ilə tanışlıq Əmirovun gələcək yaradıcılığına təkan verirdi.

Bəstəkar yaradıcılığının ilk dövründə opera janrına müraciət etmişdi. 1953-cü ildə Cəfər Cabbarlının süjetinə "Sevil" operasını yazdı. Bəstəkar Azərbaycanda qadının acınacaqlı vəziyyətini, hüquqsuzluğunu əsərin obrazlı dili ilə göstərmişdir. Fikrət Əmirovun "Sevil" operası (ilk) Azərbaycan operası olmaqla yanaşı, respublikada opera sənətinin inkişafında mühüm mərhələ oldu. Fikrət Əmirovun balet janrında yazdığı ilk əsər "Şur" baletidir. Balet iki gəncin nakam məhəbbətindən bəhs edir.

1973-cü ildə Əmirov "Nəsimi dastanı" baletini meydana gətirir. Əsərdə Nəsiminin obrazı, onun yaradıcılığı, məğlubedilməz insan şəxsiyyətinin rəmzi kimi təqdim olunur.

1979-cu ildə bəstəkarın "Min bir gecə" baleti ərsəyə gəlir. Bu baletdə Əmirov xalqın çox sevdiyi nağıllara müraciət etmişdir. Balet müxtəlif ölkələrdə tamaşaya qoyulmuş və rəğbətlə qarşılanmışdır.

Fikrət Əmirov son əsəri olan "Nizami" baletini 1984-cü ildə tamamlamışdır. Balet Nizaminin özünün və qəhrəmanlarının ümumiləşdirilmiş obrazlarının təcəssümüdür. Burada şairin daxili aləmi onun yaratdığı obrazlar vasitəsilə açılır. Baletin mərkəzində Nizaminin daxili dünyası, fəlsəfi düşüncələri dayanır.

Fikrət Əmirovun simfonik əsərləri məzmunla əlaqədar olaraq janr və xarakter etibarilə də müxtəlifdir. Əmirov simfonizminin fərdi, özünəməxsus üslubu var. Simfonik əsərlərdə epiklik, fəlsəfi düşüncə tərzi, işıqlı və təravətli həyat amalı bir-birini əvəzləyir və tamamlayır.

1948-ci ildə Fikrət Əmirov "Şur" və "Kürdovşarı" simfonik muğamlarını yaratdı. Bu iki simfonik muğam bəstəkarın yaradıcılığında xüsusi yer tutur.

1971-ci ildə isə bəstəkar üçüncü simfonik muğam olan "Gülüstan-Bayatı-Şiraz" yaradır. Bəstəkar bu əsərini qədim şərq şairləri Sədi və Hafizə həsr etmişdir. Bu simfonik muğamda bəstəkar muğama daha sərbəst



yanaşır, muğamın melodik-ritmik xüsusiyyətlərini saxlamağa meyl edir.

"Azərbaycan süitası", "Azərbaycan kapriççiosu", "Azərbaycan qravürləri" əsərləri bəstəkarın Azərbaycan silsiləvi mövzusuna daxildir.

Fikrət Əmirovun kamera-instrumental əsərləri onun yaradıcılığında xüsusi yer tutur. Bu əsərlərə fortepiano və digər alətlər üçün yazdığı əsərlər daxildir. Fortepiano üçün yazdığı kiçik pyeslərdə obrazların əlvanlığı, lirikliyi diqqəti cəlb edir.

Bu pyeslər bəstəkarın "Uşaq lövhələri" və "On iki miniatür" fortepiano məcmuələrində toplanıb.

1957-ci ildə Elmira Nəzirova ilə birlikdə yazdığı konsert bəstəkara uğur gətirdi. Ərəb mövzuları əsasında yazılan fortepiano ilə orkestr üçün konsert ənənəvi klassik üç hissəli formadadır. Konsertin musiqisi mövzu baxımından çox rəngarəngdir. Musiqi dili parlaq boyalardan melodik çalarlardan ibarətdir. Ərəb mövzusunda bu konsertin yazılması ideyası Fikrət Əmirova məxsus idi.

Əmirov yaradıcılığının əsas hissəsini vətənpərvərlik mövzusu təşkil edir. Bu bəstəkarın mahnıları üçün çox səciyyəvidir. Bəstəkar vətənini daim şad və firavan görmək istəyir. Azərbaycanı və onun gözəlliklərini tərənnüm edən mahnılar bəstələyir.

Vokal musiqi janrına müraciət edən bəstəkarın uğurlu romansları "Gülüm", "Ulduz", "İki sahil" Azərbaycan vokal musiqi janrının gözəl nümunələrindəndir. Fikrət Əmirovun "Ürəkaçanlar", "Gözün aydın", "Xoş xəbər" musiqili komediyaları Böyük Vətən Müharibəsi dövrü və müharibədən sonrakı çətin illərdə yaranmışdır. Fikrət Əmirov bir çox tamaşalara və kinofilmlərə də musiqi bəstələmişdir.

Üzeyir Hacıbəylinin sənət irsini yüksək qiymətləndirən Fikrət Əmirov müəlliminin vəfatından təsirlənərək "Üzeyir Hacıbəyova ithaf poema" əsərini bəstələmişdir.

Fikrət Əmirovun fortepiano üçün yazdığı əsərlərinə iki ekspromt, variasiyalar, tarixi iki fortepiano üçün alban xalq mövzuları üzrə süita daxildir. Bundan başqa kamera-instrumental əsərlərə bəstəkarın səs və fortepiano üçün altı pyesdən ibarət silsiləsi də aiddir. Pyeslər proqramlıdır.

Fikrət Əmirovun bəstələdiyi əsərlər həmişə xalqın zövqünü oxşayıb və oxşayacaq. Bəstəkar öz xatirələrində qeyd edir ki, "Məni bəstəkar edən Azərbaycan tarıdır, Azərbaycan musiqi alətlərinin gözü tardır".

Fikrət Əmirovun bəstəkarlıq sənətinə yiyələnməsinin təşəbbüskarı Üzeyir Hacıbəyli idi. O, Üzeyir bəydən musiqi barədə elmlər öyrənib. Bəstəkarın formalaşmasında Boris Zeydmanın da böyük rolu olub. Mirzə İbrahimov yazırdı ki, "Fikrət Əmirov musiqisi milli olduğu qədər də, beynəlmiləldir. Onun sənətinin pərəstişkarları dünyanın hər yerindəndir. Əmirovun sehrkar musiqisi sevimli bəstəkarımızın ömrünü əbədi edəcək, sorağını əsrlərdən-əsrlərə aparacaqdır".

**Solmaz Axundova**
***"Fortepiano" kafedrasının dosenti, Azərbaycan Respublikasının əməkdar müəllimi***

# HƏMİŞƏYAŞAR SƏNƏTKAR

Azərbaycan torpağının dünyaya bəxş etdiyi dahi şəxsiyyətlərdən biri görkəmli bəstəkar, qüdrətli ictimai xadim, akademik, böyük müəllim və gözəl insan olan Qara Qarayevdir. Q.Qarayevin adı bütün Azərbaycan xalqı üçün doğma və əzizdir. Vətənimizin elə bir guşəsi yoxdur ki, orada hər bir kəs bu böyük sənətkarın musiqi dühasının sehrinə düşməsin, onun “Yeddi gözəl” baleti, “Leyli və Məcnun” simfonik poeması, “Uzaq sahillərdə” kinofilminə yazılmış musiqidən xəbərsiz olsun. Q.Qarayev öz əsərlərilə daim sevilən və insanı düşündürən sənətkardır. Çünki, o, həmişə doğma torpağından qüdrət almış, muğam, aşıq musiqisi, xalq nəğmələri kimi milli musiqimizin saf çeşməsindən bəhrələnmişdir.

Lakin eyni zamanda Q.Qarayev həm də başəri bir hörmət qazanmış sənətkardır. Çünki, sənət yolunda yeni cığırlar açaraq, yalnız özünəməxsus üslub yaratmış bəstəkar təkcə öz xalqının deyil, həm də dünya musiqi tarixinin bütün dövrlərinin nailiyyətlərini mənimsəmiş, dünya musiqi xəzinəsini misilsiz əsərlərilə zənginləşdirmişdir. Klassiklərin ənənələrinə istinad edən Qarayev Azərbaycan musiqisinin milli çərçivəsini genişləndirmiş, dünya mədəniyyəti ənənələrilə Azərbaycan milli folklor ənənələrini birləşdirmiş, öz əsərlərində Qərb və Şərqin sintezini bir vəhdət şəklində əks etdirmişdir. Ən müxtəlif xalqların- ispan, bolqar, vyetnam, afrika xalqlarının həyatını əks etdirən, müxtəlif millətlərin musiqi folkloruna əsaslanan mövzulara müraciət etsə belə, hər bir əsərdə Azərbaycan bəstəkarının öz dəsti-xətti aydın şəkildə özünü büruzə vermişdir.

Qüdrətli bəstəkarın yaradıcılıq irsi son dərəcə geniş və zəngindir. Bunu onun müraciət etdiyi müxtəlif janr və rəngarəng mövzularda görmək olar. Demək olar ki, Q.Qarayev bütün janrlarda eyni coşğunluğla qələmini sınamış, novatorluğu və bədii cəhətdən yüksək səviyyəsilə fərqlənən dahiyanə əsərlər yaratmışdır. Bəstəkarın geniş şöhrət qazanmış və musiqi mədəniyyətinin qızıl fonduna daxil olmuş baletləri, simfoniyaları, simfonik poeması, kamera-instrumental əsərləri, kinofilm və dram tamaşalarına yazılmış musiqisi bunu bir daha təsdiq edir.

Mövzu cəhətdən isə Q.Qarayevi xüsusilə müxtəlif dövrlərin şair və yazıçılarının əsərləri, xalq əfsanələri cəlb edirdi. Onu ilhamlandıran əsas mənbə Ö.Xəyyam, N.Gəncəvi, V.Şekspir, Lope de Veqa, M.Servantes, A.S.Puşkin, S.Vurğun, R.Rza kimi dahi korifeylərin əsərləri olmuşdur. Bəstəkarın əsərlərində yüksək vətənpərvərlik hissi, xalqın faşist işğalçılarına qarşı dəyanəti, müxtəlif xalqların azadlıq uğrunda mübarizəsi, irqi ayrıseçkilik problemləri öz əksini tapmışdır. Lakin istər klassik şərq mövzusu, istər müasir məişət mövzusu və istərsə də bir sıra dünya xalqlarının mövzularından bəstəkar eyni ilham və məharətlə istifadə edərək onları özünün təkrarolunmaz musiqisi ilə ölməzlik zirvəsinə qaldırmışdır. Onun əsərlərində xoşbəxtlik və azadlıq uğrunda mübariz bir sənətkarın səsi duyulur. Bəstəkarın diqqət mərkəzində daima insan taleyi, onun mənəvi aləmi və istəkləri, öz səadəti uğrunda çarpışması dayanır.

Q.Qarayevin insan mənəviyyatının saflığını və gözəlliyini, hisslərin poeziyasını



tərənnüm edən baletləri həqiqi insanpərvərlik ruhu ilə doludur. Dahi Azərbaycan şairi, mütəfəkkir və filosofu Nizami yaradıcılığının yüksək humanizm ideyası ilə bağlı olan “Yeddi gözəl” baleti özünün zəngin musiqi dili ilə kamil sənət nümunəsi kimi mədəniyyətimizin ən nadir inciləri sırasına daxil edilmişdir. Baleti yüksək romantik duyğularla aşılanmış musiqili-xoreoqrafik faciə adlandırmaq olar. Bəstəkar əsərdə Azərbaycan melosunun zərif, incə ruhunu və onun misilsiz gözəlliyini böyük sənətkarlıqla verə bilmişdir. Cənubi Afrika yazıçısı P.Abrahamsın eyniadlı romanının süjeti əsasında yazılmış “İldırımlı yollarla” baletində isə Q.Qarayev son dərəcə cəsarətli addım ataraq, balet janrı üçün tamamilə yeni olan bir mövzuya müraciət etmişdir. Q.Qarayev əsil humanist sənətkar kimi müstəmləkə halında yaşayan Afrika xalqının milli azadlıq hərəkatını, onların öz hüquq və azadlıqları uğrunda mübarizəyə qalxması ideyasını, “qara dərili” gənc oğlanla “ağ” qızın faciəli məhəbbətini ehtiraslı musiqi dili ilə parlaq şəkildə ifadə etmişdir. Xüsusilə, əsas qəhrəmanlar olan Lenni və Sarinin təmiz, saf məhəbbəti, onların faciəli taleyi əsərdə zülmə, qəddarlığa qarşı etiraz kimi səslənmişdir.

Vətəninə böyük sevgi ilə bağlı olan Q.Qarayevin yaradıcılığında Vətən mövzusu ən əhəmiyyətli yerlərdən birini tutur. Bu cəhətdən bəstəkarın musiqili-səhnə əsərləri içərisində onun bəstəkar Cövdət Hacıyevlə birlikdə yazdığı və milli opera sənətini zənginləşdirən “Vətən” operasını qeyd etmək olar. Böyük vətənpərvərlik ruhu ilə yazılmış “Vətən” operası öz ideyası ilə bu günlərlə səsləşərək, Azərbaycan gənclərinə Vətənə böyük sədaqət, sevgi və hətta lazım gələrsə onun yolunda şəhidlik zirvəsinə qalxmaq kimi hissləri təlqin edir. Bu operaya görə hər iki sənətkar SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

Azərbaycan simfonik və kamera musiqisinin inkişafında ən mühüm səhifələrdən biri Q.Qarayevin adı ilə bağlıdır. Onun bu janrda yazdığı əsərləri bu gün də bütün dünyanı gəzərək, müxtəlif ölkələrin simfonik orkestrinin repertuarını bəzəyir və möhtəşəm konsert salonlarında səslənir. Bura bəstəkarın yazdığı 3 simfoniya, “Leyli və Məcnun” simfonik poeması, “Don Kixot” simfonik qravürləri, süitalar və başqa səpkili əsərləri daxildir. SSRİ Dövlət mükafatına layiq görülən ”Leyli və Məcnun” simfonik poemasında bəstəkar azadlıqsevər insan ruhunun böyüklüyü və əbədiliyini parlaq musiqi dili ilə dinləyiciyə çatdırmışdır. “Don Kixot” simfonik qravürlərilə bəstəkar öz yaradıcılığında klassik və dünya ədəbiyyatının gözəl əsəri olan Servantesin eyniadlı romanının qəhrəmanı haqqında simfonik janrın yeni və misilsiz nümunəsini yaratmışdır. Q.Qarayev Azərbaycanda ilk simfoniya yazan bəstəkarlar sırasına daxil olaraq, yaratdığı 3 simfoniya ilə bu janrın ifadə dairəsini son dərəcədə genişləndirmişdir. Xüsusilə, kamera orkestri üçün müasir yazı texnikasında yazılmış III simfoniya insan həyatının mənasını əks etdirən musiqili fəlsəfi hekayə kimi qəbul edilmişdir.

Kamera-instrumental musiq sahəsində bəstəkarın böyük ustalıq səviyyəsini təcəssüm etdirən fortepiano üçün 4 dəftərdən ibarət 24 prelüd,12 fuqa silsilələri, böyük rus şairi A.S.Puşkinin ölümünün100 illiyinə həsr edilmiş “Sarskoye selo heykəli” fortepiano pyesi, skripka və fortepiano üçün sonata, simli kvartet əsərləri bu gün də öz bədii əhəmiyyətini itirməmiş və musiqiçilərin repertuarında özünə möhkəm yer tutmuşdur.

Bəstəkarın bütün yaradıcılığı boyu müraciət etdiyi və yalnız doğma xalqının poetik folklorunu deyil, həmçinin digər xalqların da lirik şeirlərini əhatə edən vokal əsərləri onun yaradıcılıq qüdrəti və əzəmətini hərtərəfli təcəssüm etdirir. Gözəl melodiyalar ustadı olan Qarayevin romansları, mahnıları bu janrda yazılmış ən parlaq sənət nümunələridir.

Kinonu öz xarakteri etibarilə “böyük müasir bəstəkarlıq məktəbi” adlandıran Q.Qarayev kino musiqisi və həmçinin dram tamaşalarına musiqi üzərində də çox məhsuldar işləmiş, klassikaya çevrilən əsil sənətkarlıq nümunələri yaratmışdır.

Qara Qarayev bəstəkarlıqla yanaşı, həmçinin ensiklopedik biliyə, zəngin dünyagörüşünə, iti zəkaya malik alim, mütəfəkkir idi. O, dünya musiqi elminin nailiyyətlərini dərindən öyrənərək dünya musiqisinin, eləcə də ədəbiyyat, rəssamlıq və teatrının gözəl bilicisi olmuşdur. Onun musiqi elminə, nəzəriyyəsinə, estetikaya aid zəngin elmi-publisistik irsi, xeyli məqalələ, resenziya, məruzə və çıxışları, incəsənətin bir sıra vacib problemləri haqqında fikirləri, elmi müddəaları, onun böyük mütəfəkkir alim kimi Azərbaycan musiqi elmində şərəfli yer tutmasına səbəb olmuşdur.

Ömrü əbədiyyətə qovuşan dahi bəstəkarın ölümündən 40 il keçir. Sənətkar neçə il yaşayırsa yaşasın, onun böyük xoşbəxtliyi özündən sonra insanlara bəxş etdiyi sərvətidir. Q.Qarayev də bizə, bütün Azərbaycan xalqına belə bir qiymətli xəzinə qoyub getmişdir. Q.Qarayev bir də ona görə ölməzdir ki, musiqi sənətinin bir sıra janrlarında öz samballı sözünü demiş Azərbaycan bəstəkarlarının bütöv bir nəslini yetişdirmiş və bu gün həmin bəstəkarlar onun işinin layiqli davamçılarıdır.

İllər, on illər ötəcək, lakin yeni-yeni nəsillər Q.Qarayev musiqisinin zəngin xəzinəsinə qovuşmaq və ondan ilham almaq üçün daim onun həmişəyaşar yaradıcılığına müraciət edəcəklər. Görkəmli şairimiz Hikmət Ziyanın bəstəkarın xatirəsinə həsr etdiyi rekviyemdən bir parça bu fikri bir daha təsdiq edir:

*Bir təskinliyimiz budur ki, bizim*
*Yaşadacaq illər, əsrlər səni*
*Musiqin quş kimi gəzəcək ərzi,*
*Dinləyəcək min-min nəsillər səni.*

**Rüxsarə Hüseynova**
***“Musiqinin tarixi və nəzəriyyəsi” kafedrasının baş müəllimi***

# ÜZEYİR HACIBƏYLİNİN OPERALARINDA AZƏRBAYCAN XOR MƏDƏNİYYƏTİNİN FORMALAŞMASI

Xor musiqi mədəniyyətinin qədim zamanlardan etibarən formalaşmış janrlarından biridir. Bu sənət uzun illəri əhatə edən inkişaf yolu qət etmişdir. İnkişaf tarixində hər dəfə yeni istiqamət götürən xor sənəti XX əsrdə də musiqi mədəniyyətinin əhəmiyyətli sahələrindən biri olmuşdur.

Azərbaycan musiqi mədəniyyəti XX əsrin ilk onilliklərinə qədər şifahi ənənələr əsasında inkişaf etmişdir. Peşəkar musiqi mədəniyyətimizdə bir çox janrlar öz başlanğıcını məhz şifahi ənənəli xalq musiqisindən götürmüşdür. Vokal, xor musiqisi də belə janrlardandır. Azərbaycan xalq mahnılarının rəngarəng mövzu əhatəliliyi, xalq arasında geniş yayılmış xalq mahnıları peşəkar vokal sənətinin ilkin daşıyıcıları olduğu kimi, kollektiv oxunan mahnılar da milli xor sənətinin ilk nümunələri olaraq qəbul olunurlar. Azərbaycanda xüsusilə qadınların kollektiv şəkildə səsləndirdiyi “Aman nənə”, “Ay lolo” mahnıları şifahi ənənəli milli xor sənətinin nümunələridir.

XX əsrin ilk onilliklərində Azərbaycan musiqi mədəniyyəti özünün inkişaf tarixində yeni mərhələyə qədəm qoyur. 1908-ci ildə Ü.Hacıbəylinin “Leyli və Məcnun” operasının səhnələşməsi milli musiqinin klassik prinsiplər əsasında formalaşması və yeni istiqamətdə inkişafını şərtləndirir. Ü.Hacıbəyli “Leyli və Məcnun” operası ilə Azərbaycanda bir tək opera janrında ilk ən əhəmiyyətli işə imza atmır, o, eyni zamanda klassik Avropa musiqisində bilinən bütün janrların Azərbaycana gətirilərək onların milli nümunələrinin yaradılması istiqamətində ən böyük addımı atmış olur. Bundan sonra bəstəkar yazacağı digər əsərlərində daha cəsarətli hərəkət edərək Azərbaycan simfonizminin, xor sənətinin, vokal musiqisinin, instrumental musiqinin, opera janrının bütün cəhətlərini işləyərək klassik Avropa musiqisinin bütün janrlarının milli nümunələrinin ilk yaradıcısına çevrilir.

Azərbaycanda bir çox digər janrlar kimi professional xor sənətinin də formalaşması məhz dahi Ü.Hacıbəylinin adı ilə bağlıdır. Ü.Hacıbəyli dahi mütəfəkkir olaraq çox gözəl başa düşürdü ki, klassik Avropa musiqisində bilinən janrların milli nümunələrini yaratmaq üçün zəngin baza olmalıdır. O, xalq musiqisini bu mənada zəngin zəmin olaraq görürdü. Lakin XX əsrə qədər şifahi ənənələr əsasında inkişaf edən xalq musiqisi klassik Avropa musiqisi qanunauyğunluqları ilə qovuşdurulmalı idi. Buna görə də bəstəkar yazmış olduğu ilk əsərində xor, solo, ansambl nömrələri vasitəsi ilə bu qovuşmanın ilkin təməlini atırdı. “Leyli və Məcnun” operasından xor nömrələri də bəstəkarın bu məqsədə doğru aldığı yolun başlanğıcını təşkil edir.

Ü.Hacıbəyli “Leyli və Məcnun” operasında bir-birindən maraqlı, operanın məzmununu dərinləşdirən, hadisələrin dramaturji inkişafını təmin edən və faciə düyününün açılmasında əhəmiyyətli ilə diqqəti cəlb edən xor nömrələri yazmışdır. Bu baxımdan “Qızların” xoru, “Verma, verma” xoru, “Məcnun, Məcnun dur gedək”, “Bu gələn yara bənzər” kimi nömrələr milli xor sənətinin ilk nümunələri olmaqla yanaşı əsərin məna dəyərini də artıran mühüm nömrələrdir. Maraqlı cəhət budur ki, xalq musiqisi əsasında əsərlərində zəngin təməl formalaşdıran Ü.Hacıbəyli xor nömrələrində də bu mənbəyə müraciət edir. “Evləri var xana-xana”, “Bu gələn yara bənzər” kimi xalq musiqisi nümunələrinin xor variantlarını hazırlayır.

Məlum olduğu kimi kütləvi səhnələrin canlandırılması bəstəkardan xüsusi qabiliyyət tələb edir. Kütləvi səhnələr parlaqlığı ilə seçilməli və özündə adından da göründüyü kimi kütləvilik xüsusiyyəti daşımalıdır. Xüsusilə opera əsərlərində demək olar ki, bütün bəstəkarlar kütləvi səhnələrin canlandırılmasında mütləq xor nömrələrinə müraciət edirlər. Bu ilk növbədə səhnə hərəkətini təmin edir, eyni zamanda da səslənmədə zəngin elementlər ortaya qoyur. Ü.Hacıbəyli də operalarının kütləvi səhnələrində xor sənətinin əzəmətinə müraciət etmişdir.

Ü.Hacıbəyli operalarında xor nömrələri yazmaqla bu işin daha irəli aparılması vacibliyini çox gözəl başa düşən dahi sənətkar idi. Belə ki, əsərlərdə xor nümunələrinin tam mənası ilə öz vəzifəsini yerinə yetirə bilməsi üçün xor kollektivlərinin yaradılması ən vacib məsələlərdən biri idi. Bəstəkar bu məsələni qarşıya yaradıcılıq problemi kimi qoy-



muşdur. İlk operasının ərsəyə gəlməsində ortaya çıxan çətinliklər onu bu problemi həll etməkdə səmərəli işlər görməyə sövq edirdi. Buna görə də xüsusilə XX əsrin 20-ci illərində bəstəkarın bu sahədə təbliğatçı və təşviqatçılıq fəaliyyətinin şahidi oluruq. 1921-ci ildə Azərbaycanda konservatoriyanın açılması, sonradan Türk Musiqi Məktəbinin bu tədris müəssisəsilə birləşdirilməsi artıq istedadlı gənclərin musiqi təhsilinə aktiv şəkildə cəlb olunması demək idi. Konservatoriyanın nəzdində qısa zamanda bütün ixtisaslar üzrə şöbələr fəaliyyət göstərməyə başlayır. Elə həmin il Ü.Hacıbəylinin şəxsi təşəbbüsü ilə tədris proqramına xor fənni salınır. 1926-cı ildə konservatoriyanın nəzdində ilk dəfə olaraq çoxsəsli xor kollektivi yaradılır, 1928-ci ildə xor sinfi fəaliyyət göstərməyə başlayır. Bütün bunlar 1936-cı ildə yaradılacaq ilk Dövlət xoru üçün sağlam təməl formalaşdırır. Həmin fəaliyyətlərin bazasında yaradılan Dövlət xoru repertuar rəngarəngliyi ilə, peşəkar ifası ilə qısa zamanda məşhurlaşır. Elə kollektivin ilk uğurlarından biri də 1938-ci ildə Moskvada keçirilən “Azərbaycan Mədəniyyəti və İncəsənəti” ongünlüyündə əldə edilən böyük nailiyyət olur.

Bütün digər sahələr kimi xor sənəti sahəsində Ü.Hacıbəylinin yorulmaz fəaliyyəti nəticəsində əldə olunan uğurlar bəstəkarın yaradıcılıq ilhamını pərvazlandırır. Bəstəkar özünün ən əhəmiyyətli şah əsəri “Koroğlu” operasında bütün yaradıcılıq imkanlarını səfərbər edərək əzəmətli musiqili dram yaradır.

“Koroğlu” operasını musiqi mədəniyyətimizin tarixinə möhtəşəmliliyi ilə seçilən əsərlər arasında ən başlıca əsər səviyyəsinə qaldıran bu operanın bir tək məzmununun dərinliyi və ya süjetdə öz dövrü üçün aktual olan xalq kütlələrinin azadlıq uğrunda mübarizəsinin təsviri deyildi. Əsər eyni zamanda nəhəng ansambl, xor, solo nömrələri, musiqi parçasının simfonik inkişaf tabe edilməsi, polifonik imkanlardan yüksək səviyyədə istifadə olunması, yaradıcı kollektivin peşəkarlığı baxımından da möhtəşəm sənət əsəri idi. Operada bütün nömrələr kimi xor nömrələri də bütün ehtişamı ilə diqqəti cəlb edir.

“Ü.Hacıbəylinin”Koroğlu” operasında demək olar ki, bütün pərdələrdə səslənən xor nömrələri dramaturgiyanın ana xəttini təşkil edərək, məzmunun açılmasında böyük rol oynayır. Xor nömrələri bəstəkar üçün xalq ilə baş qəhrəmanların ideya cəhətdən bütünləşməsində əsas vasitəyə çevrilir. Xor partiyalarında qəhrəmanların mənəvi dünyalarının hiss və həyəcanları təcəssüm etdirilir, bu nömrələrdə xalqın qüdrəti əks olunur. Təbii ki, “Koroğlu” operasının ən məşhur xor nömrəsi III pərdənin mərkəzi “Çənlibel” xorudur. Burada inastumental səslənmədə əzəmətli səs çalarları əldə edən Ü.Hacıbəyli milli çoxsəsliliyin ən gözəl nümunəsini yaratmışdır. Xor qarışıq xor olub, qadın və kişi səslərinin bir vəhdətdə birləşdirilməsində bəstəkarın peşəkarlığından xəbər verir. Ü.Hacıbəyli burada klassik musiqidən bilinən variasiya, sonata, fuqa, üçhissəli forma elementlərindən məharətlə istifadə edib. Ən başlıcası isə özünü polifoniya sahəsində usta kimi nümayiş etdirməyi bacarıb. Xorda bütün partiyalardan keçən mövzu polifonik laylar əmələ gətirərək nömrədə təsvir olunan xalq gücünün əzəmətini vurğulayır.

Ü.Hacıbəyli operalarından xor nömrələrində, eyni zamanda sərbəst xarakterli xor əsərlərində Azərbaycan xor sənətinin sadəcə zəminini hazırlamamışdır. O, eyni zamanda bu əsərlərin ifaçılıq meaxinzmasını da formalaşdırmışdır. Yəni xor musiqisi sahəsində yazılan hər bir əsərin ifa olunması üçün qısa zamanda yaradılan xor kollektivləri əsərlərlə bərabər milli xor mədəniyyətinin inkişaf istiqamətini müəyyənləşdirmişdir.

Ü.Hacıbəylidən sonra M.Maqomayev operalarında əzəmətli xor nömrələri yaradır. Azərbaycan xor sənətində Cahagir Cahangirov yazdığı əsərlərlə əhəmiyyətli işlərə imza atır. Onun “Azad” operasının III pərdəsində “Çahargah” məqmına əsaslanan xor nömrəsi “Koroğlu” operasının qəhrəmani pafosunu davam etdirir. Digər bəstəkarlarımız da bu sahədə axtarışları ilə məşğul olub, Ü.Hacıbəylinin yaradıcılıq ənənələrini daha da inkişaf etdirirlər. Ü.Hacıbəylinin hazırladığı zəngin zəmini öz yaradıcılıqlarında sağlam təməl olaraq qəbul edən Azərbaycan bəstəkarları sonrakı dövrlərdə xor musiqisi sahəsində yazdıqları əsərlərlə milli xor musiqisini zəngin elementlərlə dolğunlaşdırmağı bacarmışlar.

**Validə Hüseynova**
***“Orkestr alətləri və dirijorluq” kafedrasının dosenti***

# BİR ÖMRÜN SİMFONİYASI

Olduqca zəngin olan Azərbaycan Musiqi Mədəniyyətinin kökləri qədim zamanlara gedib çıxır. Qədim dövrlərdən bu günə qədər öz gözəlliyini qoruyub saxlayan Azərbaycan musiqisinin inkişafında xalqımızın istedadlı sənətkarlarının, görkəmli musiqiçilərinin əvəzolunmaz xidmətləri olmuşdur. Əsası dahi bəstəkar Üzeyir Hacıbəyov tərəfindən qoyulmuş Azərbaycan xor musiqisi bütün bu illər ərzində çox böyük uğurlar qazanmışdır. Xor - yunan sözündən götürülmüş xoros, yəni mügənnilər kollektivi deməkdir. Bu kollektivə - xora rəhbərlik edən şəxs isə xor işini bilən böyük mütəxəssis, her şeydən əvvəl əsas texniki vərdişləri mənimsəyən, dirijorluq texnikasını mükəmməl bilən dirijordur. Haqqında söhbət açdığımız musiqiçi xanım sadaladığımız bütün bu çətin işlərin öhdəsindən asanlıqla gəlməyi bacaran Azərbaycan Respublikasının Mədəniyyət işçisi, Naxçıvan Muxtar Respublikasının Əməkdar İncəsənət xadimi, Prezident təqaüdçüsü, professor Səidə xanım Məmmədovadır. Onun həyat salnaməsini vərəqlədikcə mənəvi böyüklüyünün və keçdiyi şərəfli ömür yolunun bir daha şahidi olursan.

Səidə Müslüm qızı Məmmədova 1942- ci ildə Naxçıvan şəhərində ziyalı ailəsində anadan olmuşdur. İlk musiqi təhsilini Bakıda 12 saylı uşaq musiqi məktəbində alan Səidə Məmmədova ailəsinin Naxçıvan şəhərinə köçməsi ilə əlaqədar olaraq təhsilini Naxçıvan şəhər 1 saylı uşaq musiqi məktəbində davam etdirir. Çox böyük arzularla yaşayan Səidə xanım 1960-cı ildə orta məktəbi bitirir və elə həmin il Bakı şəhərində Asəf Zeynallı adına Musiqi Məktəbinin xor dirijorluğu şöbəsinə daxil olur. Burada ixtisas dərslərini Ləman Atakişiyeva və Qimpeleyevičdən alır. Oxuduğu illərdə öz istedadı, bacarığı və çalışqanlığı ilə müəllimlərini həmişə sevindirirən Səidə Məmmədova məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının Xor Dirijorluq fakultəsində təhsilini davam etdirir.

Xor fakturasından istifadə etmək bacarığı Səidə müəllimənin xor ilə işində özünü açıq aydın göstərir. Özünün etiraf etdiyi kimi o dahi Üzeyir Hacıbəylinin yetirməsi olan Cahangir Cahangirovdan xor musiqisinin əsaslarını və incəliklərini öyrənmişdir.

Bakıda təhsil aldığı illəri Səidə xanım həyatının ən mənalı, ən maraqlı illəri kimi xatırlayır. O, Konservatoriyanın birinci kursunda təhsil aldığı ildən Bakının Nərimanov adına Mədəniyyət evində Fortepiano müəllimi və ansamblın bədii rəhbəri kimi çalışmağa başlayıb.

1969-cu ildə təhsilini başa vuran Səidə Məmmədova professional musiqi mütəxəssisi kimi öz doğma vətəni Naxçıvana qayıdır və Naxçıvan şəhər 1 saylı uşaq musiqi məktəbində Fortepiano müəllimi kimi fəaliyyətə başlayır. Aradan neçə illər keçsə də Səidə müəllim heç ara vermədən, yorulmadan, həvəslə Naxçıvan Musiqi Mədəniyyətinin inkişafı üçün çox böyük işlər görür.

Musiqiçinin ilk uğurlardan biri 1974- cü ildə C. Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında böyük təntənə ilə qeyd olunan Nax. MSSR-in 50 illik yubileyinə həsr edilmiş təntənəli yığıncağın bədii hissəsində Naxçıvan Dövlət Xalq Çalğı Orkestrinin ifasında Cahangir Cahangirovun "Naxçıvan haqqında Kantatası"na böyük məharətlə etdiyi dirijorluqdur. Səidə xanımın rəhbərliyi altında xor və orkestrin ifa etdiyi Qədim Naxçıvan torpağının salnaməsini vərəqləyən bu ecazkar musiqi bütün musiqi ictimaiyyəti tərəfindən heyranlıqla və alqışlarla qarşılanır. Bu işdə çəkdiyi əmək yüksək qiymətləndirilərək 1973-cü ildə Naxçıvan Muxtar Respublikası Rəyasət Heyətinin, 1974-cü ildə isə Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanları ilə təltif edilir.

Səidə Məmmədovanın növbəti uğuru isə 1978- ci ildə Azərbaycan Kommunist Partiyası MK-nin, Azərbaycan SSRİ Ali Sovetinin birgə təntənəli iclasının iştirakçıları üçün təşkil etdiyi bayram konserti oldu. Bəstəkar Ramiz Mirişlinin Fikrət Qocanın sözlərinə yazdığı "Naxçıvan təranələri" süitasına dirijorluq edən Səidə xanım Məmmədovanın bu uğuru həm də Azərbaycan qadınının bütün sahələrdə olduğu kimi musiqi sahəsində də yüksəliş və inkişafın təzahürü idi. O, Azərbaycan Dövlət Simfonik Orkestrinin yüksək tərkibli heyətinə dirijorluq edən ilk qadın dirijor idi.

Səidə xanım bütün gördüyü bu işləri çox böyük zövqlə, sevə- sevə və məsuliyyətlə həyata keçirirdi. O, öz sənətini, musiqini o qədər çox sevir ki, həmişə söhbətlərində öz sənətindən ayrı yaşaya bilməyəcəyini söyləyir.



1975- ci ildə Naxçıvanda ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Üzeyir Hacıbəyov adına Orta İxtisas Musiqi Məktəbi yaradılır. Bu məktəbin ilk direktoru, ilk təşkilatçısı Səidə Məmmədova olmuşdur. Onun rəhbərliyi altında fəaliyyətə başlayan bu musiqi ocağının əks -sədası bütün respublikaya yayıldı. Çünki bu məktəb əsl sənət ocağına çevrildi. S.Məmmədovanın ciddiliyi, tələbkarlığı sayəsində məktəbdə keçirilən dərslərin və təlim-tərbiyə işlərinin yüksək səviyyədə olması ilə yanaşı, həm də yarandığı gündən burada müxtəlif musiqi kollektivləri fəaliyyət göstərməyə başladı ki, bu kollektivlər də Muxtar Respublikanın bütün mədəni tədbir və ya konsertlərində iştirak edirdilər. Səidə xanımın təməlini qoyduğu bu ənənə bu gün də davam edir.

Səidə xanım bu qədər məhsuldar işləməsinə baxmayaraq o iç dünyasını , duyğularını da notlaşdırmağa vaxt ayıra bilmişdir. Belə ki, bu yaradıcılıq işi qətiyyən "mən bu işi də bacarıram " demək deyildi. Bu sadəcə olaraq onun həssas qəlbinin tələbatından doğulurdu. Onun Naxçıvan şairlərindən M.Nəsirlinin, Hüseyn Razinin, Kəmalə Ağayevanın, Elmira Qasımovanın, Əli Vəliyevin sözlərinə bəstələdiyi "Sevirəm yurdumu"," Ürəkdir sevən məni", "Ülkərim", Ayrılıq", "Könlümdəsən həmişə", "Görüş", "O kaman səsi" və başqa mahnılari musiqisevərlərin könüllərini oxşayır. Eyni zamanda o xor üçün bir neçə mahnılar, Saray Şəkərlinin " Bilsəydim ki" xalq mahnısı, "A nazlı dilbər" və başqalarını işləyib hazırlamışdır.

1996-cı ildə Naxçıvan Dövlət Universitetində yeni kafedra – "İfaçılıq" kafedrası yaradılır və Səidə Məmmədova buraya rəhbər təyin olunur. İstər Orta İxtisas Musiqi Məktəbində, istərsə də NDU-də işlədiyi müddətdə Səidə xanım çalışmışdır ki, bütün təhsil ocaqlarında gənclər öz iş keyfiyyəti, yüksək mədəni səviyyəsi ilə fərqlənən musiqiçi pedaqoq kimi yetişsinlər. Böyüməkdə olan nəslin musiqi estetik tərbiyəsi ilə hərtərəfli, müntəzəm məşğul olmağı bacarsınlar. Universitetdə də işə başladığı ilk gündən Səidə müəllimə öz iş prinsipinə uyğun olaraq fəaliyyətə başladı. Belə ki, 24 noyabr 2000-ci il tarixdə NDU müəllim və tələbələrindən ibarət Opera studiyası yaradılmış və bu studiyaya rəhbərlik ifaçılıq kafedrasının müdiri, dosent Səidə Məmmədovaya tapşırılmışdır. Opera studiyasının hazirladığı " Leyli və Məcnun " operasının iki pərdəsi 2001- ci il iyun ayının 15- də Naxçıvan şəhərində "Qurtuluş günü" münasibətilə keçirilmiş dövlət tədbirlərində səhnədə nümayiş etdirilmişdir.

2004- cü ilin iyun ayının 30-da Opera studiyasında Üzeyir Hacıbəyovun "Arşın mal alan "operettası Səidə Məmmədovanın rəhbərliyi və dirijorluğu ilə tamaşaya qoyulmuşdur. Bu əsər 2005-ci il martın 22- də Türkiyənin Qars şəhərində Qafqaz Universitetində, may ayının 3-də Samsun şəhərinin Ondoqquz mays Universitetində, may ayının 5-də Trabzon şəhərinin Karadeniz Texniki Universitetində alqışlarla qarşılanmışdır. 19 may 2005-ci il tarixdə Türkiyənin Iqdır şəhərində Atatürkü anma gənclik və idman bayramında " Arşın mal alan " operettası NDU nin 40 illik yubileyi ilə əlaqədar Rusiyanın Novosibirsk şəhərində təqdim edildi.

Elmi - metodik səviyyəsinin yüksəkliyi , səriştəli pedaqoq olması, elm sahəsində müvəffəqiyyətləri, kafedra müdiri kimi səmərəli və hərtərəfli fəaliyyəti olduğunu göstərir və bunu nəzərə alan NDU Elmi Şurası tərəfindən 2010-cu ildən Səidə Müslüm qızı Məmmədova Fortepiano kafedrasının professoru təyin edilmişdir.

Səidə müəllimənin iş fəaliyyətində qazandığı uğurlar dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Belə ki o , 8 müxtəlif fəxri fərmanlarla təltif olunub. 1977- ci ildə NMR nın Əməkdar İncəsənət Xadimi adı verilib. 1977-79-cu illərdə Naxçıvan şəhər zəhmətkeşlər düputatları sovetinə deputat seçilmişdir, əmək veteranı medalı ilə təltif olunmuşdur. 1988-ci ildə Azərbaycan SSR Əməkdar Mədəniyyət işçisi fəxri adına layiq görülmüşdür. 2007-ci il 20 oktyabr tarixdə Azerbaycan Respublikasının qabaqcıl təhsil işçisi döş nişanı ilə təltif olunmuşdur. 2007- ci il may ayının 10- da Azərbaycan Respublikası Prezidentinin fəxri təqaüdünə layiq görülmüşdür.

Bu gün Səidə müəllimə ömrünün müdrik çağını yaşıyır. Ömrünün 80-ci baharını yaşayan yubilyarın qazandığı bütün bu uğurları, həyatı, yaradıcılığı ulu tanrının ona bəxş etdiyi böyük istedadın nəticəsində əldə etmişdir. Yaşı bilinməyən dünyanın insanı riqqətə gətirən yazılmamış qanunları ilə yanaşı sirli, ecazkar gözəllikləri də vardır. Ağac barı, bəhrəsi, dağ çayı şaqraq səsi, şəlalə füsunkar nəğməsi, şır- şır axan bulaqları pıçıltısı, güllər, çiçəklər ətri , rayihəsi ilə sevildiyi kimi insan da ilahi tərəfindən ona bəxş edildiyi ömür yolundakı əməlləri ilə seçilib sayılır. Taleyini hər hansı bir peşəyə bağlayıb və bu peşənin sirlərinə dərindən yiyələnib vətəninə, xalqına xeyir verənlər, yaşayaraq arxada qoyduğu illərdən özlərinə məxsus bir tarix yaradırlar. Yorulmaq bilmədən çalışanlar xariqələr yaradıb şöhrətə çatır və ictimaiyyət tərəfindən qəbul edilərək sevilirlər. Səidə xanım da belə sevilənlərdəndir.

**Nazilə Qardaşbəyova**
***Fortepiano kafedrasının baş müəllimi, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi***

# NAXÇIVANIN İFAÇI SƏNƏTKARI

İfaçılar – xalq musiqisini yaşadan sənətkarlardır, desək heç də yanılmarıq. Xalqın musiqisini, onun folklorunu tədqiq edən, araşdıran – musiqişünas, tədqiqatçı olduğu təqdirdə, onu əsrlərdən bəri yaşadan, gələcək nəsillərə çatdırılmasında böyük rol oynayan ifaçılar olmuşlar.

Xalqımızın tarixində hər dövrün, hər nəslin, hər regionun özünəməxsus məşhur ifaçı sənətkarları olmuşdur. XX əsrin əvvəllərində ifaçılıq ənənələrini yaşadan sənətkarlardan Sarı Aşıq, Aşıq Ələsgər, Aşıq Abbas Tufarqanlı, Sadıqcan, Məşədi Cəmil Əmirov, Mirzə Rzayev, Qurban Primov, Mansur Mansurov, Bəhram Mansurov, Əhməd Bakıxanov və bir çox başqa sənətkarların adlarını çəkmək olar. XX əsrin ikinci yarısında fəaliyyət göstərən tar və kamança ustalarından Əhsən Dadaşov, Həbib Bayramov, Hacı Məmmədov, Ramiz Quliyev, Möhlət Müslümov, Habil Əliyev, Ağasəlim Abdullayev, Şəfiqə Eyvazova, Rafiq İmrani və bir çox tanınmış ifaçılar xalq musiqimizi yaşatmış və yaşatmaqdadırlar.

Naxçıvan musiqi mədəniyyətimizin inkişafında böyük xidmətləri olmuş ifaçı sənətkarların sayı da az deyildir. XX əsrin əvvəllərində tarzən Adil Kəngərli, kamança ifaçısı Mansur Sultanov, fleyta ifaçısı Əli Şərifov, klarnet ustası Məmməd Sultanov, 1920-ci illərin sonunda isə tarzən Tapdıq Hüseynov, dəf ifaçısı Yusif Şeyxov, dəf və tar ifaçısı Səfər Rəcəbovun xidmətləri danılmazdır. 1940-cı illərdə Məmməd Ələkbərov, Nəriman Məmmədov, Kamil Abdullayev, Ənvər Kəngərli, Məmməd Məmmədov və peşəkar ifaçılar bu alətlərin çalğı texnikasını , ifaçılıq imkanlarını daha yüksək səviyyəyə qaldırmışlar.

Müasir dövrümüzdə Naxçıvanda ifaçılıq sənətini yaşadan, onu inkişaf etdirən, müasir gəncliyə ərmağan edən sənətkarlar da az deyildir. Bu silsilədən olan sənətkarlardan Mahirə Məmmədova, Aqib Seyidov, Elman Əliyev, Əbülfət Babayev, İmanqulu İmanov, İlqar Hüseynov, Rəna Cəfərova, Nərminə Qədimova və başqalarının adı hamımıza məlumdur. Söz açacağımız sənətkar Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti, Naxçıvan Dövlət Universitetinin baş müəllimi Aqib Miribrahim oğlu Seyidovdur.

Aqib Seyidov 1963-cü ildə mart ayının 26-da Naxçıvan şəhəri Babək rayonunun Sovetabad kəndində dünyaya göz açmışdır. Sənətkarın atası Miribrahim kişinin musiqiyə olan marağı övladlarının gələcəkdə bir musiqiçi kimi yetişməsində böyük rol oynamışdır. Böyük övladı Aqibin tar çalmasını arzulayan atası onu dostu Rəşid Məmmədovun rəhbərlik etdiyi Naxçıvan musiqi məktəbinə gətirir. Rəşid müəllim balaca Aqibə kamança ifaçısı olmasını məsləhət görür. Balaca Aqib də ustadın sözündən çıxmır. Məhz Rəşid müəllimin uzaqgörənliyi gələcəkdə Aqib Seyidovun gözəl kamança ustadı olması üçün bir qığılcım olur. 1975-ci ildə Naxçıvan musiqi məktəbinə kamança sinfinə qəbul olan balaca Aqibin ilk müəllimi Kamal Əliyev olmuşdur. Təhsil illərində o, Naxçıvanın tanınmış ifaçıları Məmməd Ələkbərov, Tapdıq Hüseynov, Natiq Teymurov və Kamil Məmmədovdan dərs almışdır. Aqib Seyidovun peşəkar bir musiqiçi, kamança ifaçısı kimi yetişməsində Kamil Məmmədovun çox böyük rolu olmuşdur. Sənətkarın söylədiyinə görə Kamil müəllim ona bir il içində beş ilin



proqramını mükəmməl dərəcədə mənimsətmişdi. Və ustadın yeniyetmə Aqibdə kamançaya yaratdığı həvəs onu 1979-cu ildə Üzeyir Haçıbəyov adına Naxçıvan orta ixtisas musiqi məktəbinə gətirib çıxarır. Aqib müəllim burada xalq çalğı alətləri şöbəsində kamança ixtisası üzrə Tahirə və Mahirə Məmmədova bacılarından dərs alır. 1983-cü ildə Aqib Seyidov Şuşada keçirilən IV Respublika Müsabiqəsində iştirak edir və diplomla mükafatlandırılır. Elə həmin il Naxçıvan şəhər Həmkarlar İttifaqının göndərişi ilə Azərbaycan Dövlət Konservatoriyasının Xalq Çalğı Alətləri şöbəsinin kamança sinfinə daxil olur. Konservatoriyada Aqib Seyidov Arzu Səlimovadan, sonra isə Azərbaycan Respublikasının xalq artisti Şəfiqə Eyvazovadan dərs alır. Şəfiqə xanım gənc ifaçıya kamança ifaçılığının sirlərini, xalq musiqimizin kökü sayılan muğamlarımızın mükəmməl ifasını öyrədir. Təhsil illərində konservatoriyanın musiqi həyatında fəal iştirak edən Aqib Seyidov eyni zamanda Azərbaycan Respublikasının xalq artisti Ağacəbrayıl Abasəliyevin yaratdığı "Səadət" Xalq Çalğı Alətləri ansamblında kamaça çalmışdır. 1989-cu ildə Konservatoriyanı bitirən Aqib Seyidov təyinatla Naxçıvan Musiqi Texnikumuna müəllim göndərilmişdir.

Aqib müəllim ilk pedaqoji fəaliyyətinə 1982-ci ildə Babək rayon Cəhri Kənd Uşaq Musiqi Məktəbində başlamışdır. 1989-cu ildən isə Naxçıvan Musiqi Texnikumunda müəllimlik fəaliyyətini davam etdirmişdir. 1990-cı ildən Azərbaycan Dövlət Filarmoniyasının Xalq Çalğı Alətləri orkestrində çalışıb. Bu illərdən başlayaraq Aqib Seyidov Naxçıvan Muxtar Respublikasının musiqi həyatında əvəzedilməz xidmətlər göstərmişdir. İlk dəfə olaraq onun təşəbbüsü ilə Naxçıvan Musiqi Texnikumunun nəzdində, mərhum Yusif Babayevin təşkilatçılığı ilə "Nəqşicahan" Xalq Çalğı Alətləri orkestri yaradılıb, onun ifasında "Muğam üçlüyü" təşkil edilmişdi. "Muğam üçlüyü"ndə kamançada ustad ifaçının özü, tarda Azərbaycan Respublikasının mədəniyyət işçisi Tağı Tağıyev, qavalda Azərbaycan Respublikasının Əməkdar artisti mərhum Qurban Qasımov ifa etmişlər. Ansambl və "Muğam üçlüyü"nün ifasında "Şur", "Mahur-Hindi" və "Çahargah" dəsgahları ifa olunmuşdu. Aqib Seyidov gah ansambl tərkibində, gah muğam üçlüyündə, gah da orkestr tərkibində, keçirilən dövlət tədbirlərinin demək olar ki əksəriyyətində iştirak etmişdir. Sənətkarın Naxçıvan Gənclik Mərkəzində solo konserti olmuşdur və çox müvəffəqiyyətlə keçmişdir. Ustad sənətkarın bu misilsiz əməyi Muxtar Respublikamızın rəhbərliyi tərəfindən yüksək qiymətləndirilərək 2006-cı il yanvarın 6-da Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti fəxri adına layiq görülmüşdü.

Aqib Seyidov təkcə ifaçı deyil, eyni zamanda gözəl pedaqoqdur. Aqib müəllim 1996-cı ildən universitetin İncəsənət fakültəsində baş müəllim vəzifəsində çalışır. Yetişdirdiyi tələbələrlə tez-tez tədbirlərdə çıxış edir. Məhz 14 aprel 2022-ci il tarixində ustadın təşkil etdiyi "Mehsa" kamança ifaçıları ansamblı ilə müəllif konserti olmuşdur. Ansamblın ifasında dünyaca məşhur bəstəkarların əsərləri, eyni zamanda xalq rəqsləri ifa olunmuşdu. Tədbirdə Universitetimizin hörmətli rektoru Elbrus İsayev də iştirak etmiş və sənətkarın əməyini yüksək qiymətləndirmişdi. Əminliklə söyləyə bilərəm ki, bu cür mənəvi dəstək Aqib müəllimi daha da ruhlandıracaq, sənətkarın gələcək fəaliyyəti üçün yeni bir zəmin olacaq.

**Aynur Məmmədova**
***Musiqinin tarixi və nəzəriyyəsi kafedrasının müəllimi***

# TARİX VƏ GERÇƏKLİK: HƏRB TARİXİMİZDƏ NAXÇIVANSKİLƏRİN (KƏNGƏRLİLƏRİN) ROLU

Azərbaycan xalqının mənşəcə formalaşmasında və etnogenezində çox mühüm mövqe tutan, öz hünərləri ilə tarixdə iz qoyan ən qədim türk tayfalarından biri Kəngərlilərdir. Xalqımızın hərb tarixində bu tayfanın süvariləri böyük şücaətləri ilə seçilmiş və çox nüfuzlu, adlı-sanlı sərkərdələr yetirmişdirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2010-cu il dekabr ayının 17-də "Xan sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin açılışı zamanı bu sülalənin Azərbaycanın tarixindəki rolu haqqında demişdir: "Naxçıvan xanlığının fəaliyyəti Azərbaycan dövlətçiliyinə verdiyi töhfələrlə bitmir. Eyni zamanda, Naxçıvan xanlığı böyük dövlət xadimləri, sərkərdələr yetişdirmişdir. Tək bir nəsildən 6 generalın, bir çox ictimai xadimin yetişməsi bu sülalənin Azərbaycanın tarixində nə qədər böyük rolu olduğunun göstəricisidir".

Kəngərlilər (Naxçıvanskilər) Azərbaycanın hərb tarixinə altı general bəxş etmişdir: General-mayor Ehsan xan Naxçıvanski, tam süvari generalı İsmayıl xan Naxçıvanski, general-mayor Kalbalı xan Naxçıvanski, tam süvari generalı Hüseyn xan Naxçıvanski, general-mayor Cəmşid xan Naxçıvanski, altıncı isə III Kalbalı xan Cəfərqulu xan oğludur. Bu da faktdır ki, bu generalların hamısı Azərbaycanın ayrılmaz parçası olan Naxçıvan diyarının yetirmələridir.

1787-ci ildə Naxçıvan xanı olmuş I Kalbalı xan Kəngərli XVIII əsrin 40-cı illərində anadan olmuşdur. XVIII-XIX əsrin əvvəllərində Yaxın Şərqin nüfuzlu şəxsiyyətlərindən olan Kalbalı xan Kəngərli 1796-cı ildə İran Şahı Ağa Məhəmməd Şah Qacaq tərəfindən kor edilmişdir. Tarixi mənbələrə görə I Kalbalı xan dövrünün bacarıqlı sərkərdəsi kimi bir çox döyüşlərdə iştirak etmişdir. Kalbalı xanın altı oğlu bir qızı olmuşdur və oğlanlarının hamısı hərbiçi olmuşdur. Kalbalı xan Məkkıyə ziyarətə gedərkən yerinə oğlu Ehsan xanı qoymuşdur.

I Kalbalı xanın oğlu general-mayor Ehsan xan Naxçıvanski 1791-ci ildə Naxçıvan şəhərində anadan olmuş, 1846-cı ildə isə çox sevdiyi Naxçıvan şəhərində vəfat etmişdir. 1837-ci ildə ona general-mayor rütbəsi verilmişdir. Ehsan xanın iki oğlu İsmayıl xan və Kalbalı xan mükəmməl hərbi təhsil almış və geneeral rütbəsinədək yüksəlmişdilər.

Kalbalı xan Naxçıvanski 1824-cü ildə Naxçıvanda anadan olmuşdur. 14 yaşında Peterburqda zadəgan balalarına məxsus paj korpusuna daxil olmuş, lakin xəstəliyinə görə Naxçıvana qayıtmalı olmuşdur. Bir çox döyüşlərdə göstərdiyi igidliyə görə orden və medallara layiq görülüb. Krım müharibəsində süvari alayına komandirlik etmişdir. 1855-ci ildə döyüşdə göstərdiyi igidliyə görə dördüncü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunmuş, elə həmin ildə imperator II Aleksandrın "Tacqoyma" mərasimi günü leybqvardiya Qusar polkuna komandir təyin olunmuşdur.

Kalbalı xan sonralar Qafqazda batalyon və polklarda xidmət etmişdir. Nümunəvi xidmətinə görə 1874-cü ildə general rütbəsinə layiq görülmüşdür. Müharibədə göstərdiyi şücaətə görə brilliantla bəzədilmiş qılıncla və "Müqəddəs Georgi" ordeni ilə təltif olunmuşdur. General Kalbalı xan 1883-cü ildə Naxçıvan şəhərində vəfat etmişdi. Onun 4 oğlu və 4 qızı var idi.

Kalbalı xanın qardaşı İsmayıl xan Naxçıvanski 5 yanvar 1819-cu ildə Naxçıvanda anadan olmuş, ilk təhsilini Tiflis hərbi gimnaziyasında almışdır. Uzun müddət Qafqaz Əlahiddə ordusunda xidmət edən İsmayıl xan 1844-cü ildə ştabs-kapitan, 1955-ci ildə qvardiya rotmistri, 1860-cı ildə isə polkovnik rütbəsi almışdır.

General-mayor İsmayıl xan ordudan təxris olunduqdan sonra general-leytenant İsmayıl xan Naxçıvanda quruculuq işləri ilə məşğul olmuşdur. O, Naxçıvan şəhərinə su çəkdirmiş, kəhrizlər qazdırmış və bu gün İsmayıl xan hamamı adı ilə tanınan kümbəzli hamam tikdirmişdi. General-leytenant İsmayıl xan Naxçıvanski 1908-ci ildə doğma vətənində vəfat etmişdir.

Naxçıvanskilər nəslinin görkəmli generallarından biri də Hüseyn xan Kalbalı xan oğlu Naxçıvanskidir. O, 1863-cü ildə Naxçıvanda anadan olmuşdur. 1881-ci ildə Peterburq Paj korpusu məktəbini bitirmişdir.

1906-cı ildə figel-adyutant vəzifəsinə təyin edilir. 1912-ci ildə çarın mühafizəsində qalmaqla süvari briqadanın birinci şöbəsinin rəisi



təyin edilir. Əla xidmətlərinə görə 1907-ci ildə ona general-mayor rütbəsi verilmişdir. Birinci dünya müharibəsinin ilk günlərindən Hüseyn xan döyüşən orduda süvari qoşunların komandiri kimi fəaliyyət göstərir. Cəbhədəki sərkərdəlik məharətinə görə 1916-cı ildə ona tam süvari qoşun generalı rütbəsi verilmişdir. 1917-ci ildə bolşeviklər hakimiyyətə gələndən sonra başqa generallar kimi Hüseyn xan da təqibə məruz qalır. 1919-cu ildə vəfat edən Hüseyn xan Naxçıvanski Petroqradda basdırılmışdı.

1919-cu ilin sonu 1920-ci ilin əvvəllərində ermənilərin Naxçıvana hücumları dövründə Kalbalı xan, Cəfərqulu xan, Rəhim xan Naxçıvanskilər bölgənin müdafiəsində əsas hərbi-siyasi qüvvəyə çevrilmişdilər. Tezliklə Kalbalı xanın başçılığı altında 10 minədək könüllülər ordusu türk hərbi dəstələri ilə birgə ermənilərə qarşı bir sıra uğurlu əməliyyatlar həyata keçirdilər. Bölgənin azad edilməsindəki xidmətlərinə görə Azərbaycan hökuməti Kalbalı xana general rütbəsi vermiş və Naxçıvan qoşunlarının baş komandanı türk zabiti Xəlil bəyin köməkçisi təyin edilmişdir.

Cəmşid xan Naxçıvanski 1895-ci il avqust ayında Naxçıvan şəhərində Cəfərqulu xanın ailəsində dünyaya gəlmişdir. Cəmi 43 il ömür sürmüş Cəmşid xan onun 26 ilini hərbi xidmətə həsr etmişdir. Atası Cəfərqulu xan onu Tiflisdəki yunkerlər məktəbinə qoymuş, oranı bitirdikdən sonra Yelizavetqrad qvardiya məktəbində oxumuşdur. Birinci Dünya müharibəsində Cəmşid xan Naxçıvanski müsəlman süvari eskadronun komandiri kimi ön cəbhədə vuruşmuşdur. Göstərdiyi igidliyə görə o, IV dərəcəli "Müqəddəs Georgi" ordeni, II, III, IV dərəcəli "Anna", II, III dərəcəli "Stanislav" ordenləri ilə təltif olunmuşdur.

Cənub-Qərb cəbhəsi dağıdıqdan sonra ştabrotmistr Cəmşid xan Naxçıvanski başçılıq etdiyi süvari alayla birlikdə Azərbaycana qayıtmış, Azərbaycanın Əlahiddə korpusu ilə birgə 1918-ci ilin sentyabrında Bakının düşmənlərdən azad edilməsində iştirak etmişdir. Onun başçılıq etdiyi alay Qarabağın daşnaklardan təmizlənməsində fəal iştirak etmişdir.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra C.Naxçıvanski ilk Azərbaycan Birləşmiş Komanda məktəbinə rəis təyin olunmuşdu. Sonra o, Azərbaycan dağ-atıcı diviziyasının komandiri olmuşdu. 1923-1924-cü illərdə C.Naxçıvanski Moskvada Ali Hərbi Akademiyasını fərqlənmə diplomu ilə bitirəndən sonra akademiyada müəllim saxlanılmışdır.

Stalin rejiminin represiya dalğası general-mayor C.Naxçıvanskidən də yan keçmədi. Ömrünün ən parlaq çağında 1938-ci ilin mayında həbs edildi və avqustun 26-da SSRİ Ali Məhkəməsinin hərbi kollegiyasının 15 dəqiqəlik iclasından sonra ölüm hökmü yerinə yetirildi.

Nəhayət, gec də olsa, 50-ci illərdə Stalin represiyasının bir çox günahsız qurbanları kimi C. Naxçıvanskiyə də bəraət verildi.

1971-ci ildə Azərbaycanın o zamankı rəhbəri Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Bakıda açılmış hərbi məktəbə C. Naxçıvanskinin adı verildi, Naxçıvan şəhərində isə C. Naxçıvanskinin ev muzeyi açıldı.

C. Naxçıvanskinin kiçik qardaşı Ehsan xan Naxçıvanski də peşəkar hərbiçi idi. O, Moskvada kadet korpusu məktəbini bitirmiş və podpolkovnik rütbəsinədək yüksəlmişdir. Podpolkovnik Ehsan xan Qarabağın daşnaklardan azad edilməsində iştirak etmişdir. Bolşeviklər Azərbaycanı işğal etdikdən sonra Azərbaycan Cümhuriyyətinin bir çox igid oğulları kimi Ehsan xan da həbs olunmuş, müsavat zabiti olduğuna görə amansızcasına qətlə yetirilmişdir.

Yada saldığımız bu hadisələr artıq tarixə dönmüşdür və bu tarix Vətənimizin bir parçası olan Naxçıvanın tarixidir. Lakin tarix davam edir.

27 sentyabr 2020-ci ildə başlamış və 44 gün davam etmiş ikinci Qarabağ müharibəsi isə Vətən tariximizin yeni səhifəsidir. Ali Baş Komandan İlham Əliyevin ətrafında "dəmir yumruq" kimi birləşən xalqımız, Azərbaycan əsgərinin rəşadəti və hünəri sayəsində yeni tariximizin şanlı zəfər səhifəsini: Bütöv Müstəqil Azərbaycanın yeni tarixini yazdı.

**İlqar Kəngərli**
***"Ümumi tarix" kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru***

# SÜLEYMAN ƏLƏSGƏROV

Azərbaycan musiqi mədəniyyətinin inkişafında əvəzsiz xidmətləri olan və bu musiqi mədəniyyətini dünya səviyyəsində qəbul ediləcək bir sənət sahəsinə çevirməyi bacaran istedadlı bəstəkarlar çoxdur. Mənəvi gözəlliyi, fitri istedadı ilə fərqlənən yaradıcı insanlarla dünya mədəniyyətini zənginləşdirən Azərbaycan xalqı XX əsrdə yetişdirdiyi görkəmli sənətkarlar arasında özünəməxsus yaradıcılığı ilə diqqəti cəlb edən bəstəkarlardan biri də Süleyman Ələsgərovdur. Süleyman Ələsgərov yaradıcılığı ilə Azərbaycan musiqi mədəniyyəti tarixində özünəməxsus yeri olan bəstəkarlardandır. Müxtəlif janrlarda maraqlı musiqili obrazlar yaradan Süleyman Ələsgərov musiqi mədəniyyətimizə ecazkar və rəngarəng sənət əsərləri bəxş etmişdir.

Süleyman Ələsgərov görkəmli bəstəkar, dirijor, zəhmətsevər pedaqoq, böyük vətənpərvər, eyni zamanda gözəl insan olmuşdur. Onun mahnıları, instrumental əsərləri, operaları, musiqili komediyaları, simfonik musiqidəki nailiyyətləri fitri istedadının və yaradıcılıq təxəyyülünün parlaq təzahürüdür. Azərbaycan xalqının fəlsəfi təfəkkürünün mənbələrindən olan xalq musiqisi Süleyman Ələsgərov yaradıcılığının əsas bazası olmuşdur. Xalq musiqisindən bəhrələnən bəstəkarın özünəməxsus yazı üslubu, bəstəkarlıq texnikası və fərdi yaradıcılıq xüsusiyyətləri müraciət etdiyi bütün janrlarda maraqlı obrazlar canlandırmağa imkan vermişdir. Yaradıcılığının ən gözəl keyfiyyətlərini müxtəlif janrlarda yazdığı əsərlər ilə təcəssüm etdirməyi bacaran istedadlı bəstəkar Süleyman Ələsgərov rəngarəng mövzulu musiqili komediyalarında da ecazkar obrazlar aləmi, orijinal məzmunlu süjet xətti yaratmış, bu əsərlərlə milli musiqi mədəniyyəti xəzinəsini zənginləşdirmişdir.

Sənət aləmində olduqca böyük nüfuz və hörmət sahibi, Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasının professoru, Əməkdar incəsənət xadimi, Azərbaycan xalq artisti, Ü.Hacıbəyov adına Dövlət mükafatı laureatı, bəstəkar, dirijor, Süleyman Əyyub oğlu Ələsgərov 1924-cü il 22 fevralda Şuşa şəhərində anadan olmuşdur. Şəhərin musiqi həyatı hələ uşaqlıqdan onda bu sənətə maraq oyatmışdır. S.Ələsgərov 1935-ci ildə təməli 1933-cü ildə Həmzə Əliyev tərəfindən qoyulan Şuşa Musiqi Texnikumunun tar sinfinə daxil olur. Musiqi texnikumunda oxumaqla o, eyni zamanda, pedaqoji texnikumdada təhsil alırdı. S.Ələsgərov musiqi ifaçılıq sirlərinə yiyələnmək məqsədi ilə texnikumda təşkil olunan bədii özfəaliyyət kollektivlərində fəal iştirak etməyə çalışmış və pedaqoji texnikumun son kursunda oxuyarkən musiqi texnikumunda müəllim kimi fəaliyyət göstərərək gənclərə musiqi nəzəriyyəsi və tar ixtisasından dərs demişdir. Bəstəkar ümumtəhsil məktəbləri üçün yazılan bir çox dərsliklərin müəllifi və elmi redaktoru olmuşdur.

S.Ələsgərov 1948-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bəstəkarlıq üzrə B.İ.Zeydmanın sinfini fərqlənmə ilə bitirdikdən sonra Bakı Orta İxtisas Musiqi Məktəbinə rəhbərlik etmişdir. 1956-cı ildən isə konservatoriyada xalq musiqi kafedrasında fəaliyyət göstərən S.Ələsgərov 1971-ci ildən bu kafedraya rəhbərlik etmişdir.

1941-ci ildə Respublika Radio Verilişləri Komitəsinin xalq çalğı alətləri orkestrində çalışan S.Ələsgərov 1944-cü ildə Azərbaycan Dövlət Musiqili Teatrına dəvət olunaraq 1948-ci ilə kimi baş dirijor və musiqi hissə müdiri vəzifəsində çalışır, 1949-1951-ci illərdə Azərbaycan SSR Kinematoqrafiya Komitəsində kino–teatrında orkestrlərin,1951-52-ci illərdə isə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının mahnı və



rəqs ansamblının rəhbəri, 1956-58-ci illərdə Azərbaycan xalq çalğı alətləri orkestrində drijor, 1958-ci ildə 1960-cı illərə kimi isə Respublika Radio Verilişləri Komitəsinin bədii rəhbəri vəzifəsində çalışmışdır.

S.Ələsgərovun ifaçılıq fəaliyyətinin bütöv dövrü Ş.Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrı ilə bağlı olmuşdur. 1960-cı ildən 1971-ci ilədək həmin teatrın direktoru və baş direktoru vəzifəsində çalışan S.Ələsgərov insanı düşündürən yumoru ilə tamaşaçı auditoriyasının qəlbinin fəth etmişdir. S. Ələsgərovun musiqili komediyaları rəngarəng mövzuları, gözlənilməz dönüş xətti, dolğun obrazlar aləmi ilə yadda qalır.

S.Ələsgərovun musiqili komediya janrında ilk təcrübəsi 1945-ci ildə yazılan "Məhəbbət gülü" adlı əsərdir. O, hamı tərəfindən sevilən məşhur "Ulduz" musiqili komediyasını Sabit Rəhmanın librettosu əsasında 1948-ci ildə yazmışdır. Uzun illər Azərbaycan Dövlət Musiqili Komediya Teatrına rəhbərlik etməsi S.Ələsgərovun musiqili komediya janrında orijinal əsərlər yazmağının başlıca səbəbi olmuşdur. Süleyman Ələsgərov 1967-ci ildə "Milyonçunun dilənçi oğlu" komediyasına görə Ü.Hacıbəyli adına Respublika mükafatına layiq görülmüşdür. Bundan əlavə bəstəkar 1962-ci ildə Ş.Qurbanovun librettosuna "Özümüz bilərik", 1964-cü ildə "Olmadı elə, oldu belə", 1971-ci ildə "Sevindik qız axtarır", 1968-ci ildə S.Qədirzadənin librettosuna "Hardasan, ay subaylıq", 1971-ci ildə "Həmişəxanım", 1973-cü ildə "Gurultulu məhəbbət", 1992-ci ildə İ.Məlikzadənin librettosuna "Subaylarınızdan görəsiniz",1 995-ci ildə "Hərənin bir ulduzu" musiqili komediyalarını yazmışdır.

Süleyman Ələsgərov musiqinin bir çox janrında öz yaradıcılıq imkanlarını sınamış, zövq oxşayan maraqlı əsərlər yaratmışdır. Bəstəkarın yaradıcılığı ilə yaxından tanış olarkən aydın olur ki, o, ölkəmizdə baş verən bütün ictimai-siyasi, ədəbi prosesləri diqqətlə izləyərək hər zaman fəal aparıcı mövqedən çıxış etmişdir. Müasiri olduğu ayrı-ayrı hadisələr bəstəkarın yaradıcılıq təxəyyülünü qüvvətləndirərək onun müxtəlif forma və janrlarda musiqi əsərlərinin yaratması ilə nəticələnmişdir.

S.Ələsgərov özü haqqında həmişə vüqarla söz etdirən Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 60 illiyinə həsr elədiyi rəqs və ansambl üçün "Bayram" suitasında günü-gündən çiçəklənən muxtar respublikanın qurub–yaradan əmək adamları, şan şöhrətli əməyi, xoşbəxt həyatı tərənnüm olunur. Sosialist Əməyi Qəhrəmanı Bahar Talıbovaya həsr olunmuş "Bahar" mahnısı da bu qəbildəndir.

Qələmini bütün janrlarda sınayan S.Ələsgərov romans janrında da zövqə oxşayan əsərlər yazmışdır. C.Cabbarlının "Yada düşdü", M.Fizulinin "Vətənimdir", N.Gəncəvinin "Sərvi xuramanım mənim", M.Muşfiqin "Küsmərəm", Nəsiminin "Neylərəm" və s. qəzəllərinə yazdığı romanslar bəstəkara unudulmaz şöhrət gətirmişdir.

İstedadlı bəstəkar S.Əlsgərov nəinki qəlbləri oxşayan əsərləri ilə, eyni zamanda qayğıkeşliyi, insanpərvərliyi, böyük ürəyə sahib şəxsiyyət kimi xatirələrə həkk olunmuşdur.

**Ruhiyyə Dünyamalıyeva**
***"Musiqinin tarixi və nəzəriyyəsi" kafedrasının müəllimi***

# AKADEMİK NADİR SEYİDOV 90

## NAXÇIVANI DÜNYAYA TANIDAN GÖRKƏMLİ KİMYAÇI ALİM

Bu günlərdə xalqımızı təkcə keçmiş sovetlər ittifaqı məkanında deyil, onun hüdudlarından kənarda da tanıdan görkəmli Sovet və Azərbaycan alimi, həmyerlimiz akademik Nadir Seyidovun anadan olmasının 90 ili tamam oldu.

Nadir Mirİbrahim oğlu Seyidov 1932-ci il aprel ayının 28-də Naxçıvan şəhərində doğulmuşdur. O, 1939-cu ildə Naxçıvan şəhərindəki 1 nömrəli orta məktəbin birinci sinfinə daxil olmuş və oranı 1949-cu ildə bitirmişdir. 1950-55-ci illərdə Azərbaycan (indi Bakı) Dövlət Universitetinin Kimya fakültəsində ali təhsil aldıqdan sonra Azərbaycan Dövlət Elmi-Tədqiqat Olefinlər İnstitutunda (ADETOİ) kiçik elmi işçi vəzifəsində işləmişdir. Akademik Yusif Məmmədəliyevin zəmanətilə 1957-ci ildə Azərbaycan Elmlər Akademiyası (EA) Neft İnstitutunun aspiranturasına daxil olmuş və oranı 1960-cı ildə bitirərək "Ksilol izomerlərinin oksidləşməsi və ayrılması prosesinin tədqiqi" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1962-ci ildə böyük elmi işçi adına layiq görülmüş və həmin ildə ona ADETOİ-da "Elastomerlər" laboratoriyasına rəhbərlik həvalə olunmuşdur. 1968-ci ildə isə "Aşağı molekul çəkili olerenlərin əsasında yeni elastomerlərin alınması" mövzusunda doktorluq dissertasiyaını müdafiə etmişdir. 1969-cu ildə ona "Yüksək Molekullu Birləşmələr Kimyası" (YMBK) ixtisası üzrə professor adı verilmişdir.

2001-ci ildə isə AMEA-nın həqiqi üzü seçilən N.Seyidov polimer kimyası sahəsində görkəmli alimlərimizdən olmuşdur. Onun əsas tədqiqat obyekti YMBK və neftkimya sintezidir. Olefinlər əsasında yeni sintetik kauçukların (SK-ların) alınması sahəsindəki onun fundamental tədqiqatları keçmiş SSRİ–də ən mühüm tədqiqatlar kimi qəbul edilmiş və yüksək qiymətləndirmişdir. Onun rəhbərliyi ilə etilenin proplenlə, butelinlərlə, amilenlərlə, heksen-1 və dienlərlə metalüzvi katalizartorlar iştirakı ilə sopolimerləşmə rekasiyasının kimyası hərtərəfli tədqiq edilmiş və bununla da çox mühüm prinsipal və texnoloji məsələlər həll edilmişdir. Onun tərəfindən monomer mühitində yeni üsulla kecmiş SSRİ-də ilk dəfə olaraq etilen-pro-



pilen kauçukunun müxtəlif markalarının alınması işlənib hazırlanmış və iqtisadi cəhətdən səmərəli və sadə texnologiyası yaradılmışdır. Onun rəhbərliyi ilə etilen-propilen kauçukunun termiki parçalanmasından yüksək qatılaşdırıcı xassəsinə malik aşkarların alınması sahəsində də geniş elmi tədqiqat işləri aparılmışdır. Akademik Nadir Seyidovun tədqiqatları arasında olefinlər əsasında termoplastların alınması və onun qurluşunun tədqiqi xüsusi əhəmiyyət kəsb edir. Alkilləşmə və aşağı molekul çəkili olefinlərin polimerləşmə və oliqomerləşmə reaksiyalarının aparılması üçün səmərəli katalizatorların yaradılması işində akademik N.M.Seyidovun rolunu xüsusi qeyd etmək lazımdır.

Akademik N.M.Seyidovun çoxcəhətli elmi fəaliyyəti 4 elmi monoqrafiyada, 250-dən çox elmi əsərdə, o cümlədən 100 müəlliflik şəhadətnaməsində və 20 xarici ölkənin patentində öz əksini tapmışdır. Onun rəhbərliyi ilə 33 elmlər namizədi hazırlanmışdır.

Nadir müəllim elmi fəaliyyəti ilə yanaşı pedaqoji işlə də daim məşğul olmuşdur. 1968-ci ildən Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Üzvi maddələrin sintezi və texnologiyası" kafedrasının professoru kimi tələbələrə mühazirələr oxuyur.

O, həmçinin Azərbaycan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən İxtisasartırma fakültəsində də müxtəlif ali məktəblərdən, o cümlədən Naxçıvan Dövlət Universitetindən göndərilən kimyaçı müəllimlərə dərs demişdir. Şadam ki, həmin dövrlər mən də onun dinləyicisi olmuş və ondan müxtəlif vaxtlarda çox faydalı məsləhətlər almışam.

Akademik N.M.Seyidov dəfələrlə Beynəlxalq və Ümumittifaq simpozium və konfransların iştirakçısı kimi Roma, Praqa, Budapeşt, Sofiya, Krakov, Ankara, Alma-Ata, Moskva, Sankt-Peterburq və s. şəhərlərində mə"ruzələrlə çıxış edərək respublika elmini ləyaqətlə təmsil etmişdir.

Elmi və əmək fəaliyyətinə görə akademik Nadir Seyidov "Şərəf nişanı" ordeni və bir sıra medallarla təltif edilmiş, Azərbaycan Respublikasının Əməkdar Elm xadimi fəxri adına layiq görülmüşdür. Akademik Nadir Seyidov 5 oktyabr 2015-ci ildə uzun sürən xəstəlikdən sonra Bakı şəhərində 83 yaşında vəfat etmişdir. Vətənini, xalqını yüksək məhəbbətlə sevən, çox səmimi və saf insan olan Nadir Seyidovun xatirəsi qədirbilən xalqımız tərəfindən bu gün də uca tutulur, yad edilir.

**Tofiq Əliyev**
***AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzü, professor***

# BU DA BİR XATİRƏDİR

Həftənin axırıncı dərs günü idi. Dekanımız Arif müəllim auditoriyaya daxil olaraq böyük sevinclə universitetimizə gələn qonaqlar olduğunu və bu həftə sonu tələbələrlə görüş keçiriləcəyini xəbər verdi. Qonaqlar Bakı şəhərindən gəlmişdilər. Tanınmış incəsənət adamları idi. Hər bir sənətkar müxtəlif ixtisas üzrə təhsil alan tələbələrin qonağı olacaqdı. Bizim fakültənin qonağı isə nəğməkar şair Baba Vəziroğlu idi. Bu xəbəri eşidən kimi sevindim. Həftə sonu məni gözləyən işlərimin çox olmasına baxmayaraq məmnuniyyətlə tədbirə qatılmağa qərar verdim. Görüş günü çöldə narın-narın yağış yağırdı. Bu gün sanki ana təbiət də lirika, poeziya günü elan etmişdi. Narın yağan yağış, çiçək açan ağaclar, yaşıllaşan otlar, yazın ılıq nəfəsi sanki birləşərək şairlə görüşə tələsirdi. Elə tələbələr kimi...

Görüş universitetdə olacaqdı. Sanki axırıncı qatarın dayanacağına gedirmiş kimi tələsik evdən çıxaraq universitetə yollandım. Vaxtında çatmışdım. Qonağımız hələ gəlməmişdi. Salonda tələbələr üçün ayrılan yerdə əyləşib gözləməyə başladım. Divardan asılmış səs ucaldıcılardan Baba Vəziroğlunun sözlərinə bəstələnmiş məşhur musiqilər səslənirdi. Musiqinin sədaları zalda olan hər kəsi öz aləminə qapatmışdı. Birdən canlanırdi. İkinci istəyim bir şeir daha söyləməsi oldu.

Şairin şeirlərində bəzən maraqlı bir ritm, həzin, bəzənsə də kövrək bir duyğu çağlayırdı. Canlı xalq dilinə bağlılıq, axıcılığı və səlislik isə ayrı bir gözəllik, fərqli bir melodiya qatırdı şeirlərə . Eşitdikcə dinləmək, dinlədikcə yazmaq istəyirdi insan.

Elə şairlər var ki, müəyyən müddət ərzində dəbdə olan mövzularla oxucu kütləsinin rəğbətini əldə edib geniş auditoriya marağını qazanır. Onlar yalnız həmin müddətin, qısa bir zaman kəsiyinin şairi olurlar. Amma o şairlər ki, idrakın zirvəsindən, hissin yanğınlarından keçir, şeirinin yolu əsrin ahəngi-vəznidir, ən böyük mükafatını alqışlardan, gül dəstəsindən deyil, şeirlərinin özündən alır - onların şair tərcümeyi-halı bitib-tükənmir. Baba müəllim bu ikincilərdəndir. O yaradıcılığının bütün mərhələlərində oxucuları tərəfindən sevilib, şeirləri dillər əzbəri olub. Məhz buna görədir ki şairin universitetimizdə olduğunu öyrənən hər kəs onun görüşünə gəlmişdi. Salonda oturanlar arasında nəğməkar şairi görmək üçün gələn orta məktəb şagirdi də, başqa universitetdə təhsil alan tələbələrdə var idi. Bütün tələbələr sanki şairin şeirlərini söyləmək üçün yarışırdılar. Sözün , şerin ahəngi




ma başladı. Arxaya dönüb baxanda Baba müəllimin gəldiyini gördüm. Artıq alqış səslərindən musiqi eşidilməz olmuşdu. Hər zaman şeirlərini və onlara bəstələnən musiqiləri dinlədiyimiz şair qarşımızda idi. Ətrafıma göz gəzdirdim. Müəllimlər də başda olmaqla hamı Baba müəllimi sevinc və heyranlıqla izləyirdi. Arif müəllimin təqdimatından sonra sözə başlayan şairin hər sözü, kəlməsi sanki həzin bir musiqi ədasıyla salonda yayılır, dinləyənləri feyziyab edirdi. Adətən biz Baba müəllimin şerlərini ya kitabda oxuyardıq, ya da televiziyadan, yaxud internetdən qulaq asardıq. Bu gün isə onu canlı dinləyirdik. Bu sevgi şairinin söylədiyi hər misra bir quş kimi insanı qanadına alıb başqa bir dünyaya aparırdı. Elə bir dünya ki, orda şairin sadəliyi, səmimiliyi bir də şeirlərindəki saf sevgi hisləri bəzək olmuşdu ətrafa. Həmin vaxt sanki bir poeziya dueli idi: gah şair şeir söyləyirdi, gah da tələbələr. Zaman su kimin axıb gedirdi. Bura gəlməzdən əvvəl özüm üçün bir neçə qeyd belə götürmüşdüm, Baba müəllimə verəcək suallarım var idi. Amma yalnız bircə sual verdim. Səslənən hər bir şeirində bütün suallarıma cavab tapmışdım artıq. Çünki şeirləri müəllifin daxili aləmindən, duyğularından, düşüncələrindən xəbər verdinləyənləri feyziyab etmişdi.

Onu da qeyd edim ki, Azərbaycan Yazıçılar Birliyinin üzvü Baba Vəziroğlu nasir, şair, tərcüməçi, kinodramaturq kimi tanınır. Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri adına layiq görülüb. Baba müəllim ixtisasca jurnalistdir, amma yaradıcılıqla, yəni ədəbi fəaliyyətlə də məşğul olub. Ona görə də müxtəlif mətbuat orqanları ilə yanaşı Azərbaycan Yazıçılar İttifaqında da çalışıb. Minə qədər şeirinə mahnı bəstələnib. Maraqlı burasıdır ki, bu mahnılar uzun illərdir ki, hər kəs tərəfindən sevilir və ən populyar müğənnilər tərəfindən ifa edilir.

...Heç kim bu görüşün bitməsini istəmirdi. Gələcəyin jurnalistləri olacaq tələbələr maraqlı suallar verdilər. Lakin qonağımızı yormamaq üçün tədbiri bitirmək məcburiyyətində idik. Xoş ovqatla ayrıldığımız görüşdən isə bizə unudmayacağımız bir xatirə qaldı. Şairin məşhur şeirində deyildiyi kimi:

Gerçəkdir, yoxsa yalan,
Gəlib keçdi nə zaman
Sevginin, ömrü bir an
Qalanı xatirədir

**İlahə Allahverdiyeva**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

# AZƏRBAYCAN VƏ İNGİLİS TOPONİMLƏRİNİN YARANMASINDA XALQIN ROLU

Toponimlər mənsub olduğu xalqın tarixini, mədəniyyətini, etnoqrafiyasını, inam və etiqadlarını əks etdirən ən etibarlı mənbə olub özünəməxsus linqvistik xüsusiyyətlərə malikdir. Toponimik sistemininin zənginliyi və rəngarəngliyi onların işlənmə miqdarı, mənşəyi, quruluşu və üslubi imkanlarında özünü göstərir. Böyük Britaniyanın toponimik adlar sisteminin mənbəyi qədim ingilis dilidir. Bununla belə, tarix boyu bu ölkələrdə bir çox tayfa və millətlərin məskunlaşması onların toponimik adlar sisteminə də öz təsirini göstərmişdir.

Coğrafi adlar hər şeydən əvvəl dilin leksikasının vahidi olan söz hesab olunur. Hər bir söz dilin qrammatik qanunlarına tabe olduğu kimi coğrafi adlarda da bu hal özünü göstərir. Onlar leksikada xüsusi adlar adı altında toplanmışdır. Burada onu qeyd etmək lazımdır ki, dilin lüğət tərkibinin bir hissəsini təşkil edən toponimlər xüsusi adlar hesab olunsa da özünəməxsus xüsusiyyətləri ilə seçilirlər.

Ümumilikdə isə bu adlar dilin müxtəlif qaydalarına əsasən yaradılır və coğrafi obyektləri adlandırmaq üçün həmin ərazidə yaşayan insanlar tərəfindən burada danışılan dilin lüğət tərkibinə daxil edilir. Lap qədimdən bu günə kimi eyni bir ərazidə bir sıra xalqların məskunlaşdığı faktı təbii ki, həmin xalqların yaşayış yerlərini öz dillərində adlandırmalarını göstərir. Toponimlər ilk növbədə dil qanunları və normalarına tabe olduğundan müəyyən ərazidə yaşayan əhalinin dil xüsusiyyətlərinin aşkar edilməsində onların rolu əvəzedilməzdir.

Böyük Britaniyanın toponimlərində köklərini ən azı beş fərqli xalqın - Keltlər, Romalılar, Anglo-Saksonlar, Skandinaviyalılar, Fransızların dillərindən götürən elementlər var. Bu xalqların hamısı ölkənin toponomikasına öz töhfələrini vermişlər və ingilis dilində yer adlarını bu günkü kimi formalaşdırmışlar.

Eramızdan əvvəl 400-350-ci illərdə İngilis adalarında Kelt dilləri geniş istifadə edilirdi. Kelt dilindən gələn toponimlər ilkin sayılır. Kelt yer adlarının ən çox sayı Britaniya Adalarının şimalında və qərbində (xüsusilə Uels və Kornvalda) müşahidə olunur. Kornvalda ümumi kelt elementləri tre-, pen- və lan- prefiksləridir. Uelsdə isə llan prefiksidir. Şimali Şotlandiyada toponimlərin elementləri Gael mənşəlidir, məsələn loch (göl təyinatı) və glen.

Bizim eranın 449-cu ilində Anqlo, Sakson və Cutlar İngilis Adalarına yerləşməyə başladılar. Müasir İngilis dili köhnə İngilis dilindən birbaşa inkişaf etdiyinə görə, köhnə İngilis mənşəli toponimlər ilkin hesab olunur. Norfolk və Suffolk mahallarında coğrafi xüsusiyyətlərin adlarının əksəriyyəti əvvəlcə Anglo-Saksonlar tərəfindən verilmişdir.

İngiltərənin şimalında, xüsusən Yorkşir əyalətində ən çox yer adları Skandinaviya mənşəlidir. Şotlandiya sahillərində və Orkney, Shetland və Hebrides ərazilərində toponimlər əsasən Skandinaviya mənşəlidir.

Normanlar İngiltərəni fəth etdikdən (1066-cı ildə) sonra, İngiltərə və Uels boyunca Norman hakimiyyəti tətbiq etməyə başladılar. Norman üstünlüyünü İngilislər üzərində nümayiş etdirməyin bir yolu da İngilis adları və ya Keltlərdən fərqli variantları olan yerlərə öz adlarını qoymaq idi. Normanlar müəyyən yer adlarını tələffüz etməkdə çətinlik çəkirdilər, buna görə də onlardan imtina edir və asanlıqla tələffüz edə biləcəkləri yer adlarına çevirdilər. Bu ən çox Nottingham və Durham kimi yerlərdə edilən dəyişikliklərdə aydın olur. Digər bir açıqlama da Normanların yeni fəth etdikləri ərazilərdəki bəzi yer adlarını bəyənməmələri idi.

Azərbaycan və ingilis dillərinin müxtəlif sistemli olmasına, ayrı-ayrı areallarda işlənməsinə, hətta genetik cəhətdən müxtəlifliyinə baxmayaraq, bu dillərin toponimləri mənsub olduğu xalqın tarixini, mədəniyyətini, etnoqrafiyasını, inam və etiqadlarını əks etdirən ən etibarlı mənbə olub özünəməxsus linqvistik xüsusiyyətlərə malikdir. Hər iki dilin toponimik sistemininin zənginliyi və rəngarəngliyi onların işlənmə miqdarı, mənşəyi, quruluşu və üslubi imkanlarında özünü göstərir.

Qədim xalqların məskunlaşdığı əraziləri, onların yayıldığı sahələri məhz toponimlərin köməyi ilə müəyyənləşdirmək mümkündür. Əhalinin mənşəyinin müəyyənləşdirilməsi ilə əlaqədar A.A.Bakıxanov qeyd etmişdir: "Əgər ölkənin qəbilələri, kəndləri, binaları və qədim qalaları geniş bir surətdə tədqiq edilərsə, əhalinin mənbəyini təyin etmək mümkün olacaqdır".

Unutmaq olmaz ki, dilimizin türk dilləri qrupuna aid olmasına baxmayaraq, xalqımızın uzun sürən təşəkkülü prosesində türk elementləri ilə yanaşı, Manna, Midiya, Atropatena və Qafqaz Albaniyası etnik elementləri də müəyyən rol oynamışdır. Buna görə də maddi və mənəvi köklərimiz olan bu etnik elementlərin həmisini nəzərə almaq lazımdır. Coğrafi adlar Azərbaycan dilinin bir sıra qədim və arxaik elementlərini yazılı mənbələrdən daha çox və daha mükəmməl mühafizə edən abidələrdir.

Toponimlərin coğrafi obyektlərə verilən adlar olduğu fikri üzərində bir az düşündükdə, toponimlərlə linqvistikanın əlaqəsini daha aydın görə bilərik. Onları bir-birinə ilkin bağlayan xüsusiyyət isə toponimlərin adlar olması, bu adları isə coğrafi obyektlərə dilin vasitəsi ilə verilməsidir. Bu obyektlərə ad verilən zaman dil lazımi elementləri və bu elementləri bir-birinə bağlayacaq strukturu müəyyənləşdirir.

Coğrafi adların spesifikliyi ondadır ki, əks etdirdikləri obyektlərə ad vermək və müəyyənləşdirməklə yanaşı, cəmiyyətin inkişafında sosial və tarixi həqiqətləri özündə saxlayır, keçmişdən olan mesajları gündəlik həyatımıza gətirir. Toponimlər insanın idrak fəaliyyətinin nəticəsidir, dünyadakı müxtəlif varlıqlar arasında münasibətlər qurur və bu əlaqəni yaradılan adla ifadə edir. Onomastik vahidlər dünyanı yaşadığımız şəkildə, görmə, öyrənmə, anlama və əks etdirmə tərzini təmsil edir.

**Elnaz Əliyeva**
***"İngilis dili və tərcümə" kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru***

# MƏNİM İCTİMAİ MÖVQEYİM

İlk öncə "mən" anlayışını dərk etmək hər bir şəxsiyyət üçün danılmaz xarakter daşımalıdır. Günümüzdə real olaraq özünü "mən" hesab edən, özünü cəmiyyət qarşısında "şəxsiyyət" etmək üçün müəyyən etap və mərhələlərdən keçməlidir. Qeyd etmək yerinə düşər ki, şəxsiyyət kimi formalaşan insan özünü cəmiyyət qarşısında necə görmək istəyirsə ictimaiyyətin də onu o formada qəbul etməsi bir faktdır.

Yetkinlik yaşına çatan, müstəqil qərar verməyi bilən hər bir gənc nəzəri olaraq özünün gələcək mövqeyini, gələcək planlarının təməlini təbii ki, ailəsi ilə birlikdə verdiyi qərarla birmənalı olaraq qoymuş sayılır. Vurğulamaq istədiyim bu gün müxtəlif sahələr üzrə təhsil alan, yaxud heç təhsili olmayan insanların sabah cəmiyyətdə necə mövqe tutmalarıdır. Mənim təhsilli olmağım cəmiyyətdə tam formalaşmış olmama nümunə deyil, mənim ictimaiyyətlə necə rəftar etməyim, mədəniyyətim, hər yaş kateqoriyasına daxil olan şəxslə yaratdığım ünsiyyət və s. mənim ictimaiyyətdə özümü necə göstərmək istədiyimin, eyni zamanda məni o formada dərk etmələrinin nümunəsidir.

Bu gün mən jurnalist, həkim, müəllim, polis, dərzi, yaxud sadəcə orta təhsilli ola bilərəm. Yəni hər hansı sahənin işçisi olmaq, yaxud da təhsilsiz biri, ev xanımı olmaq əsas deyil. Əsas odur ki, sən də bir insan kimi cəmiyyətə xeyirli, xalqa nümunə ol.!

**Nazlı Himmətova**
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

# ŞUŞADA "YETİŞƏN" XARIBÜLBÜLLƏR

Vətənimizin hər qarış torpağı bizim üçün əziz və doğmadır. Lakin Qarabağın gözü, Azərbaycanın incisi olan Şuşa şəhəri isə qəlbimizi öz füsunkar gözəlliyi, havası, təbiəti ilə fəth edib, vurğun etmişdir.

Vətən gülü al-əlvandır,
Yox içində xarı bülbül.

44 günlük vətən müharibəsində - 2020-ci il 8 Noyabrda rəşadətli ordumuzun Şuşanı azad etməsi illərdir qəlbimizdə sağalmayan yaraya məlhəm oldu. İçimizdə Xarıbülbül açdı. O xarıbülbül ki, uğrunda canımızdan keçdiyimiz Vətən gülü....

Şuşanın azad olması eyni zamanda bizi mənəviyyatımıza qaytardı. Azərbaycan Respublikasının Prezdenti İlham Əliyevin 2022-ci ili "Şuşa ili" elan etməsi də təsadüfü deyildir. Cənab prezdentimizin Şuşanı mədəniyyət paytaxtı elan etməsi də bizim üçün Şuşanın nə qədər dəyərli olduğunun əyani sübutudur. Şuşa təkcə təbiəti, təmiz havası ilə deyil eyni zamanda dahi sənətkarları ilə də tanınır. Azərbaycan ədəbiyyatı, musiqisi, memarlığı və rəssamlığının inkişafında Şuşada yetişən görkəmli nümayəndələrin rolu böyük və əvəzsizdir. Qadın zərif bir çiçəkdir deyirlər, doğrudan da elədir. Şuşanın tarixində Xurşidbanu Natəvan, Ağabəyim Ağa, Fatma xanım Kəminə, Qəmər bəyim Şeyda, Xanbikə xanım və b. bu kimi məşhur qadın ədiblər olub.

Xurşidbanu Nətavan Şuşanın yetişdirdiyi Xarıbülbül çiçəyidir ki, öz istedadı və yazdığı qəzəl, rübailəri ilə ədəbiyyatımızı bəzəmişdir. Onun yaradıcılığında əsas yer tutan təbiət təsviri ilə başlayan şeirlərində bir aşiq görünür. Yüksək sənətkarlıqla yazdığı "Gülün", "Qərənfil" seirlərində təbiət gözəllikləri tərənnüm olunmuşdur. O, bədii vasitələrindən elə məharətlə istifadə edib ki, oxucunun daxili dünyasına toxunur. Natəvanın dünyagörüşünün, bədii zövqünün formalaşmasında Qasım bəy Zakirin ağıllı məsləhətləri böyük rol oynayır. Xurşidbanu Natəvanın davamçılarından biri də Xanbikə xanımdır.



Xanbikə xanım Xurşidbanunun qızıdır. Anasının istedadı ona da keçmişdir. Anası kimi o da ədəbiyyatla yanaşı əl işləri ilə də məşğul olurdu. Xanbikə xanım mənzum məktubdan ibarət bir sıra şeirləri vardır. Onun şeirlərində Natəvanın təsiri açıq-aydın şəkildə hiss olunur. Eyni zamanda Xanbikə xanım Şuşada yardılan "məclisi-üns"ün fəal iştirakçisi kimi də şöhrət qazanan qadın ədiblərimizdən biri olmuşdur. Şuşada dünyaya göz açan şairələrdən biri də Fatma xanım Kəminədir. Öz dövründə qadın aşıq kimi tanınan Fatma xanım Azərbaycanın ən məşhur şairələrindən biri olub. Fatma xanım Kəminə onunla bir dövrdə yaşayan bir çox aşığın şeirlərinə nəzirələr yazmışdır. Amma dövrümüzə onun əsasən klassik şəkildə yazılmış şeirləri gəlib çıxıb. Fatma xanım Azərbaycanın ən məşhur şairələrindən biri kimi adını Şuşa tarixinə yazdırmışdır. Azərbaycan qadınları öz istedadı ilə tarix boyu seçilib. Qəmər bəyim Şeyda da onlardan biridir. Qəmər bəyim Şeydanın yaradıcılığında Natəvanın güclü təsiri hiss olmuşdur. O, incə ruhlu şairə idi və daha çox, yazdığı qəzəllərə görə tanınırdı. Eyni zamanda onun "Ağan canı", "Zülmün daşqını" adlı dram əsərləri də var.

Şuşada doğulan və qərib bir diyarda vətən həsrəti ilə yaşayan Ağabəyim ağa həm də diplomatik qadın kimi tanınır. Ağabəyim ağanın söylədiyi bayatılar özünəməxsusluğu ilə seçilir:

Əziziyəm, Qarabağ,
Şəki, Şirvan, Qarabağ,
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ!

Qarabağı çox sevdiyi və vətənə hədsiz bağlı olduğu şeirlərində açıq-aşkar görünür. O, xəyanətkar ermənilərə nifrət etmiş və şeirlərində hər zaman bunu dilə gətirmişdir. Ağabəyim Ağa qabiliyyətli, bacarıqlı və gözəl olmaqla bərabər, həm də çox vətənpərvər bir qadın olmuşdur. Şuşa ədəbi mühitində müstəsna xidmətləri olan şairələrdən biri də Qəmərnisə xanımdır. O da adını tarixin parlaq səhifələrinə yazmışdır. Qəmərnisə xanımın günümüzə gəlib çıxan cox az şeirləri çap olunmuşdur. Lakin şeirlərində şairənin yüksək istedada sahib olduğunu söyləmək aydın çakildə görünür.

Adları çəkilən ədiblərimiz Şuşanın ictimai-ədəbi həyatında fəal iştirak etmişlər. Şuşanın mədəniyyət paytaxtı elan edilməsi də məhz bu tarixi qaynaqlara əsaslanır. Azərbaycan mədəniyyətinin inkişafında ədəbi məclislərin rolu böyükdür. Həmin məclislərdən "Məclisi-fəramuşan" və "Məclisi-üns" Azərbaycanın ən tanınmış məclislərindən biri idi. "Məclisi-üns"ü digər ədəbi məclislərdən fərqləndirən fərqli cəhət qadın şairələrin sayının çoxluğu idi. Xurşidbanu Natəvan, Xanbikə xanım, Ağabəyim ağa və başqaları bu ədəbi məclisin fəal üzvlərindən idilər. Ədəbi məclislərin qurulması sözsənətin dəyərini artırdı və ədəbiyyata böyük maraq yaratdı. Həmin ədəbi məclislərdə qadın ədiblərimiz fəal iştirak edirdilər. Ədəbi-ünsün məşhur ədəbi məclisə çevrilməsində Xurşidbanu Natəvanın böyük əməyi və rolu olmuşdur. Xurşidbanu Natəvanla yanaşı bir cox qadın ədiblərimiz ədəbiyyatımızın çiçəklənməsində böyük və müstəsna xidmətlərə sahibdir. Buna görə onları Şuşanın yetişdirdiyi və Azərbaycan ədəbiyyatını bəzəyən Xarıbülbüllər adlandırmaq olar.

**Püstə Əhmədova**
***Tarix-filologiya fakültəsinin tyutoru***

# AYRILMADI KÖNÜL CANDAN!

"Ayrılmadı könül candan"- bu ifadə kimlər üçünsə mənasız ifadə ola bilər, lakin qəlbinin lap dərinliklərində vətən sevgisi olan, torpağına məhəbbəti olan biri üçün mənası dağları aşacaq bir ifadədir. Bu ifadənin gerçəkləşməsi üçün nə canlar getdi, nə qanlar töküldü... Çoxları dilində bir şuar gəzdirə bilər, Vətənimi sevirəm, deyə bilər, amma dilində. Bunu göstərmək üçün isə qəlbində böyük qüdrət və o qüdrətdən doğan Vətən sevgisi olmalıdır. Bir zaman ana vətən tək qalmışdı, dadına çatacaq igidləri isə həlak olmuşdu onun uğrunda. Şəhərləri, kəndləri viran qalmışdı mənfur düşmənin hücumlarından. Bu hücumlar nəticəsində viran qalan, işğal olunan şəhərlərimizdən biri də Şuşa idi. Azərbaycanın və bütün türk dünyasının incisi, gözünə nur, qəlbinə sevgi, həyatına həyat qatan bir şəhər. Azərbaycan deyiləndə yada düşən, mədəniyyət beşiyi deyiləndə ağıla gələn şəhər, gözəlliyi ilə Qarabağı aydınladan, Azərbaycana can olan şəhər, özündə tarixi, qədim kökləri anılan şəhər. Canından, anasından ayrılmayan şəhər. Pənahəli qüdrətli,Vaqif şöhrətli şəhər.

Şuşa özünə vurulan zərbələrə dözdü, qəlbinə batan iynələrə, köksündə kəsilən nəfəsinə dözdü, bir an ayrılmadı anası Qarabağdan. Cıdır düzündən izlədi balası Xankəndini, sevdi öz millətini, bir ibadətgah oldu öz xalqına.

Şuşa and içmişdi sanki başqa xalqın olmayacağına, öz anasından ayrı üzünün gülməyəcəyinə. Torpağında nə canlar getdi, nə qanlar töküldü və çox təəssüf ki, Şuşa işğal olundu. Qarabağın gözəlliyinə gözəllik qatan, onun dərdlərə dərman bulaqları, xəstəni sağaldan havası düşmənin əlində idi artıq. Qarabağsız Azərbaycan, ruhsuz insan kimi idi, sanki öz gözünü, ruhunu itirmişdi, bu cənnətməkan Qarabağ.

Dözmürdü Azərbaycan, bu haqsızlığa. Necə dözə bilərdi? Öz canını itirmişdi, zorla əlindən almışdılar. Hər gün Vaqifin şeir səsi, Xan qızı Natəvanın zümzüməsi gələn torpağından, indi Vaqif qəhri, Natəvan ağısı eşidilirdi. Şuşanın Cıdır düzünə həsrət idi Qarabağ.

Yavaş-yavaş qalxdı ayağa, lap qəlbinə vurulan yaraların acısına rəğmən qalxdı ayağa Azərbaycan. Amma 30 il, az yox, düz 30 il düşmən əsarətində qaldı bu Vətənin canı. 30 ildə nələr çəkdi onun başı, nə müsibətlər gördü...

Bir gün Qarabağ, Ana vətənin oğul səsini öz torpağında eşitdi, 2010-cu il idi. Birdən erməni əsgərləri arasında çaxnaşma düşdü. Nə olduğunu anlamayan ermənilər nə edəcəklərini bilmirdilər. Amma kiminsə onları vurduğunu bilirdilər. Bu qəhrəmanlar qəhrəmanı, sərdarlar sərdarı, gözündə ancaq Vətən sevgisi olan, qəlbi ancaq can Azərbaycanla döyünən Mübariz İbrahimov idi. Torpağında düşmənin gəzməsinə dözə bilmirdi, cəsarətinə qurban şəhidim. Ata-anasına məktub yazıb, gecənin qaranlığında düşmən postuna irəliləyir, erməniləri vurmağa başlayır, onların üstünə bir şir kimi çökürdü. Xeyli öldürmüşdü erməni əsgəri, amma arxadan bir neçə güllə yarası almış və sözün əsl mənasında qəhrəmancasına şəhid olmuşdu. Ermənilər özləri etiraf edərək, Mübarizin pak, cansız bədənindən belə qorxduqlarını bildirmişdilər. Vətən sağ olsun!

Hər gün uzaqdan onu izləyən əsgərinə xilas et məni, geri qaytar anama – deyə sanki yalvarırdı Qarabağ, onun gözü olan Şuşa isə ağlayırdı məğrurcasına. O, əsgərinə həsrətlə baxırdı, çünki dözə bilmirdi bu iztiraba, çəkə bilmirdi bu həsrəti. Bulaqlarının suyunun dadının dəyişməsinə, havasının çirklənməsinə dözə bilmirdi. Hər gün düşmən tapdağında olmaq, düşmənin namərd sözlərinə şahid olmaq, sevgisiz qalmaq, anasız qalmaq çətin gəlirdi ona.

Və bir gün...

Səhər Qarabağ top səsinə oyandı, 24 ildən sonra eşitdiyi top, tüfəng səsləri qorxutdu onu. Diksindi, narahat oldu. Narahat oldu ki, əsgər balalarıma nə isə olar, amma sevinc də var idi qəlbində, çünki 24 il əvvəl ayrıldığı anasına qovuşacaqdı. Çünki bilirdi Azərbaycan əsgərinin gücünü, iradəsini, rəşadətini, məğrurluğunu. Ona görə də, artıq hazır idi anasına qovuşmağa, o tərəf-bu tərəfə boylanırdı, 24 il əvvəl eşitdiyi səsləri eşidirdi.

Aprel ayının 1-i, 2016 -cı il idi.




Bu qədər böyük bir iradə ilə irəliləyən əsgərlərin qarşısında heç bir qüvvə dayana bilməzdi, qurduğu "yenilməz" istehkamlarla belə bu iradənin qarşısında aciz idi düşmən.

Cıdır düzündən boylanan Şuşa gözlərinə inanmadı, Azərbaycan əsgəri artıq Lələtəpəni geri almışdı, qürurla dalğalanan bayrağımızı görüb, sevincini dağlarıyla, təpələriylə bölüşdü. Hər saniyəsi maraqlı idi bu döyüşün, çünki ancaq Azərbaycan əsgəri irəliləyir, tarixi torpaqlarını anası Azərbaycana qaytarırdı. Amma çox az davam edən bu döyüş, nədənsə, birdən dayandı, nə olduğu bilinmədən dayandı. Qarabağ bu müharibənin burada bitməyəcəyini bilirdi, çünki o, Azərbaycana geri dönəcəyinə inanırdı.

Artıq 2020-ci ilin iyul ayı idi, həmişəki kimi ürəyində narahatlıq hiss edirdi cənnətməkan Qarabağ. Sanki qorxurdu nədənsə və bir anda yenidən səslər gəlməyə başladı, artıq o əmin idi ki, bu, Azərbaycan əsgərinin irəliləyişidir, sevindi Qarabağ, güldü Şuşa. Lakin sevinci çox az çəkdi, bir neçə gün sonra Azərbaycanın qüruru, səngər generalı kimi tanınan General Polad Həşimov şəhid oldu. Bu xəbəri eşidən hər bir əsgər göz yaşını saxlaya bilmədi və elə əsl müharibənin təməli qoyuldu.

Canı candan ayıran, ananı baladan ayıran erməni toplumu fərqində olaraq yeni istehkamlar tikib, mövqelərini daha da möhkəmləndirdi. Lakin gözünü şəhid qanı bürümüş bir əsgərə bu istehkamlar bir tel nazikliyi kimi gəlir, qəlbindəki nifrəti püskürmək istəyirdi.

...Və bir gün, səhər günəşi öz şəfəqlərini yavaş-yavaş üzə çıxarırdı. Bu zərrin şəfəqlər Qarabağın gözünə, Şuşanın qəlbinə dəyib bərq vurundu. Amma birdən yenə də güclü səslər eşidildi, bu səslər Azərbaycan əsgərinin rəşadətlə döyüşünün, əzmlə irəliləyişinin səsi idi.

27 sentyabr, 2020-ci il. Bu tarix idi hər şeyin başlanğıcı, müqəddəs tarix. Bütün kinin, nifrətin coşduğu, ananın, atanın, körpənin, qocanın bir mövqedə toplaşdığı tarix idi. O gün hər kəs birləşmişdi, çünki bu əsrlərin qanlı savaşı olacaqdı. Keçmişin qisası, gələcəyin qüruru idi bu savaş.

Sanki bir aslan ordusu, çaqqal toplumunun üstünə gedirdi. Azərbaycan əsgəri mədəniyyətini, tarixini, inanc yerini azad etmək üçün qarşısıalınmaz bir güclə irəliləyirdi, bir-bir azad edirdi kəndini, şəhərini. Azərbaycan əsgərinin qarşısında bir qarışqa kimi əzilirdi düşmən.

Əsgərimin ruhunun qidası həm Qarabağ idi, həm də xalqının güvəni. Çünki kiçikdən böyüyə hər kəs gündəlik xəbərlər gözləyirdi. Hər kəndin işğaldan azad olunması bizim üçün bir müqəddəs gün hesab edilirdi. Günbəgün anası Azərbaycana daha da yaxınlaşan Qarabağ düşmənin belinin necə sınmasına şahid olurdu.

Sadəcə 44 gün çəkdi bu şanlı müharibə. 44 gün ərzində qayıtdı öz anasına Qarabağ. Şuşa isə bir başqa idi, artıq səmasında qürurla uçan qartal Şuşanı daha fərqli süzürdü, qoynunda açan zanbaqların ətri bir başqa idi, bulağından axan suyun dadı dəyişmişdi. Qarabağın, Şuşanın rəmzi olan Xarı bülbül sevinirdi, açmağa tələsirdi. Bu dəfə fərqli görünüşdə olacaqdı o, çünki ətrini şəhid bədənindən, suyunu isə şəhid qanından alırdı.

Artıq bu torpaqda yenidən axşamlar Xanın avazı, Vaqifin şeiri, xan qızı Natəvanın zümzüməsi eşidilir, nur içində yatan şəhidlərimiz qürurlanır, fəxr edirdi. Həqiqətən, "Ayrılmadı könül candan"...

Bu məqaləmi canı canından ayrılmış şəhid ana və atalarına, şəhid yoldaşı və övladlarına həsr edirəm.

**Əli Yarıyev**
***"Jurnalistika" ixtisası üzrə I kurs tələbəsi***

# ŞUŞA AZƏRBAYCANIN MƏDƏNİYYƏT MƏRKƏZİDİR

Şuşa Azərbaycanın tarixi mədəniyyəti, Qarabağın baş tacı, nəinki şuşalıların bütün azərbaycanlıların ürəyindəki "qədim şəhərdir". Bəs nə idi Şuşanı bizə özəl edən? Nə idi onu belə sevməyimizə səbəb olan? Qonaqpərvər insanlarımı? İgid oğullarımı? Ya da Azərbaycanın hər çətinliyində, hələ Xanlıqlar dövründən belə heç vaxt yıxılmamağımı?

Azərbaycan xalqının tarixi ənənələrinin simvolu olan Şuşanın hələ Xanlıqlar dövründə "Pənahabad" sonradan "Şuşa qalası" və "Şuşa" adlandırılması onun tarixinin, tarixi ilə yanaşı mədəniyyətinin də qədim olduğunu göstərir. Şuşa Azərbaycanın qədim tarixə malik, nadir və mükəmməl şəhər mədəniyyətinə malik olan incisidir. Bunun ən gözəl nümunələrindən biri də "Bazarbaşı" deyilən yerdən "Şeytanbazar" adlanan yerə qədər üstü örtülü ticarət mərkəzi olan "Rastabazardır". Əslində Rastabazar təkcə ticarət mərkəzi deyildi, həm də şəhərin əsas küçəsidir. Həmçinin Rastabazar küçəsi boyunca ibadətgahlar, birmərtəbəli dükanlar, ikimərtəbəli karvansaralar bu küçəyə xüsusi gözəllik verərək, onu Şuşa şəhər mədəniyyətinin təkrarsız incisinə çevirir.

Xüsusi gözəlliyi ilə seçilən və dünyanın heç bir yerində bitməyən "Xarı bülbül" nəinki Şuşa, bütün Qarabağı tək Azərbaycanda deyil, bütün dünyada əvəzsiz edir.

Şuşanın abidələr şəhəri olduğunu söyləyən ümummilli liderimiz Heydər Əliyev onu Azərbaycan üçün yüksək dəyərləndirmişdir. Liderin də dediyi kimi, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan olmaz".

**Nuray Tahirzadə**
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

# DAŞLARDAN GƏLƏN SƏSLƏR

Azərbaycanın tarixi çox qədim və çoxşaxəlidir. Bu qədimlik hər bir şəhər, kənd, ümumiyyətlə hər qarış torpağımızda qarşımıza çıxır. Naxçıvan 3500 yaşa malik qədim şəhərdir. Bəs görək bu qədim tarix haqqında məlumatımız varmı?

Bildiyimiz kimi, qədim mağaralardan olan Qazma mağarası Şərur rayonunun Tənənəm kəndində yerləşir. Bu dövrə aid daş çəkiclər buna misaldır. Ən maraqlısı daşlar üzərində qalıqlar, daşlaşmış ilbiz və dəniz kirpisi, daşlaşmış tısbağadır. Nuh peyğəmbərin məzarüstü türbəsinin qrafik təsviri fransız səyyahı Frederik Dübua de Monperenin kitabında verilib. Bu abidə Köhnəqala, Naxçıvanqala ərazisindədir. II minilliyə aid olan qədim insanların əl alətləri daş baltalar, daş duz həvəngdəstələri, duz süxurları o dövr ən əlverişli olan daşdan düzəldilən alətlərdir. Həmin miniliklərdə II Kültəpədə düzəldilmiş daş bütlərə rast gəlinir ki, bu da o dövrlərdə bütpərəstlik dinin sitayiş olunduğundan xəbər verir. E.ə III minillik və II minilliyin əvvəllərində Naxçıvanda Şaxtaxtı, Çalxanqala, II Kültəpədən tapılmış oxralı boyalı qablar, monoxrom (Tək rəng) və polixrom (çox rəng) rəngli qablar diqqəti cəlb edir. Tunc dövründə Kolanı, Şahbuz daş qutu qəbirlər, küp qəbirlər Naxçıvanda antik dövrdən xəbər verir. Həmin ərazidə tapılmış qazma və cızma üsulu ilə daş üzərində rəsmlər bizə tariximizin qədimliyindən xəbər verir. B.e.XV-XVI əsrlərində məzar daşları sənduqələr adlanırdı.1346-cı ildə Məhəmməd Əhməd oğluna malik olan qəbirüstü daşda Bəqərə surəsinin 255-ci ayəsi "Ayətəl-kürsi" yazılıb. Hər bir tədqiqatçı üçün bu qiymətli məlumatdır.



Tariximiz Azərbaycanın hər bir yerində daşlarda əks olunub. Qobustan qavaldaşı qədim dövr insanlarının musiqi aləti kimi istifadə etdikləri: bugünkü dövr nağara, zərb alətlərini əvəz edir. İstər abidələr olsun, istərsə də Qobustan qayaüstü rəsmləri bizə daşlardan gələn səslərdir.

**Sacidə Hüseynova**
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

# DÜNYAMIZI QORUYAQ

Günümüzdə ən ciddi qlobal problemlərdən biri də ətraf mühitin çirklənməsidir. Belə ki, bu sadəcə bir şəhərin, bir ölkənin deyil, bütün dünyanın problemidir. İnsanlar sabahı düşünmədən, sanki dünya həmişə belə qalacaqmış kimi davranır, təbiətə zərər vurur, ətraf mühiti çirkləndirirlər. Ekologiyanın çirklənməsindən danışdıqda ilk yada düşən zavodların, fabriklərin havaya buraxdığı zərərli maddələr, tullantı sularının dənizlərə, çaylara ötürülməsidir. Doğrusu müasir dövrümüzdə zavod və fabriklər insanların qida, yaxud başqa tələbatlarını ödədiyi üçün bu problem uzun müddətdir həll oluna bilmir. Lakin bu məcburi çirklənmədən başqa insanlar özləri də təbiəti çirkləndirirlər. Sadəcə əyləncə üçün meşəyə səyahət etdikdə belə tullantılarla meşəni çirkləndirir və daha da pis diqqətsizlik nəticəsində meşə yanğınlarına səbəb olurlar. Bu zaman minlərlə ağaclar, bitkilər, heyvanlar, bir sözlə canlı aləm tələf olur. Biz təmiz havadan, sağlamlıqdan məhrum oluruq. Bunun üçün də son illərdə yaşıllaşdırma ilə bağlı ağacəkmə aksiyaları keçirilir. Necə ki, bizdən əvvəlki nəsillər ata-babalarımız ağac əkib bizə ərmağan ediblər, biz də gələcək üçün ağac əkib, yaşıllıqlar salıb, öz borcumuzu yerinə yetirməliyik. Çünki təbiət bizim həyatımızdır. Buna görə də tez-tez ekoloji tədbirlər keçirtmək lazımdır ki, mövcud olan vəziyyəti aradan qaldıraq.



Başqa bir nümunə olaraq dənizin çirklənməsini göstərmək olar. Bildiyimiz kimi çirkab sularının dənizə axıdılması və neft sızmaları zamanı dənizdə yaşayan canlılar tələf olur. Çirklənmənin növündən asılı olmayaraq isə zərər çəkən həmişə canlı aləm olur. Bir şeyi unutmamaq lazımdır ki, gözlə gördüyümüz hər şey günəş, torpaq, səma, canlılar, hətta insan belə təbiətin bir hissəsidir. Məhz bu səbəbdən də biz təbiəti qorumalı, ona sahib çıxmalıyıq. Gəlin, təbiətin bizə bəxş etdiyi əsrarəngiz gözəlliklərə-mavi səmaya, zümrüd meşələrə, ləpələnən dənizə, rənbərəng çiçəklərlə əhatə olunmuş çəmənlərə qayğı göstərək. Qayğı göstərək ki, gələcəyimiz gözəl olsun.

**Nəzrin Ələsgərova**
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

# BƏXTSİZ QADIN (HEKAYƏ)

Kiçik yaşlarından əziyyətə qatlaşaraq, hələ lap balacalığından ailəsinin maddi durumu yaxşı olmadığı üçün xalçalar toxuyardı. 10 yaşının olmasına baxmayaraq, sanki Heyranın qəlbi yorulmuşdu artıq. O, kiçik qəlbində ağlayırdı daima.

Xalça toxuyan Heyranın əl işləri tamam fərqli bir üslubda idi. Ona xalça toxumağı öyrədən anasından belə yaxşı toxuyurdu xalçaları. Lakin, həyat Heyranla sanki barışmır, onu bütün qaranlıq və çətin yollarından keçirirdi. Bəzən enişində əngəllər çıxarır, bəzən də yoxuşunda. Bu yüklər balaca qızcığaz üçün bəzən daha çox ağırlıq salır, onu həyatdan bezdirirdi. Beləcə günlər tez-tez keçir, gün keçdikcə Heyran da böyüyürdü. Onun artıq 15 yaşı vardı. O qədər gözəl idi ki, günəş, ay onu görcək yerlərindən çıxmırdı, utanırdı bütün aləm. Üzündə güllər açan, gözlərində günəş parlayan, alnında ay işığı əskik olmayan Heyran gözəlliyi ilə görənləri heyran edirdi. Bu mələk simalı qız o qədər sadə idi ki, heç vaxt özünü gözəl hesab etmir, kişi imiş kimi ancaq ailəsinə dəstək olmağa çalışırdı. Kəndin bütün oğlanları bu qızın arxasında idi. Hər gün qapılarına elçilər gələn Heyran, heç kimə "hə" deməz, hələ balaca olduğunu, ailə quracaq yaşda olmadığını söylərdi. Heyranın atası öz zəhmətilə traktor sürür, anası isə zəhmətkeş biri kimi əkin əkir, tarla becərirdi daima.

Nəhayət, Heyran böyüdü,20 yaşında su sonası bir qız oldu. Həyatın bütün üzlərini görmüş heyranın ailə qurmaq vaxtı idi artıq. Buna görə də o özünə yar seçməli idi. Nəhayət, Heyrana Bakıdan çoxdan dost olduqları ailə elçi düşdü. İmkanları çox yaxşı olan ailə Heyranı öz hərbçi oğluna istədi və hər kəs bu izdivaca razı oldu. O gündən Heyranın üzü güldü, eyni açıldı. O dövrdə hər kəs Bakıya gəlin gedən qızlara həsrət və həsədlə baxırdı.

Bir müddət sonra toyun tarixini müəyyənləşdirdilər. Heyrana ömründə görmədiyi hədiyyələr, paltarlar, bəzək əşyaları gətirmişdilər. Toyun vaxtı müəyyənləşdi-may ayının 15-i.

Aprel ayı idi, güllərin qoxusu insanı məst edir, böcəklərin səsi sanki həzin musiqi çalırdı. O qədər gözəl günlər idi ki, qiyməti yox idi. 1 ay da gəlib keçdi, Heyranın toy gününə 1 gün qalırdı. Hər kəs toya hazırlaşırdı. Bəy və qohumları isə bir gün əvvəldən gəlmiş, Heyrana gəlinlik də gətirmişdilər. O dövrdə bəyin qız evinə gəlməsi, bəylə gəlinin qolqola mağara çıxması pis adət kimi sayılırdı, lakin bu adət öz yerini tapmadı bu toyda. Heyrana ağ gəlinlikdə göz oxşayırdı. Evi sükut bürüdü. Bu incə, zərif qıza ağ örpək, ağ gəlinlik o qədər gözəl yaraşırdı ki, nişanlısı Heyrana bir daha aşiq oldu sanki. Gözlərini ondan ala bilmir, ancaq Heyrana baxırdı. Ata-anası xeyr-dua verdi və Heyran ər evinə yola salındı.Yol boyu sanki otaqdan çıxmamış, ancaq qəfəsdə oxuyan bir bülbül kimi Heyran ətrafa boylanır, böyük binalar gördükdə heyrətə gəlir, amma bu heyrətini içində gizləyirdi. Nəhayət, o, çox xoşbəxt idi. Heyran hər zaman şükr edir, bu xoşbəxtliyin davamı üçün Allaha yalvarırdı. Amma təəssüf, Heyranın xoşbəxtliyi 6 ay çəkdi, sadəcə 6 ay xoşbəxt oldu...



1992-ci il, oktyabr ayının 15-i. O gün, o qara gün Heyran çox xoşbəxt idi. Yuxudan oyanıb həyat yoldaşını işə yola salmaq üçün gözəl geyinmişdi. Gözəlliyi ilə dillərə dastan olan Heyrana o gün həyat ən böyük acısını, ağrısını yaşadacaqdı. Həyat yoldaşını işə yola salanda, elə qucaqladı ki, sanki bir daha görüşməyəcəkdi. Həyat yoldaşına bu gün işə getməməkdə israr etsə də o, mühüm bir tapşırıq üçün bir neçə gün evə gələ bilməyəcəyini söylədi. Heyranın içinə bir narahatlıq çökdü, birdən-birə üzündəki təbəssüm itdi, nə isə pis bir şeyin olacağını hiss etdi. 2 gün sonra, axşam üstü birdən qapı döyüldü. Heyran içində bir ümidlə qapıya yaxınlaşdı. Qapının arxasında iki zabit dayanmışdı. Zabitlər salamlaşıb Həsənin evinin bura olduğunu soruşdular. Heyranın qəlbi titrədi, dodaqları əsə-əsə hə dedi. Zabitlər dərin acı hissi ilə ona həyat yoldaşı Həsənin şəhid olması xəbərini verdilər.... Heyran bir anlıq nə olduğunu anlamadı, dizləri əsdi, gözləri qaraldı, dünyaı başına yıxıldı, bir anda xoşbəxt ömrü qaraldı. Həmin gündən Heyrana gündüz gecə, gecə isə dərinliyə qapılmış zülmət kimi gəldi. Hamı Heyranın taleyinə, bəxtsizliyinə ağladı. Ağrıyla, acıyla, göz yaşlarıyla dolu 1 il keçdi....Heyranın artıq orda qalmasının mənası yox idi, qayıtmalıydı kəndə. Çünki uca tanrı Heyrana bir övlad belə verməmişdi. Kor-peşman kəndə qayıdan Heyran, bir daha ərə getməyəcəyini, ölmək istədiyini deyirdi.

Amma bəzən həyatın acımasız qanunları qarşısında aciz qalırıq. Söz deməyə belə hüququmuzun olmadığı bir dövrdə həyat yenə də Heyrana öz gücünü, öz acısını daddırdı. 9 il, düz 9 il Heyran ailə qurmadı, şəhid ərinin yasını saxladı. Və bir gün Heyran ona elçi düşən çox kasıb bir oğlanla evlənməyə məcbur oldu. Evlənəcəyi adamın həyat yoldaşı ölmüş, ona 2 övladını miras qoymuşdu.

Heyran o iki yetimə ana olmaq üçün ərə getdi. İkinci dəfə ailə həyatı quran Heyran artıq həyata bir ümidlə bağlanmaq istəyirdi. Amma bu evliliyə də tərəddüdlə yanaşır, uşaqlara görə ürəyində narahat olurdu. Axı Heyran artıq 2 körpə uşağa baxmaq məcburiyyətində idi. Nəhayət Heyran ər evinə gəldi, valideynləri xeyrdua verdi və Heyranın ümidli, amma yoxsul günləri başladı. Heyran 2 uşağı gördükdə ürəyi sanki isindi, gözləri parıldamağa başladı. Uşaqlar o qədər saf, təmiz görünürdülər ki.

Gözəlliyini, həyatını qurban verən Heyran uşaqlara çox qayğıkeş yanaşır, onlara öz doğma övladları kimi baxırdı. Anaları hələ çox körpə ikən öldüyü üçün uşaqlar Heyranı doğma anaları bilirdilər. Bəziləri Heyranın öz övladları olduqdan sonra yetimlərə pis baxacağını düşünürdü, amma Heyran bütün bu fikirləri alt-üst etdi. Bu gözəl ürəyə sahib olan qadının 2 övladı oldu, ancaq o heç vaxt öz övladlarından ayırmadı yetimləri. Öz ömrünü, gəncliyini verdi, böyütdü, öz övladları qədər sevdi ögey uşaqları.

Heyranın evi balaca,1 ortaqlı bir daxma idi, orada 4 uşaq və həyat yoldaşı ilə birlikdə yaşayırdılar. Bəzən yağan yağışlar içəri dolur, bəzən isə isti içərini sobaya çevirirdi. Amma nə deyək, kasıbçılıq belədir. Yeməyə çörək tapa bilməyən Heyran qışda qonşularının təndirindən çörək tapıb uşaqlarına gətirirdi, yemək bişirəndə isə nə tapsaydı ancaq 4 uşağa verirdi. Beləcə çətinliklə günləri keçir, uşaqlar böyüyürdü. Amma kasıbçılıq üzündən uşaqları ali təhsil ala bilməmişdi, orta təhsili bitirdikdən sonra Bakı şəhərində işləməyə getmişdilər. Qızlar evlənmək çağına gəlmiş, oğlanlar isə artıq böyük kişi olmuşdular. Amma nə qədər böyüsələr də əvvəlki günlərini unutmurdular. Qara saçını ağ hörüb onlara baxan analarına hər şeyin yaxşısını almağı özlərinə söz vermişdilər. Nəhayət övladlar analarına layiq firavan həyatı ona bəxş etdilər. Analarını baş tacı edən övladlar hər addımda ondan məsləhət alırdılar. Beləcə zaman yenədə öz sürətini göstərir, vaxt su kimi axırdı. Ana isə öz balaları ilə fəxr edir,taleyinə şükr edirdi.

(Hekayə real həyat əsasında yazılmışdır.)

**Əli Yarıyev**
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

# QARABAĞIN TARİXİ MEMARLIQ ABİDƏLƏRİ



Azərbaycanın tarixi onun bölgələri və qədim şəhərləri ilə sıx bağlıdır. Yaşı eradan əvvələ gedib çatan dövlətçilik ənənələrimiz bu məkanlarda həmişə mövcud olub və qorunub. Nəticədə təkcə zəngin dövlətçilik tariximiz deyil, həm də maddi-mədəni abidələrimiz də formalaşıb. Bununla da dünyada yeni bir mədəniyyətin əsası qoyulub. Bu baximdan daha zəngin olan Qarabağ abidələrindən danışmaq istəyirəm.

Azərbaycanın Qarabağ bölgəsi dünyanın ən qədim insan məskənlərindən biri - 2 mln il yaşı olan Azıx mağarası, ilk insanların yaşadığı düşərgələrdən birinin vətəni kimi tanınır. Bundan başqa Qarabağ ərazisi paleolit dövrünün Quruçay mədəniyyəti yaradıcılarının tunc və dəmir dövründə mövcud olan və bir-birini əvəz edən Kür-Araz və Xocalı-Gədəbəy mədəniyyətlərini dünyaya yayan insanların yaşayış məskənidir. Qarabağın dağlıq və düzən hissəsində aşkar edilmiş qədim daş abidələr-Xocalıdakı dolmenlər, Xankəndindəki kromlexlər, eləcə də Qarabağın müxtəlif yerlərindən aşkar edilmiş antik dövrə aid daş qutu qəbirlər həmin dövrün ideologiyasını-mənəvi düşüncə tərzini əks etdirən maddi mədəniyyət nişanələridir. Bu ərazilərdə demək olar ki, bütün dövrlərə aid abidələr mövcuddur.

Qarabağda-Azıx, Tağlar mağaraları, Xocalı kurqanları, Babadərviş, Qaraköpəktəpə kimi tarixi abidələr də dünya arxeologiyasında tanınan yerlərdir. Amma qeyd edək ki, sadaladığımız bu abidələr Qarabağ ərazisindəki abidələrin bir hissəsidir. Təəssüf ki, 30 il erməni işğalçılarının əsarətində qalmışdı bu abidələr. İndi isə işğaldan azad olunan bu ərazilərdə Azərbaycandan və dünyadan olan arxeoloqlar tərəfindən bu abidələrin yenidən tədqiqinə başlanılacaq.

Qeyd edək ki, işğal dövründə erməni vandalları bu abidələrə ciddi zərər vurmuşlar. Əhəmiyyətli tarixi-memarlıq abidələri arasında ən çox ziyan çəkən e.ə. II minilliyin sonlarına aid olan və Orta Tunc dövrü insanlarının yaşayış izlərini daşıyan Üzərliktəpə arxeoloji abidəsidir. 1993-cü ildən ermənilərin işğalı altına düşən bu abidə 2019-cu ilə kimi daimi olarag hər dəfə ermənilər tərəfindən yandırılırdı.

XIII əsrə aid olan Gəncəsər monastırı da 1990-cı illərdə erməni silahlı birləşmələri tərəfindən silah anbarı kimi istifadə edilirdi. O da faktdır ki, Qarabağ xanlığı dövründə bir çox qalalar (Bayat, Şahbulaq, Pənahabad) tikilmiş, şəhər və qəsəbə tipli yaşayış məntəqələri yaranmış və günümüzə qədər gəlib çatmışdır. Qarabağ xanlığının mərkəzi Şuşada yaşayış evləri, ictimai tikililərin interyerlərində usatlıqla işlənən divar naxışları bu gün də hər kəsi təəccübləndirir. İncə, nəbati naxışlar xüsusi ustalıqla və təbii rənglərlə işlənmişdir. Bu isə onu göstərir ki, bütün müsəlman Şərqində olduğu kimi Azərbaycanda, o cümlədən Qarabağda son orta əsrlərdə mədəniyyət, elm və ədəbiyyat yüksək şəkildə inkişaf etmişdir.

Amma təəssüf ki, bu abidələr yuxarıda da qeyd etdiyimiz kimi ermənilərin təcavüzünə məruz qalaraq dağıdılıb. Bəziləri isə yer üzündən silinib. Bəşəriyyətin ulu əcdadlarının beşiklərindən biri olan Azıx mağarası, hətta ermənilərin hərbi sursat anbarına çevrilmişdi. Amma xalqımızın bu irsi o qədər zəngindir ki, yenə də bu abidələrin çoxunu qoruyub saxlamaq mümkün olub.

Qarabağımızin tarixi memarlığı haqqında çox danısmaq olar. Unutmyaq ki, dinindən, irqindən fərqli olmayaraq hər bir şəxs nəinki özünün, hətta digər xalqlara məxsus olan tarixi abidələri qorumalı, onlara sahib çıxmalıdır. Ancaq bu hissləri ermənilərə aid etmək olmaz.

**Səbinə Əliyeva**
***Jurnalistka ixtisası üzrə III kurs tələbəsi***

# SEVİNC GƏTİRƏN GÜNƏŞİN TƏBƏSSÜMÜDÜR GÜLLƏR

İnsanlar, bir qayda olaraq, hətta çiçəklərə baxanda belə, onlardan böyük həzz alır, yaxşı əhval-ruhiyyə və gözəlliklə təmasda olmaq hissi yaşayırlar.Çiçəklərə bəzən sevinc gətirən günəşin təbəssümü də deyirlər. Güllər haqqında düşünəndə təxəyyülümüzdə qızılgüllər, qərənfillər, çobanyastığı, lalələr və bənövşələr canlanır. Təbiətin bu əsrarəngiz nemətləri insanda gözəl hisslər oyadır, çünki onlar mükəmməlliyin özüdür. Dünyamızı heç çiçəksiz düşünmüsünüzmü? Onda ətraf necə də kasıb və kədərli olardı. Çiçəklərin dünyası isə zərif, parlaq və son dərəcə gözəldir.

Bu şahanə bitkilər təbiətin ən gözəl əsərlərindən biridir. Onlar bizi ən gözəl ətirləri ilə məst edir, ləçəklərinin müxtəlif çalarları ilə sevindirir. Hər biri musiqi kimi, coşğun əhval-ruhiyyə yaradır, ilham verir... Uzun müddətdir ki, bu zərif gözəllik nümunələri insanın hisslərinin, düşüncələrinin simvolu olublar.

Çiçəkləri həmişə həyatımızda bizimlə birlikdə yaşayan yoldaşlarımız kimi qəbul etmişik. Təbiətin bu kövrək “körpələri” təkcə əhval-ruhiyyəmizi yaxşılaşdırmır, həm də müxtəlif hisslərimizi ifadə etməyə kömək edir, zövqümüzü inkişaf etdirir, evlərimizi bəzəyir və ruhumuzu sağaldır. Ümid edirik ki, bütün bunlardan zövq alırsınızsa, deməli ürəyinizdə gözəl, heyrətamiz çiçəklər açır. Təbii ki, məcazi mənada.

“Bəzən hisslər çiçək kimi olur: onların da çiçəklənməsi üçün vaxt lazımdır”- deyir ingilis yazıçısı Ceyn Ostin. Yəni təbiətdə heç bir şey dərhal baş vermir - hər şey bir az təşəbbüs, bir az da səy tələb edir. Çiçəyin böyüməsi, pardaxlanması və açılması bir hərəkət olduğu üçün ona da vaxt lazımdır. Öz emosional vəziyyətlərini izləməyə çalışanlar bəzən bunun nə qədər çətin ola biləcəyini dərk edirlər. Bu ifadə insanın kövrək daxili dünyasını zərif və həssas bir çiçəklə müqayisə edir. Bir çox insanlar da yaşla duyğularının dəyişdiyini, daha sabit olduğunu görürlər. Bəzən həyatlarının nə qədər tez keçdiyini görməyə vaxtları olmur. Yalnız azalan illərdə biz bəzən müəyyən hadisələrin niyə baş verdiyini və onların münasibətimizə necə təsir etdiyini düşünməyə başlayırıq. Və çiçəklərdən gətirdiyimiz bu nümunələr, sitatlar da insan həyatının vəziyyətini göstərmək üçün ən yaxşı üsuldur.

Etiraf edək ki, bəzən hisslərimizi dilə gətirə bilmədiyimiz an köməyimizə güllər çatır. Öz sevgimizi bildirmək, kiməsə xoş anlar bəxş etmək üçün güllər aləminə üz tuturuq. Anamıza, bacımıza və digər yaxınlarımıza ən xoş günlərində gül hədiyyə edirik. Güllər qadınlar üçün əvəzedilməzdir.



Beləliklə güllərin həyatımızda rolunun nə qədər böyük olduğunu görürük. Üzr istəmək, özünü bağışlatmaq, hər hansı tədbirdə, özəl günlərdə gül verməklə qarşındakı insana xoş təəssürat bəxş etmiş olursan. Güllər həm qədim zamanlarda, həm də indiki dövrümüzdə ən uğurlu hədiyyə kimi istifadə olunub. Kişilər özəl günlərində öz xanımlarına gül hədiyyə edib, öz sevgilərini bildiriblər. Qadınların da məhz ən çox sevdikləri hədiyyə güllərdir. Xüsusən də qızılgül. Qızılgül hər zaman öz gözəlliyini qoruyub saxlayıb və hər kəs tərəfindən sevgi ilə qarşılanıb.

Çiçəklər haqlı olaraq həyatın simvolu adlanır, çünki onlar təbiətin gözəlliyini və səxavətini təcəssüm etdirir. Onlara heyran olmamaq mümkün deyil, hətta şairlər onlara məmnuniyyətlə şeir həsr edirlər. Məsələn, laləyə, nərgizə, bənövşəyə şairlərin yazdıqları şeirlər məktəb vaxtlarından bütün şagirdlərin dillər əzbəri olub.

Başına döndüyüm, gülüzlü pəri,
Adətdir, dərərlər yaz bənövşəni...

Yəqin ki, Aşıq Qurbaninin hələ XVI əsrdə yazdığı bu məşhur şeiri bilməyən olmaz. Bu cür nümunələri çox saymaq olar...

İndi isə keçək söhbətimizin əsas məğzinə. Son zamanlar Naxçıvan Dövlət Universitetinin “Tarix-filologiya” fakültəsinin dekanı Arif Ağalarov belə bir fikrini bizlərlə bölüşdü. Təklif etdi ki, hər bir tələbə sinif otaqlarına və kafedranın yerləşdiyi mərtəbənin foyesinə qoymaq üçün dibçəkdə güllər gətirsin. Bəzi tələbələr üçün gözlənilməz olsa da, bəziləri güllərin diqqətə, baxıma ehtiyacı olduğunu düşünüb bunun bir qədər mümkün olmadığını dedilər. Lakin dekanimiz güllərə şəxsən özü qulluq edəcəyini bildirdi. Beləliklə, hər bir tələbə bir dibçək gül gətirdi. Bir anın içində foye sanki bahar donuna büründü. İndi düşünürük ki, bu çox gözəl təşəbbüsdür. Çünki hər dəfə fakültəyə gəldiyimiz zaman həmin o gözəl mənzərəylə qarşılaşmağımız əhval-ruhiyyəmizi bir qədər də yaxşılaşdırır. Hətta dərslərimizdən birində müəllim jurnalist olaraq bizə bu güllərlə bağlı yazı yazmağı təklif etdi. Əvvəlcə onları müşahidə etdik. Hər birimiz bu gözəl canlılardan fərqli enerji aldıq. Nəticədə tələbə-jurnalsitlərin qələmindən güllər- bu təşəbbüslə bağlı fərqli yazılar ərsəyə gəldi.

Mənim ilk diqqətimi çəkən güllərin düzümü oldu. Bir balaca, bir böyük qab çiçəkləri olaraq sıralanmışdılar. Sanki bir-biri ilə gözəllik yarışına çıxmışdılar. Və belə bir məqama da diqqət etdim ki, hər dərs otağına qoyulan dibçəklərdən biri çiçəksiz olsa, digərinin çiçək açan gül olması gözü yormaz. Lakin bu təşəbbüs sanki dərs keçdiyimiz korpusu “rəngləndirib”. Düşünürəm ki, istənilən adam, istər müəllim, istərsə də tələbə bura daxil olanda çiçəkləri gördüyü zaman onlardan enerji alacaq. Çünki düşünürəm ki, güllərin rəngarəngliyi həyatın necə rəngli, işıqli olduğunu bizə xatırladır.

**Aysel İsazadə**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

# TARİXİMİZDƏ QADININ MÖVQEYİ

Bəşəriyyətin yarandığı andan etibarən cəmiyyətdə əvəzsiz mövqeyə malik olan “Qadın”, bir quruluşun başlanğıcı, bünövrəsi, sabahın möhkəm təməli deməkdir. Qadının cəmiyyətdəki rolu hər zaman yüksək səviyyədə olub və olacaq. Hələ ta qədim zamanlardan bəri, qəbilə icması zamanında qadının qəbilənin həyatında mövqeyi danılmaz idi. O zamanlar həyata keçirilən bir sıra gündəlik işlərdə, məsələn, odu sönməyə qoymamaq, onu qorumaq məhz qadınlara həvalə edilirdi. Onlar da bu işin öhdəsindən layiqincə gəlirdilər. Yaxud da, qidalanmaq üçün müxtəlif giləmeyvələr və ərzaq toplanmalı idi. Göründüyü kimi qəbilənin həyatında ən çox işi qadın həyata keçirdiyinə görə həmin dövrü məhz "ana xaqanlığı" kimi adlandırmışdılar.

Qədim türklər, o cümlədən biz azərbaycanlılar qadına həddindən artıq dəyər vermişik. Bu davranışın və sevginin ən bariz nümunəsi məhz "Kitabi- Dədə Qorqud" dastanının boylarında əks olunub. İgidlərin qadınlara, analarına bəslədikləri əvəzsiz sevgi bu dastanda qəhrəmanlıqlarla paralel təqdim edilir. "Salur Qazanın evinin yağmalandığı boy"unda düşmən Burla xatunu, qırx incəbel qızı və Qazan xanın anasını əsir götürür. Düşmənin üzərinə gedən Qazan xan ondan birinci anasını istəyir və ana haqqını tanrı haqqına bərabər tutur. Qazan bəyin oğlu Uruzu dustaq edən düşmən Burla xatunu, onun anasını kef məclisində şərab paylamağa məcbur etmək istəyir. Bunu eşidən oğlu Aruz öz canı bahasına buna razı olmur. Bundan başqa digər boylarda qadınlar, qızlar öz qardaşları, ataları, ərləri, nişanlıları ilə birlikdə ox atır, at çapır, düşmənlə savaşır. Boylardan göründüyü kimi qadın əzəməti, namusu hər şeydən önəmli bir faktor kimi bizim tariximizdə özünü göstərir.

Qadınların qəhrmanlığından danışarkən Ağqoyunlu hökmdarı Uzun Həsənin anası Sara Xatunu unutmaq olmaz. Belə ki, Ağqoyunlu dövlətinin xarici ölkələrlə diplomatik əlaqələrində Sara Xatunun mühüm rolu və yeri vardı. Hökmdar Uzun Həsən bütün xarici siyasət məsələlərini onunla məsləhətləşir, ən məsul diplomatik danışıqlar üçün onu göndərərdi. Hətta bir sıra tarixi şəxsiyyətlər belə Sara Xatun haqqında olduqca adil, müşfiq və işini bilən bir hakim kimi fikirlər söyləmişlər. Bu gün Naxçıvanda məzarı üstündə əzəmətlə məqbərəsi ucalan Möminə Xatun da məhz dövlət xadimi kimi ad çıxaran qadınlarımızdandır.

O da faktdır ki, dünyanın heç bir yerində qadın hüquqları, azadlığı tanınmadığı halda, ilk olaraq Azərbaycanda bu zərif məxluqların seçkilərdə iştirak etmək, müstəqil olmaq, seçilmək kimi hüquqları olmuşdur. İlk dəfə bu məsələ 1903-cü ildə martın 30-da Tiflisdə nəşrə başlayan "Şərqi-Rus" qəzetində qaldırıldı. Onun təsisçisi, Azərbaycan maarifçiliyinin görkəmli nümayəndəsi Məhəmməd ağa Şahtaxtılı müsəlman aləmində qadın azadlığı məsələlərindən bəhs edən məqalələr yazıb çap edirdi. Onun bu mövzudakı yazıları əsasən qadının azadlığını məhdudlaşdıran və ətraf aləmdən, ictimai həyatdan təcrid edən problemlərə həsr olunurdu.

Tariximizdə özünəməxsus yeri olan tanınmış qadınları təqdim edib, ilk Azərbaycanlı qadın jurnalistimiz Şəfiqə Əfəndizadə haqqında danışmasaq olmazdı. Belə ki, Şəfiqə xanım Azərbaycanın ilk maarifpərvər qadınlarından biri olaraq pedaqoq, publisist və yazıçı kimi öz adını tarixə yazıb. O, ilk təhsilini ailəsində almışdır. Sonra isə məktəbdə işlədiyi müddətdə türk dili və şəriət müəllimi kimi fəaliyyət göstərmişdir. Bədii publisistik yaradıcılığa isə, 1903-cü ildə "Şərqi- Rus" qəzeti ilə başlamışdır. Məhz bundan sonra tam bir jurnalist kimi fəaliyyət göstərmişdir. Sonralar o, "Dəbistan", "Məktəb", "Füqara füyüzatı", " Dirilik" jurnalları və " Açıq söz " qəzeti ilə əməkdaşlıq etmiş, təlim-tərbiyə mövzularına dair maraqlı məqalələr yazmış, uşaqlar üçün hekayələr dərc etmişdir. Eyni zamanda mətbuatda yazıçı kimi də çıxış etmiş, həmin nəşriyyatlarda da əsərlərini çap etdirmişdir.

Çağdaş dövrümüzdə isə bizim ən mükəmməl qadın nümayəndələrimiz isə fikrimcə İkinci Qarabağ döyüşündə oğulları cəbhədən geri qayıtmayan, sözün əsl mənasında qəhrəman Azərbaycan analarıdır. Bu analar illərlə zəhmətlə böyütdüyü övladlarını düşmənə sipər olsun deyə döyüşə yolladı, bu amal uğurunda oğlunu qurban verən Azərbaycan qadını “Vətən sağ olsun!” deyərək özünə təskinlik tapmağı bacardı. Öz təmkini, qətiyyəti ilə düşməni mənən öldürdü, bizə isə gələcəyə inam, qürur aşıladılar.

Tarixin səhifələrini vərəqlədikcə də görürük ki, qadın olmaq heç də asan məsələ deyil. Bu gün hər bir Azərbaycan qadını sabahın tarix yazan bir qadını ola bilər. Qadınsız bir milləti düşünmək, təsəvvür etmək olmaz. Hal-hazırda dövlət işlərindən ev işlərinə qədər bütün məsələlərdə qadınları görə bilirik. Bu gün Azərbaycan qadını nə qədər zərif bir məxluq olsa da, bir o qədər də güclü və qətiyyətlidir. Etiraf edək ki, qadınlarımız həmişə cəmiyyətin dayağı olmaq funksiyasını uğurla yerinə yetiriblər.

**Xumar Mikayılova**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

# MÖCÜZƏ QADIN

Dəyərli və güclü qadın! Güclü olduğu qədər zəif, eyni anda zərif. Hər işin öhdəsindən asanlıqla gələn bacarıqlı, bütün çətinlikləri öz zərif vücuduyla aşan, ancaq kənar zərbədən deyil, içindən yıxılan varlıqdır Qadın. Müqəddəs “Ana” adını şərəf və ləyaqətlə daşıyan, cənnəti öz ayaqları altına alan, Allahdan sonra yaradıcı qüvvədir Qadın. Adəmin qabırğasından yaranan, Məhəmməd peyğəmbəri dünyaya gətirən, yer üzündə ən incə yaradılışdır Qadın.

Qadın! Bu bir kəlmənin içərisində nə qədər dərin hikmət var. Haqqında kitablar yazılacaq, mahnılar qoşulacaq, şəninə abidələr yaradılacaq..... Qadın! Onun haqqında danışmaq insanı dərin düşüncələrə vadar edir. Allah qadını yaradan zaman ona bəxş etdiyi gözəllikləri, gücü, iradəni, düşüncəni xüsusi seçərək yaratmışdı sanki. Fədakarlığı ilə kişilərdən seçiləndir Qadın! Saçlarına illərin vaxtsız dəni düşən, bəzən dərdini gülərək yola verən, bəzən üsyan edən, ancaq əyilməz varlıqdır Qadın!



Qadın həyatda ən dəyərli, ən qiymətli adları daşıyır. O, həm ana, bacı, həyat yoldaşı, eyni anda hər kəsin ümid bilib üz tutduğu şəxsiyyətdir. Ona dünyada ən gözəl titul “Ana” adı verilib. Bu qiymətli ada layiq olan, yorulmadan usanmadan övladı üçün hər şeyi edən, hər acıya dözüb övladını xoşbəxt etməyə, onun üzünü güldürməyə çalışan insandır Qadın. Hətta lazım gəlsə belə övladına canını fəda edən varlıqdır Qadın!

Həyatda bəzən ailəsinin bütün yükünü zərif çiyinlərində çəksə də, bəzən isə bu ağırlığı tək daşımalı olsa belə çətinliklərin qarşısında əyilmir, usanmır. Etdiyi hərəkətləri ölçüb-biçən, özündən əvvəl övladlarını, ailəsini düşünən, ilk olaraq anadır Qadın!

Qadın həm də çox güclü, hər acıya dözməyi bacaran, qəlbi inciyən zaman belə öz acısını elə öz içində gizlətməyə çalışan, kədərini öz gülüşü ilə ört-basdır edən iradəli varlıqdır. Bəzən haqsızlıq qarşısında boyun əyməyən, öz vüqarını və qürurunu sındırmayan, əzdirməyən yaradılışdır Qadın!

Müqəddəs ana, müqəddəs varlıq, cənnətin açarı, üzərimizdəki bizi qoruyan duanın sahibidir. Çox güclü həmçinin zərif olmasına baxmayaraq həyatda çox çətinliklərin yükünü daşıyır. Bəzən çəkindiyi məqamlar, təzyiqlər onun gözündən axan damlalarda öz əksini tapır. Ancaq düşünürəm ki, qadının gözündən axan hər damlanın dəyəri bir insan ömrünə yetməyəcək qədər dəyərlidir.

Deyirlər ki, anasını itirənə “yetim”, atasını itirənə “öksüz” adı verirlər. Ancaq balasını itirənə isə ad vermək olmaz. Ad belə verə bilməyəcəyimiz bu acıya ömür boyu dözən anadır Qadın! Ölənə kimi göz yaşı qurumayan, gizli-gizli ağlayan, dərdini tək Allaha danışan, əli dua üçün göydən enməyən mömindir Qadın. Hər dərdi götürə biləcək ürəyə, hər acını çəkə biləcək gücə sahibdir Qadın.

Həyatda hər şeyi tək bacaran, hər şeyin öhdəsindən gələn, yıxıldığı zaman qalxmasını yaxşı bilən, hər problemdən ötrü heç kəsə ağız açmayan, ən güclü, iradəli, qürurlu varlıqdır Qadın!

**Şəfa Səfərova**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

# QADIN YAZILAR, HƏYAT OXUNAR

Qadın bir sözdən ibarət olsa da altında böyük məna daşıyır. Qadın anadır, yoldaşdır, uşaqdır. Tarix boyu qadınlar öz azadlıqlarını qazanmaq üçün mübarizə aparmalı olmuşdurlar. Təəssüf ki, bu gün belə bəzi qadınlar tam olaraq azad deyildirlər. Bəzi ölkələrdə qadınların inkişafına, təhsilinə xüxusi diqqət və qayğı göstərilərkən, bəzi ölkələrdə qadın cinayətləri baş verir. Bəs, Şərqdə qadınlara ilk dəfə seçki hüququ verən Azərbaycanda qadın olmaq necədir?.

Sovet hakimiyyəti illərindən başlayaraq qadınların savadlandırılmasına xüsusi diqqət yetirilməyə başlanmışdır. Qadınların öz bacarıqları doğrultusunda həkim, müəllim və sair peşələrə yiyələnərək öz istedad və bacarıqlarını üzə çıxarmaq üçün çalışırdılar. Bu propses dövrün mühüm nailiyyətlərindəndir.

1921-ci il Azərbaycan tarixinə qadınların ilk qurultayı ili kimi daxil olmuşdur. Bu qurultayda Azərbaycanın ictimai-siyasi xadimi Nəriman Nərimanov çıxış etmişdir. Qurultayın əsas qayəsi qadınları ictimayyətə savadlı bir şəxs kimi qazandırmaq idi. Bu qurultayın uğurlu nəticəsi olaraq 1921-ci ildə qızlar üçün məktəbəqədər tərbiyə institutu açıldı. Bundan bir il sonra 1922-ci ildə bu institut Ali Qadın Pedaqoji İinstitutuna çevrildi və fəaliyətini davam etdirdi.

Bundan sonra ölkədə baş verən mürəkkəb proseslərdə də qadınlarımızın iştirakını görmək mümkündür. İyirminci illərin sonlarında Dağlıq Qarabağ uğrunda gedən döyüşlərdə Azərbaycan ordusunun tərkibində cəsur qadınlarımız da fəal iştirak ediblər. Şəhid qadınlarımızdan ikisi Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür-Qarabağ müharibəsində həlak olmuş jurnalist Salatın Əsgərova və həkim Gültəkin Əsgərova yeni dövrün qadın qəhrəmanları olmuşdurlar. Şəhid qadınlarımızın bu cür qəhrəmanlığı nəticəsində Azərbaycan xalqının necə məğrur xalq olduğunu bir daha sübut etdilər və o dövrdən etibarən Azərbaycanda qadın kişi bərabərliyinin təməli qoyuldu.

Qadınların kişilərlə hüquqi cəhətdən bərabərliyinin sağlanması, həmçinin qadınların kişilərlə bərabər dövlət işlərinə cəlb olunmasını təmin etmək üçün Heydər Əliyev 2000-ci ildə “Azərbaycan Respublikasının bütün dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında” fərman imzaladı.

Bu gün qadınların siyasətdə tutduğu mövqenin əhəmiyyət Azərbaycanın necə müasir bir dövlət olduğunu sübut edir.

Azərbaycan təhsili bu qədər inkişaf etdiyi bir dövrdə təəssüf ki bəzi rayon və kəndlərimizdə təhsilsiz qızlarımız olduğunu görürük. Onun yerinə qızlarımızı təhsildən kənarlaşdıraraq erkən yaşda nikaha cəlb edilməsi hazırda Azərbaycan Respublikasında cinayət sayılır. Bu, əlbəttə ki, heç ürək açan hal deyildir. Bu müasir dövrümüzə baxdıqda isə tamamilə acizlikdir. Unutmamaq lazımdır ki, təhsilli qadın təhsilli ailə, təhsilli ailə isə təhsilli cəmiyyət deməkdir.

**Tərlan İbrahimova**
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

## MÜASİR TEXNOLOGİYALAR BİZƏ NƏ QAZANDIRDI?

Günümüzü telefonsuz, televizorsuz, müasir texnologiyasız təsəvvür etmək demək olar ki, mümkün deyil. Çünki zaman keçdikcə, sürətlə inkişaf edən texnologiya həyatımıza fərqli yeniliklərlə daxil olur və əslində bütün işlərimizi asanlaşdırır. “Asanlaşdırma” mövzusunda tam haqlı sayılmaya bilərik. Çünki müasir texnologiyaların bizə faydası olduğu qədər elə birbaşa və ya dolayı yolla ziyanı da var. Əvvəlcə, müasir texnologiyaların bizə olan faydasından danışaq. Qeyd etdiyimiz kimi müasir texnologiyalar bizlərin məişət və gündəlik həyatında bir çox işləri xeyli asanlaşdırır. Məsələn, internetin, telefonun kəşfi bizim üçün istədiyimiz məlumatı hər an əldə etməyə kömək edir. İndiki zamanda bu qurğuların köməyi ilə harada yaşamağımızdan asılı olmayaraq istənilən ölkənin kütləvi informasiya vasitələrindən məlumat əldə edə bilərik. Həmin ölkənin ictimai-siyasi, iqtisadi, sosial, mədəni həyatı, gündəmi ilə bağlı məlumat sahibi olarıq. Və ya uzaqda yaşayan valideyn və qohumlarımızla hər an müxtəlif proqramların köməyi ilə görüntülü danışa bilərik. Hətta bir çox internet səhifələrində ölkəmizdə və dünyada baş verən yeniliklərdən anında xəbərdar oluruq. Yəni ən son dəqiqə baş verən hadisələrlə bağlı xəbərləri izləmək imkanımız var. Bundan başqa bütün bəşəriyyət üçün zamanında yenilik olan və bu gün də aktuallığını itirməyən avtomobilin, təyyarənin kəşfi də insanların xeyrinə bir ixtiradır. Nəqliyyat vasitələrinin sayəsində istənilən məkana rahatca gedə bilir, logistika adlanan yük və sərnişin daşımalarla sanki zamanı qabaqlama yarışına giririk. Müasir texnologiyaların dayanmadan, sürətlə yenilənməsi və dəyişməsi valideynlərimizin və bizlərin əziyyət çəkmədən hər işi görməyimizə yardım edir. Hətta indi insanları əvəz edəcək robotlar belə gündəmdədir. Belə düşünəndə deyə bilərik ki, burda nə ziyanlı bir şey var? Hər şey asan bir şəkildə əldə edilir. Bax, elə problem də budur. İnternet, telefon, televizorun ixtirası bizim bütün baş verən xəbərləri daha tez əldə etməyimizə kömək edir, ancaq bir şeydə çətinlik yaradır. Buna sosiallaşma də deyilir. Belə ki, bu qurğular bizi yaxınları-



mızdan, doğmalarımızdan bir qədər uzaqlaşdırır. Hətta deyərdik ki, çətin tərk edilən asılılıq yaradır. Əvvəllər baba-nənələrimizi görmək üçün onların yanına, evlərinə gedirdiksə, indi sadəcə müasir qurğuların yardımı ilə “görüntülü danışaraq”, hal-əhval tutmaqla öz borcumuzu yerinə yetirdiyimizi düşünürük. Düzdür, uzaqda yaşayanlarla ünsiyyət üçün bunu müsbət hal saysaq da, yaxınlığımızda yaşayanlarla bağlı problem hesab etmək olar. Hamımızın müşahidə elədiyi, etiraf edək ki, bəzən özümüzün də iştirakçısına çevrildiyimiz bir məqamı ədalət naminə demək lazımdır. Günlərlə, aylarla görmədiyin dost-tanışlarınla bir masa arxasında əyləşəndə söhbət etmək yerinə hər kəs öz telefonu ilə məşğul olur. Bu da bizi bizdən uzaqlaşdırır. İş burasındadır ki, hamımız bunu bilsək də vəziyyətə bir qədər soyuqqanlı, etinasız yanaşırıq.

Müasir qurğuların bir problemi də cəmiyyətdə geniş müzakirə olunur-oxumaq! Artıq çoxları üçün deyəsən nəşr olunan kitablar da tarixdə qalıb. Hər kəs istədiyi vəsaiti müasir elektron qurğulara endirir və oxuyub məlumat əldə edir. Düzdür, ilk baxışda bu çox rahat görünür. Lakin “kitabın qoxusunu” hiss edərək mütaliənin yerini verə bilərmi telefondan oxumaq? Təbii ki, yox. Avtomobillərin ixtirası, əlbəttə, əlverişlidir, lakin insanlar bir qədər tənbəlləşir. Çoxları “3 metrlik yolu” belə avtomobilləri ilə gedir. Bu həm insanların hərəkətdə olmasının, fiziki sağlamlığının, çevikliyinin qarşısını alır, həm də avtomobillərdən çıxan zərərli tullantılar dünyanın ekologiyasını, ətraf mühiti çirkləndirir. Deməli, elmin-texnikanın inkişaf etməsi hər birimiz üçün yaxşı bir haldır, ancaq biz bundan istifadə edib passivləşməli - tənbəlləşməli deyilik. Müasir texnologiyaları dünyamızı gözəlləşdirmək, özümüzü inkişaf etdirmək üçün istifadə etməliyik. Bu yenilikləriyi hər birimizin sağlamlığına, sosiallaşmağımıza və gümrahlığına xidmət edən vasitəyə çevirməliyik.

**Püstə Əhmədova**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

## İNTERNET: FAYDA YAXUD ZİYAN?

İnternet- günümüzün ən populayr və hətta aktual nəsnəsi. Həyatımızın içərilərinə qədər sızmış və ya özümzün izin verdiyimiz müasir texnologiyanın məhsulu. Etiraf edək ki, çox az zamanda sürətlə bütün dünyanı əhatə edən bu müasir yenilik özü ilə maraqlı faktları da gətirir. İndi nəsillərin dünyagörüş və davranış savaşı sanki beyinlərdə deyil, internetdə gedir. Kim ondan necə istifadə edirsə internet onun üçün eyni qüvvəyə-mənfi və ya müsbət gücə çevrilir. Bir qədər yaxından tanış olaq bu nəsnə ilə.

İnternet- bu qlobal geniş “tora” bir birilə optik, elektron, wifi və digər vasitələr ilə qlobal və ya lokal şəkildə bağlanmış şəxsi, biznes, hökumət, təhsil və s. şəbəkələr daxildir. Bildiyimiz kimi internet bəzilərimizin, xüsusən də gənclərin həyatının ayrılmaz bir parçasına dönüb. Ətrafa nəzər salsaq az yaşlı uşaqlar belə telefon, tablet, kompüter və.s aludəçisi olduğuna şahid olarıq. Heç şübhəsiz ki, internetin bizə faydası zərərindən daha çoxdur. Ancaq bu, o demək deyildir ki, internetin bizə ziyanı da azdır. Əgər biz internetdən düzgün istifadə etməyi bacarsaq günümüzü çox məhsuldar edə bilərik. Lakin adətən insanlar internetdən pis yönümlü, neqativ məlumatlarla, nifrət və xaos effekti verən informasiyalarla əhatə olunmuş



şəkildə istifadə edirlər. Əlbəttə, artıq internet çağdaş dünyada həyatımızın bir parçasına çevrilib. Çünki yüksək texnologiyaların inkişaf tendensiyası o qədər sürətlə gedir ki, internetin həyatımızın önəmli hissəsinə çevrilməsi günbəgün daha da asanlaşır. İnternet insan həyatında çox böyük təsirə malikdir. Həyatımızın bir parçasına çevrilən internetin faydalı və ziyanlı tərəflərinə nəzər salaq:

• İnternet nəhəng bir kitabxanadır: Ağıla gələn hər mövzuda araşdırma apara bilər, qaynaqlar, kitablar, məqalələr tapa bilərsiniz.

• İnternet bir media vasitəsidir: Qəzetlər, jurnallar, yazarlar, internet xəbər saytları, son dəqiqə xəbərləri əlinizin altındadır. Hətta internet vasitəsilə radio dinləyə, TV də izləyə bilərsiniz.

• İnternet virtual bir bankdır: İnternet vasitəsilə hər növ nəğdləşdirmə əməliyyatları apara bilərsiniz.

• İnternet vasitəsilə uzaq ölkələrdə yaşayan qohumlarla üz-üzə əlaqə yaratmaq olur.və.s.

Bunlar internetin faydaları, necə deyərlər, bizimlə dost olan məqamlarıdır. Amma həyatda əbədi davam edən xeyir-şər mübarizəsi internetdən də yan keçməyib axı. İndi isə onun heç də xoş olmayan digər tərəflərinə baxaq:

• İnternet insanın sağlamlığına mənfi təsir edir. Çünki internetdən asılı olan insanlar çox vaxt depressiyadan əziyyət çəkirlər.

• İnternetdə insanın etiqadına zidd olan xoşagəlməz məlumatlar, şəkillər, videoçarxlar mövcuddur.

• İnternet insanları bədii qiraətdən də uzaqlaşdırır.

• Azyaşlı uşaqlar internetlə xoşagəlməz oyunlar oynayır və onlarda mənfi xüsusiyyətlər əmələ gəlir.

Gəlin, internetdən dəyərincə istifadə etməyi bacaraq. Nə az, nə çox. Beləliklə, dünyanı dərk etməklə yanaşı, həm də sağlamlığımızı qorumuş olarıq.

**Sevda Qənbərova**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

## CANLILARI QORUYAQ

İnsanı insan edən müəyyən xüsusiyyətlər var. Bunlardan ən başlıcası vicdanın, ağılın, təfəkkürün, düşüncənin olmasıdır. Lakin təəssüf ki, hal-hazırda ətrafımızda bu xüsusiyyətləri daşıyan az insan var. Bu həqiqətən çox kədərləndirici bir haldır. Ağlı olduğu halda o ağıldan istifadə etməyən insanlarla eyni atmosfer altında yaşayırıq. Bunun ən yaxşı nümunəsini özümüz kimi digər canlılara zərər verməyimizdə görə bilərik. Axı, sözdə düşünmə qabiliyyətimiz var. Bəs bunu niyə düşünmürük?! Eyni bizim kimi duyğulara, eyni bizim kimi hissiyata sahib olan canlıya niyə əzab veririk? Düşünün, hər il 50 milyondan artıq heyvan sırf kürkü üçün məhv edilir! Bu kürkdən daha çox insanlar üçün paltar tikilir. Onu üstünə alıb geyinən hər insandan “qan qoxusu” gəlir. Sırf “mən səndən daha üstün, daha zənginəm” baxışı atmaq üçün, insanlara “yüksəkdən” baxmaq üçün CANLILARIN HƏYATINA SON VERİRLƏR! Sadəcə tülkü, bizon, vaşaq, bəbir və su iti kimi vəhşi heyvanlar yox, həm də dovşan, pişik, itlər də son illərdə vəhşicə öldürülür. Pişik və it kürkü, eyni zamanda oyuncaq və aksesuar hazırlanmasında da istifadə olunur. Əgər düşünmə qabiliyyətimiz varsa bu vəhşilikləri niyə edirik? Amerikanın “The Washington Times” qəzetində “Bəşəriyyət özünü niyə məhv etdi?” (“Why humanity destroyed itself?”) başlıqlı bir məqalə çap olunmuşdu. Məqalədə heyvan haqlarından da bəhs olunmuşdu. Lakin təbii ki, bu da insan görünüşlü vəhşi “varlıqları” dayandıra bilmədi. Əfsus ki, yenə olmadı. Həmçinin, 2021-ci ildə “Ralfi qoru” (“Save ralph”) adlı qısametrsjlı cizgi filmi ortaya çıxarıldı. Filmin əsas məqsədi kosmetik markaların bir məhsulu buraxmazdan əvvəl hələ də heyvanlar üzərində necə sınaqdan keçirdikləri barədə cəmiyyəti məlumatlandırmaqdır. Film heyvanlar üzərində eksperiment aparan makyaj markalarını üzə çıxaran çox uğurlu bir addım atıldı. Bu film vasitəsilə heyvanlar üzərində eksperiment aparan- “NARS”, “Avon” “L’Oreal”, “Maybelline”, “M.A.C” və s. kimi bir çox böyük markaların dünyada tanınmasına nail oldular.

Azərbaycan Respublikasının 1999-cu il 4 iyun tarixli “Heyvanlar aləmi haqqında Qanunu”nun 5-ci maddəsində, eləcə də Azərbaycan Respublikasının Konstitusiyasının 39-cu maddəsində heyvan haqqları qanunvericiliklə dövlət tərəfindən qorunur. Lakin praktikaya baxsaq, heyvanların, xüsusilə də küçədə yaşayan heyvanların kütləvi şəkildə və amansızcasına öldürülməsi halı müntəzəm olaraq müşahidə olunur. Gəlin, heyvan hüquqlarının milli və beynəlxalq qanunvericilikdə qorunmasına əməl edək. “Sadiq dostlarımızı” məhv etməyək. Bu dünyada tək yaşamırıq, canlılar dünyası insanlardan, heyvanlardan və bitkilərdən ibarətdir. Bizə necə davranılmasını istəyiriksə, digər canlılara da o cür davranaq.

**Şəbnəm Məmmədova**
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

Hər birimiz fərqli əhval-ruhiyyədə olarkən sevərək dinlədiyimiz mahnılar var. Kimi klassik, həzin musiqi, kimisi isə əyləncəli musiqilər dinləməyi sevir. Musiqi tək əyləncə vasitəsi deyil. Musiqinin insan sağlamlığına da böyük faydası var.

ayırmaq hüceyrələrə müsbət təsir göstərir, hafizəyə və öyrənməyə kömək olur, yaşlı insanların keçirdiyi bəzi sıxıntılara dərman olur və özünüzü daha xoşbəxt hiss etmənizə yardımçı ola bilər. Bundan başqa, klassik musiqi həm də revmatizm xəstəliyinin dərmanı hesab olunur.

## DÜNYAMIZIN MUSİQİ NOTLARI...

Gündəlik əhvalımızın musiqi seçimimizə çox təsiri olur. Dinlədiyimiz musiqinin tərzindən asılı olaraq əhvalımız düzələ və ya pisləşə də bilər. Mütəxəssislər bildirirlər ki, tək musiqinin üslubu deyil, onun ritm və hansı musiqi alətində ifa olunması da mühüm haldır. Hər bir musiqi alətinin səsi insanın orqanizminə müəyyən bir təsir göstərir. Məsələn simli



alətlər gitara, skripka, arfa və bu kimi musiqi alətlərindəbir musiqi səsləndikdə insanda mərhəmət və fədakarlıq hissi yaranır. Nəfəsli alətlər tənəffüs sisteminin fəaliyyətinə kömək etməklə, ağciyərləri və bronxları təmizləyir.

Zərb alətləri isə ürək ritminin bərpa edilməsinə, qan dövranı sisteminə müsbət təsir göstərir. Musiqi ürəyə xeyirlidir, ruhun olduğu qədər, qəlbin də qidasıdır, ürək ritmini normallaşdırır, qan təzyiqini tənzimləyir, piylənmənin qarşısının alınmasında faydalıdır. Yemək yeyərkən dinlənilən musiqi insanın daha az və yavaş yeməsinə səbəb olur, immuniteti gücləndirir immunitet sistemində mühüm rol oynayan bir hüceyrənin miqdarını artıra bilir. Musiqi dinləmək üçün sadəcə 15 dəqiqə

Alimlər müəyyən etmişlər ki, klassik musiqi dinləyən xəstələr digər xəstələrə nisbətən daha tez sağalmışlar. İnsana müsbət təsir edən musiqilərdən biri də milli musiqilərdir. Etnik musiqilər rahatlaşmağa və dincəlməyə kömək edirlər. İnsanı öz tarixi köklərinə qaytaran milli musiqi insanda enerji mənbələrinin aktivləşməsinə səbəb olur.

Bilirsinizmi, istənilən musiqi əzələlərdəki yorğunluğu aparır və hərəkət qabiliyyətini artırır. Məsələn, insanların bir çoxu musiqi dinləyərək işlərini görməyi sevir. Hətta musiqi dinləyərək kitab oxuyan insanlarda var. Yuxuya getməkdə və rahat yatmaqda çətinlik çəkən insanlar musiqi dinləyərək bu problemdən qurtula bilərlər. Musiqi dinləmək ruhunuz və mənəvi sağlamlığınız üçün çox yaxşıdır. Musiqi dinləyərək əhval ruhiyyənizi gözəlləşdirə, özünüzü daha xoşbəxt və rahat hiss edə bilərsiniz. Gözəl musiqi dərdi, sıxıntı və yorğunluğu insanın canından çıxarır, bir anlığa da olsa onu kədərin əlindən alıb əhvalında xoş ovqat yaradır. Gözəl həzin bir musiqi yaşamaq istəyini gücləndirir.

“Yaxşı musiqi can dərmanıdır” – dədə-babadan eşitdiyimiz bu söz öz kəsərini itirməyib. Gözəl bir musiqini dinləyən hər kəs başa düşür ki, insanlara müsbət emosiyalar yaratmaq, həyat eşqini gücləndirmək üçün bu ən təsirli vasitədir. Hansı musiqinin sizə necə təsir etdiyini bilmək istəyirsinizsə müxtəlif üslublu mahnıları dinləyərkən nə hisslər keçirdiyinizi müəyyən edin.

**Günay Hüseynova**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

## ON BİR AYIN SULTANI

İslamın müqəddəs ayinləri içərisində orucluq mühüm yer tutur. Bir ay davam edən oruculuq sonda xüsusi olaraq bayram kimi qeyd edilir. Bu bayramın tarixi müsəlman təqvimi ilə hicrinin 2-ci ilindən (miladi 623-cü il) başlanır. Oruc Ramazan ayında tutulduğu üçün ona “Ramazan orucu”da deyirlər. İslamda ilin ayları arasında Ramazan ən şəfaqətli və müqəddəs ay hesab edilir. Onu məcazi şəkildə “on bir ayın sultanı” da adlandırırlar, çünki bu ayın gecələrinin birində müqəddəs kitabımız olan “Quran-i Kərim” na-

buna qarşı çıxır, dil yalandan, göz və könül haramdan uzaqlaşır. Orucluq insanlara öz iradələrini, dözümlüyünü sınağa çəkməyə, yoxlamaq imkanı verir, onları paklığa, xeyirxahlığa dəvət edir.

Orucluq vaxtı gündüz yemək, içmək, siqaret çəkmək olmaz. Bunlardan yalnız uşaqlar, xəstələr, hamilə qadınlar, döyüşçülər, əsirlikdə olanlar və səyyahlar azad olunurlar. Orucluq dövründə insan dünya ləzzətindən çəkinir, gündəlik fəaliyyətini davam etdirsə də, özünü Allaha ibadətə həsr edir, nəfsini təmiz saxlayır və bu



zil olmuşdur. Həmin gecəyə “Qədir” və ya “Əhya gecəsi” deyilir. Bu gecə tövbə edib, günahların bağışlanmasını diləmək, Quran oxumaq, dua etmək bəyənilən işlərdəndir. “Qədir gecəsi”nin ayın üç günündə olduğu deyilir, belə ki, bu Ramazan ayının 18, 20, 22-ci günlərinə, yəni bu il aprel ayının 19, 21, 23-nə təsadüf edir.

Ramazan ayı orucluq, insan nəfsinin paklığı, eyiblərin və naqisliyin islah olunması, ağıl, iman və iradənin sağlamlaşması dövrüdür. İnsan bu ayın dua və ibadətləri ilə günahlardan arınmağa, eyiblərdən saflığa, saflıqdan kamilliyə doğru gedir. Bu ay ruhun tərəqqisi, Allaha tərəf pərvaz etməsidir. Ramazan ayında fani varlıqlar sanki savaş meydanında düşür. İmanla nəfs bu meydanda çarpışır. Nəfs hər imanlı işi udmaq, yeyib-içmək istəyir, pis vərdişlərin davamını diləyir. İnanclar mətanətlə

vaxt şeytan onun qəlbinə yol tapa bilmir. Peyğəmbərimiz Məhəmməd (s.ə.s) buyurur ki, Ramazan ayı gələndə cənnətin qapıları açılar, cəhənnəmin qapıları bağlanar, şeytanlar da zəncirdə olar.

Orucluğun başa çatdığı gün “Fitr bayramı” adlanır. Bu il hicri təqvimi ilə şəvval ayının 1-i (2 may) Fitr bayramına təsadüf edir. Həmin gün bütün müsəlmanlar bir-birlərini təbrik edir, vəfat edənlərin qəbirlərini ziyarət edir, ruhlarına dualar oxuyurlar. Orucluq həm də yardımlaşma, ac insanların halından xəbərdar olma, çətinlikdə olanları anlama kimi də qəbul edilir.

Allah bir ay ərzində tutduğunuz oruc və etdiyiniz duaları, ibadətləri qəbul etsin.

**Sevda Qənbərova**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

# AZƏRBAYCAN RESPUBLIKASININ SEVİLƏN İNCƏSƏNƏT XADİMLƏRİ: "NAXÇIVAN TARİXİ MİNİLLİKLƏRƏ SÖYKƏNƏN ƏDƏBİ SƏNƏT MƏKTƏBİ, YARADICILIQ OCAĞIDIR. BURADA DOĞULUB BOYA-BAŞA ÇATAN İNSANLAR SƏNƏT FƏDAKARLARI, ELM FƏDAİLƏRİDİR"

Ana yurdum Azərbaycanın ayrılmaz parçası, alimlər məmləkəti Naxçıvan... Tarixin, əsrlərin, qərinələrin canlı şahidi olan bu yurd yeri daim elmimizə, incəsənətimizə saysız incilər, mücahidlər, öndərlər bəxş etmişdir. Memar Əcəmi ehtişamı, Kalbalı xan cəsarəti, Mirzə Cəlil mütəfəkkirliyi, Hüseyn Cavid məhəbbəti, ulu öndər dühasının hər daşına, qayasına hopduğu bu diyarın insanları yurdlarına qırılmaz tellərlə bağlı olmuş, milli-mənəvi dəyərlərini qoruyub saxlamış və gələcək nəsillərə ərməğan buraxmışdır. Bunun nəticəsidir ki, Naxçıvanımız tarixin bütün dövrlərində insanların diqqət mərkəzində olmuş, öz köksünü buraya üz tutanlara açaraq qonaqlarını ən gözəl şəkildə qarşılamışdır. Eyni ilə mövzumuzun dəyərli müsahibləri, Azərbaycan Respublikasının sayılıb-seçilən, sevilən incəsənət xadimləri kimi.

Məlumat üçün bildirək ki, Naxçıvan Dövlət Universitetində ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş bədii yaradıcılıq festivalının baxış müsabiqəsi keçirilib. Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı (ATİAHİ) Respublika Komitəsinin Rəyasət Heyətinin qərarı ilə ali, orta və ilk peşə ixtisas təhsili müəssisələrinin tələbələri arasında keçirilən festival milli vətənpərvərlik, mədəniyyətimizə, incəsənətimizə, milli adət-ənənələrimizə hörməti inkişaf etdirmək məqsədi daşıyır. Baxış-müsabiqəyə ölkəmizin sevilən incəsənət nümayəndələri – Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, şair Baba Vəziroğlu, Azərbaycan Respublikasının Xalq artistləri – Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Samir Cəfərov, Azərbaycan Milli Konservatoriyasının müəllimi Mübariz Tağıyev, Bakı Xoreoqrafiya Akademiyasının prorektoru Təranə Muradova münsiflik ediblər. Biz də fürsətdən istifadə edərək dəyərli sənətkarlarımızla həmsöhbət olduq.

Şübhəsiz ki, hər kəs ulu öndərə həsr olunmuş "Sən elə bir zirvəsən" mahnısını müğənni Ağadadaş Ağayevin ifasında sevə-sevə dinləyib. Onun sözlərinin müəllifi, gənclərimizin sevimlisi, yüzlərlə şeirinə mahnı bəstələnən şair, publisist ***Baba Vəziroğludur.*** O dedi: "Əvvəlcə onu qeyd edim ki, Naxçıvan mənim üçün şeiriyyətin, mənəviyyatın, elmin, tarixin ünvanıdır. Bu diyarın qədim və zəngin ədəbi xəzinəyə, o cümlədən zəngin xalq yaradıcılığı nümunələrinə, folklora, qədim dövlətçilik ənənələrinə malik olması, burada dünyanın ən məşhur, görkəmli simalarının yaşaması və başqa ciddi amillər bu tarixi yurdun mədəni sərvətlərinin öyrənilməsini aktuallaşdırır. Bu mənada, aktuallığını qoruyan və inkişaf edən elm sahələrindən biri kimi Naxçıvanda ədəbi mühitin öyrənilməsi məsələsi bu günümüzdə də başlıca yer tutur. Naxçıvan nəinki Azərbaycan, dünya elm və ədəbiyyatına da misilsiz incilər bəxş etmiş, bu diyarın demokratik fikirli ziyalılarının qələmə aldıqları hər bir yaradıcılıq nümunəsi bütün dövrlərlə səsləşən elm külliyyatı olmuşdur. Bu diyarı tanımaq üçün Hüseyn Cavidin lirik-romantik şeirlərini, Məmməd Səid Ordubadinin qələmə aldığı roman və hekayələri, kiçik hekayənin böyük ustadı Mirzə Cəlilin bir-birindən zəngin və maraqlı yaradıcılıq nümunələri ədəbiyyatsevər insanlara bələdçilik edir və bundan sonra da edəcəkdir. Hər bir qələm sahibinin, şairin, yazıçının borcu bu zəngin maarifçilik ənənəsini qoruyub saxlamaq və onu özündən sonrakı nəsillərə miras qoymaqdır.

Naxçıvan səfəri mənim üçün həmişə yadda qalan olub. İlk səfərimdə cəmi 18-20 yaşım var idi 70-ci illərdə, hərbi xidmətimi yerinə yetirmək üçün gəlmişdim. Həmin dövrdən artıq nə az, nə çox düz əlli ilə yaxın bir müddət ötüb. Bu illərdə Naxçıvanın necə dəyişdiyini sözlə demək qeyri-mümkündür. Hərbi xidmətimi yerinə yetirdiyim illərdə əlimdən gəldiyi qədər bu şəhəri tanımağa çalışırdım, çünki Naxçıvanı çox sevirdim. İndi artıq 68 yaşım var və yenə də Naxçıvandayam. Amma tamam fərqli bir Naxçıvanda. Bu Naxçıvanda gənclik illərimdə gördüyüm, şahid olduğum dar küçələr geniş yollarla əvəz olunub, möhrə divarlar, yararsız binalar, bir sözlə, xarabazarı xatırladan miskin bir şəhər, sözün əsl mənasında, müasirliyin ünvanına çevrilib. Hətta hava limanından şəhərə doğru yol alarkən gördüyüm mənzərələr qarşısında məni heyrət və təəccüb bürümüşdü. İnanmırdım. Bu 50 il öncə mənim qoyub getdiyim Naxçıvan idi? Bir anda bu fikirlərim məni şanlı Vətən müharibəsindən sonra azadlığa qovuşan torpaqlarımıza, o cümlədən mədəniyyətin beşiyi olan Şuşa şəhərinə, Vaqif Poeziya Günlərinə apardı. Çünki o zaman da bu fikirlərimin sorağına düşmüşdüm. Ümummilli liderin təşəbbüsü ilə böyük şair Molla Pənah Vaqifin türbəsinin ilk açılış tədbirinin iştirakçısı olmuşdum. Şuşa işğaldan azad edildikdən sonra həmin türbənin açılışından düz 39 il sonra bizlər yenə də Ali Baş Komandanın rəhbərliyi ilə ikinci dəfə bu türbənin açılışında iştirak etdik. Şuşaya yenidən qovuşmuşduq. Artıq əmin idik ki, bu torpaqlar Azərbaycanındır, xalqımızındır. Bu, dəyişilməyən həqiqət, inkaredilməz reallıqdır. Sevinirəm ki, Azərbaycanın hər qarışı müasirliyə qovuşur. Şadam ki, bu əmin-aman yurdda sağlam və ideal gənclik formalaşır.

"Naxçıvan tarixi minilliklərə söykənən ədəbi sənət məktəbi, yaradıcılıq ocağıdır. Burada doğulub boya-başa çatan insanlar sənət fədakarlarıdır, elm fədailəridir", – deyir Azərbaycan Respublikasının Xalq artisti, xoreoqraf ***Təranə Muradova***: – Dünyanın ən qədim xalqlarından olan Azərbaycan xalqı özünün tarixi, maddi mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə haqlı olaraq fəxr edir. Azərbaycan incəsənəti ölkəmizin təbiəti kimi rəngarəng, dolğun və çoxşaxəlidir. Ən geniş yayılmış incəsənət sahələrindən biri də rəqsdir. Tarixi minilliklərə söykənən rəqs bu gün də ölkəmizdə sevilərək yaşadılır. Hətta bu gün Naxçıvan Dövlət Universitetində müsabiqə çıxışlarında milli rəqslərimizi izlədikcə çox şad oldum, sevindim. Peşəmlə əlaqədar olaraq Azərbaycanın bütün bölgələrini gəzmişəm, adət-ənənələri, dəyərləri ilə yaxından tanış olmuşam. Naxçıvana artıq ikinci dəfədir, səfər edirəm. Ümumiyyətlə, mənim bu diyar haqqında zəngin və müsbət fikirlərim çoxdur. Ona görə ki, Naxçıvan tarixi, mədəniyyəti, incəsənəti həmişə Azərbaycan elminə mühüm töhfələr verib. Burada elmimizin böyük dahiləri, mütəfəkkirləri doğulub və xalqının xoş güzəranı üçün çalışıb. Bir sözlə, Naxçıvan elmi, mədəniyyəti və incəsənəti Şərq dünyasının ən aparıcı qollarından sayılmaqdadır. Bu gün də keçmiş ziyalılarımızın öz uğurları ilə seçilən xələfləri var. Hətta rəqs sahəsində belə, biz naxçıvanlı gənclərimizin uğurlarına kifayət qədər şahid olmuşuq. Əlimizdən gəldiyi qədər də bu sahənin incəliklərini gənclərimizə, bizdən sonrakı nəsillərə öyrətməyə çalışırıq. Onlar da, öz növbələrində, bu sahəni ciddi-cəhdlə mənimsəməlidirlər. Xatırlayıram ki, uşaqlıqdan anamla baletlərə tamaşa etməyə gedərdik. Hər dəfə bir az da artıq bu sənətə xüsusi marağım yaranırdı. Beləcə, günlərin birində balerina olmaq sevdasına düşdüm. Anamın narazılığına baxmayaraq, 4-cü sinifdə imtahan verib xoreoqrafiya məktəbinə daxil oldum. Sənətimin fanatına, peşəkarına çevrildim. Bir daha dünyaya gəlsəydim, heç tərəddüd etmədən yenə də bu sənəti seçərdim. Çünki mən sənətimlə bütünləşmişəm. Dərs dediyim ali təhsil ocağında da tələbələrimə bunu aşılamağa çalışıram. İnanıram ki, Azərbaycanda və mənə əziz olan Naxçıvanda bu sənətin davamçıları daim var olacaq, mədəniyyətimizi layiqincə yaşadacaqdır.

Növbəti müsahibimiz doğma Naxçıvanımızda böyüyüb, bu torpaqda boya-başa çatıb. O, Azərbaycan Respublikasının Xalq artisti ***Samir Cəfərovdur***: – Ümumiyyətlə, Azərbaycanda opera sənəti bir əsrdən artıq tarixə malikdir. Belə bir iri miqyaslı janrın inkişafı üçün bu, əlbəttə ki, çox az müddət sayıla bilər. Amma qeyd etmək lazımdır ki, tarixən belə bir qısa zaman ərzində bəstəkarlarımız öz dövründə musiqili səhnə sənətini milli xüsusiyyətlərlə zənginləşdirən, ümumavropa opera sənəti ilə uyğunlaşa bilən və eyni zamanda özünün üslub keyfiyyətləri ilə fərqlənən bir sıra maraqlı opera nümunələri yaratmağa nail olmuşlar. Bununla belə, klassik opera janrını mənimsəmək kimi böyük bir məqsədi həyata keçirən Azərbaycan bəstəkarları bu janrın müəyyən xüsusiyyətlərini yaradıcılıqlarında əks etdirmiş və bu sahədə öz yolları ilə irəliləmişlər. Sevindirici haldır ki, bu gün də ölkəmizin bir sıra ali təhsil ocaqlarında bu sənətin sirləri gənc istedadlarımıza aşılanır. Naxçıvan Dövlət Universitetində incəsənət sahəsində təhsil alan tələbələrlə təşkil etdiyimiz səmimi görüşdə, bir daha şahid olduq ki, Azərbaycanda, habelə Naxçıvan Muxtar Respublikasında incəsənət təhsilində bu sənət yaşadılır.

Doğma diyarım Naxçıvana gəldikdə isə tarixi minilliklərlə ölçülən qədim torpağın bu gün hər qarışına vurulan yeni naxışların ecazkarlığı insanların mənəvi dünyasına sirayət edir, qələm sahibləri bu gözəlliklər qarşısında heyranlıqlarını gizlədə bilmir, yurdumuzun büsatına şeirlər yazır, nəğmələr qoşurlar. Günü-gündən gözəlləşən doğma diyarımız həm də böyük sənət və mədəniyyət ocağıdır. Bu yurdun insanları torpaqlarına çox bağlıdır, qonaqpərvərdirlər. Müsabiqədə elə istedadlı gənclərlə qarşılaşdıq ki, onlar arasında seçim etmək, həqiqətən də, çox çətindir. Sevinirik ki, bu gün Azərbaycan mədəniyyəti, poeziyası və incəsənətində belə gənc istedadlarımız üstünlük təşkil edir. İnanıram ki, qarşılaşdığımız bütün gənclərimiz gələcəyin istedadlı incəsənət adamları olacaq, Azərbaycan bayrağını qürurla dalğalandıracaq, milli-mənəvi birliyimizi qoruyub yaşadacaqdır.

"Nə qədər sərt olsa, dalğalar, Qayalara çarpınıb geri dönər" kəlmələrini eşitdikdə ilk ağlımıza gələn Azərbaycan xalqının sevilən sənətkarı ***Mübariz Tağıyev*** olur. Yaşı yetmişi ötməsinə baxmayaraq, söhbətindən də hiss olunur ki, içindəki sənət eşqi heç bir zaman qocalmayıb müsahibimin:

– Azərbaycanın incəsənəti həmişə yüksəkdə olub. Yaxşı xatırlayıram ki, keçid dövründə bir az çətinliklərimiz var idi, amma bu tək Azərbaycanda deyil, keçmiş SSRİ-yə daxil olan digər respublikalarda da özünü göstərirdi. Bu gün artıq azad Azərbaycan özünün ən yüksək intibah dövrünü yaşayır. Ömrünün böyük bir hissəsini sənətə həsr edən biri kimi qeyd etməliyəm ki, yaşlı nəsil sənət nümayəndələrindən bir neçəsinin dünyasını dəyişməsi səhnədə bir qədər boşluğun yaranmasına səbəb olub. Bu gün çox savadlı, çox istedadlı gənclər var. Mən istərdim ki, məhz o gənclər özlərini bu istiqamətdə peşəkarcasına inkişaf etdirsinlər. Xalq musiqisi istiqamətində xeyli irəliləyişlər müşahidə edirik, yeni gənc nəsil gəlir səhnəyə. Hansı ki vaxt vardı camaat deyirdi: "O sənətkarların yerini tutan olacaqmı, görən?" İndi baxırsan ki, çox savadlı, istedadlı gənc incəsənət nümayəndələri yetişir, mən istərdim ki, Naxçıvan Dövlət Universitetində şahid olduğumuz kimi, Azərbaycanın digər ali təhsil ocaqlarında da bu istiqamətdəki irəliləyişləri daim görək. Bu gün, həqiqətən də, mənim üçün maraqlı keçdi. Gənclərimizin bir-birindən yaddaqalan çıxışları mənəvi zövq verdi. Gənc istedadlarımız arasında seçim etmək çox çətindir. Amma müsabiqənin nəticəsi nə olursa-olsun, onların qəlbindəki incəsənət eşqi gərək heç bir zaman ölməsin, daim öz kövrək həvəsləri ilə onu yaşatsınlar. Çünki incəsənət elə bir sahədir ki, yalnız onu yaşadanları sevir. İnanıram ki, onlar tutduqları bu yolda sədaqətlə, ümidlə addımlayacaq, özlərini gələcəyin sənət adamları kimi cəmiyyətdə mövqeləndirəcəklər. Mən bütün gənclərimizə uğurlar, müvəffəqiyyətlər arzu edirəm.

**Məcid Əkbərov**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

# HARDASA PARALEL KAİNATDA



Kainat sonsuz sərhədləri olan və içərisində eynilə sonsuz qalaktikaların var olduğu yerdir. Və bu sonsuzluq içərisində olan qalaktikaların birində bizlər, dünya, yaxud da yer olaraq adlanan bir planetdəyik. Bizim planetimiz isə "Samanyolu" galaktikasındadır. Sonsuzluq içərisində olan bizlər bu sualı düşünməliyik "bəlkə?" Bəlkə biz bu kainatda tək deyilik?, bəlkə bizim üçün mənfi planları olan yadplanetlilər var?, bəlkə yadplanetlilərlə təmasa keçmişik, amma heç bizim xəbərimiz yoxdur?. Bəlkə, bəlkə, bəlkə... Bu belə uzanır və gedir. Bəlkələr bitmir, bitməz. Amma bu bəlkələrə Kolombiyalı yazıçı Artur Çarles Klarkın yaxşı bir cavabı var. "İki ehtimal var, ya bizlər kainatda yalnızıq, ya da deyilik, amma hər iki ehtimalda eyni dərəcədə qorxuducudur. Bizlər hər zaman öz kainatımızdan söz açır və onun sirlərini aydınlatmağa çalışırıq. Bəs paralel kainatda?. Bu ilkin olaraq qəribə səslənə bilər, amma belə də bir teoriya var. Paralel sözü eynilik təmsili olduğundan yenə də məsələ baş qarışdırıcıdır. "Paralel kainat" olaraq adlandırdığımız şey əslində bizim və digər kainatların əksidir. "Digər?" deyə sual versəniz əgər, bu zaman cavab belə olacaq "bizim kainatımız sonsuzdursa niyə onun paraleli sonlu olsun ki?" Paralel kainat mövzusu ümumilikdə baş qarışdıran və həqiqət anlayışını itirməyə səbəb ola biləcək bir mövzudur. Paralel kainat, dediyimiz kimi sonsuzdur. Heç bir standartı olmayan və sayıla bilməyəcək qədər, yəni yenə də dediyimiz kimi sonsuzdur. Bunu təkrar-təkrar qeyd etməkdə məqsəd budur ki, başa düşülsün ki, paralel kainat sonsuzdursa bu zaman ehtimallar da sonsuz sayda olur. Belə ki, hər bir paralel kainat bir-birindən ya tamamilə, ya da cüzi fərqlər ilə fərqlənir. Bu isə əslində özlüyündə eyniliyi pozur. Amma bu paralel kainat "həqiqətinə" xələl gətirmir. Paralel kainatlarda ehtimalların sonsuzluğundan bəhs edək. Ehtimal sonsuzluğu sizə heç vaxt bitməyəcək bir yazı verə bilər. Amma buna heç ehtiyac yoxdur. Bu "ehtimal sonsuzluğun"dan belə danışaq ki, daha açıqlayıcı olsun. Belə ki, hardasa paralel kainatların birində bu yazını yazmaq ağlına gəlmədən, artıq bu yazının sahibi həyatını itirib. Hardasa paralel kainatda bu yazının sahibi bir qızdır. Haradasa paralel kainatda bu yazını yazmaq heç yazanın ağlına belə gəlməyib. Şəxs olaraq nümunələndirdiyimiz bu sonsuz ehtimallara bir də belə baxaq, hadisə olaraq. Hardasasa paralel kainatda COVID-19 virusu heç vaxt var olmayıb. Hardasa paralel kainatda COVID-19 üçün inkişaf etdirilmiş vaksin ilk yan təsirini göstərmiş və Amerikada artıq başqa bir pandemiya başlamışdır, zombi pandemiyası. Hardasa paralel kainatda COVID-19 pandemiyası sadəcə 3 gün davam etmişdir. Başqa əlavə nümunələr ilə mövzunu daha anlaşıqlı edək. Hardasa paralel kainatda Marvel Komiksin var olan bütün xəyali qəhrəmanları onlar üçün xəyali deyil həqiqətən də var. Hardasa paralel kainatda artıq dünyanı insanlar yox elə qorxulduğu kimi yadplanetlilər idarə edir. Hardasa paralel kainatda insanlar başqa qalaktikalara getmiş və artıq orada kolon belə salmışdır. Nümunələri daha da artırmaq olardı, amma bu zaman dediyimiz kimi bu yazı heç vaxt bitməz və sonsuza qədər davam edərdi. Ehtimallar sonsuzluğu bəzi insanları çox sevindirə, bəzi insanları da çox qorxuda bilər. Amma nəticə etibarilə hələki paralel kainatdan bizlə təmas quran olmadığından bunun üçün nə qorxmağa nə də sevinməyə ehtiyac yoxdu.

**Zəfər Abdullayev**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

# GƏNC MEMARIN QISA HƏYAT HEKAYƏSİ

Onunla ilk dəfə auditoriyada tanış oldum. Tələbələrlə dolu auditoriyanın ön sıralarında oturmuş cılız bir gənc, ümüd dolu gözlərilə mənə dikilərək gülümsəyirdi. Tələbələrə 4 illik təhsillərində müvəfəqiyyətlər arzulayıb, onlarla tək-tək tanış oldum. - "Mən Ordubad rayonunun Nüs-nüs kəndindənəm, müəllimə" deyən gənclə uzun yolculuqda çox yaxından tanış olduq. Sonralar dərs zamanı universitetin aditoriyasında və yaşadığımız binada qonşu olduğumuz dövrdə onun istedadlı gənc memar olacağına heç şübhəm qalmadı. O, qısa ömründə bir sıra layihələrə qol çəkdi və reallaşdı.

İsmayıllı İsmayıl Cəfər oğlu 1991-ci ildə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Nüsnüs kəndində anadan olub. Orta təhsilini kənd orta məktəbində alan İsmayıl öz bacarığı və qabiliyyəti ilə sinif yoldaşlarından fərqlənirdi. Rəssamlıq sənətinin təməl dərslərini Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılovdan alan İsmayıl hərbi xidmətini başa vurduqdan sonra Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin Memarlıq kafedrasının Memarlıq ixtisasına daxil olur. 2016-cı ildə Memarlıq ixtisasını



fərqlənmə diplomu ilə bitirən İsmayıl 2016-2017-ci illərdə Naxçıvan Dövlət Universitetinin metodisti, 2017-2022-ci illərdə Memarlıq kafedrasının müəllimi kimi çalışmışdır.

Təhsil aldığı illərdə fakültə, universitet və Naxçıvan Muxtar Respublikası üzrə gənc memarlar arasında keçirilən sərgilərdə fəal iştirak edərək yüksək mükafatlara layiq görülmüşdür. Bir sıra rəsm əsərləri və layihələrilə yanaşı İsmayıl İsmayıllı Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutunda dərc olunan jurnallarda da elmi məqalələrlə çıxış etmişditdir.

2022-ci ilin yanvar ayında Türkiyənin İğdır Universiteti ilə Naxçıvan Dövlət Universitetinin İncəsənət, Memarlıq və Fənlərin tədrisi metodikası və Texnologiya müəllimliyi ixtisasları arasında keçirilən birgə sərgidə İsmayıl müəllimin nümayiş etdirdiyi əsərləri gələcəkdə bu gəncin perspektiv layihələrindən xəbər verirdi.

Naxçıvan Muxtar Respublikası, Naxçıvan şəhəri, Naxçıvan Dövlət Universitetində keçirilən tədbirlərə kafedramız dəvət alanda, "İsmayıl, oğlum, sən iştirak edərsən", deyəndə soruşardı:-niyə müəllimə hər yerə məni göndərirsiniz?. Cavab verirdim ki, Sən bizim fəxrimiz, gələcəyimizsən.

30 illik qısa ömründə Memarlıq və mühəndislik fakültəsi ilə yanaşı Naxçıvan Dövlət Universitetinin kollektivinin də dərin hörmətini qazanan İsmayıl bu gün yaşasaydı hazırladığı layihələrilə Naxçıvan Muxtar Respublikasının, eləcədə Azərbaycanın gələcək memarlığına böyük töhfələr verəcəyinə inanırdım.

**Gülnarə Qənbərova**
*"Memarlıq" kafedrasının müdiri, memarlıq üzrə fəlsəfə doktoru, dosent*

# QADINLARIMIZ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN DAYAĞIDIRLAR

Azərbaycan qadını tarix boyu ictimai fəallığı, Vətənə sədaqəti, ailəyə bağlılığı, fədakarlığı və qəhrəmanlığı ilə seçilmişdir. Qadınlarımız ailə dəyərlərimizin formalaşmasında və möhkəmlənməsində misilsiz xidmətlər göstərmişlər. Ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərliyinin hər iki dövründə qadın amilinə yüksək dəyər verərək onların hüquqlarının müdafiəsi, problemlərinin həlli, dövlət idarəçiliyi sistemində təmsil olunması, bütün sahələrdə öz layiqli yerini tutması, cəmiyyətdəki mövqeyinin möhkəmləndirilməsi istiqamətində məqsədyönlü və ardıcıl tədbirlər həyata keçirmişdir. “Zahiri gözəlliyi ilə daxili aləminin paklığının vəhdət təşkil etdiyi, öz səbri, təmkini ilə səciyyələnən Azərbaycan qadını dəyanət və sədaqət rəmzinə çevrilmişdir. Onun şəninə dastanlar qoşulmuş, ona dahilər və qəhrəmanlar anası deyilmişdir. Tariximizin keşməkeşli səhifələrinə Azərbaycan qadını qayğıkeş ana, fitri istedada malik şair, möhkəm iradəli hökmdar, dərin zəkalı mütəfəkkir kimi öz adını həkk etdirmişdir”, – deyən ümummilli liderin bu sözlərində Azərbaycan qadınına verdiyi böyük dəyəri görmək olar. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiq etmişdir. Həmçinin ulu öndər Heydər Əliyevin imzaladığı “Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında” 1998-ci il 14 yanvar tarixli Sərəncamı və “Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında” 2000-ci il 6 mart tarixli Fərmanı ölkənin sosial-siyasi, iqtisadi və mədəni həyatında qadınların rolunu artırmaq məqsədilə imzalanmış mühüm dövlət sənədləri olmuşdur.

Bu gün Azərbaycan qadını tək ailə ocağının deyil, həm də cəmiyyətin ağırlıqlarını çiyinində daşıyan qadındır. Ömrü boyu qadına böyük hörmət, dərin ehtiram bəsləyən ümummilli liderimiz Heydər Əliyev cəmiyyətdə qadının rolunun artmasına daim diqqətlə yanaşmışdır. Xalqımızın ümummilli lideri Heydər Əliyev deyirdi: “Qadınlarımız müstəqil Azərbaycan dövlətçiliyinin dayağıdırlar. Ona görə mən qadınlara indiyə qədər güvəndiyim kimi bu gün də güvənirəm, sabah da güvənirəm”. Hər zaman qadına, anaya böyük ehtiram göstərmiş, onların əməyinə yüksək qiymət vermiş ulu öndərimizin dövlət qadın siyasəti haqqında imzaladığı fərmanlar bizim üçün geniş imkanlar açıb. Bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda dövlət qadın siyasəti uğurla həyata keçirilir, qadın hüquqları qorunur, onların problemlərinin həlli istiqamətində dövlət səviyyəsində addımlar atılır, qadınlarımız yüksək vəzifələrə irəli çəkilirlər.

Dövlət quruculuğunun bütün mərhələlərində xüsusi xidməti olan qadınlarımız ölkədə ictimai-siyasi sabitliyin qorunması, milli dövlətçiliyimizin möhkəmləndirilməsi, səhiyyəmizə, insanların sağlamlığı sahəsində öz dəyərli töhfələrini verirlər. Bu cəhətdən Azərbaycanın, eləcə də onun tərkib hissəsi olan doğma Naxçıvanın çiçəklənməsində, inkişafında, qüdrətli bir dövlətə çevrilməsində qadınlarımız əllərindən gələni əsirgəmirlər. Uzun illərdən bəri davam edən blokadanın doğurduğu çətinliklərə baxmayaraq, qadınlarımız muxtar respublikamızın inkişafı üçün səylə çalışır, dövlətçiliyimizin möhkəmlənməsində və tərəqqisində yaxından iştirak edirlər.

Bu gün muxtar respublika əhalisinin 51 faizini qadınlar təşkil edir. Onların sırasında səhiyyə sahəsində çalışan qadınlarımız çoxluq təşkil edir. Ölkəmizdə, eləcə də muxtar respublikamızda qadınların bütün sahələrdə təmsil olunması üçün lazımi şərait yaradılır, fərqlənən qadınların əməyi qiymətləndirilir. Onların sənət və peşələrə yiyələnməsi, sosial müdafiəsi, qadınlar arasında işsizliyin aradan qaldırılması istiqamətində ardıcıl işlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: “Azərbaycan qadını öz iradəsi və mərdliyi, saflığı və sədaqəti ilə xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşmasında müstəsna rol oynamışdır. Qədim rəvayət və dastanlarımızda da müdrik və gözəl qadın obrazlarının bədii təsviri verilmişdir. Azərbaycan tarixinin bütün dövrlərində böyük fitri istedada, dərin zəkaya, möhkəm iradəyə malik şair, hökmdar, döyüşçü qadınlar fəaliyyət göstərmiş, elm xadimləri olan qadınlarımız Azərbaycan elmini dünyaya tanıtmışlar. Eyni zamanda, Azərbaycan qadını dünyaya böyük siyasət və dövlət xadimlərini, ədəbi şəxsiyyətləri, tanınmış elm və sənət adamlarını bəxş etmişdir. Xalqımızın təfəkküründə çox əziz, qiymətli bilinən vətən, torpaq, dil anlayışlarının ana adı ilə bağlı olması ölkəmizdə qadın adına verilən yüksək qiymətin əyani təzahürüdür”.

Həkim qadınlarımızın sırasında görkəmli alim, akademik Zərifə xanım Əliyevanın adını xüsusi qeyd etməmək olmaz. Bu ad Azərbaycanda böyük fəxrlə, sonsuz qürur hissi ilə səslənir. Ölkəmizdə ana adının ucalığı, ömür-gün yoldaşının sədaqəti, nurlu həkimliyin müqəddəsliyi onun taleyində əbədiləşmişdir. Zərifə xanım Azərbaycan qadınlarının vüqar, iftixar və fərəh səmasında, eləcə də tibb elmimizin zirvəsində parlayan bir əbədiyyət günəşidir. İnsan dünyaya bir dəfə gəlir. Gəlir ki, şərəfli və dəyərli bir ömür yaşasın. Vətənə, torpağa məhəbbəti, təmiz mənəviyyatı, xalqa sədaqətli xidməti ilə yaddaşlarda qalsın. Belələrinin yaşadıqları illər bitib-tükənmir, əməlləri, xeyirxah işləri daim anılır. Tarix məhz bu cür insanların sayəsində yaranır, onların həyat yolu gələcək nəsillərə örnək, nümunə olur. Azərbaycanın görkəmli oftalmoloq alimi, akademik Zərifə xanım Əliyeva məhz belə bir ömür yaşamışdır. Göz həkimi olan Zərifə xanım bütün ömrünü insanlara işıq bağışlamağa həsr etmişdir. Zərifə xanım Əliyevanın oftalmologiya elminin inkişafındakı xidmətləri o qədər zəngin və çoxcəhətlidir ki, fəaliyyətinə nəzər salarkən bu gözəl insanın nəcib və xeyirxah şəxsiyyət olması faktı bir daha təsdiqini tapır. İnsanları zülmət pəncəsindən qoparıb nura qovuşduran bu böyük şəxsiyyətin ömür yolu biz qadınlara əvəzsiz bir örnəkdir.

Qadınlarımızın öz potensialından tam istifadə etmələri üçün ölkəmizdə, eləcə də muxtar respublikamızda hər cür imkanlar vardır. Dünən olduğu kimi, bu gün də Azərbaycanın şanlı tarixini yazanlar arasında fəxr etdiyimiz, varlığından qürur duyduğumuz qadınlar çoxdur. Bu gün səhiyyə sahəsində çalışan qadınlarımız da yüksək fəallıqları ilə seçilir, ailə dəyərlərini qoruyub saxlamaqla seçdikləri sahədə də uğurlar qazanırlar. Onlar çalışdıqları təşkilatlarda yüksək bacarıq, peşəkarlıq və istedad göstərərək insanların sağlamlığının qorunmasında əllərindən gələni edirlər.

Ölkəmizdə, eləcə də muxtar respublikamızda qadınların bütün sahələrdə təmsil olunması üçün lazımi şərait yaradılır, fərqlənən qadınların əməyi qiymətləndirilir. Onlar “Şöhrət” ordeni, “Tərəqqi” medalı, Prezidentin fərdi təqaüdünə, Prezident mükafatlarına və fəxri adlara layiq görülürlər. Onların sənət və peşələrə yiyələnməsi, sosial müdafiəsi, qadınlar arasında işsizliyin aradan qaldırılması istiqamətində ardıcıl işlər görülür. Naxçıvan Muxtar Respublikasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması ailə, qadın və uşaqlarla bağlı problemlərin həlli, onların ictimai-siyasi və sosial-mədəni həyatda fəaliyyətlərinin genişləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Ana olan yerdə ədalət olur-deyiblər. Bu bizim həyatımızın bütün sahələrinə aiddir. Cəmiyyətimizdə Prezident İlham Əliyevin qətiyyətli və ardıcıl siyasəti nəticəsində inkişaf və sabitlik hökm sürür. Ulu Atatürkün gözəl kəlamı var: “Böyük uğurlar qiymətli anaların böyütdüyü oğulların əməllərinin bəhrəsidir”. Biz qadınlar fəxr edirik ki, ulu öndər Heydər Əliyevin bizə miras qoyub getdiyi bir dövlətdə yaşayırıq. O dövlət ki, ona ulu öndərimizin layiqli davamçısı Prezident İlham Əliyev rəhbərlik edir. Onun fəaliyyəti ölkəmizə həm daxili, həm də xarici siyasət sahəsində uğurlar gətirir.

Artıq tarixə qovuşmuş 2020-ci il Azərbaycan xalqı üçün istər siyasi, istər diplomatik, istərsə də digər sahələr üzrə uğurlarla yadda qaldı. İlin ən mühüm uğuru isə 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan şanlı tarixi qələbəmizdir. Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın tacı olan qədim Şuşanın işğaldan azad edilməsinin ardınca böyük Qələbənin qazanılması xalqımızın tarixində yeni bir əbədi tarix yazdı.

Prezidentimizin bu tarixi qələbənin qazanılmasında nümayiş etdirdiyi qətiyyətli mövqe xalqımıza, o cümlədən hər birimizə böyük sevinc və qürur hissi yaşatdı. Azərbaycan Ordusunun qəhrəman əsgər, çavuş, gizir, zabit və generalları yüksək peşəkarlığa, qibtə olunacaq Vətən sevgisinə malik olduqlarını bütün dünyaya əyani şəkildə göstərdi və sübut etdilər. Üçrəngli bayrağımızın Cəbrayılda, Hadrutda, Füzulidə, Zəngilanda, Şuşada, Ağdamda, Kəlbəcərdə və Laçında dalğalanması Ali Baş Komandanımız İlham Əliyevin yüksək və məğlubedilməz sərkərdəlik qabiliyyətinin, ordumuzun, xalqımızın qırılmaz gücünün, möhkəm iradəsinin, monolit birliyinin və vəhdətinin çox parlaq bir nümunəsidir. Heç şübhəsiz, bu şanlı tarixi qələbənin böyük əhəmiyyəti və əvəzolunmaz yeri qədirbilən xalqımız tərəfindən həmişə yüksək qiymətləndiriləcək və heç vaxt unudulmayacaq.

Xoşbəxt xalqıq ki, bizim bugünkü qadın hərəkatının önündə şəxsiyyəti, humanizmi və vətənpərvərliyi ilə hər birimizə nümunə olan Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Azərbaycanın birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da xidmətləri xüsusi vurğulanmalıdır. Milli-mənəvi dəyərlərimizə, dilimizə, tariximizə həssas münasibəti, sevgisi ilə ümumxalq məhəbbəti qazanan Mehriban xanım Əliyeva Vətənin, xalqın sədaqətli övladı olduğunu çoxdan sübut etmişdir. Onun şəxsində Azərbaycan qadınının YUNESKO və İSESKO kimi mötəbər qurumlarda etibarlı nümayəndəsi, nəcib və xeyirxah elçisi vardır.

Bu gün qadınlarımız ölkədə gedən geniş quruculuq işlərində daha böyük fəallıq göstərir. Çünki ölkəmizin birinci xanımı Mehriban xanım Əliyeva öz fəaliyyəti ilə qadın hərəkatını nəinki canlandırdı, eyni zamanda, onun tarixində yeni bir mərhələ açdı, qadın hərəkatının forma və metodları müasirləşdi. Bütün layihələrdə xeyriyyəçi kimi müqəddəs analığın xidmətində olan Mehriban xanım Əliyevanın təşəbbüsü ilə əlil və valideynsiz uşaqlara sosial himayə göstərilməsi bir ənənəyə çevrildi. Bu gün hətta gənc tələbə qızlar belə, vəsait toplayıb uşaq evlərinə, internat məktəblərinə, fiziki cəhətdən qüsurlu uşaqların tərbiyə aldığı mərkəzlərə gedirlər. Sözsüz ki, ana şəfqətini, milli dəyərlərə pərəstişi artıran bu amillər mənəvi dirçəliş və yüksəliş əlamətləridir.

Biz qadınlar çalışmalıyıq ki, bizə göstərilən etimadı, inamı layiqincə doğruldaq. Qadınlarımız onlara böyük etimad göstərən, özlərinin və övladlarının xoş gələcəyinə təminat verən Heydər Əliyev siyasi xəttini müdafiə edirlər. Onlar yaxşı bilirlər ki, bu yol xalqı xoş günlərə aparan haqq yoludur. Bu yolda qadınlarımız hər zaman fədakarlıq göstərirlər. Prezident cənab İlham Əliyevin dediyi kimi: “Biz hamımız dinamik inkişaf edən ölkəmizin irimiqyaslı iqtisadi layihələrin iştirakçısı kimi əldə etdiyi yüksək göstəricilərlə haqlı olaraq fəxr edirik. Bu tərəqqinin bəhrələri respublikamızın hər bir guşəsində özünü aydın hiss etdirir. Həmin nailiyyətlərdə Azərbaycan qadınlarının böyük rolu danılmazdır. Qədim zamanlardan bəri vətənə və torpağa sədaqəti ilə seçilən qadınlarımız milli məfkurəyə sadiq qalaraq, bu gün də suveren Azərbaycan Respublikasının güclənməsi naminə töhfələr verirlər. Onlara xas olan işgüzarlıq, müdriklik, yüksək daxili mədəniyyət və xalqımızın yüz illər boyu təşəkkül tapmış zəngin milli-mənəvi sərvətlərinə sədaqət müasir Azərbaycan qadınının ictimai həyatımızda mövqeyini və simasını müəyyən edir”.

**İlhamə Mustafayeva**
***“Təməl tibb fənləri” kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru***

## DƏRİ XƏSTƏLİKLƏRİNDƏ SUBYEKTİV VƏ OBYEKTİV SİMPTOMLARIN ƏHƏMİYYƏTİ

Müasir dövrdə cəmiyyətdə dəri xəstəliklərinin dinamiki olaraq səviyyəsinin aşağı endirilməsi aktual bir problem kimi hələ də həllini tam tapmamışdır. Dəri xəstəliklərinin əmələ gəlmə səbəbləri çox müxtəlifdir. Dəri həmişə ətraf mühit amillərinin təsirinə məruz qalır (viruslar, bakteriyalar, ibtidailər, isti və soyuq hava şəraiti, müxtəlif növ yeyinti məhsulları, müxtəlif tərkibli maddələr və s.).

Dəri qan-damar, limfa və sinir sistemi vasitəsilə bütün orqanizmlə sıx vəhdətdədir. Buna görə də müxtəlif üzvlərdə gedən fizioloji və patoloji dəyişikliklər dəriyə müəyyən dərəcədə təsir göstərir, dəri isə adekvat olaraq bu təsirlərə müəyyən səpgi elementlərinin əmələ gəlməsi ilə cavab verir. Bu cavab reaksiyası təkcə dərinin dəyişiklikləri ilə deyil, həm də müxtəlif simptomlarla: - daxili üzvlərin, sinir sisteminin və orqanizmin digər üzv və sitemlərinin funksional pozğunluqları ilə özünü büruzə verir.

Dəri xəstəlikləri orqanizmin ümumi xəstəliyi hesab edildiyindən diaqnoz qoymaq üçün çox vaxtı, dəridəki əlamətləri nəzərə almaq kifayət etdiyi halda belə, orqanizmin müxtəlif üzv və sistemlərinin bütün dəyişiklərini hərtərəfli və dəqiq təhlil etmək zərurəti yaranır. Yəni xəstəliyin baş verməsində səbəb və nəticə əlaqələri unudulmamalıdır. Xəstədə müşayiət olunan subyektiv və obyektiv simptomlar diaqnozun təsdiqlənməsində mühüm əhəmiyyət kəsb edir.

Dəri xəstəliklərində subyektiv simptomlar qaşınma və ağrı duyğusu, göynəmə və gərginlik hissi, paresteziya, bəzən üşütmə, yuxunun pozulması, tez-tez əsəbləşmə və digər pozğunluqlar şəklində özünü göstərmiş olur. Obyektiv simptomlara isə iltihabi və qeyri iltihabi pozğunluqlar aiddir. Qeyri iltahabi proseslər özünü piqment ləkələri, atrofiyalar, hiperkeratoz, hiperhidroz, şişlər, piy və tər vəzilərinin sekresiya pozğunluqları şəklində əks etdirir. Dərinin iltihabi səpgilərinə birincili və ikincili morfoloji elementlər aid edilir. Bu elementlər ləkə, köpüşük, düyüncük, qabıq, düyün, suluq, irinlik, kəpək, qartmaq, eroziya, xora, çat, çapıq şəklində nəzərə çarpır.

Peşəkar bilik və bacarığa malik olan həkim dermatoloq xəstədən topladığı ətrafli anamnestik məlumatlara, subyektiv və obyektiv simptomlara əsaslanaraq xəstəyə düzgün və dəqiq diaqnoz qoymaqla, onu vaxtında sağaltmış olar.

**Abdulla Babayev**
***“Ümumi təbabət və klinik fənlər” kafedrasının baş müəllimi***

## BİR GÜNLÜK TƏLƏBƏ

Mən, Əhmədova Aynur Teymur qızı, Naxçıvan Qarnizonu Tam orta məktəbinin VIII sinifində təhsil alıram. Mənim arzum həkim olmaqdır. Bu arzuma çatmaq üçün çalışıram ki, dərslərimdə uğur qazanım. Məktəb rəhbərliyi bizim bu maraqlarımızı nəzərə alaraq, dərslərimizi daha yaxşı oxumağa həvəsləndirmək, bir günlük tələbə həyatını bizə yaşatmaq məqsədi ilə “IV” ixtisas qrupuna hazırlaşan şagirdlərin Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin professor, müəllim heyəti və tələbələri ilə görüşünü təşkil etdi.

Biz ilk öncə laboratoriyalar, kabinələr və simulyasiyalar ilə tanış olduq. Burada biologiya üzrə fəlsəfə doktoru, dosent Elsevər Əsədov bizə tələbələrin hazırladıqları dərmanlardan, onların insan orqanizminə faydasından və istifadə qaydalarından bəhs etdi. Dekan bir neçə bitkilər haqqında da bizi məlumatlandırdı. Həmçinin biz, Naxçıvan Dövlət Universitetinin televiziya studiyasında, eləcə də montaj otağında olduq və burada “Jurnalistika” ixtisası haqqında maraqlı məlumatlar öyrəndik.

Daha sonra tibb üzrə fəlsəfə doktoru İlhamə xanım Mustafayeva gündəlik həyatımızda tez-tez rastlaşdığımız, həyatımız üçün bir sıra təhlükəli hallar barəsində bizə məlumat verdi və bu hallardan çıxış üçün, ilk tibbi yardım qaydalarını bizə nümayiş etdirdi. Həmçinin qanaxmalar barəsində, yeni doğulan körpəyə



oksigen çatmadıqda ilk tibbi yardım və ürək masajının düzgün tətbiqi qaydaları haqqında məlumat verdi. Sonra laboratoriya və kabinə dərslərində iştirak etmək üçün qruplara böləndük və hər beş şagird bir nümunəvi tələbə ilə birlikdə dərslərdə iştirak etdik.

İlk olaraq “Əczaçılıq” dərsində olduq. Müəllimin tələbələrə yazdırdığı nəzəriyyəni və maraqlı mühazirəsini dinlədik. Bir çox dərman preparatlarının istifadə qaydalarını və sağlamlığımıza faydası haqqında yeni məlumatlar öyrəndik. Sonra isə laboratoriya təcrübəsi olaraq, tələbələrdən birinin ağız boşluğunu müəllimin köməyi ilə müayinə etdim. Bu təcrübələr mənim tibb sahəsinə olan marağımı daha da artırdı. Həmçinin “Stomatologiya” dərsində də iştirak etdik. Bu dərsdə dişlərimizə zərər vuran və diş sağlamlığımız üçün zəruri olan amilləri öyrəndik.

Tibb fakültəsinin iclas zalında fakültənin müəllimləri – ginekoloq Gültəkin Əliyeva, cərrah Cəbi İsmayılov və bir neçə istedadlı tələbələr ilə görüşdük.

Mənim tibbə aid suallarımı cavablandıran, Tibb fakültəsinin tələbəsi olan Sahilə xanım mənə gələcək peşə seçimimdə köməklik göstərdi. Sosial mərkəzdə çay süfrəsi ətrafında ixtisaslı mütəxəssislər, bizə həkimlik peşəsinin sirlərindən və bu peşəyə yiyələnmənin verdiyi məsuliyyətdən danışaraq, sağlamlığımızı qorumağımız üçün bir sıra tövsiyyələr verdilər.

Həmçinin Elsevər müəllim bizə “Əczaçılıq botanikası” adlı kitab hədiyyə etdi. Mən bu maraqlı kitabı 2 gün ərzində oxuyub bitirdim. Bu kitab vasitəsilə bitkilər haqqında çoxlu maraqlı məlumatlar əldə etdim.

Bilirəm ki, həkim olmaq üçün davamlı olaraq mütaliə etmək və öz üzərində işləmək lazımdır, çünki həkimlik sənəti böyük məsuliyyət tələb edir. Bu peşə insanın ən qiymətli sərvətlərindən biri – onun sağlamlığı ilə bağlıdır.

Bizim gələcək təhsil və peşə həyatımız üçün böyük önəm daşıyan, Tibb fakültəsinin müəllim və tələbə kollektivi ilə görüşümüzü təşkil edənlərə və məktəb rəhbərliyinə təşəkkürümü bildirirəm.

**Aynur Əhmədova**
***Naxçıvan Qarnizonu tam orta məktəbinin VIII sinif şagirdi***

# OSTEOPOROZUN YARANMA SƏBƏBLƏRİ VƏ PROFİLAKTİKASI

Osteoporoz - skeletin metabolik xəstəliyidir. Bu zaman sümük kütləsinin çəkisi azalır. Sümük toxumasının mikroarxitektonikasının pozulması hesabına minimal travması nəticəsində sınıqlar yaranır. Birincili osteoporoz müstəqil bir xəstəlik kimi inkişaf edir və skeletin gücünün azalması baş vermir. Qadınlarda 95% hallarda postmenopauza dövründə (postmenopauzal osteoporoz), kisilərin 80% isə 50 yaşdan yuxarı rast gəlinir. Kişilərin 50 yaşına qədər və 18 yaşa qədər rast gələnən yuvenil osteoporoz, həmçinin qadınların menopauza dövrünə qədər inkişaf edən idiopatik osteoporoz da birincili osteoporoza aiddir. Yuvenil və idiopatik osteoporoza nadir hallarda rast gəlinir. Ikincili osteoporoz müxtəlif xəstəliklər nəticəsində və bir çox dərman preparatlarının uzun müddət qəbulundan sonra yaranır, yəni osteoporoza gətirib çıxaran konkret bir səbəb olur. Qadınlarda 5%, kişilərdə isə 20% hallarda rast gəlinir. D vitamininin defisiti, A vitamininin artıqlığı, bədən çəkisinin kəskin sürətdə azalması, qida rasionunda kalsiumun az istifadəsi və xörək duzunun artıq istifadəsi ikincili osteoporozun yaranmasına şərait yaradır. Osteoporoz sümük toxumasının zədələnərək nazikləşməsi, sümüklərin deformasiyası və sınığı ilə nəticələnir. Bir qayda olaraq, tədricən yaranır və zaman keçdikcə inkişaf edir. Sümükdə gedən dəyişiklikləri xarakterizə edən osteoporoz terminini ilk dəfə XIX əsrdə fransız cərrahı Yakob Lobşteyn işlədib. Aparılan statistika və elmi araşdırmalar alimləri və tibb işçilərini belə bir qənaətə gətirib ki, osteoporoz birbaşa orqanizmin qocalmasının nəticəsidir. Osteoporoz heç bir sərhəd tanımadan artan qlobal problemdir. ÜST-nin məlumatına görə, xəstəlik yayılma dərəcəsinə görə ürək-damar, onkoloji və şəkərli diabet xəstəliklərindən sonra qeyri-infeksion xəstəliklər sırasında dördüncü yeri tutur. Statistikaya görə, dünyada 50 yaşdan sonra hər üç qadından və hər beş kişidən biri osteoporozdan əziyyət çəkir. Başlanğıc mərhələdə osteoporoz qətiyyən özünü büruzə vermir, hətta onun başlanmasından on il keçəndən sonra da orqanizmdə gedən dəyişikliklərdən xəbər tutmaq olmur. Sümük kütləsinin əriməsi ağrıyla müşayiət olunmur, bəzən kürəyin aşağı hissəsində sızıltılar əmələ gəlir. Problemin nəticəsi olaraq sümük qatı əriyir və davamlı sınıqlarla müşahidə edilir. Sümük əriməsinin miqdarı 1\4 çatanda güclü osteoporoz başlayır. Xəstəliyin fəsadları olaraq fəqərələrin deformasiyası, hərəkət vaxtı artan bel ağrısı, sümüklərin çoxlu sınıqları meydana çıxır. Osteoporozu xəstənin ümumi rentgeni əsasında müəyyən etmək olur. Osteoporozun profilaktikası üçün, ilk növbədə, artıq çəkidən xilas olmaq lazımdır. Pəhriz gözlənilməli, duzlu və ətli qidalar minimuma endirilməlidir. Xəstəliyin inkişafının qarşısını almaq üçün həkimin təyin etdiyi tibbi vasitələrlə yanaşı, dayaq-hərəkət sisteminin yığılıb-açılmasına yönəldilən müalicəvi gimnastik hərəkətlər də məsləhət görülür. Sümüyün normal inkişafı üçün kalsium, fosfor mikroelementləri, zülallar, vitaminlər kifayət qədər olmalıdır. Əgər uşaq bətndaxili dövrdə bunları ala bilmirsə, gələcəkdə onda osteoporoz erkən inkişaf edə bilər. Sümük toxumasının əsas hissəsi, təxminən 85 % uşaqlıq və gənclikdə toplanır. 25 yaşında artıq maksimuma çatır. 35 yaşdan sonra sümük kütləsi azalmağa başlayır. Bu azalma kişilərdə ildə 0,5 %, qadınlarda isə 4 %-lə özünü büruzə verir. Bu onunla izah edilir ki, 35 yaşdan sonra sümüklərdən kalsiumun yuyulması daha intensiv gedir. Bu hal hamıda baş verir, lakin bəzilərində daha qabarıq şəkil alır.



Qadınlarda 40-45 yaşlara qədər, yəni menopauzaya qədər sümüklərin möhkəmliyini estrogenlər (qadın cinsi hormonları) qoruyub saxlayır, lakin sonra onların ifrazı azaldığından sümük kütləsi də azalmağa başlayır. Menopauzanın ilk beş ilində bu proses daha intensiv gedir. Cərrahiyyə əməliyyatları vasitəsilə yumurtalıqların çıxarılması, hormonal müalicə aparılması qadınlarda menopauzanın erkən başlanması riskini yüksəldir. Estrogenlər qalxanvarı ətraf vəzi hormonunun antaqonistidir. Bu hormon qanda kalsiumu artırır və bu hormon artdıqca sümüklərdən kalsiumun çıxması baş verir. Estrogenlərin səviyyəsi azaldıqca bu prosess daha da sürətlənir.

Statistika göstərir ki, Asiya və Qafqaz ölkələrində osteoporoza daha tez-tez təsadüf edilir. Şəkərli diabet, siqaret çəkmək, spirtli içkilərin qəbulu, bəzi dərmanlar (hormonlar, epilepsiya və astma əleyhinə preparatlar və s.) osteoporozun inkişafını sürətləndirir. Osteoporoz təbii fizioloji prosesdir və onun qarşısını almaq, onu dayandırmaq mümkün deyil. Lakin osteoporozun inkişafını ləngitmək mümkündür. Bunun üçün qidalanmada kalsiumla və D vitamini ilə zəngin olan məhsulları (süd məhsulları, yumurta, balıq) artırmaq, daha hərəkətli olmaq, bədən tərbiyəsi və idmanla məşğul olmaq lazımdır. Böyük Britaniya həkimləri hesab edirlər ki, rasiondan bir çox məhsulların çıxarılmasını nəzərdə tutan ciddi pəhrizlər qadınlarda osteoporozun inkişafı riskini artırır. Süd və taxıl məhsullarından imtina edən cavan qadınların sümükləri yaşa dolduqca kövrəlir. Qidalanma vərdişləri mövzusunda 4,5 min britaniyalı qadının iştirakı ilə keçirilən sorğunun nəticələri göstərmişdir ki, onların 30 %-dən çoxu yay mövsümündə arıqlamaq üçün tarazlı rasiondan imtina edir. Arıqlayan qadınların 2\3 hissəsi pendirdən, 11% isə süd məhsullarından imtina etmişdir. Qadınların 40% çörək yemir, halbuki Britaniya qanunlarına görə una kalsium qatılır. Rəyi soruşulanların 3\4 hissəsi məhsul seçərkən onun kalori və yağlılığını öyrənir, digər bəsləyici maddələrə isə məhəl qoymur. Alimlərin fikrincə, 35 yaşında qadınlarda sümüklərin kövrəlməsi ahıl yaşlarda osteoporoz riskini xeyli artırır. Üstəlik, osteoporoz mil-bilək, bud və onurğa sümüklərini zədələyir, il ərzində təkcə Britaniyada 230 min sınma faktı qeydə alınır. Tədqiqatın nəticələri tanınmış aktrisa Qvinet Peltrounun osteoporozun ilkin mərhələsinə - osteopeniyaya tutulması barədə bəyanatından cəmi bir həftə sonra açıqlanmışdır. Belə ki 37 yaşlı aktrisa tərkibindən süd məhsulları çıxarılmış ciddi vegetarian pəhrizinə əməl edirmiş. Britaniya həkimləri hər gün müxtəlif qida mənbələrindən azı 700 milliqram kalsium almağı tövsiyə edirlər. Süd məhsulları ilə yanaşı, brokkoli kələmi, baş kələm, tofu pendiri, qoz-fındıq və balıq da kalsiumla zəngindir. Həm də çəki yığmaq baxımından təhlükəsiz sayılan yağsız süd məhsulları yağlılara nisbətən kalsiumla daha zəngindir. Patoloji sınıqların inkişafına qədər osteoporozun heç bir klinik əlaməti aşkarlanmır. Osteoporozdan fərqli olaraq patoloji sınıq daha aydın klinik mənzərə rast gəlinir. Sınıqda ağrı və funksiyanın pozulması müşahidə olunur, diaqnoz rentgenoloji müayinədən sonra həkim-travmotoloq tərəfindən qoyulur. Fəqərələrin cisminin patoloji sınıqları xüsusi diqqət tələb edir. Fəqərə cisminin kompression sınıqları kürək nahiyyəsində ağrı və yorğunluq hissi ilə müşahidə olunur. Lakin çoxsaylı kompression deformasiyalar inkişaf etdikdə şəkildə göstərilən əlamətlər meydana çıxır.

İnkişaf edən osteoporozu dərmanla sağaltmaq mümkün deyil. ÜST dünyanın bütün ölkələrinin həkimlərini xəstəliyin profilaktikası ilə məşğul olmağa çağırır. Məhz profilaktik tədbirlər vasitəsilə insan orqanizmindəki sümük toxumasının zəifləməsini ləngitmək mümkündür.

**Ləman Kərimova**
***"Təməl tibb fənləri" kafedrasının müəllimi***

# İTBURNU SAĞLAMLIQ MƏNBƏYİDİR

İmmuniteti yüksəltməklə sağlamlığı qorumaq, pandemiya dövründə hər bir insanın qarşısında duran ən vacib məsələlərdən biridir. Pandemiya dövründə tərkibində vitaminlər olan dərman bitkilərindən və ərzaqlardan yüksək şəkildə istifadə olunması, bu məhsullara üstünlük verilməsi, əslində onların qəbulu zamanı əldə olunan yaxşı nəticələrə görədir.

Azərbaycanın florası sağlamlığımızı qorumaq üçün kifayət qədər zəngin dərman bitki ehtiyatına malikdir. Muxtar Respublıka ərazisində itburnunun 33 növünə rast gəlinir ki, bunlardan 3 növü mədəni florada, 30 növü isə yabanı florada yayılmışdır.

İtburnunun ətirli qoxuya malik olan ləçəkləri dəmlənmiş çaya qatıldıqda onun ləzzətini daha da artırır. Ləçəklərdən hazırlanmış mürəbbələrin qanazlığı və ümumi zəiflikdə belə meyvələrdən fərqlənmədiyi xalq təbabətində öz təsdiqini tapmışdır. Qurudulmuş ləçəklərin şəkər tozu ilə ovxalanaraq ağzı bağlı halda uzun müddət saxlandıqdan sonra istifadəsi qədim xalq təbabətinin möcüzəsi hesab edilir. Alternativ tibbdə, xüsusilə qış aylarında, soyuqdəymədən qorunmağın ən yaxşı yolu, itburnu çayı içməklə orqanizmin gündəlik vitamin ehtiyacını ödəməkdir. Meyvələrində olan C vitamininə görə limondan 60 dəfə çox üstünlük təşkil edən bu bitki öz türşməzə dadı ilə fərqlənir. Soyuqda vitaminlərin parçalanması baş verdiyindən meyvələr qış gəlmədən tam yetişmiş halda toplanmalıdır. Ondan hazırlanan müxtəlif məhsullar, çaylar, kompotlar, mürəbbələr, cemlər, ekstraktlar, tozlar və s. insan sağlamlığı üçün əvəzolunmaz vasitədir. Çay şəklində istifadə olunan itburnu ondan hazırlanan cemlərlə müqayisədə daha çox vitamin saxlayır. Meyvələrin 100 qramında 426 mg C vitamini aşkarlanmışdır. Qırmızı və ya narıncı rəngə malik olan meyvələr həmişə vitamin deposu sayılmışdır. Bu baxımdan itburnu ən çox vitaminli bitkilər siyahısındadır. Sağlamlıq üçün faydaları bitməyən itburnunu əsasən qış aylarında orqanizmin vitamin və mineral ehtiyacını bərpa etmək üçün gün ərzində 1-2 dəfə qəbul etmək lazımdır. Pediatriyada tez-tez virus infeksiyalarına yoluxan uşaqlara itburnudan hazırlanmış cemlə qidalanmaq məsləhət görülür. Antioksidant təsirinə görə orqanizmdən sərbəst radikalları, ödemləri uzaqlaşdırır, LDL xolesterolu aşağı salaraq damarları təmizləyir və stresi azaldır. Kollagenin sintezi üçün əvəzolunmaz sayılan itburnu qığırdaq toxumasını parçalayan fermentlərin yaranmasının qarşısını alır, oynaq xəstəliklərinin müalicəsində (revmatizm, podaqra, osteomielit) iltihabəleyhinə təsir göstərərək c-reaktiv zülalı azaldır. Xroniki xəstəliklərdə, soyuqdəymələrdə, ürək-damar və xərçəngdə qoruyucu təsirə malikdir. Yüksək təzyiqi olan xəstələr şəfa qaynağı olan bu bitkidən hazırlanmış çayı səhər acqarına qəbul etsələr daha effektli nəticə əldə etmiş olarlar. Tərkibində olan polivitaminlər sayəsində qanazlığında, xüsusilə də dəmir defisitli anemiyada istifadə olunur. Şəkərli diabeti olan xəstələrdə insulin sintezini normallaşdırmaqla qan şəkərini tənzimləyir, maddələr mübadiləsini yaxşılaşdırır və orqanizmin tonusunu artırır. Toxumlarındakı retinollar və tokoferollar sayəsində (A,E vitamini) qandakı limfositlərin sintezini artıraraq immun sistemini gücləndirir, görməni yaxşılaşdırır, dərini günəş şüalarından qoruyur, onun elastikliyini bərpa edərək qırışların yaranmasını gecikdirir. Kosmetologiyada qurudulmuş yarpaqların dəmləməsi və toxumlarından alınan yağlar kremlərin, maskaların tərkibinə qatılaraq dərini həm nəmləndirir, həm də qırışları açaraq dərini təravətləndirir. Gözəl saçlara sahib olmağın yolu da məhz itburnu yağından davamlı istifadə etməkdir. Gün ərzində çay kimi qəbul edilən itburnu mədənin pH-nı normallaşdırmaq xüsusiyyətinə malikdir. Mədə-bağırsaqda qastritin və yaranın əmələ gəlməsinə səbəb olan bakteriyaların inkişafının qarşısını alır, tərkibində olan pektinlər isə uzun müddət qəbul edildiyində işlədici təsir göstərir, qarın bölgəsindəki piyləri əridərək zəiflədici təsir göstərir.



Muxtar Respublika ərazisi itburnu cinsinə daxil olan müxtəlif növlərlə zəngindir. İtburnu bitkisinin tərkibi bitkinin yaşayış yerindən çox asılıdır. Məsələn, dağlarda bitən itburnu düzənliklərdə bitən itburnulardan daha çox C vitamini toplayır və bioloji aktiv maddələrin çoxluğuna görə də fərqlənir.

Xalq təbabətinin əvəzolunmaz türkəçarəsinin bütün infeksiyalara qarşı mübarizədə effektli olduğunu nəzərə alaraq orqanizmin günlük tələbatını itburnu ilə ödəməyi hərkəsə tövsiyyə edirik.

**Zəminə İsmayılova**
***"Əczaçılıq və biokimya" kafedrasının müəllimi***

# ADİ ARDIC BİTKİSİNİN XALQ TƏBABƏTİNDƏ VƏ MÜASİR TƏBABƏTDƏ ROLU

Bəşər yaranan bir gündən insanlar bitkilərdən qida və müalicə məqsədilə istifadə etmiş və onların faydalı-zərərli xüsusiyyətləri sınaqlardan keçərək öz təsdiqini tapmışdır. Bitkilər haqda məlumatlar nəsildən-nəsilə şifahi yaddaşla ötürülmüş, sonradan isə xalq təbabətinə çevrilmişdir. Kimya-əczaçılıq sənayesi inkişaf etdiyi dövrdən xalq təbabətinin bilik və təcrübələrindən istifadə edərək sintetik dərman preparatları hazırlanmışdır. Hətta, bunu da qeyd edərik ki, canlı hüceyrələrdə rast gəlinməyən heç bir maddə əczaçılıq sənayesində sintez edilməzmiş. Bununla da xalq təbabətindən müasir təbabət yarandı. Lakin son dövrlərdə kimyəvi dərman preparatlarının istehsalı zamanı həm ekologiyaya vurulan zərər, həm də kimyəvi maddələrin insan orqanizmində yaratdıqları fəsadlar insanlarda "Təbiətə qayıdış" fikrini canlandırdı. Bitkilərin farmokoloji təsirlərindən istifadələrə maraq artdı, bioloji aktiv maddələrin elmə məlum olmayan xüsusiyyətləri araşdırıldı. Xalq təbabətində deyildiyi kimi "Hər otun dərmanı var: istər zəhərli olsun, istərsə də faydalı", lakin ondan düzgün istifadə etməyin yolların öyrənmək lazımdır.

Son dövrlərdə inkişaf edən biotexnologiya sahəsi insan sağlamlığı üçün faydalı olan fitokimyəvi maddələri bitki hüceyrələrindən əldə etməklə məşğuldur. Elm inkişaf etdikcə təbii xammallar daha çox araşdırılır, öyrənilir və tətbiq edilir.

Ardıc (Juniperus L.) Sərvkimilər fəsiləsinə aid olan kolşəkilli bitkilərdir. Azərbaycanda 6, Naxçıvan Muxtar Respublikasında 5 növünə rast gəlinir. Ardıc iynəyarpaqlı və pulcuqyarpaqlı olub, yarpaqlar arasında sıx-sıx, bəzən tək-tək yerləşən, saplaqsız, qara rəngli, üzəri göy ərplə örtülmüş kiçik meyvələri olur. Ardıcın meyvə və yarpaqları efir yağ ilə zəngindir. Lakin efir yağının miqdarı bitkinin yayıldığı bölgənin geoekoloji xüsusiyyətlərindən, iqlim faktorlarından (istilik, günəş işığının uzunluğu, günün saatı) asılı olaraq dəyişir. Bitki meyvələrində efir yağı miqdarı orta hesabla 0,5-2,5%, yarpaqda isə 0,2-1,0% olur. Efir yağına görə ardıc meyvələri acı dada və xüsusi iyə malik olur.

Ardıc bitkisi meyvələri qlükozidlər, flavonoidlər, invert şəkər, qlükoza, fruktoza, katepsin, üzvi turşular, mum, mikroelementlərdən Cu, Cr, Ca, Fe, Mg, P, K ilə zəngindir. Bitki meyvələri C vitamini mənbəyi sayılır. Bitkinin antiviral xüsusiyyəti tərkibində flavonoid törəməsi olan amentoflavon maddəsinə əsaslanır.

Ardıc bitkisinin xalq təbabətində meyvə və yarpaqları geniş istifadə edilmişdir. Bitkinin yarpaq və meyvələrindən hazırlanmış dəmləmə və cövhərləri yuxarı tənəffüs yollarının soyuqdəyməsində, bronxit, asma, böyrək və sidik yolu xəstəliklərində tətbiq edilmişdir. Bir çox ölkələrin xalq təbabətində ardıc meyvələrindən hazırlanmış dəmləmələr vərəm xəstəliklərində tətbiq olunduğu qeyd edilmişdir. Müasir tibbdə bu bitki vərəm xəstəliyini törədən Mycobacterium tuberculosis bakterialarının inqubasiya dövrünü azaldıb və onların məhv olmasında təsir effektinin orta dərəcədə olduğu sübut edilmişdir.



Ardıc ekstraktından müasir tibbdə immunsistemi gücləndirici, əzələ möhkləndirici, mədə-bağırsaq və qaraciyər xəstəliklərində tətbiq olunan dərman preparatlarının tərkibində istifadə edilir. Ardıc dəmləməsindən həmçinin qan təmizləyici, sidikqovucu kimi istifadə edilmişdir. Elmi tədqiqatlardan məlum olub ki, ardıc efir yağı tərkibində olan terpinen-4-ol böyrək funksiyasını tənzimləyir, diurezi artırır.

Bu bitkinin tərkibində insulinə sinergist təsirli maddələr olduğu üçün şəkərli diabet xəstəliyində də istifadə edilir və qan şəkərinin səviyyəsini aşağı salır. Ardıc bitkisinin yuxu gətirici, sakitləşdirici təsirə malik olduğu da məlum idi. Müasir dövrdə bitkidə olan bioloji fəal maddələrin sinir sinapslarında asetilxolinin sintezini artıraraq, sedativ təsir göstərdiyi sübut olunmuşdur.

Ardıc efir yağının əsas kimyəvi tərkibi monoterpenlerdən olan pinen, mirsen, sabinen, seskviterpen qrupuna aid olan kariofilen, kadinen və s. maddələrlə zəngindir. Bu maddələr yüksək antibakterial xüsusiyyətə malik olduğundan ardıc efir yağından dəri losyonlarında, diş pastalarında dizenfeksiyaedici maddə kimi istifadə edilir. β-mirsen maddəsinin xoş ətrinə görə bu yağ parfümeriya sənayesində də işlədilir.

Ardıc efir yağı antibakterial xüsusiyyətinə görə bir çox dəri xəstəliklərində: ekzema, sızanaq, qaşınma, ayaq göbələklərində, tük kökü xəstəliklərində və həmçinin sədəf xəstəliklərində yüksək təsirə malikdir. Bu bitkidən əldə edilən "Cade oil" yağı dəri və sədəf xəstəliklərində vacib müalicəvi vasitədir. Ardıc yağı üz dərisi hüceyrələrində yeniləşmə prosesini sürətlədirir, kollagenin sintezini stimullaşdırır. Giləmeyvələrin tərkibində olan əksər maddələr dəridə katalaza, qlutationperoksidaza və superoksiddismutaza fermentlərinin aktivliyini artırmaqla antioksidant təsir göstərir. Bitkinin bu xüsusiyyətlərinə görə kosmetologiyada kremlərin, üz maskalarının hazırlanmasında istifadə edilir. Ayrıca, bəzi tədqiqatlarda ardıc giləmeyvəsi ekstraktının vitiligo müalicəsində (dərinin ala xəstəliyi) effektli təsiri olduğu da göstərilmişdir. Ardıc yağını saç dibinə və saça sürtməklə saçların uzanmasına köməklik edir.

Bu təhlillərdən görünür ki, təbiət bizim üçün Allahın yaratdığı bir xəzinədir. Bu bitkilərin daxilində minlərlə sirlər yatır, bu gün də onlar öz tədqiqatçılarını gözləyir. Son illərdə rastlaşdığımız infeksion xəstəliklərlə mübarizə yollarının əsasında təbii vasitələrdən istifadələr durur. Tibb dinamik, daim yenilənən bir elmdir, qarşılaşdığı hər bir çətinliklərə yeni həll yolları axtarır.

**Əzizə Hüseynova**
***"Əczaçılıq və biokimya" kafedrasının baş müəllimi, biolokiya üzrə fəlsəfə doktoru***

# XOŞBƏXTLİK İNSANIN DAXİLİNDƏDİR...



İnsan yarandığı ilk dövrlərdən etibarən xoşbəxtlik axtarışındadır. Xoşbəxtlik haqda minlərlə filosof, yazıçı, mütəfəkkir tərəfindən saysız fikirlər söylənmiş, şairlərin şeir mövzusu olmuşdur. Doğrudan da, xoşbəxtlik nədədir? Ümumiyyətlə, xoşbəxtlik nədir? Xoşbəxtlik çox gözəl bir hissdir, xoşbəxtlik bizi hərəkətə gətirən enerjidir, xoşbəxtlik bizim ruhi sakitliyimiz, hüzurumuz və sevincimizdir. Daha geniş baxışla baxdıqda isə əslində xoşbəxtlik çox geniş bir anlayışdır, sevinc onun içindədir.

Bədbəxtlik də həmçinin xoşbəxtlik qədər dərin anlayışdır və qəm-kədərlə yoldaşdır. Bütün insanlar fərqli düşüncələrə sahib olduqları üçün xoşbəxtliyi də hərə bir şeydə görür, duyur. Bəziləri çoxlu var-dövlət əldə etdiyi zaman xoşbəxt olur, bəziləri də xoşbəxtliyini eşqdə, insanlara bəslənilən sevgidə, məhəbbətdə görür, digərləri də daha fərqli situasiyalarda xoşbəxt olmağı bacarırlar.

Mənim üçün də bu sualın cavabı olduqca maraqlı idi, amma hərkəs kimi düşünməyərək özüm xoşbəxtliyin açarını tapmaq qənaətində idim. Yaşadıqca, yeni təcrübələr əldə etdikcə zamanla yaşadığım həyat özü bu sualın cavabını qarşıma çıxarırdı. Əvvəllər bir çoxları kimi düşünürdüm ki, xoşbəxtlik xarici aləmin təsiri nəticəsində baş verir. Ancaq diqqət etmirdim ki, xoşbəxtlik xaricdə yox, daxildə olmalıdır. Bütün bunları zaman keçdikcə çoxlu var-dövlət sahibi olduğu halda qəm-kədərdə boğulan, heç nəyi olmadığı halda həmişə sevinclə gülümsəyən insanları görüb tanımaqla anladım. Elə o an başa düşdüm ki, biz elə əvvəldən xoşbəxtliyimizi axtarmaqla səhvə yol vermişik. Çünki biz onu heç vaxt itirməmişdik. Əslində biz həmişə xoşbəxt olmuşuq, fərqində olmadan belə xoşbəxtlikdən nə zamansa dadmışıq. Xoşbəxtlik əlində olanla kifayətlənmək və həyatda qazandıqlarına şükür etməkdir. Arzular çoxaldıqca insanın diqqəti, istəkləri, hərəkəti pərakəndə olmağa, daxilən əzab çəkməyə başlayır. Əslində biz özümüzə bu sualı verməliyik. Niyə özümüzü xoşbəxt hesab etmirik? Bizi məyus edən, qəmli olmağımıza səbəb olan şeyləri, uzun və saysız arzularımızı qəlbimizdən çıxarıb atmaqla xoşbəxtliyimizi bərpa etməliyik. Həqiqətləri olduğu kimi qəbul etmək və yalançı arzuları tərk etməklə xoşbəxt olarıq yalnız. Həyatı axışına buraxıb yaşamaqdan, var olmaqdan, hər anımızdan həzz almalıyıq. Bax, bu mənim yanaşmamdır, bəlkə düz, bəlkə də səhv...

Biz hamımız fərqliyik, fərqli xarakterlərə, fərqli hiss və düşüncələrə sahibik. Bu səbəbdən eyni mövzuya müxtəlif cür özünəməxsus tərzdə yanaşırıq. Yanaşmaların müxtəlif olması əlbəttə həqiqəti heç vaxt dəyişmir. Həqiqət elə həqiqətdir, onu qəbul etmək bəzən çox çətin olsa da. Çox az adam tapılar ki, özünə qarşı obyektiv və dürüst olar. Bəs, bu dediklərimin mövzumuzla, yəni xoşbəxtliklə nə əlaqəsi var? Əslində çox sıx əlaqəsi var. Yəni belə desək xoşbəxtliyin nə olması da digər məsələlərə olan yanaşma kimi insanların düşüncəsində individualdır. Amma gəlin bu individuallıqdan kənara çıxaq, bizim zənn elədiyimiz xoşbəxtliyi yox, əsl xoşbəxtliyi tanıyaq. Amma əvvəlcə bu suala cavab verək. Görəsən nə üçün biz xoşbəxtliyi axtarırıq? Əgər biz nəyisə axtarırıq və arzulayırıqsa, deməli onun bizdə olmadığını düşünürük və səhvi elə burada edirik. Bəli, səhv edirik, çünki biz onsuzda xoşbəxtik. Xoşbəxtlik bizim zehnimizdə yaratdığımız və əslində əhəmiyyətsiz şeylərlə bəzədiyimiz, əlçatmaz birşey deyildir. Bir mütəffəkirin də dediyi kimi "Biz hamımız dünyaya xoşbəxt gəlirik və özümüzü bədbəxt hesab etməyənə qədər də xoşbəxtik". Əslində biz özümüzə niyə qəmli olduğumuzu, məyus olduğumuzu sual etməliyik, keçmişin həsrətini çəkməkdən və ya gələcəyə səyahətdən əl çəkib, bu günümüzdən, bu anımızdan, yaşamaqdan, var olmaqdan, sahib olduqlarımızdan həzz almalı, həmişə Allaha təvəkkül etməliyik. Xoşbəxtlik də elə budur və böyük uğurlara yetişən insanlar həmişə sahib olduqlarından motivasiya alaraq, həmişə pozitiv yanaşaraq yaşamışlar və uğur qazanmışlar.

Məyusluğu bir cür yoluxucu xəstəlik kimi düşünsək anlayarıq ki, bu xəstəlikdən qorunmağın yolu məyus olan və məyusluğu ötürən insanlardan, onların fikirlərindən özümüzü qorumaq və özümüzün müsbət düşüncələrimizlə həmin insanları müalicə etməkdir. Hərdən ətrafımda bu cür insanlar görürəm, əsasən də sevmədiyi işlə məşğul olan, sevmədiyi təhsili alan, və özünü buna məcbur hesab edən insanlar... Mən bu insanları cəzasının bitməsini gözləyən məhbuslara bənzədirəm. Çünki bu insanlara həyat həbsxana kimidir. Axı, niyə insan bir dəfə yaşadığı bu qısa ömrü nələrəsə dözməklə keçirsin, niyə sevdiyi, arzuladığı işlə deyil, sevmədiyi işlə məşğul olsun, arzuladığı təhsili, peşəni deyil, heç ona uyğun olmayan, sevmədiyi bir təhsili almağa, sevmədiyi peşəyə yiyələnməyə özünü məcbur etsin?! Əgər pul qazanmaq istəyirsə, insan sevdiyi işlə daha böyük uğur və pul qazana bilər və insan sevmədiyi peşəylə məşğul olaraq həm özünə, həm də həmin peşəyə əziyyət etmiş olar. Yox, başqa çıxış yolunun olmadığını söyləyirsənsə, o zaman bir filmdə deyildiyi kimi," Əgər həyat sənin qarşına limon çıxarmışsa, səndə ondan limonad düzəlt", yəni arzularını dəyiş, sevmədiyin işlə məşğul olursansa, o zaman məşğul olduğun işi sev və xoşbəxt yaşa.

**Zeynəb Xəlilova**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

# FAUNAMIZIN FATİMƏ ADLI GÖZƏLİ

Həşəratlar sinfinin bir dəstəsini təşkil edən iynəcə növləri Naxçıvan Muxtar Respublikası faunasının səciyyəvi tərkib hissələrindən biridir. Hamının yaxşı tanıdığı iynəcələr Antarktida qitəsindən başqa dünyanın hər yerində yayılmışlar. Onlar iri, fasetli gözlər daşıyan hərəkətli başa, yoğun döşə, uzun qamətli qarıncığa və sıx damar şəbəkəsinə malik 4 şəffaf qanadlara malik qədim həşəratlardır. Naxçıvanın təbiəti, özünəməxsus təbii-coğrafi şəraiti, günəşli günlərinin sayı, Günəş radiasiyanın bolluğu iynəcələrin yaşayışı üçün əlverişli ekoloji şərait yaratmışdır. Onların uçuşunu ilk yaz günlərindən başlamış payızın sonunadək izləmək mümkündür. Su-hava həyat tərzi keçirən iynəcələr Arazboyu düzənlikdən başlamış yüksək dağlığa qədər, su olan hər yerdə yaşayırlar.

Müxtəlif zərərverici həşəratları, xüsusən qansorucu ikiqanadlıları uçuş zamanı ovlayan və faydalı orqanizmlər hesab edilən iynəcələr əsasən inkişafını müxtəlif sututarlarda keçirən sürfələrinə (nimfalarına) görə öyrənilmişdir. Entomofaunamızda dəstənin 9 fəsilədə birləşmiş 36 növünün yayıldığı müəyyən edilmişdir.

Gözəl Fatimə və ya Epallage fatime (Charpentier, 1840) Odonata dəstəsinin Euphaeidae fəsiləsinin eyniadlı cinsinin monotip nümayəndəsidir. Növ daha çox İslam dininin yayıldığı ərazilərdə məskunlaşdığı üçün təsvirini ilk dəfə vermiş müəllif tərəfindən Məhəmməd peyğəmbərin qızı Fatimənin şərəfinə adlandırılmışdır.

Yetkin gözəlcə orta böyüklükdə və olduqca zərif quruluşlu olub ümumi uzunluğu 40-50 mm-ə bərabər olan bədənə malikdir. Arxa qanadların uzunluğu 30-34 mm-dir. Döş qismən qısa və qalındır, onun ön hissəsi 2 enli, yan tərəfləri isə 3 qara zolaqlıdır. Dişi və erkək fərdlərin qanad gözcükləri yaxşı inkişaf etmişdir. Şəffaf qanadların əsası və zirvəsi bir qədər qaralmış və qonur rənglidir. Erkəklərdə bədən örtüyü yaşla əlaqədar olaraq tündləşən göyümtül çalarlıdır.

Növün nimfaları fərqli xarici görünüşünə və quruluşuna görə digər bərabərqanadlı iynəcə növlərinin sürfələrindən fərqlənirlər. Onların bədəni yoğun, bir qədər kütləli və məxmər tükcüklüdür. Bədənin son ucu bir-birinə sıx yerləşmiş 3 baramaşəkilli və iti uclu qəlsəmə ilə qurtarır. Sürfənin uzunluğu-1,5 sm, kütləsi-0,07 q-dır. Başı üst tərəfdən görünüşünə görə gündəcə sürfəsini xatırladır. Maskasının uzunluğu - 3,0 mm olub küt beşbucaqlı fiqur şəklindədir.



Növün yetkin fərdləri Babək, Kəngərli və Şərur rayonları ərazisində, sürfələri isə sakit axarlı kiçik suvarma kanallarında 15-20 sm dərinlikdə ot örtüyünün və daşların arasında tapılmışdır. Azərbaycanda və Naxçıvan MR-də nadir rast gəlinən növdür. Suyun güclü axını, onun quruması və yırtıcıların artan basqısı əsas təhlükə amilləridir. Gözəlcə növünün Azərbaycanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının "Qırmızı Kitablarına" daxil edilməsi tövsiyə olunmuşdur.

**Akif Bayramov**
***AMEA Naxçıvan Bölməsi, Bioresurslar İnstitutu Zooloji tədqiqatlar şöbəsinin müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent***

**Mahir Məhərrəmov**
***AMEA Naxçıvan Bölməsi, Bioresurslar İnstitutu, Zooloji tədqiqatlar şöbəsinin aparıcı elmi işçisi biologiya üzrə fəlsəfə doktoru, dosent***



# DAHA SAĞLAM CƏMİYYƏT NAMİNƏ...

Müəllimlərimiz hələ ilk auditoriyaya qədəm basdığımız gün biz-tələbələrə hər gün müşahidə etdiklərinizi qeydə alın -deyə tapşırıq vermişdi. Bu tapşırığı həyatımızın gündəlik rutininə çevirmişdik. Gündəlik müşahidə etdiklərimizi dərs zamanı ya yazılı, ya da şifahi şəkildə müəllimlərimizə çatdırmaq bir növ vacib məsuliyyətlərimiz sırasına daxil olmuşdu. Jurnalistika müşahidə qabiliyyətindən doğur- fikrini əlimizdə rəhbər tutmuşduq.

Bəli, mən də Azərbaycanın digər bölgələrindən gələn tələbələr kimi Naxçıvana ayaq basdığım ilk gündən buranın saf təmiz havasına, küçələrinin təmizliyinə heyran qalmışdım. Hər tərəf gül-çiçəkdən sanki bəzəkli don geymişdi. Hər zaman müqayisə edirdim yaşadığım regionla. Əlbəttə ki, bu müqayisələr Naxçıvan üçün yersiz idi. Çünki hələ biz şirin yuxuda ikən şəhərin təmizliyinin qeydinə qalan xüsusi işçilər öz məsuliyyətini aydınca dərk edir və biz sağlam olaq deyə səliqə-sahmana ciddi fikir verirdilər.

Biz muxtar respublikanın təmiz şəhər olmasının nəticəsini hələ pandemiyanın ən qızğın vaxtlarında belə hiss etdik. Çünki bütün regionlar bu xəstəliklə mübarizə apardığı bir dövrdə belə Naxçıvanda bu xəstəlik çox cüzi statistika ilə qeydə alınırdı.

Gələk, müşahidələrimdən doğan və məni narahat edən məqama. Lakin yaşadıqca bu gözəllikləri sanki görməyənlər və yaxud qiymətləndirmək istəməyənləri də müşahidə etdikcə təəssüflənirdim. Gəlin, görək bu qədər zəhmət və əziyyətlə qurulan bu gözəlliklər, təmiz şəhər imicini qoruyub saxlaya bilirikmi? Mən də bir vətəndaş kimi bu mövzuya xüsusi həssaslıq göstərirəm. Bəzi üzdəniraq insanların təbiəti çirkləndirməyinə, ətrafı zibilliyə qərq etməyinə az qala təəccüb edirəm. İnsan nə üçün bu qurub-yaradılanlara biganə qala bilər. Axı, bütün bunlar bizim üçündür. İnsanların tullantıları bəzən zibil qabına deyil, ağac dibinə atmalarını başa düşməkdə çətinlik çəkirəm. Bu yaradılanları qorumaq və mühafizə etmək borcumuzdur. Çünki əziyyət hesabına qurulanlara sahib çıxmaq lazımdır.

Hələ ağacların altını özünə zibil qabı edən insanları başa düşə bilmirəm. Oksigen mənbəyi ağaclar bizə həyat bəxş edərkən, onlara bəslədiyimiz laqeydliyə nə ad vermək olar? Əslində, biz təbitəti, canlı hesab olunan ağacları qorumalıyıq. Həmişəyaşıl şam ağacları Naxçıvanın sərt kontinental iqliminə tab gətirsə də, insanların laqeydliyinə dözə bilmir.

Belə insanlar azyaşlılara da pis örnək olur. Uşaq gördüyünü götürər. Təssüf ki, belə insanlar uşaqlara, gələcək nəslin nümayəndələrinə də mənfi nümunə olurlar.

Üzümü ən çox da gənclərə tutub deyirəm. Əziz gənclər, biz özümüzdən balacalara nümunə olmalıyıq.

Təkcə yolu, ağacları çirkləndirməklə qalmayıb, təhsil ocağını da çirkləndirən tələbələrin sayı az deyil. Dərs keçdiyimiz auditoriyada belə, ziyalı yolunda addımlayan tələbələr çox təssüf ki, bu zərərli axına qoşulurlar. Bu düşüncəyə sahib insanları "ziyalı" adlandırmaq olmaz. Məncə, tullantıları zibil qabına deyil də, rahatca asfalta, ağac dibinə atan şəxslər cərimələnsin.

Naxçıvan Dövlət Universitetində 1500 əcnəbi tələbə təhsil alır. Mənim tanıdığım türk, iranlı tələbələr də var. Onlar da Naxçıvanın təmizliyindən, səliqəliliyindən hər zaman ağızdolusu danışırlar. Təbii ki, cəmiyyətə mənfi örnək olan şəxslər onların da diqqətindən yayınmır. Biz gərək bu gözəlliklərdən ilham alıb Naxçıvanımızı sevən əcnəbilərə də layiqli nümunə olaq! Çünki biz etməsək bunu bizim əvəzimizə başqaları etməyəcək. Biz öz Vətənimizi qorumasaq, təmiz saxlamasaq başqa ölkədən gələn vətəndaş bizim Vətən üçün nə edəcək? Bizdən gördüklərinimi? O zaman halımız yamandır...

Belə mənfi cəhətləri qələmə almaq səbəbim də budur ki, bəlkə bizi narahat edən məsələləri görüb dərs götürərlər. Ancaq birgə əl-ələ verərək bütün problemləri, məsələləri həll edə bilərik. Daha sağlam cəmiyyət naminə birləşək!!!

**Püstə Əhmədova**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

## MƏNZƏRƏM

Bu qaranlıq dünyada mənim üçün işıq saçan, ayım,
Sənsən mənə rəbbin bəxş etdiyi payım,
Sən gözümdə qarlar içində çiçək
Əlbət bunun da əziyyəti var, lazımdı onu da çəkək.

Siman hər daim ağlımda
Ruhun, amma hər zaman yanımda,
"Sevirəm" demək sözlə olmur
Sevən gözlər bir baxışla bəlli olur.

Sanki bir mənzərəsən çıxmışam seyrinə
Doymaq olmur bu mükəmməl mənzərənin seyrinə
Dağların havası,yaşıllıq çəmən
Hey düşünürəm oradayıq sənlə mən.

Bir bulaq düşün səpsərin sulu
Sənin gözəlliyin də o qədər duru
Sapsarı bitməz səhralar quru
Sənsə o səhradakı vahəmsən, gülüm.

**Zəfər Abdullayev**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***



## QƏFLƏT YUXUSU

Bürüyüb hər kəsi qəflət yuxusu,
Yoxdur bu yuxuya bəlli bir səbəb.
Şeytanı daşlayıb, qovan insanlar,
Böyüdür içində böyük bir qəzəb.

Səsini ucaltma, oyanar insan,
Oyatsan olarsan sən bir günahkar.
Qoy yatsın, yuxusun alsın bu nadan,
Uyma sən nadana, olma səbəbkar.

Qulaqlar tıxanar doğru bir sözə,
Gözünü bağlayar doğru bir yönə
Əyrini düz bilər, kəm baxar düzə
Dünyanın mayası budur sən demə...

**Jalə Hacızadə**
***Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisası üzrə III kurs tələbəsi***

**Baş redaktor:**
**ŞƏHLA ŞİRƏLİYEVA**
shshahla36@gmail.com

*Ünvan: AZ 7012, Naxçıvan şəhəri, Universitet şəhərciyi*
*Telefonlar: 544-08-61 (13-60)*
*yenifikir.ndu@gmail.com*

*Qeydiyyat №330*
*Sifariş №*
*Tiraj 600*

*Redaktor: Samir Tarverdiyev*
*"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.*